# AZƏRBAYCAN DİLİNİN ANTONİMLƏR LÜĞƏTİ

"ŞƏRQ-QƏRB"
BAKI
2007

*Bu kitab "Həsrət Həsənov. Azərbaycan dilinin antonimlər lüğəti"*
*(Bakı, Azərnəşr, 1985) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Həsrət Həsənov**

**ISBN 978-9952-34-098-3**

**494.36131-dc22**
Azərbaycan dili – Antonimlər – Lüğətlər

**Azərbaycan dilinin antonimlər lüğəti.**
Bakı, "Şərq-Qərb", 2007, 144 səh.

Kitabda antonimlər – mənaca bir-birinə əks olan sözlər toplanmışdır. Onların hamısı bədii əsərlərdən gətirilən misallarla nümayiş etdirilir. Burada ancaq müxtəlif köklü leksik antonim cütlüklər (ağ – qara, xeyir – şər, girmək – çıxmaq) verilmişdir. Dilimizin lüğət tərkibinin zənginləşməsində, bədii ifadə vasitəsi kimi fikrin obrazlı, aydın və dəqiq ifadəsində antonimlərin özünəməxsus rolu vardır.

© "Şərq-Qərb", 2007

# ANTONİM SÖZLƏR

Azərbaycan dilinin leksik-semantik sistemində antonim sözlər mühüm yer tutur. Mənaca bir-birinin əksi olan belə leksik vahidlər – antonimlər dilin leksik-semantik sistemində mikrosistem yaradır; böyük – kiçik, ağ – qara, dost – düşmən, köhnə – təzə, həyat – ölüm, almaq – vermək, getmək – gəlmək və s.

Antonimlər, əsasən, kəmiyyət və keyfiyyət, hərəkət, zaman və məkan məzmunlu məfhumların əks cəhətlərini ifadə edən müxtəlif fonetik tərkibli sözlərdir; məsələn, qəşəng – çirkin, igid – qorxaq, düz – əyri, yanmaq – sönmək, giriş – çıxış, aşağı – yuxarı və s.

"Sözün dialektikası" təfəkkürün gerçək varlıqla, insanların həyat təcrübəsi ilə əlaqədar olduğunu göstərir. Antonim sözlər üçün mənanın ümumi və mühüm əlamətlərinin leksik–semantik paradiqmaya uyğunluğu əsas götürülür. Deməli, məna əlaqəsinin ümumi və əsas cəhətlərinə görə qarşılaşdırılan sözlər antonim kimi qəbul edilə bilər.

Dildə antonimlərin yaranması, inkişafı və formalaşması onların aid olduqları maddi aləmdəki əşya, hadisə və hərəkətlərin ziddiyyətli olması ilə əlaqədardır. Bu ziddiyyətlər əksmənalı sözlərlə ifadə olunur. Məhz buna görə də onlar antonimlərin meydana gəlməsində əsas amil kimi çıxış edir. Burada insanların ictimai həyat təcrübəsi də rol oynayır. İnsanlar həyatlarında maddi aləmdəki əşya və hadisələrin əlamət və keyfiyyətlərini dərk edir, onları bir-birindən fərqləndirir. Antonim sözlərin ifadə etdiyi məfhumlar insanın iş fəaliyyəti, həyat tərzi, mənəvi aləmi və onu əhatə edən aləmə qarşı münasibəti ilə bağlıdır.

# LÜĞƏTİN VƏ LÜĞƏT MƏQALƏLƏRİNİN QURULUŞU

Lüğətə insanın iş fəaliyyəti (yaxşılıq – pislik, sökmək – tikmək, çalışqan – tənbəl və s.) və təbiət hadisələri ilə (soyuq – isti, quraqlıq – yağmurluq, aydınlıq – qaranlıq və s.) əlaqədar məfhumları, zaman (gecə – gündüz, axşam – səhər, yay – qış, gec – tez və s.) və məkan (uzaq – yaxın, dərə – təpə, yer – göy, sağa – sola, aşağı – yuxarı, şərq – qərb və s.) anlayışlarını ifadə edən, əlamət, keyfiyyət (ağ – qara, təzə – köhnə, cavan – qoca, arıq – kök, yüngül – ağır, yaxşı – pis, bərk – yumşaq, hündür – alçaq və s.) və hal-vəziyyət (oturmaq – durmaq, sağlam – xəstə, gülmək – ağlamaq, dost – düşmən, varlı – yoxsul və s.) bildirən antonimlər daxil edilir.

Lüğətdə, əsasən, müxtəlif köklü leksik antonimlər izah olunur. Hər antonim cütlük əlifba sırası ilə düzülür. Antonim cütlüklər bədii və elmi əsərlərdən və dövri mətbuatdan gətirilən nümunələrlə əyaniləşdirilir.

**AĞ – QARA** *Ağ* köynəyin boynuna, *qara* ləkə düşərdi (H.Hüseynzadə).

**AZ – ÇOX** Bizim qoşunumuz *azdır*, amma qeyrətimiz *çoxdur* (Ə.Haqverdiyev).

Bir sözün müxtəlif antonim cərgələri də qeyd olunur.

**QISA – ƏTRAFLI** Oxundu *qısa* dua: əyildilər torpağa (A.Şaiq); Müdir klinikanın məsələlərindən *ətraflı* danışdı (Ə.Vəliyev).

**QISA – GENİŞ** Heyif ömür *qısa*, arzu *genişdir*; Kim bu qayğı ilə titrəməmişdir? (M.Müşfiq).

Burada birinci tərəfləri müxtəlif, ikinci tərəfləri eyni olan antonim cütlüklər də öz əksini tapır.

**QISABOYLU – UCABOYLU** Kərim baba... *qısaboylu*, geniş kökslü qoca idi (A.Şaiq); Onlar bir-biri ilə çox məsləhət etdi, nəhayət *ucaboylu* kök jandarm yavaş-yavaş pilləkənləri çıxmağa başladı (A.Şaiq).

# Aa

**ABAD – BƏRBAD** Pək şad olaraq güldüm *abad* olan ölkəmdə... (M.Müşfiq); Sən girməyən evlər qoy olsun *bərbad*; Öldürsün əmiri qaşların, gəlin! (Qoşma).

**ABAD – VİRAN** Söylədiyimiz dövrdə İçərişəhər *abad* deyildi (H.Sarabski); O, faşistlərin bu şəhəri necə *viran* etdiklərini öz gözü ilə görmüşdü (S.Vəliyev).

**ABADLIQ – BƏRBADLIQ** Şəhərimizin hər yerində *abadlıq* işləri aparılır. Yolların *bərbadlığı* hamını narahat edir.

**ABADLIQ – DAĞINTILIQ** Yenidən bitişdi bütün zərrələr, *abadlıq* göründü o xərabələr (M.Şəhriyar); Bəzi təsərrüfatlarda hələ *dağıntılıq* hökm sürür.

**ABDAL – AĞILLI** Gəl işim var səninlə, gəl, *abdal*! (H.Cavid); Yusifin arvadı Avropa elmlərindən dadmış bir *ağıllı* arvad idi (N.Nərimanov).

**ABIRLAŞMAQ – HƏYASIZLAŞMAQ** Məzəmmətdən sonra *abırlaşmışdır*. Sədrin müdafiəsindən ruhlanan Lal Hüseyn daha da *həyasızlaşdı* (M.İbrahimov).

**ABIRLI – HƏYASIZ** Arvad, Səfər pis oğlan deyil, atası da bir *abırlı* kişidir (Ə.Haqverdiyev); Tez ol aç qapını, *həyasız* qarı! (A.Şaiq).

**ABIRSIZ – HƏYALI Abırsızdan** həyanı saxla (Ata. sözü); Gözəl var ki, *həyalıdır*; Gözəl də var həyasızdır (M.Rahim).

**ACGÖZ – GÖZÜTOX** *Acgöz* mədənçilər quyu qazıldıqca yanlarını bərkitmədiklərindən çox zaman quyu uçur (A.Şaiq); *Gözütox* adamlar heç kəsin malına göz dikməzlər.

**ACIDİL – ŞİRİNDİL** Qoca bağban sərt təbiətli, *acıdil*, əsəbi və daima savaşan arıq kişi idi (M.Hüseyn); Gülüş *şirindil* qadındır.

**ACIQLI – MÜLAYİM** Kərbəlayı *acıqlı* səslə cavab verdi (Çəmənzəminli); Buludlar dağılmış, yenə Təbrizdə *mülayim*, xoş işıqlı günəş çıxmışdı (M.İbrahimov).

**ACIQLI – SAKİT** Nə üçün bizlə həmişə *acıqlı* danışırsan (İ.Əfəndiyev); Çox *sakit* danışırdı (Elçin).

**ACIQLI – TƏMKİNLİ** Səkinə zahirən nə Pərişan kimi narahat, nə də Rüstəm kişi kimi *acıqlı* idi (M.İbrahimov); O indi də birinci dəfə gördüyü kimi sakit və *təmkinli* idi (M.İbrahimov).

**ACIMAQ – QƏDDARLAŞMAQ** Mən yazıq qızın vəziyyətinə həddindən artıq *acıdım* (M.S.Ordubadi); Düşmən məğlub olduqca *qəddarlaşır*.

**ACITMAQ – SAKİTLƏŞDİRMƏK** Qaşqabağı, sallaq dodağı, çatılan qaşı, qırışıq alnı müəllimi lap *acıtdı* (Ə.Vəliyev); Bir anlıq iztirabdan sonra ata və balanı *sakitləşdirdilər* (A.Məmmədrza).

**ACİZ – BACARIQLI** Mən ki zərgərəm, yövmiyyə xərcindən ötrü *acizəm* (M.F.Axundzadə); Güləbətin hələ evlərində olanda Səlim xanımın *bacarıqlı* bir dəllala ərə getdiyini eşitmişdi (M.İbrahimov).

**ACİZLİK – BACARIQLILIQ** Ümidsiz olmaq *acizlikdir*. İnsan yer üzünə səadət üçün gəlir (M.Hüseyn); *Bacarıqlılığı* sayəsində irəli gedə bilmişdir.

**ACLIQ – BOLLUQ** Ta *aclıq* bizə qalib gəlməyincə evlərimizə qayıtmazdıq (S.S.Axundov); Heç bir *bolluq*, naz-nemət və anadangəlmə səadət onun insan təbiətini poza bilməmişdi... (M.İbrahimov).

**AÇIQ – BÜKÜLÜ** İndi xanım da görürdü ki, Güləbətinin qolu dirsəyə qədər *açıqdır* (M.İbrahimov); *Bükülü* o qədər ağır idi ki, Güləbətin zorla yeriyir... (M.İbrahimov).

**AÇIQ – DONUQ** Təbrizin *açıq*-mavi göyləri, ayna kimi təmiz üfüqləri daralmağa, onu boğmağa başlayırdı (M.İbrahimov);

Bizi çeşmək taxmış, *donuq* sifətli, yaşlı bir qadın qarşıladı ("Azərbaycan").

**AÇIQ – GİZLİ** Tələbələrdən Qurban Mərəndi adlı birisi öz *açıq* fikirləri və cəsarətli hərəkətləri ilə Firidunun diqqətini cəlb etmişdi (M.İbrahimov); Hər duyan qəlbin, əzizim, *gizli* bir sevdası var (S.Vurğun).

**AÇIQ – TUTQUN** Yığıncaqdan sonra artistlər *açıq* havada konsert verdilər (S.Rüstəm); İndi də hava boğuq və *tutqun* idi (M.İbrahimov).

**AÇIQ – TÜND** Mən də belə düşünürəm, yoldaş mayor, qəhvəyi rəngli avtomobil günəş şüası altında *açıq* rəngli, kölgədə isə *tünd* görünə bilər (C.Əmirov).

**AÇIQ – YUMULU** Buyurun, qapımız *açıqdır* sizə; Yurdu tapşırırıq əllərinizə (S.Vurğun); Bağır Nurcabbarın *yumulu* gözlərinə baxa-baxa başını buladı (İ.Məlikzadə).

**AÇIQCA – GİZLİCƏ** Əsmər ilə Camal Yusif haqqında *açıqca* danışdıqları halda, Gülər ilə Xalıq kiminsə haqqında *gizlicə* söhbət edirdilər.

**AÇIQLIQ – SIXLIQ** Meşədə xeyli dolandıqdan sonra meşənin dərinliyində alaçıq böyüklüyündə *açıqlıq* tapdı (S.Rəhimov); Ağacların *sıxlığı* bir-birinə mane olur.

**AÇILIŞ – BAĞLANIŞ** Sərginin *açılışı* sabah, *bağlanışı* isə martın 5-də olacaqdır.

**AÇILIŞMAQ – SIXILMAQ** Usta Ağababa əvvəl bir utandı, sonra isə yavaş-yavaş *açılışdı* (Çəmənzəminli); Fatma ağlamsındı, ancaq onu səsi çox nazikdir, özü də danışanda *sıxılır* (M.İbrahimov).

**AÇILIŞMAQ – TUTQUNLAŞMAQ** Birdən Gülnazı bərk-bərk qucaqlayıb öpdüm, bu əhvalat bizim *açılışmağımıza* səbəb oldu (T.Ş.Simürq); Mehralının siması *tutqunlaşdı* (Ə.Abbasquliyev).

**AÇILMAQ – BƏRKİMƏK** **Bərkidi** ayağı, *açıldı* əli; Yüyürdü həyətə, atıldı çaya (H.Hüseynzadə).

**AÇILMAQ – BÜZÜŞMƏK** İsti dəydikcə donları *açılırdı*. Soyuqdan *büzüşmüşdülər* ("Ulduz").

**AÇILMAQ – QAPANMAQ** Bir şey aydın idi ki, o zaman bulanlıq selə düşüb hara getdiyini bilməyən adam kimi gözləri *qapanmışdı* (M.İbrahimov); Hər kimə vurub, yapış desən, yapışar, açıl desən *açılar* (A.Şaiq).

**AÇILMAQ – ÖRTÜLMƏK** Dalanda ayaq səsi eşidildi, dərhal evin qapısı zərblə *açıldı* (Mir Cəlal); Qapı uşaqların üzünə *örtüldü* (İ.Şıxlı).

**AÇILMAQ – SOLMAQ** Gül ilə həmzəban olubdu bülbül; *Açılıb* bənövşə, yasəmən, sünbül (Q.Zakir); Həyətdəki güllər *soldu* ("Ulduz").

**AÇILMAQ – TUTULMAQ** Ürəyim, ciyərim xarab, mədəm xarab, dilim də gah *tutulur*, gah *açılır* (S.S.Axundov).

**AÇILMAQ – YIĞILMAQ** Qarmon kimi gah *yığılır*, gah *açılır* dağ yolları (T.Şahdağlı).

**AÇILMAQ – YUMULMAQ** *Açıldı*, *yumuldu* qatı duman, sis; Buz salxımsalxımdır, qar yumaq-yumaq (H.Hüseynzadə).

**AÇMAQ – YUMMAQ** Ağzını *açır*, *yumur*, danışır, amma səsini eşitmirik, danışıb qurtarır (Anar).

**ADAMAOXŞAMAZ – GÖYÇƏK** Ay *adamaoxşamaz*, bir üzünə baxsana; Bomboz olub saqqalın, rəngü həna yaxsana (M.Ə.Sabir); Nə qəşəngsən, nə *göyçəksən*; Dərilməmiş bir çiçəksən (S.Vurğun).

**ADAMLIQ – HEYVANLIQ** Əvvəl də bir *adamlığı* yox idi! İndi lap *heyvanlığı* çıxıb üzə (M.İbrahimov).

**ADDIMBAŞI – HƏRDƏN** Usta ona müstəqil iş tapşırır, *addımbaşı* yoxlayırdı (Mir Cəlal); Əntiqə *hərdən* özünə cürət verib ağasından soruşurdu (Mir Cəlal).

**ADİ – CİDDİ** Bu, *adi* yol hadisələrindən biri idi. Baba keşiş hiss edirdi ki, nə isə daha əsaslı, daha *ciddi* hadisə baş verib (Elçin).

**ADİ – QƏRİBƏ** Qısır Qarı *adi* adamlar kimi gəzə bilmirdi, həmişə yüyürürdü, həmişə qaçırdı (Elçin); Özünü *qəribə* adam kimi aparırdı (İ.Əfəndiyev).

**ADİ – MÜRƏKKƏB** Ən çətin zamanlarda Əsgər kişi öz kitabxanasını *adi* səliqə ilə saxlamışdı (Mir Cəlal); Bəli, *mürəkkəbdir* həyat səhnəsi; hər şeyi göz görüb seçə bilməyir! (H.Hüseynzadə).

**ADİL – ZALIM** Qurban otuz səkkiz ya qırx yaşında bir ağıllı, doğru və *adil* bir adam idi (İ.Musabəyov); Bu gün sinəmizə bu dərdi yazaq; Sabah *zalımların* qəbrini qazaq (S.Vurğun).

**AFƏRİN – LƏNƏT** *Afərin*, bacım Zeynəb, indi otur, bunları dəstə tutaq... (S.S.Axundov); Atana *lənət*, ay Salman, bir tülkü sənə tay ola bilməz, gör sözü nə yerinə salır (M.İbrahimov).

**AĞ – QARA** *Ağ* köynəyin boynuna; *Qara* ləkə düşərdi (H.Hüseynzadə).

**AĞA – NÖKƏR** *Ağa* borc eylər, *nökər* xərc (Ata. sözü).

**AĞALIQ – NÖKƏRÇİLİK** Hər əli silah tutan aləmə *ağalıq* etmək istəyirdi (Mir Cəlal); Eh, *nökərçilik* də bir kişilik deyil, vallah, hamballıq bunun yanında bir xanlıqdır (Ə.Haqverdiyev).

**AĞAPPAQ – QAPQARA** Qara gözlərin ağı süd kimi *ağappaq*, qarası kömür kimi *qapqara* (G.Hüseynoğlu).

**AĞARMAQ – BOZARMAQ** Ağ dumanlar *ağarır* qaşlarda (S.Vurğun); Rəngi *bozarmışdır*, baxışları sərt (S.Vurğun).

**AĞARMAQ – QARALMAQ** Ağ gün *ağardar*, qara gün *qaraldar* (Ata. sözü).

**AĞARMAQ – QIZARMAQ** Sərdar Rəşidin üzü *qızarır* və yenə də *ağarırdı* (M.S.Ordubadi).

**AĞARTMAQ – QARALTMAQ** Verdiyev məruzəsinin üzünü on bir dəfə *ağartdı*, yenə ürəyi qızmadı (Mir Cəlal); Bir eşqin şimşəyi çaxdı başımda; Yerimdə kömürtək *qaraltdı* məni (İ.Tapdıq).

**AĞBƏNİZ – QARABƏNİZ** *Ağbəniz*... oğlan uşağı çəpiş kimi səkidən atılıb qapıya tərəf gəldi (Mir Cəlal); *Qarabəniz* kişiyə bir az artıq diqqət yetirdi (C.Əmirov).

**AĞBƏNİZ – QARABUĞDAYI** Qız *qarabuğdayı*; oğlan isə *ağbəniz* (İ.Tapdıq).

**AĞBƏNİZ – QARAYANIZ** Yoluna *ağbəniz*, şümşadboylu gəlin çıxsa, qorxma get, işin avand olar, *qarayanız* arıqələngə qarı çıxsa, vay halına, getmə, qayıt geri (M.İbrahimov).

**AĞCİYƏR – CƏSARƏTLİ** Əslində isə həddən artıq qorxaq, *ağciyər* idi (M.Talıbov); Yusif xasiyyətcə yumşaq olsa da, *cəsarətli* idi, heç bir şeydən qorxmazdı.

**AĞCİYƏRLİK – CƏSURLUQ** Qulam, *ağciyərlikdən* ağ saç olmaq yaxşıdır (Ə.Əbülhəsən); Oğul, heç vaxt *cəsurluğu* yaddan çıxartma.

**AĞGÖZ – CƏSARƏTLİ** İgid də qorxarmı? *Ağgözə* bir bax (S.Rüstəm); Deməli, şərait bizdən tələb edir ki, həm ağıllı tərpənək, həm də *cəsarətli*! (M.İbrahimov).

**AĞI – ŞİRİN** Şərabın yox, gətir *ağı*, qulağın niyə kar olmuş? (Nəbati); Nə *şirindir*, nə coşqundur azadlıq duyğuları (H.Hüseynzadə).

**AĞILLI – AXMAQ** Tərlan *ağıllı* oğlunun hər kəlməsindən xoşlanırdı (M.Hüseyn); Eh, sən nə *axmaq* adam imişsən (C.Əmirov).

**AĞILLI – GİC** Sizi hər bir *ağıllı* qız sevə bilər (M.S.Ordubadi); Düşmənə rəhm edən axmaqdır, *gicdir* (S.Rüstəm).

**AĞILLI – YEKƏBAŞ** Mirzə Kərim, bu kəndin içində bircə *ağıllı* adam sənsən (Ə.Haqverdiyev); Bağır, bərkdən bağır, bərkdən, *yekəbaş* (S.Rüstəm).

**AĞILLILIQ – DƏLİLİK** Əli öz *ağıllılığı* ilə hamını heyran edərdi. Ağıl olmayan yerdə cəsarət *dəlilikdir* (M.İbrahimov).

**AĞILSIZ – DÜŞÜNCƏLİ** Böyük və ortancıl qardaş kiçik qardaşlarının bu *ağılsız* hərəkətinə heyrət edirdilər (A.Şaiq); Deyilənə görə, o sakit, *düşüncəli* və mühakimələrində aydınlığa meyil edən adam idi (M.İbrahimov).

**AĞIR – YUMŞAQ** Əhməd kişinin xasiyyəti çox *ağırdır*. Belə adama gərək özü kimi

*yumşaq* və iddiasız arvad tapasan (M.İbrahimov).

**AĞIRLAŞMAQ – YÜNGÜLLƏŞMƏK** Soyuqda oturduqca, özünə gəldikcə vücudu *ağırlaşır*, kürəkləri sancır (Mir Cəlal); Amma elə ki, anam danışdı, elə bil mənim üstümdən dağ götürüldü. *Yüngülləşdim* və rahat oldum (M.İbrahimov).

**AĞIRLIQ – YÜNGÜLLÜK** Gülüşcan, mən böyük *ağırlıq* içindəyəm, hər günüm bir cəhənnəm əzabıdır (C.Cabbarlı); Bu *yüngüllük* Gülərə də təsir etdi (İ.Şıxlı).

**AĞIRTAXTALI – BOŞBOĞAZ** Mehdiqulu *ağırtaxtalı* bir oğlandı, hələm-hələm canına isti keçməzdi (Mir Cəlal); *Boşboğaz* arvad ərini qabaqladı (M.İbrahimov).

**AĞIRTƏBİƏTLİ – CIRTQOZ** Nurəddin anasından sonra birdən-birə dəyişir, *ağırtəbiətli* bir uşaq olur (S.S.Axundov); Sən allah, bizim yaxamızı bu *cırtqoz* Əhmədin əlindən qurtar.

**AĞIZDOLUSU – HƏVƏSSİZ** Biz onların yaradıcılığından *ağızdolusu* danışmalıyıq (M.Rahim); Son vaxtlar iclaslarda çox *həvəssiz* danışardı.

**AĞIZLAŞMAQ – BARIŞMAQ** Mən ömrümdə söyüşməmişəm. Birisi ilə *ağızlaşmamışam* (Mir Cəlal); Xosrov deyirdi ki, gəlsin *barışaq*; Qan kimi qaynayıb biz də *qarışaq* (S.Vurğun).

**AĞKÖYNƏK – CÜRƏTLİ** Vahid elə uşaqlıqdan *ağköynəkdir*. Bununla belə *cürətli* uşaq, yolu tapıb meşədən çıxmaqdan ümidini kəsmirdi (S.S.Axundov).

**AĞLADAN – GÜLDÜRƏN** *Ağladan* yanında otur, *güldürən* yanında yox (C.Əlibəyov).

**AĞLAĞAN – GÜLƏYƏN** *Ağlağan* uşaqları Nazimə sanki əfsun ilə ələ alır, sakit edirdi (Mir Cəlal); Çox *güləyəndir*.

**AĞLAMAQ – GÜLMƏK** Ellərin dərdinə könül bağladım; Səninlə bir *gülüb* birgə *ağladım* (M.Rahim).

**AĞLAMSINMAQ – GÜLÜMSÜNMƏK** *Ağlamsındı* bir az "dərdli", "gileyli" (M.Rahim); Yadigar qayğısız halda *gülümsünürdü* (Ə.Muğanlı).

**AĞLAR – GÜLƏR** Gahdan *gülər*, gahdan *ağlar* fikrimiz; Qanad açar, qanad bağlar fikrimiz (H.Hüseynzadə).

**AĞLAYAN – GÜLƏN** Ağabala çox *ağlayan* uşaq idi (Çəmənzəminli); Görürəm bəşərin *gülən* gününü! (S.Vurğun).

**AĞLAYIŞ – GÜLÜŞ** Kişilərdə yersiz *gülüşlər* nə qədər çoxsa, qadın və qızlarda da yersiz *ağlayış* və qısqanışlar da həddindən artıqdır (M.S.Ordubadi).

**AĞRI – SAZLIQ** Birdən Sabir doğruldu, bədənində şiddətli bir *ağrı* hiss edərək üz-gözünü turşutdu (M.Hüseyn); Müalicədən gələndən sonra onun *sazlığı* göz qabağında idi.

**AĞRIMAQ – SAKİTLƏŞMƏK** Sevil, nə üçün belə solğunsan, yaxsa bir yerin *ağrıyır*? (C.Cabbarlı); Gülşən ona toxtaqlıq verirdisə də, Xanpəri *sakitləşmirdi* (Ə.Vəliyev).

**AĞYAĞIZ – QARAYAĞIZ** Nazim uşaqlıqdan *ağyağız* idi. İdarə başçısı orta yaşlı, *qarayağız*, utancaq bir adam idi (Mir Cəlal).

**AĞYANIZ – QARAYANIZ** Təranə *ağyanız* göyçək bir qızdır. Lazar ortaboylu, *qarayanız*, bozgöz bir oğlandı (S.Vəliyev).

**AĞZIAÇIQ – AĞZIBAĞLI** Nuru babanın nağılına qulaq asanların bir qismi *ağzıaçıq*, bir qismi isə *ağzıbağlı* oturmuşdu.

**AĞZIAÇIQ – DİRİBAŞ** Əsəd çox fağır, *ağzıaçıq* uşaq idi. Birinci ona görə ki, çox *diribaşdır*, ikinci də bunları istədiyin qədər oyada bilərsən (M.İbrahimov).

**AĞZIBÜTÖV – AĞZIBOŞ** Mən istərdim ki, sən *ağzıboş* olmayasan. Mən çox *ağzıbütöv* adamam (F.Kərimzadə).

**AĞZIDAĞINIQ – AĞZIBÜTÖV** A kişi, bilirəm hansı *ağzıdağınıq* naçalnikə məni nişan veribdir (M.F.Axundzadə); Mənim *ağzıbütöv*, sözünün üstündə duran adamdan xoşum gəlir.

**AĞZIDOLU – TƏMKİNLİ** Mənimlə niyə belə *ağzıdolu* danışırsan? O indi də

birinci dəfə gördüyü kimi sakit və *təmkinli* idi (M.İbrahimov).

**AĞZIÜSTƏ – ARXASIÜSTƏ** Mütəkkəni sinəsinin altına qoyub *ağzıüstə* uzandı (İ.Şıxlı); O, göy otun üstündə *arxasıüstə* uzanıb yuxuya getdi ("Ulduz").

**AĞZIYUXARI – AĞZIAŞAĞI** De, polis gətir, mərəkə sür *ağzıyuxarı* Sibir meşələrinə (Mir Cəlal); Mən evə gələndə o *ağzıaşağı* gedirdi.

**AH – VAY** *Ah*, mən onun səadəti üçün nələr etməzdim (M.S.Ordubadi); *Vay*, yad kişinin səsi gəlir, *vay*, indicə qapıdan içəri girəcəkdir... (M.F.Axundzadə).

**AHƏSTƏ – TEZ** Ona yazığı gəlirmiş kimi *ahəstə* dilləndi (S.Vurğun); Səttar *tez* atı tövləyə çəkdi (A.Makulu).

**AHIL – CAVAN** Neçə nəfər *ahıl* və *cavan* qadınlar arxalarında səhəngləri gəlib səhnədən keçmək istəyirlər (Ə.Haqverdiyev).

**AXICI – SÖNÜK** Bütün müdərrislərimiz ondakı səlis, *axıcı* natiqlik məharətinə qibtə edirdilər (İ.Əfəndiyev); Onun nitqi çox *sönük*, cansıxıcı idi.

**AXIR – ƏVVƏL** Hər şeyin *əvvəli*, *axırı* olur (R.Rza).

**AXIRKI – ƏVVƏLKİ** Mən məsləhət görürəm, nə qədər ki, gec deyil, biz bu işdən çəkilək, çünki *axırkı* biabırçılıqdansa, *əvvəlki* biabırçılıq yaxşıdır (Ə.Vəliyev).

**AXMAQ – DAYANMAQ** *Axır* şırıltıyla köpüklü çaylar (S.Vurğun); Gözündə qalmadı xalqın diləyi; *Dayandı* qan seli, səmum küləyi (O.Sarıvəlli).

**AXŞAM – GÜNDÜZ** *Axşam* aya baxar, *gündüz* günəşə; Ondan ətirlənər nərgiz, bənövşə (H.Hüseynzadə).

**AXŞAM – SABAH** *Axşamın* xeyrindən *sabahın* şəri yaxşıdır (Ata. sözü).

**AXŞAM – SƏHƏR** Bəzən quşa dönür saat da, an da; *Axşam* gəzdiyini *səhər* tapırsan… (M.Araz).

**AXŞAMÇAĞI – SƏHƏRÇAĞI** *Axşamçağı* Canpoladın qapısı vuruldu (M.S.Ordubadi); Sığırçınlar *səhərçağı* gələr, budaqlara qonub səslənər, baharın müjdəsini gətirərlər (Mir Cəlal).

**AXŞAMLIQ – SƏHƏRLİK** Gözlərimdən tökülür üç *axşamlıq* yuxusu (S.Vurğun); Bir *səhərlik* işimiz qalıb.

**AXŞAMÜSTÜ – SƏHƏR-SƏHƏR** *Axşamüstü* Bahadır kəndə hamıdan gec qayıtdı (S.Rəhimov); *Səhər-səhər* qoy bir gözümü açım, sonra qabağımı kəs! (M.İbrahimov).

**AXTARMAQ – TAPMAQ** Hər kəs öz yerini *axtarır*, *tapır* və əyləşirdi (S.Rəhimov).

**AİLƏLİ – SUBAY** Xeyr, qardaş, mən çox *ailəli* adamlarla qohum ola bilmərəm, məndən əl çək, darıxıram (C.Əmirov); Maya, necə bilirsən, adam evlənəndən sonra da özünü *subay* kimi apara bilərmi? – deyə soruşdu (M.İbrahimov).

**AKTİV – PASSİV** Gündəlikdə işlənən, tələbatı ödəyən sözlər *aktiv*, az işlədilən, köhnəlmiş sözlər *passivdir*.

**AKTİVLƏŞMƏK – PASSİVLƏŞMƏK** İş adamı *passivləşdirmir*, əksinə *aktivləşdirir*.

**AKTİVLİK – PASSİVLİK** *Passivlik* ətalətdir, *aktivlik* isə gümrahlıqdır.

**AQİL – DƏLİ** Yusif şah *aqil* idi (M.F.Axundzadə); Kəndimizdə də bir igid tapılmır ki, bu *dəlini* ipə-sapa gətirə (M.İbrahimov).

**AQİL – GİC** Divanəsini unutmaz *aqil* (Q.Zakir); Heç ipə-sapa yatmır o *gic*.

**AL – SOLĞUN** Zümrüd göydə günəş yandı; *Al* şəfəqə yer boyandı (S.Vurğun); Onun *solğun* yanağı qızarmağa başlayırdı (S.Vəliyev).

**ALACAQ – VERƏCƏK** *Alacağına* qırğıdır, *verəcəyinə* qarğa (Ata. sözü).

**ALACAQLI – VERƏCƏKLİ** *Alacaqlı* ikən *verəcəkli* olduq (Ata. sözü).

**ALACALANMAQ – İŞIQLANMAQ** Verdiyevin gözü *alacalandı*, dili söz tutmadı (Mir Cəlal); Gəlin ürəyimdə bir şam

yandırın; Dünyanı yenidən *işıqlandırın*! (S.Vurğun).

**ALAN – SATAN** *Alanın* gözü *satanın* əlində olar (Ata. sözü).

**ALÇAQ – ALİCƏNAB** Bu cür *alçaq* və rəhmsiz adamlara bir dəqiqə olsa da, həyat haramdır (M.S.Ordubadi); Çox *alicənab*, nəcib insandır (Anar).

**ALÇAQ – ZİL** *Alçaq* səslə zümzümə etməyə başladı ("Ulduz"); Cəlal da *zil* səslə deyir bayatı; Tutub qışqırığı bütün elatı (S.Vurğun).

**ALÇAQBOY – HÜNDÜRBOY** Kərbəlayı Qulu *alçaqboylu* bir kişi idi (Çəmənzəminli); Baba keşiş *hündürboy*, enlikürək, şumal bir adam idi (Elçin).

**ALÇAQDAN – UCADAN** Maya sanki *ucadan* və acıqla soruşdu (M.İbrahimov); Bu zaman əncümənin üzvlərindən bir neçəsi papiros çəkir, bir-biri ilə *alçaqdan* danışırdı (A.Makulu).

**ALÇAQLI – UCALI** *Alçaqlı*, *ucalı* dağlar görmüşəm (Aşıq Alı).

**ALÇAQLIQ – HÜNDÜRLÜK** Ağacın *alçaqlığı* gediş-gəlişə maneçilik törədir. Min üç yüz *hündürlüyündə* olan bu gözəl şəhərdə dağ havası ilə aran günəşi birləşmişdi (M.İbrahimov).

**ALÇALDAN – UCALDAN** Onu *alçaldan* da, *ucaldan* da biz (T.Bayram).

**ALÇALMAQ – UCALMAQ** Sən *ucala* bilsən, *alçalacaq* dağ (S.Sərxanlı).

**ALÇALMAQ – YÜKSƏLMƏK** Axı mən o qədər də *alçalmamışam* ki, *yüksələ* bilməyəm (Ə.Şərif).

**ALÇALTMAQ – QALDIRMAQ** Qızın təmiz və pak məhəbbətini *alçaltdılar* ("Ulduz"); Onun təhqir olunmasına yol vermədilər, mənliyini *qaldırdılar*.

**ALÇALTMAQ – UCALTMAQ** Əli bəy, *alçaldar* cinayət bizi; Bir bax əllərinə, yaraşarmı qan? (S.Vurğun); Rüstəm dayı, sən ki məni belə *ucaltdın*, sağ ol, öl desən öləcəyəm, qal desən qalacağam (M.İbrahimov).

**ALİ – İBTİDAİ** Əli Bayramov klubunda *ibtidai* savad kursunu bitirmiş, *ali* savad kursuna girmək fikrindədir (S.Hüseyn).

**ALİCƏNAB – ALÇAQ** *Alicənab* adammış (S.Rüstəm); Elə bir *alçağa* ölüm də azdır! (S.Vurğun).

**ALİCƏNAB – KOBUD** Dərs alın, *alicənab*, sinəsi dəftər kişidən (S.Vurğun); Bağışla, Maya xanım, çox *kobud* adama rast gəlmisən (M.İbrahimov).

**ALİCƏNAB – NANƏCİB** Siz nə qədər *alicənab*, təvazökar adamsınız, Gülşən! (Ə.Vəliyev); Bu *nanəcib* işi ki sən görmüsən, acığını canından çıxmasam, mən heç kişi deyiləm (M.İbrahimov).

**ALİCƏNABLIQ – ALÇAQLIQ** Ah, bu nəvazişə, bu *alicənablığa* qarşı qabil deyil (H.Cavid); Bu çöhrələrdə yaltaqlıq, riya və *alçaqlığın* hər cür şəklini görmək mümkün idi (M.S.Ordubadi).

**ALICI – SATICI** *Satıcılar* tərifləyir, *alıcılar* müştəri gözü ilə bir çox nöqsanlar tapır və pisləyirdilər (S.Rəhimov).

**ALICILIQ – SATICILIQ** Əhalinin *alıcılıq* qabiliyyəti yüksəlmişdir. O, *satıcılığa* gəlir mənbəyi kimi baxırdı.

**ALİM – CAHİL** O, avam, *cahil* deyil, *alimdir* (Ə.Haqverdiyev).

**ALINMAZ – SATILMAZ** *Alınmaz*, *satılmaz* dünya neməti; Elin hörmətini qazanandadır (H.Hüseynzadə).

**ALIŞMAQ – SÖNMƏK** Ümid onun gözündə; Gah *alışır*, gah da *sönür* (B.Vahabzadə).

**ALIŞMAQ – TƏRGİTMƏK** Gülsənəm ilə Maro bir-birinə *alışırdılar* (S.Rəhimov); Trubkanı görmürəm, yoxsa çəkməyi *tərgitmisən*? (M.İbrahimov).

**ALLANMAQ – AĞARMAQ** Müəllimin solğun siması bir azca *allaşdı* və yenə *ağardı* (M.İbrahimov).

**ALLAŞMAQ – SOLMAQ** Babanın gözləri yanmağa başlayırdı, yanaqları *allaşmışdı* (M.İbrahimov); Səhərdir. Üfüqün

geydiyi sarı; *Solur* şəfəqlərdə xəstə üzlü ay (S.Vurğun).

**ALMAQ – QAYTARMAQ** *Almaq* asandır, *qaytarmaq* çətindir (Ata. sözü).

**ALMAQ – SATMAQ** – Ay qızım, mən söz gəzdirən deyiləm, neçəyə *almışam*, o qiymətə də *satıram* (M.İbrahimov).

**ALMAQ – VERMƏK** Bahadır mahud *almaq* fikri ilə bir mağazaya varid oldu (N.Nərimanov); Gübrə özü verilməyib, biz *vermişik* (M.İbrahimov).

**ALOVLANMAQ – ÖLƏZİMƏK** Meşə *alovlandı* (S.Vəliyev); Ocaq getdikcə *öləziyirdi* ("Ulduz").

**ALOVLANMAQ – SÖNMƏK** O sözləri düşündükcə təndir kimi *alovlandı* (A.Şaiq); *Sönər* bu şan, bu şöhrət; Ölkə olmuş mənə düşmən (A.Şaiq).

**ALT – ÜST** Deyirəm, qızım, olmaz ki, sən *alt* paltarını üstdən geyəsən, *üst* paltarını altdan (Anar).

**ALTRUİST – EQOİST** İlk baxışdan o, *altruist* bir şəxs kimi hamının diqqətini cəlb etmişdi ("Elm və həyat"); İndi uşaqlar mənə gülmək, sataşmaq istəyəndə "*eqoist*" deyirlər (M.İbrahimov).

**AMANSIZ – RƏHMLİ** Bu *amansız* gecənin gündüzü yoxdur (H.Cavid); Onların böyükləri çox *rəhmli* adamdır (S.S.Axundov).

**AMANSIZ – YAZIQ** Tülküyə *amansızam*, çünki quzuya *yazığım* gəlir (M.İbrahimov).

**ANALİZ – SİNTEZ** *Analiz* mürəkkəb dil bütövlüyünün onu təşkil edən ünsürlərə ayrılmasıdır. *Sintez* təhlil prosesində hasil olmuş ayrı-ayrı ünsürlər arasındakı əlaqəni müəyyənetmə və onlardan ümumi nəticə çıxarma üsuludur.

**ANARXİYA – DEMOKRATİYA** *Anarxiya* qarışıqlıq, hərc-mərclik, özbaşınalıqdır. Başladı ki, kolxozda *demokratiya* yoxdur, kollektiv rəhbərlik yoxdur (M.İbrahimov).

**ANARXİYA – QAYDA-QANUN** Kapitalist ölkələrində *anarxiya* hakim kəsilib. Mənim fikrimi azdırma, mən cəbhəni demirəm, onların öz *qayda-qanunu* var (M.Hüseyn).

**ANLAQLI – AXMAQ** Əsgər bəy, mən səni bir *anlaqlı* adam bilirdim (Ə.Haqverdiyev); *Axmaq* kişi, sən nə danışırsan?! (A.Məmmədrza).

**ANLAŞIQLI – DOLAŞIQLI** ...Əruzla aydın və *anlaşıqlı* bir dildə yazmağı bacarmaq lazımdır (S.Rüstəm); *Dolaşıqlı* məsələlərin həllini şagirdlərə anlatmaq lazımdır.

**ANORMAL – AĞILLI** Firidun doğuluşundan *anormaldır*. Tərlan *ağıllı* oğlunun hər kəlməsindən xoşlanırdı (M.Hüseyn).

**ANTİK – MÜASİR** Professor Ə.Ağayev *antik* və *müasir* ədəbiyyatdan maraqlı mühazirələr oxuyur.

**APARMAQ – GƏTİRMƏK** Arşın *gətir* bez *apar*, çuval *gətir* qoz *apar* (Ata. sözü).

**ARABİR – DAİMA** Zeynəb də *arabir* gözaltı ona baxır (B.Talıblı); Oğlu Mirzə Qalib isə *daima* küçədə qarovul çəkir (C.Əmirov).

**ARABİR – HƏMİŞƏ** Hər gün silər, təmizlər və *arabir* dərənin içinə enərək bir yeri nişan alardı (A.Şaiq); Elə iş tut ki, camaat *həmişə* yaxşı desin (M.İbrahimov).

**ARALAMAQ – BİRLƏŞMƏK** Gülşən də kənddən *aralandı* (Ə.Vəliyev); Parçalanmış bir eli - Böyük Azərbaycanı; *Birləşdirdi* Füzuli! (B.Vahabzadə).

**ARALAMAQ – ÖRTMƏK** Əsgər əvvəl qapını *araladı*, sonra nə fikirləşdisə *örtdü* ("Azərbaycan").

**ARALANMAQ – ÖRTÜLMƏK** Vahid Nayıbovun ev qapısı həmişəki sakitliyi ilə *aralandı* və *örtüldü* (Mir Cəlal).

**ARALANMAQ – SIXLAŞMAQ** Qayıqlar bir-birindən *aralandı*. Bu dənizdə üzür qayıqlar; Get-gedə *sıxlaşır* bu qayıqlar (S.Vurğun).

**ARALANMAQ – YAXINLAŞMAQ** *Aralanır* buludlar, təravətlənir otlar (A.Səhhət); Cilovunu sahənin yanındakı arabaya bağlayıb *yaxınlaşdı* (M.İbrahimov).

**ARALI – ÖRTÜLÜ** Qarlarla *örtülü* bir düzə gəldik (S.Vurğun); Həm də çox *aralıdır*, gedib-gəlmək də olmaz (H.Hüseynzadə).

**ARALI – YAXIN** Xasay atlıların bir-birindən *aralı* getməsini məsləhət gördü (M.Hüseyn); *Yaxın* gəl, qulaq as qəlbim deyənə (S.Vurğun).

**ARAMAQ – TAPMAQ** Bəs fikri nə idi? Kimi *arardı*? (S.Vurğun); Onun şöləsindən şəfa *tapırlar* (S.Vurğun).

**ARAMLA – BİRNƏFƏSƏ** "Mirzəyi" havasında bir vəzn ağır və *aramla* vurulur (Ş.Bədəlbəyli); Kişi parçı *birnəfəsə* başına çəkdi (İ.Əfəndiyev).

**ARAMLA – TƏLƏSİK** Tez-*tələsik* saçlarını düzəldib keçirdi (M.İbrahimov); Səkinənin *aramla* dediyi sözlərə qulaq asa-asa qaralıb ağarırdı (M.İbrahimov).

**ARAMLIQ – SƏBİRSİZLİK** Güldən çox gül, çiçəkdən çox çiçək, lakin ürəkdə bir *aramlıq*, ruhda isə sakitlik yox idi (Çəmənzəminli); Oğul, *səbirsizlik* adama həmişə ziyan verər (M.İbrahimov).

**ARAN – DAĞ** *Aranda* tutdan olduq, *dağda* qurutdan (Ata. sözü).

**ARAN – YAYLAQ** Örüşdən örüşə çəkib sürünü; *Aranı*, *yaylağı* gəzdi çobanlar (H.Hüseynzadə).

**ARANÇI – DAĞÇI** *Arançı* qardaş, xoş gördük, oralarda nə var, nə yox? (İ.Şıxlı); *Dağçı* aran yerlərində çox qala bilməz.

**ARANLI – DAĞLI** Sən elə anadangəlmə *aranlısan*. Xızı rayonundanam, *dağlıyam*, – deyə o cəld cavab verdi (S.Vurğun).

**ARA-SIRA – HƏMİŞƏ** *Ara-sıra* bu işıq sütunu sanki dairəvi bir şüşəyə rast gələrək sönürdü (M.İbrahimov); Ömrünün tarlasına qəm kotanında; *Həmişə* gül əkdi, vay dərdi babam (B.Vahabzadə).

**ARDICIL – ARABİR** Oğlu Tapdığın həyatı *ardıcıl* surətdə gəlib onun gözünün qabağından keçirdi (Ə.Əbülhəsən); Güləndam bacı onlara guşhuş ilə qulaq verib *arabir* sual verirdi (Çəmənzəminli).

**ARDINCA – QABAĞINCA** Məşədi Əsgərin *ardınca* ahəstə-ahəstə gedirdi (S.M.Qənizadə); Elə mən də sənin *qabağınca* evə gəlmişəm.

**ARXA – QABAQ** *Qabaq* düşmən idi, *arxa* isə hər gün davam edən bombalama nəticəsində dağılırdı (Mir Cəlal).

**ARXADAKI – QABAQDAKI** O, məhkəmədə lap *arxadakı* skamyada, küncdə əyləşmişdi (C.Əmirov); Tutaq *qabaqdakı* qayalıqları; Oralar çox bərkdir (S.Vurğun).

**ARXAİK – YENİ** Köhnəlmiş sözlər *arxaik*, təzə yaranan sözlər isə *yeni* sözlər adlanır.

**ARXAİZM – NEOLOGİZM** Köhnəlmiş və ya dildən çıxmış söz və ya ifadələr *arxaizm*, dildə əmələ gəlmiş yeni söz və ya köhnə sözün almış olduğu yeni məna *neologizm* adlanır.

**ARXALI – KİMSƏSİZ** Cahan xanım mahalda *arxalı* adam idi (M.İbrahimov); Hüseyn artıq arxasız və *kimsəsiz* bir yetimdir (S.Rəhimov).

**ARXASINCA – QABAĞINCA** Məstan birdən sıçrayıb qaçdı; Ala-bula da *arxasınca* qaçıb onu tutdu (A.Şaiq); Uşaqların marağı daha da artdığı üçün onlar Dursunun *qabağınca* qaçışırdılar.

**ARXASIÜSTƏ – ÜZÜQOYLU** *Arxasıüstə* çarpayıda uzanan və şirin yuxuya gedən Aliyəyə yaxınlaşdı (C.Əmirov); Birbaşa otağa gedib soyundu, *üzüqoylu* yerinə yıxıldı (M.İbrahimov).

**ARXASIZ – HAVADARLI** Zöhhakı məhv edən Gavə yoxsul, *arxasız* bir dəmirçi idi (H.Cavid); O elə gəzir ki, elə bil alçaq dağları o yaradıb, *havadarlıdır*.

**ARXAYIN – NİGARAN** Bu məsələ barəsində də *arxayın* ola bilərsən, dostum! (C.Əmirov); Zəng etdim ki, *nigaran* qalmayasınız (C.Əmirov).

**ARXAYINÇILIQ – NİGARANÇILIQ** Yolçular öz xorultuları ilə çayçının ürəyindəki *arxayınçılığı* daha da möhkəmləndir-

dilər (M.İbrahimov); Əbədi əndişə, əbədi *nigarançılıq* və təlaş içində yaşamaq olmaz (M.İbrahimov).

**ARXAYINLIQ – NARAHATLIQ** Lakin *arxayınlıq* şəraitində nə qədər alışıb ehtiyat qazanmış olsa belə, ən xırda şey əsgəri narahat edirdi (Ə.Əbülhəsən); Səkinənin bu *narahatlığı* səbəbsiz deyildi (M.İbrahimov).

**ARIQ – TOTUQ Arıq** oğlanın üzünə baxdı (Mir Cəlal); Sabah *totuq* üzünü çəkdirib salın yola (S.Rüstəm).

**ARIQ – YAĞLI** *Arıq* xoruzun biri, gəlib keçdi irəli (A.Şaiq); Axşamın toranında közərib parıldayan kömürün üzərində şişlərə *yağlı* qabırğalar çəkilmişdi (İ.Hüseynov).

**ARLI – HƏYASIZ** Gərək bir azca həlim, ədəb-ərkanlı olsun; Bir az *arlı*, namuslu, bir az vicdanlı olsun (X.Rza); Kəlbiyev əyilib büzüşərək çırpınırdı, *həyasız* hücumlarla işin içindən çıxmağa çalışırdı (M.İbrahimov).

**ARSIZ – HƏYALI** *Arsıza* bir sillə kar eləməz (Ata. sözü); Qızdan *həyalı* oğlana rast gəlmisən, şərbət olmamış nə olacaq (M.İbrahimov).

**ARSIZLIQ – HƏYALILIQ** *Arsızlıqdan* sanma ki, şişib dama dönmüşəm (S.Rüstəm); *Həyalılığından* rəng verib, rəng alırdı.

**ARTIQ – AZ** Bacı, *artıq* söz lazım deyil (Ə.Haqverdiyev); Bacarmazsınız! Çünki milyonlardan yüz qat *azsınız*! (S.Vurğun).

**ARTIQ – ƏSKİK** Orada işləyənlərdən mənim nəyim *artıqdır*, nəyim *əskikdir*? (G.Hüseynoğlu).

**ARTIQLIQ – AZLIQ** Nadir iztirabının *artıqlığından* bozarıb qızarırdı (B.Talıblı); Bu isə yenə ona etimadın *azlığını* göstərirdi (Ə.Sadıq).

**ARTIM – İTKİ** Bu düyünün heç *artımı* yoxdur. *İtki* var bir eli yandırıb-yaxar (S.Vurğun).

**ARTIRMAQ – AZALTMAQ** Bu mənim dərdimi daha da *artırdı* (S.Vəliyev); *Azalt*, uzağı demirəm, elə ver Azərbaycanın Kəlbəcər rayonuna, ver o yerə ki, orada lazımdır (M.İbrahimov).

**ARTMAQ – ƏSKİLMƏK** Sənə bizdən salam, qurultayımız! *Artır*, *əskilməyir* bizim sayımız (S.Rüstəm).

**ARVADAĞIZLI – CƏSARƏTLİ** Səndə təqsir yoxdur, mənim *arvadağızlı* oğlumdadır (N.Vəzirov); Rüstəm kişinin qorxmaz və *cəsarətli* hərəkətləri... çoxlarının ürəyinə yatırdı (M.İbrahimov).

**ARVADLIQ – KİŞİLİK** Min kərə sənə demişəm ki, sən arvadsan, get *arvadlığına*, mənə öyüd-nəsihət vermə! (M.F.Axundzadə);. Millət uğrunda! Qeyrət, namus, *kişilik* yolunda (Elçin).

**ARVADÜZLÜ – KİŞİÜZLÜ** *Arvadüzlü* kişidən, *kişiüzlü* arvaddan əlhəzər (Ata. sözü).

**ASAN – ÇƏTİN** Şəkil çəkmək *asandır*, həyat yaratmaq *çətindir* (C.Cabbarlı).

**ASILI – ASUDƏ** Axı bu səndən *asılıdır* (S.Vəliyev); O, Bakıda *asudə* gəzəndə mən rahat ola bilərəm (C.Əmirov).

**ASILILIQ – AZADLIQ** Getdikcə Mirzə Valeh bir *asılılıq*, bir məhkumluq hiss edirdi (S.Rəhimov); Əsir üçün *azadlıqdan* yaxşı şey ola bilərmi? (S.Vəliyev).

**ASILILIQ – SƏRBƏSTLİK** İnsan üçün *asılılıqdan* dəhşətli şey nə ola bilər. Onun duruşunda və görkəmində bir *sərbəstlik* vardı (M.İbrahimov).

**ASİMAN – YER** Könül pərvaz etdi, qalxdı havaya; *Yer* üzündən *asimana* yetişdi (M.P.Vaqif).

**ASMAQ – GÖTÜRMƏK** Gəldiyev sözünü bitirəndə cavab gözləməyib, telefonun dəstəyini *asdı* (Mir Cəlal); Haydı, çantanızı *götürüb* durun (S.Vurğun).

**ASTA – BƏRK** *Asta* basar, *bərk* kəsər (Ata. sözü).

**ASTALIQ – CƏLDLİK Astalıq** adamı yerində saymağa vadar edir, *cəldlik* adamı gümrahlaşdırır.

**ASTAR – ÜZ** *Astar* verəndə *üz* istəyir (Ata. sözü).

**ASTARSIZ – ÜZSÜZ** Maral *astarsız* kostyumunu götürdü (Ə.Əbülhəsən); *Üzsüz* yorğanı başına çəkdi.

**ASUDƏLİK – ASILILIQ** *Asudəlik* istərsən dünyadan uzaqlaş sən (Heyran xanım); *Asılılıq* adamın gözünü kölgəli edir.

**AŞAĞI – YUXARI** *Aşağı* tüpürürəm saqqaldır, *yuxarı* tüpürürəm bığ (Ata. sözü).

**AŞKAR – XƏLVƏT** Bu *aşkar* bir mətləbdir; bəyana ehtiyacı yoxdur (C.Məmmədquluzadə); Mən gərək sözümü Axund ağaya *xəlvət* deyim (Ə.Haqverdiyev).

**AŞNA – DÜŞMƏN** Baş üstə sizin murov mənimlə *aşnadır* (Ə.Haqverdiyev); *Düşmən* qüvvəsini bizim üstümüzə atır (S.S.Axundov).

**ATEİZM – TEİZM** C.Məmmədquluzadə Mirzə Fətəli Axundzadənin realizmi və *ateizminin* varisi olmuş (M.İbrahimov); *Teizm* dünyanın Allah tərəfindən yaradılıb idarə edildiyini iddia edən dini-mistik ehkamdır.

**ATƏŞLİ – ÖLGÜN** Gavə *atəşli* bir qəlblə inqilaba başladı... (H.Cavid); Zindandan çıxmışdı o qarı *ölgün* (A.Şaiq).

**ATƏŞLİ – SÖNÜK** Bu bəlkə onun *atəşli* fikirləri idi ki, gözlərində odlu qanad çalırdı (Ə.Məmmədxanlı); Söylədiyi *sönük* nitqlə tamaşaçıların rəğbətini qazana bilmədi.

**ATILMAQ – DÜŞMƏK Atıl** cəbhələrə aslanlar kimi (S.Vurğun); Bu səslər altında Zeynəb *düşüb* yerində oturdu (M.İbrahimov).

**ATLI – PİYADA** A kişi, gəzməyin elə bir ləzzəti *piyada* getməkdir, *atlı* getmək ləzzət verməz (Ə.Haqverdiyev).

**ATMAQ – TUTMAQ** Kim isə zəncirləri lom ilə yerə *atır* (M.İbrahimov); Usta gəmiçilər tufanda belə; Sükanı düz *tutur* öz əllərilə (S.Vurğun).

**ATMARALI – HƏYALI** Güldəstə ilə Südabə rəfiqə olsalar da, bir-birindən fərqlənir: Güldəstə *həyalı*, Südabə *atmaralıdır*.

**ATÜSTÜ – ARAMLA** *Atüstü* olsa da qısa bir söhbət; Dönür unudulmaz bir xatirəyə (S.Vurğun); Qaraca qız qalxıb *aramla* geyinməyə başladı (S.S.Axundov).

**AVAM – MƏDƏNİ** Görürəm ki, *mədəni* adamsınız (İ.Fərzəliyev); Naçalnik Qurbanəli bəyə cavab verdi ki, Kərbəlayı Qasım qanmır, *avamdır* (C.Məmmədquluzadə).

**AVAMLIQ – MƏDƏNİLİK** Əlbisəsinin tərzi, biçimi *avamlığını...* andırırdı (S.Hüseyn); Onlar Qasım əminin *mədəniliyi* sayəsində qaçdılar.

**AVAND – ASTAR** Bu parçanın *astarı avandından* gözəldir.

**AVARA – İŞGÜZAR** Qaraca qız da sərxoş və *avara* Yusifin hər bir əzabına dözür (S.S.Axundov); Çox *işgüzar*, əməksevən, intizamlı qadındır (C.Əmirov).

**AVARALIQ – İŞGÜZARLIQ** Bu oğlan *avaralığa* öyrənib, heç bir işdən yapışmaq istəmir. Çünki onu tanıyırdı, *işgüzarlığına* bələd idi (Mir Cəlal).

**AVAZIMAQ – QARALMAQ** Onun qaramtıl çöhrəsi *avazıdı*, sonra boğulub *qaraldı* (İ.Şıxlı).

**AYAQ – BAŞ** Odur ki, sənin *ayağını* biləni bizim *başımız* da bilə bilməz (C.Cabbarlı).

**AYAQÜSTÜ – RAHAT** ...*Ayaqüstü* Kələntər lələşə baş çəkməyi qərara aldı (M.İbrahimov); İndi cücələr *rahat* yeyirdilər (M.İbrahimov).

**AYAQYALIN – BAŞIAÇIQ** Elə alt köynəkdə *ayaqyalın*, *başıaçıq* bayıra çıxdı (İ.Şıxlı).

**AYAR – ÖLÜVAY** Abbas kişi çox *ayar* adamdır, amma qardaşı *ölüvaydır*.

**AYAZ – İSTİ** Kül rəngli havada toz, duman var; Dəhşətli soyuq, *ayaz*, boran var (A.Şaiq); Yorğun adam kimi, elə bil bu an; *İsti* tər tökürdü yerin sinəsi (H.Hüseynzadə).

**AYAZIMAQ – TUTQUNLAŞMAQ** Payızın çiskinli, dumanlı günü *ayazıyırdı* (S.Rəhimov); Belə zamanlarda təbiidir ki, onun gülər üzü bir qədər *tutqunlaşar*, alnını kiçik qırışıqlar örtərdi (M.İbrahimov).

**AYAZLI – İSTİ** Sən, *ayazlı* gecələrdə ulduzların sirdaşısan; Boranların, çovğunların, dumanların qardaşısan (S.Vurğun); Onlar uçdu uzağa; Daha *isti* torpağa (H.Hüseynzadə).

**AYDIN – BULUDLU** Çiskinli və qaranlıq gecəni *aydın* bir səhər əvəz etdi (M.İbrahimov); *Buludlu* qaşqabağı birdən ayazıyıb açıldı (S.Rəhimov).

**AYDIN – TOZLU** Hər şey gün kimi *aydındır* (C.Əmirov); O, *tozlu* yollara baxdı (A.Şaiq).

**AYĞIR – MADYAN Ayğır** başını qaldırıb ilxıya gələn qatıra diqqətlə baxdı (S.Rəhimov); İki *madyana* yaxınlaşandan sonra yenə qayıdıb dəryaya girdi ("Koroğlu").

**AYIQ – BAYĞIN** Xəfiyyə vaxtında üstünə düşüb, yaman *ayıqdırlar* ha! (M.İbrahimov); Qadınların bu hərəkəti, Almazın dalğın duruşu, *bayğın* baxışları, gizli göz yaşları Pakizəni heç açmırdı (A.Şaiq).

**AYIQ – YUXULU** Lakin hər *ayıq* və zirək adamı ağıllı hesab etmək olmaz (M.Talıbov); Gecədir... Kənd *yuxulu*; nə işıq var, nə tüstü (S.Vurğun).

**AYIQLIQ – MƏSTLİK** *Ayıqlıq* və zirəklik ağlın əlamətlərindəndir (M.Talıbov); Ruzigarın əli onun məğrur qulağını burduqda, xudbinlik, lovğalıq və *məstlik* yuxusundan ayılır (M.Talıbov).

**AYILMAQ – BAYILMAQ** Gün dağlara yayıldı; Hər bir yatan *ayıldı* (A.Səhhət); Get onu içəri gətir. Tafta, sən də get, deyəsən *bayılmışdır*, ya da bəlkə ölmüşdür (C.Cabbarlı).

**AYILMAQ – DƏMLƏNMƏK** Yeja bu dəhşətli xəbərdən *ayıldı* (Ə.Vəliyev); Bir stəkan şirin çaxır içən kimi *dəmləndi*.

**AYRI – BİRGƏ** Səndən *ayrı* düşəli; Ah çəkməkdən bağrım qana dönübdür (Aşıq Ələsgər); İki gün sonra raykomun bürosuna *birgə* getdilər (Ə.Vəliyev).

**AYRILMAQ – BİRLƏŞMƏK** Ayna ilə Ayaz küçədə bir-birindən *ayrıldılar* (Ə.Məmmədxanlı); Qadir əllərimizlə *birləşdi* Volqa ilə Don (S.Rüstəm).

**AZ – ÇOX** Bizim qoşunumuz *azdır*, amma qeyrətimiz *çoxdur* (Ə.Haqverdiyev).

**AZ – XEYLİ** Onlar dolana-dolana *xeyli* yol gəlmişdilər (A.Makulu); Çox bilib xalqa *az* xidmət etməkdənsə, *az* bilib çox xidmət etmək min dəfə məsləhətdir (Mir Cəlal).

**AZACIQ – XEYLİ** Həcər qulaq verdi, bu an buludlar *azacıq* hərəkətə gəldi (S.Rəhimov); Axşamdan *xeyli* keçmişdi (A.Məmmədrza).

**AZAD – MƏHKUM** Diləklərin gah *azad*; gah *məhkum* olur sənin (B.Vahabzadə).

**AZADLIQ – MƏHKUMLUQ** *Azadlıq* geniş anlayışdır (S.Vəliyev); Yetər bu *məhkumluq*! Yetər bu zillət! (Şəhriyar).

**AZALMAQ – ARTMAQ** Dostlarım *artıb*; nə qədər *azalıb*; Köhnə dostlar az qalıb (R.Rza).

**AZALMAQ – ÇOXALMAQ** Bir il də keçdi belə; Vicdanın ağrısı *azalmadı, çoxaldı* (B.Vahabzadə).

**AZAR – SAĞLAMLIQ** Köç deyəndə, *azar* alır canını; Yer süpürür sanki qaşıqabağı (M.Müşfiq); Abbas Səhhət şeirlərində "Səhhət" kəlməsini bəzən həm təxəllüs, həm də şəfa, *sağlamlıq* mənasında işlətmişdir.

**AZARLAMAQ – SAĞALMAQ** İndi İmamverdi baba *azarlamışdır* (S.S.Axundov); Tələsmə, o yaranı da *sağaldaram* (H.Abbaszadə).

**AZĞIN – MƏDƏNİ** Hücum edin dörd yandan; Od vurun *azğın* kəndə (A.Şaiq); Onlar istəyir ki, biz də qabağa gedək, *mədəni* xalqlar cərgəsinə çıxaq (M.İbrahimov).

**AZĞINLIQ – MƏDƏNİLİK** Oho, bunun bir *azğınlığına* bax! (A.Şaiq); Əli öz təvazökarlığı və *mədəniliyi* ilə dostlarından fərqlənir.

**AZYAŞLI – BÖYÜK** Fəhləliyə gedən *azyaşlı* uşaqlara xozeyinləri heç bir zaman istirahət günü verməzdilər (H.Sarabski); İsmayılzadə deyir ki, bu il *böyük* bir saray tikəcəyik (Z.Xəlil).

# Bb

**BABAL – SAVAB** Dərin bir dəryadır şair xəyalı; Götürdüm boynuma şəri, *babalı* (R.Rza); İsmət xanım, kömək etməkdə böyük *savab* iş görmüşsən.

**BABAT – PİS** Ruzigarım bir növ *babat* keçir, hacı (N.Vəzirov); Niyə, Məşədi, necə bəyəm, *pis* daşıyıram? (Mir Cəlal).

**BABİ – DİNDAR** Məsələn, mənə deyirlər ki, filankəs *babidir*, yəni mürtəddir (C.Məmmədquluzadə); Atan Hacı Cəfər ilə duz-çörək kəsmişəm, özü də çox *dindar* kişidir (S.S.Axundov).

**BACARIQSIZ – DİRİBAŞ** Elə *bacarıqsızdır* ki, on saata işə sala bilməyəcək (M.İbrahimov); Xala, sən də *diribaş* qarısan (N.Vəzirov).

**BADALAQ – DÜZLÜK** İndi sənin mənə *badalaq* qurmağının heç adı yoxdur (Ə.Haqverdiyev); Onun heç *düzlüklə* işi yoxdur.

**BAĞIRMAQ – SUSMAQ** Səriyyə xala *bağırmaq*, ağlamaq istəyir, bacarmırdı (M.İbrahimov); Bu hay-küydə *susmağı* lazım bildi.

**BAĞIŞLAMAQ – GÜNAHLANDIRMAQ** Mənim dediklərimdə səhv və yanlışlıqlar olsa, *bağışlamağınızı* xahiş edirəm (Mir Cəlal); Əgər məni yalandan *günahlandırmaq* istəyirsinizsə, günahlandırın.

**BAĞLAMAQ – AÇMAQ** Nahar etmək bəhanəsi ilə qapını *bağladım* (Ə.Vəliyev); Bu saatda qayıdarıq, fikir eləmə, sandıqları *aç*! (M.F.Axundzadə).

**BAĞLI – AÇIQ** *Bağlı* qapıya xata dəyməz (Ata. sözü); Səhər *açıq* pəncərədən rəfiqəsini səslədi.

**BAĞRIQARA – XOŞBƏXT** Bir ildir ki, *bağrıqaradır*, müsibət üz vermişdi. Siz ey göy üzündə uçan durnalar; Deyin, *xoşbəxtəmmi*? (S.Vurğun).

**BAHADIR – QORXAQ** *Bahadır* deməzlər hərgiz sayana; Görüm lənət lənət olsun yardan doyana (M.P.Vaqif); Ana yurdu bu şən torpaq; Yetişdirməz xain, *qorxaq* (A.Şaiq).

**BAHAR – QIŞ** Payız ötür, *qış* keçir; *Bahar* qalır arxada (H.Hüseynzadə).

**BAHAR – ZİMİSTAN** Lakin mənim *baharım* solub, *zimistan* oldu (S.S.Axundov).

**BAHARLI – QIŞLI** Ömrün keçdisə də *baharlı*, *qışlı*; Gördün gələcəyi gün kimi aydın (S.Rüstəm).

**BAHARSIZ – QIŞSIZ** *Baharsız*, *qışsız* bu yerlərin nə ləzzəti olar.

**BAKİR – POZĞUN** Bu incə rəqslərdə nə qədər gözəllik, nə qədər *bakir* hissin ifadəsi vardır (Çəmənzəminli); Anna *pozğun* qızdır, onunla oturub-durma.

**BAQİ – FANİ** Bu dünya *fani*, o dünya *baqi* (Ayrım bəzəmələri).

**BALA – BÖYÜK** Xan Soltan qoyunu gözləmək üçün *bala* çobanı dik qayanın başına qaldırmışdı (S.Rəhimov); Elmlə qurulur *böyük* binalar (H.Hüseynzadə).

**BALACA – HÜNDÜR** Dilaranın bacısı boyca *balaca*, amma qardaşı *hündür* idi.

**BALACALAŞMAQ – BÖYÜMƏK** Bir saatın ərzində arıqlamış, *balacalaşmış*, ordları batmış... (M.İbrahimov); O qeyrətli uşaq *böyüyüb* məni hamıdan yaxşı saxlayacaqdır (S.S.Axundov).

**BALACALIQ – BÖYÜKLÜK** ...Bu *balacalıqda* qızın əlində aciz qalmışdı (S.S.Axundov); Gördüyü sonsuz iztirablar içərisində... insanın *böyüklüyü* və ruhi qüdrətini kəşf etdi (Ə.Məmmədxanlı).

**BALQABAQ – BACARIQLI** Xəlil nədir ki, o məni işdən çıxardır, bunlar da *balqabaq* kimi durub baxırlar (M.Hüseyn); Yəqin o şofer *bacarıqlı* adamdır, gözüaçıqdır (M.İbrahimov).

**BAMBALACA – UZUNDRAZ** *Bambalaca* bir uşaq; Pəncərədən baxırdı (İ.Tapdıq); Onun nəyinə baxım, *uzundrazın* biridir.

**BAMBILI – AĞIR** Həmin bu mərkəzin bərəkətindəndir ki, mən bu *bambılı* Əhmədin yanında olmuşam bir balaca uşaq... (C.Məmmədquluzadə); *Ağır* adamdır, hərdənbir başını qaldırıb məclisə göz gəzdirirdi.

**BAMƏZƏ – QARADİNMƏZ** O çox *baməzə* qoca idi. Zarafat etməyi və lətifə söyləməyi çox sevərdi (M.S.Ordubadi); Usta *qaradinməz* bir kişi idi, haraya isə tələsirdi (Ə.Sadıq).

**BARBARLIQ – MƏDƏNİLİK** ...Rica edirəm, sözlərinizə diqqət edin, yüksək cəmiyyətdə belə rəftar *barbarlıqdır* (C.Cabbarlı); *Mədənilik* cəhalətin düşmənidir.

**BARIŞIQLIQ – KÜSÜLÜLÜK** Oğlanla qızın valideynləri arasında *barışıqlıq* oldu. Aralarındakı *küsülülük* hələ davam edirdi (Ə.Məmmədxanlı).

**BARIŞMAQ – DALAŞMAQ** Mən küsməmişəm ki, *barışam*. Mən *dalaşmaq* fikrində deyiləm (C.Əmirov).

**BARIŞMAQ – VURUŞMAQ** Xosrov deyirdi ki, gəlsin *barışaq* (S.Vurğun); Biz də aşpazlarla *vuruşmuşuq* (S.Vəliyev).

**BASABAS – SEYRƏKLİK** Vaqonlarda *basabas* idi (Mir Cəlal); ...Göz işlədikcə uzanan bu düzənliklərdə ağacın azlığı, kölgəliyin *seyrəkliyi* Gülşəni yay kimi əyirdi (Ə.Vəliyev).

**BASDIRMAQ – ÇIXARTMAQ** Çox pakizə... Sübh tezdən hamısını *basdıraram* (N.Vəzirov); O dirəkləri *çıxartmaq* lazımdır, əl-ayağa dolaşır.

**BASMAQ – AÇMAQ** Dərhal qapını *basıb*, mətbəxə qayıtdı (Mir Cəlal); *Aç* gözün, gözlərinin qurbanı; Bir tamaşa elə, gör dünyanı (A.Səhhət).

**BASMAQ – BURAXMAQ** Nəriman... bu adamın əllərini tutdu, dizi ilə boğazını *basdı* (Mir Cəlal); Barmaqları boşalıb kağızı *buraxdı*. B.Talıblı.

**BAŞAĞRISI – RAHATLIQ** Bizə *başağrısı* verməyin, canım (S.Rüstəm); Sizin əlinizdən mənə *rahatlıq* yoxdur.

**BAŞ-AYAQ – DÜZ** A kişi, sən *baş-ayaq* nə üçün danışırsan (A.Şaiq); Sən ona *düz* deyirsən ki, oxumaq kasıblara müyəssər olmurdu (Mir Cəlal).

**BAŞDANSOVDU – DİQQƏTLİ** Mehmanın *başdansovdu* sözündən, soyuq söhbətindən sonra gələn adamlar dağılışıb getdilər (S.Rəhimov); Bu elələrinə oxşamır, özü də çox *diqqətli* və səmimidir (M.İbrahimov).

**BAŞIALOVLU – TƏMKİNLİ** Nənəqız *başıalovlu* bazarı axtarıb qızını tapdı (S.Rəhimov); Cəmil özünü sakit, *təmkinli* bir şəxs kimi aparırdı.

**BAŞIAŞAĞI – BAŞIYUXARI** Sərdar evlərinin qabağında bir daxmaya girib səhərdən axşama kimi *başıaşağı* iynə vurmaqdadır (C.Məmmədquluzadə); Lado ... *başıyuxarı* Cəbrayılın evinə tərəf getməyə başladı (S.Rəhimov).

**BAŞIAŞAĞI – DİKBAŞ** Səfər ... fağır, *başıaşağı* bir oğlandı (Ə.Haqverdiyev); Salman şapalaq yemiş *dikbaş* uşaq kimi dönüb dalınca baxmadan payızlığın yanından adamlara tərəf getdi (M.İbrahimov).

**BAŞIAŞAĞILIQ – DİKBAŞLIQ** *Başıaşağılıq* insanı həmişə hörmətləndirər. *Dikbaşlıqdan* yerə-göyə sığmırsan! (M.İbrahimov).

**BAŞIBƏLALI – BƏXTLİ** Nə soxulmusan araya, a *başıbəlalı* fələ? (M.Ə.Sabir); Ağəli isə doğrudan da, deyəsən, *bəxtli* adam idi (C.Əmirov).

**BAŞIBOŞ – AĞILLI** Sərdar *başıboşdur*, ağlına nə gəlir onu deyir. Gəl, *ağıllı* oğlum, rahat ol, bir seyid qonağımız da var (S.S.Axundov).

**BAŞIDAŞLI – XOŞBƏXT** Ay *başıdaşlı* kişi, dinmə, uşaqdır, uşağım (M.Ə.Sabir); *Xoşbəxt* həyat onu sevindirirdi.

**BAŞIDOLU – BAŞIBOŞ** Çünki doğrudan da *başıdolu* oğlansan (Ə.Haqverdiyev); Özünü *başıboş* adam kimi aparır.

**BAŞILOVLU – SAKİT** Kişi yuxudan dik atıldı, *başılovlu* yazı stoluna sarı qaçdı (Mir Cəlal); Katibin *sakit*, hətta uşaq və mehriban səsi heç bir şey bildirmirdi (M.İbrahimov).

**BAŞIPOZUQ – İNTİZAMLI** Ətraf küçələr *başıpozuq* camaatla dolu idi (M.S.Ordubadi); Bizim tələbələr iməciliyə *intizamlı*, mütəşəkkil çıxmışlar.

**BAŞISOYUQ – DİQQƏTLİ** ...Aldığını və eşitdiyini düşünməyəcək, çaşqın, *başısoyuq* adamlardan deyiləm... (A.Şaiq); Uşaqlar, *diqqətli* olun ha! (M.İbrahimov).

**BAŞISOYUQLUQ – DİQQƏTLİLİK** Bu hələ özü də *başısoyuqluqdur* (C.Cabbarlı); Rəhbərlikdən işçilərə qayğıkeşlik, *diqqətlilik* tələb olunur.

**BAŞQA – DOĞMA** Yaşamağın qanunu da bəlkə budur: Hər dəfn olan özü deyil; *Başqası* tək dəfn olunur... (M.Araz); Ona *doğma* ikən yad olan kəsi; Doğma kənd *doğma* tək bağrına basdı (H.Hüseynzadə).

**BAŞQALAŞMAQ – DOĞMALAŞMAQ** Bir də sevgilimi aldatmaq üçün; Dəyişib cildimi *başqalaşmadım* (S.Vurğun); Bu yerlər elə bil mənə *doğmalaşdı*.

**BAŞQALIQ – DOĞMALIQ** Bu kərrə sizdə bir *başqalıq* vardı (S.Hüseyn); Buna baxmayaraq, burada Güləbətin qəribə bir *doğmalıq* hiss edirdi (M.İbrahimov).

**BAŞLAMAQ – QURTARMAQ** Lakin danışığı haradan *başlasalar*, axırda yenə yaş söhbətlə *qurtarır* (Çəmənzəminli).

**BAŞLAMAQ – TAMAMLAMAQ** Qaranquş baharı *başlayır*, bülbül *tamamlayır*.

**BAŞLI – KÜT** Dünən evinə gələn kim imişsə, *başlı* adam imiş, "içərilərdən" gəlmişmiş (Mir Cəlal); *Küt* uşaqdır, ondan oxuyan çıxmaz.

**BAŞLIQ – SONLUQ** "Bir ömür yolunda"... bu *başlıq* nədi? (M.Araz); Aldanmısan *sonluğu*; Toyla bitən nağıla… (N.Kəsəmənli).

**BAŞSIZ – AĞILLI** Bu *başsız* uşaq başa düşür ki, öz hərəkətləri ilə özünə dost qazanmır. Çox *ağıllı* və namuslu qız imiş (M.İbrahimov).

**BATABAT – ÇIXAÇIX** Günün *batabat* zamanı idi (M.İbrahimov); Mən evdən *çıxaçıxda* o məni yaxaladı.

**BATAQLI – QURU** *Bataqlı* küçələr düzəlib, gecələr elektrik ilə işıqlanırdı (S.S.Axundov); Mahmud... *quru* ot-ələf yığılmış çardağın altına girdi (Ə.Əbülhəsən).

**BATAQLIQ – QURULUQ** Küçənin ortası hər zaman *bataqlıq* və palçıq olurdu (S.Rəhman); Adanın *quruluq* hissəsində oturub dənizə tamaşa edirdik (M.İbrahimov).

**BATIQ – ÇIXIQ** Qoy onun o quyuya düşmüş *batıq* gözləri lap kəlləsinə çıxsın (S.Rəhimov); Elə bil onun gözü yerindən oynamış, *çıxıq* kimi görünürdü.

**BATİN – ZAHİRİ** Bu adamın *zahiri* quruluşu kimi, *batini* həyatının da çox maraqlı olduğunu onun hər sözündən, hər hərəkətindən anlamaq olurdu (A.Şaiq).

**BATİNİ – ZAHİR** Niyə qoyun başlı qurdların ürəyinə işıq salmır ki, *zahirdə* qızılgüldür, amma *batində* onun tikanlarıdır (Ə.Haqverdiyev).

**BATIŞ – ÇIXIŞ** Günəşin *batışı* ilə *çıxışı* gözəl olur. Günorta yerində olanda ona heç baxan da olmur (Çəmənzəminli).

**BATMAQ – ÇIXMAQ** Vallah özümü elə itirmişəm ki, bilmirəm gün haradan *çıxır*, harada *batır* (Ə.Haqverdiyev).

**BATMAQ – TƏMİZLƏMƏK** Üstümbaşım qana və qanlı torpağa *batmışdı* (M.S.Ordubadi); Paltosunun tozunu *təmizlədi*.

**BAYAĞI – MƏNALI** Rəsulovun şirin dili, dərin *mənalı* baxışı o dəqiqə öz təsirini göstərdi (C.Əmirov); *Bayağı* adamlar yadıma düşəndə qanım qaralır (M.İbrahimov).

**BAYAĞI – MÜRƏKKƏB** Nə qədər *bayağı* cavab verirsən, Qaraş! (M.İbrahimov); İndi beynəlxalq vəziyyət çox *mürəkkəbdir*.

**BAYAQ – DÜNƏN** Mən *bayaq* zarafat eləmirdim (Elçin); *Dünən* bu hadisə onu bərk əsəbiləşdirmişdi (M.İbrahimov).

**BAYAT – TƏZƏ** Sonra anam dedi ki, iki tikə çörəyimiz qalıb, özü də *bayatdır*, isti çörək al, atan gəlib *təzə* çörək yesin (M.İbrahimov).

**BAYĞIN – AÇIQ** Almazın dalğın duruşu, *bayğın* baxışları, gizli göz yaşları Pakizəni heç açmırdı (A.Şaiq); Sabirin yazdığı şeirlərin çoxu *açıq* və sadə ana dilində olub məişətimizin eynini göstərməyə görə əzbər öyrənilirdi (F.Köçərli).

**BAYRAM – YAS** Xanın *bayramıdır*, elin *yasıdır* (S.Rüstəm).

**BEHİŞT – CƏHƏNNƏM** Pərvərdigara, belə müqəddəs kişi *cəhənnəmə* düşəndə bəs *behiştə* kim göndəriləcək? (Ə.Haqverdiyev).

**BEHİŞTLİK – CƏHƏNNƏMLİK** Onu bilirəm ki, *behiştlik* atan güclə yadımdadır (Çəmənzəminli); Dərvişsiz olan məmləkətin şöhrəti olmaz; Dünyası *cəhənnəmlik* olar, cənnəti olmaz (Ə.Vahid).

**BEKAR – İŞGÜZAR** Ay qız, *bekar* dayanma, tez ol, onun cibindəki tapançanı çıxart (C.Əmirov); Muxtar Zeynalovu *işgüzar* və gözütox bir adam kimi tanıyırdı (Ə.Vəliyev).

**BEKARÇILIQ – İŞGÜZARLIQ** *Bekarçılıqdan* darıxıram (C.Əmirov); Çünki onu tanıyırdı, *işgüzarlığına* bələd idi (Mir Cəlal).

**BƏD – ŞAD** *Şad* xəbəri tez çatdırmağa heç vaxt tələsmir, *bəd* xəbəri tez deməyə ürəyi atlanır (F.Kərimov).

**BƏD – YAXŞI** Məsləhətin *bəd* deyil, ağlıma yatır (S.S.Axundov); Özünü deyin, harda *yaxşı* qan aldırmaq olur? (Ü.Hacıbəyov).

**BƏDBƏXT – BƏXTİYAR** Gərçi bu *bədbəxt* özü elmə həvəskardır (M.Ə.Sabir); Axırımız məsud, gələcəyimiz *bəxtiyardır*, – dedim (M.S.Ordubadi).

**BƏDBƏXT – XOŞBƏXT** Ailəmizə üz verən böyük və *bədbəxt* faciəni sizə bildirməyə məcbur oldum (M.S.Ordubadi); Xeyr, əşi, mənim alma bağım olsaydı, özümü dünyada ən *xoşbəxt* adam sayardım (C.Əmirov).

**BƏDBƏXTLİK – BƏXTİYARLIQ** Get-gedə kəndi kasıblıq və *bədbəxtlik* bürüyürdü (A.Şaiq); Körpə anasını itirdi birdən; Qanadı büküldü *bəxtiyarlığın* (Q.İlkin).

**BƏDBƏXTLİK – XOŞBƏXTLİK** İndi isə vaxtımı iyirmi nəfər yetimlə keçirib, gələcək *bədbəxtliyi* gözləyirəm (M.S.Ordubadi); *Xoşbəxtlikdən* Qaraş içəri gəlmədi, deyəsən, köynəyini çıxarıb yuyundu (M.İbrahimov).

**BƏDXAH – XEYİRXAH** O vədə öz babalarının əməllərindən xəcalət çəkib *xeyirxahları* ilə *bədxahlarını* əlbəttə tanıyacaqdır (Ə.Haqverdiyev).

**BƏDXAHLIQ – XEYİRXAHLIQ** Lakin bir il sonra xanımın heç kəsə *bədxahlıq* edən adam olmadığını gördükdə... Güləbətin az-çox yazı-pozu bildiyini ondan gizlətməməyi qərara aldı (M.İbrahimov); *Xeyirxahlıq* adamın nüfuzunu və hörmətini qaldırır.

**BƏDXƏRC – QƏNAƏTCİL** Arvadının niyə bu qədər tələbkar, *bədxərc* olduğuna dair suallara cavab tapa bilmirdi (Ə.Vəliyev); Havayı yerə pul xərcləməz, *qənaətcildir*.

**BƏDXƏRCLİK – QƏNAƏTÇİLİK** *Bədxərclik* və israfla, səxavət və əliaçıqlıq arasında fərq vardır (M.Talıbov); *Qənaətçilik* çox faydalıdır.

**BƏDLİK – YAXŞILIQ** Lakin *bədlikdən* iki zırpı it də onlarla gəlirdi (M.Talıbov); Üç il bundan qabaq uşaqlar haqqında *yaxşılıq* indi də mənim yadımdan çıxmır (Ə.Haqverdiyev).

**BƏDSİFƏT – GÜLƏRÜZ** *Bədsifət* adamdır, qaşqabağından zəhər yağır. Həmişə *gülərüz* gördüyüm Səlim indi bomboz bozarmışdı.

**BƏXTƏVƏR – BƏDBƏXT** Getmə, getmə, görüm kimin yarısan? Hansı *bəxtəvərin* vəfadarısan? (Aşıq Qurbani); Bu... *bədbəxtin* öküzünü aparıbsan, binəvanın əlini qoynunda qoymusan (Ə.Haqverdiyev).

**BƏXTƏVƏRLİK – BƏDBƏXTLİK** Dərdim var, ay başına dönüm, sirrim var, mən *bəxtəvərlikdən* buraya gəlməmişəm (B.Talıblı); *Bədbəxtlik* onu basıbdır.

**BƏXTİQARA – XOŞBƏXT** Bu qaragözlüləri bunca sevmişəm, Vahid! Nə yaxşı olmamışam *bəxtiqarə*, şükür olsun! (Ə.Vahid); Ah, sən nə *xoşbəxt* uşaqsan (S.S.Axundov).

**BƏLA – XOŞBƏXTLİK** Kiçik bir xəta böyük *bəlalar* törədir (M.İbrahimov); Əfsus ki, yazıq Nurəddin üçün bu *xoşbəxtlik* çox çəkmədi (S.S.Axundov).

**BƏLALI – UĞURLU** O şair mədh edir min bir gülzarı; *Bəlalı* aşiği, sevdalı yarı (S.Vurğun); Mənim tərifimdən, ey *uğurlu* quş; Onun qəlbindəki tikanı qopar (S.Rüstəm).

**BƏLƏD – NAŞI** Dadaş... sən dediyin adamların heç birinə mən *bələd* deyiləm (C.Məmmədquluzadə); Necə *naşı* bağbanam ki; Bir çiçəyi mənim olmaz (M.Ələkbərli).

**BƏLƏDLİK – NAŞILIQ** Döyüş işinə nəzəri cəhətdən o qədər *bələdliyim* yoxdur (Mir Cəlal); İndi, yoldaş, neçə il *naşılıq* eləyəcəksən? (Mir Cəlal).

**BƏLƏKLİ – AÇIQ Bələkli** iki körpə baş-ayaq nənnidə yatırdı (M.İbrahimov); Uşağın qundağı *açıq* idi.

**BƏLƏMƏK – AÇMAQ** Sona sevə-sevə, oxşaya-oxşaya qızı Məryəmi *bələyirdi* (A.Şaiq); Süngülər açmayan yolu *açdın*; Qələmindən cavahirat saçdın (A.Səhhət).

**BƏRƏKƏTLİ – YARARSIZ** Bu il rayonun, doğrudan da *bərəkətli* illərindən biri idi (S.Rəhimov); *Yararsız* yerləri yararlılaşdırmaq lazımdır.

**BƏRƏKƏTSİZ – YARARLI** Sanki havadan un ələnirdi. Ancaq bu *bərəkətsiz* un yeri ağartmırdı (Mir Cəlal); ...Usta zeynallar özlərini dünyada ən ağıllı, işgüzar və *yararlı* adam hesab edirlər (M.İbrahimov).

**BƏRİ – ORA** Yaxşı deyil, *bəri* gəl! (M.Hüseyn); ...Bu gün uşaqları da götürüb *ora* gedək (Ə.Vəliyev).

**BƏRK – BOŞ Bərkdə** də, *boşda* da sözü bir olub; Şərəfli, şöhrətli adlı babalar (H.Hüseynzadə).

**BƏRK – ZƏİF** Əgər bircə dəqiqə *bərk* külək əssə və ya bir təsadüf dolayısı ilə ayağı sürüşsə, fəhlə dənizə düşəcəkdir (M.Hüseyn); Qazmaların və çadırların ancaq bir neçəsindən çox *zəif* işıq gəlirdi (Ə.Sadıq).

**BƏRKİMƏK – BOŞALMAQ** – Hə, *bərkidi*, bala, gedək budkaya... (G.Hüseynoğlu); Əvvəldən yaxşı danışdı, sonra birdən *boşaldı* (M.F.Axundzadə).

**BƏRKİMƏK – YUMŞALMAQ** Üç-dörd ayda cəbhədə bir qat daha *bərkidi* (S.Rüstəm); Onadək də bəlkə əmim bir tövr *yumşaldı* (Ə.Haqverdiyev).

**BƏRKLİK – BOŞLUQ** Mənim barmaqlarım kobudluqda, *bərklikdə* oymaqdan qalmaz (Ə.Əbülhəsən); Bəy, özü də *boşluq* eyləyibsən (Ə.Haqverdiyev).

**BƏRPA – BƏRBAD** İstehkamçı mühəndis deməkdir, yəni körpü tikəcək, yolları *bərpa* edəcək, səngər quracaqsınız (Mir Cəlal); Bütün əməyim *bərbad* oldu.

**BƏSİT – MÜRƏKKƏB** Həyat haqqında sənin təsəvvürlərin nə qədər *bəsitdir*, Güləbətin! – dedi (M.İbrahimov); *Mürəkkəb* işdən hər adamın başı çıxmır.

**BƏSTƏ – HÜNDÜR** Eldə bir qız sevmişəm; Alagöz, boyu *bəstə* (Bayatı); Əkbər boyca *hündürdü*.

**BƏSTƏBOY – UCABOY** Təqribən on-on beş yaşlı, *bəstəboy*, badamı qaragöz bir qız Mayanın diqqətini cəlb etdi (M.İbrahimov); *Ucaboy*, enlikürək bir şofer maşından çıxıb Yeja ilə söhbət etdi (Ə.Vəliyev).

**BƏY – QUL** Söymə *qul* atamı, söyməyim *bəy* atana (Ata. sözü).

**BƏY – NÖKƏR** Özü də şəhərimizin birinci *bəyidir*. *Nökəri* də qapımızda xanıma müntəzirdir (S.S.Axundov).

**BƏZƏN – HƏMİŞƏ** Maralın vahiməsi Cumanı *bəzən* min cür pis fikrə, şübhəyə salırdı (Ə.Əbülhəsən); [Almaz:] Mənim

qapım dostlarımın üzünə *həmişə* açıqdır (C.Cabbarlı).

**BƏZZAT – ALİCƏNAB** Yoxsa vurulmusan qıza, ay *bəzzat*? (S.Rüstəm); *Alicənab* adammış (S.Rüstəm).

**BİC – AĞILLI** Bildi ki, oğlu necə *bic* və haramzadədir (M.F.Axundzadə); Yorulduq dəlilərdən, gəlmədi bir *ağıllı* (Ata. sözü).

**BİCA – MƏNALI** İmanın olsun, ay kişi! Niyə *bica* söz danışırsan? (M.İbrahimov); Rüstəm kişi onların üz-gözündə *mənalı* bir ifadə gördü (M.İbrahimov).

**BİCLİK – DÜZLÜK** Çərçizadə nə qədər *bicliyi*, bacarığı, istedadı vardı, ortaya çıxartdı (Ə.Vəliyev); Bərəkət ondur, onu da *düzlük* (Ata. sözü).

**BİÇARƏ – ZALIM** *Biçarə* münəccimbaşının ərvahı uçub, başladı yarpaq kimi titrəməyə (M.F.Axundzadə); ...*Zalım* xanımın qorxusundan tir-tir əsirdi (S.S.Axundov).

**BİÇİMLİ – YARAŞIQSIZ** Nazik və *biçimli* dodaqları iyul günəşindən solan qızılgülün yarpağı qədər küskün idi (M.S.Ordubadi); Daxilən gözəl olsa da, zahirən *yaraşıqsız* idi.

**BİÇİMSİZ – YÖNDƏMLİ** Qısaboylu, *biçimsiz* bir adam sol ayağını çəkə-çəkə içəri girdi (A.Şaiq); Heç olmasa, sir-sifəti *yöndəmli* idi (“Ulduz”).

**BİDAR – YUXULU** Eyləyibsən məni eşqə giriftar;Gündüzüm biqərar, gəncələr *bidar* (M.P.Vaqif); *Yuxulu* gözləri ilə baxdı (Ə.Vəliyev).

**BİGANƏ – DOĞMA** *Biganəsən*, olmaz məni görmək sənə qismət! (A.Səhhət); Ora ki özünün *doğma* yurdu idi (S.Hüseyn).

**BİGANƏLİK – DOĞMALIQ** Xalqla dövlət arasında ədavətin, *biganəliyin* əsil səbəbi ruhanilərdir (M.F.Axundzadə); *Doğmalıq* kəlməsi dilinin əzbəri idi.

**BİKAR – İŞLƏK** Mənim işim elə düşübdür ki, bir dəqiqə *bikar* otura bilməyirəm (N.Vəzirov); Qızxanım əri kimi *işlək*, xoşxasiyyətli, namuslu bir qadın idi (S.S.Axundov).

**BİKARÇILIQ – ÇALIŞQANLIQ** Oxucularımızdan iltimas edirəm ki, ...Əhməd bəyin *bikarçılıqdan* yazdığı altı sütunlu baş məqaləyə diqqət etsinlər (C.Məmmədquluzadə); Bu təriflər onun *çalışqanlığı* ilə bağlıdır.

**BİKEF – ŞAD** Yoldaşlar, daha bundan sonra məni *bikef* görməzsiniz (Ə.Haqverdiyev); Qaraca qız isə ürəyində bu işə *şad* idi (S.S.Axundov).

**BİQEYRƏT – NAMUSLU** Sən bacının yerinə məni [ərə] verirsən, ay *biqeyrət?!* (B.Talıblı); *Namuslu* qadın həyasından qışqırmırdı ki, səsini qonşuları və oğlu eşidər (S.S.Axundov).

**BİQƏM – DƏRDLİ** Layiq deyil sənə nakəsi-*biqəm*; Adam gərək ola adama həmdəm (M.P.Vaqif); *Dərdli* söylədiyini dəli söyləməz (Ata. sözü).

**BİLDİR – İNDİ** Mən ləqəb sözünü *bildirə* kimi bilməzdim (C.Məmmədquluzadə); Onlar *indi* xoşbəxt yaşayırlar (Ə.Vəliyev).

**BİLDİRKİ – İNDİKİ** Al bu canımı, *bildirki* ziyanın çıxsın (Raci); Heç zaman qəm-qüssə *indiki* qədər ürəyimi sıxmamışdı (İ.Əfəndiyev).

**BİNAMUS – HƏYALI** Atamın qanını unutmaq üçün mən gərək bişərəf və *binamus* bir adam olam (M.İbrahimov); Qan, *həyalı*, namuslu qadının başına sıçradı, əlini çəkib şala büründü (S.S.Axundov).

**BİNƏVA – ZALIM** *Binəva* kişi belə fikir edirdi ki, bəli, mənim oğlum oxuyub böyük yaranal olub gələcək (Ə.Haqverdiyev); Nə yaman dərd imiş *zalım* ayrılıq (Molla Cümə).

**BİRBAŞA – DOLAYI** Yazıq muzdur qolu boynunda sınıqçıdan qayıdıb, *birbaşa* öz xozeyninin yanına gəldi (S.M.Qənizadə); Mister Tomas ingilislərə məxsus bir soyuqluqla məsələni *dolayısı* ilə Həkimülmülkə bildirməyi qərara aldı (M.İbrahimov).

**BİRDƏN – YAVAŞCA** İmran *birdən* gülümsündü (Ə.Vəliyev); Bir dəfə səhv elədin, *yavaşca* üstündən keçdim (Ə.Vəliyev).

**BİRGƏ – AYRICA** Gənclik kitabının yarpaqlarını; İki il onunla *birgə* çevirdin (M.Müşfiq); *Ayrıca* otağınız var, hər şeyi də içində (C.Əmirov).

**BİRİNCİ – AXIRINCI** Bu sözü *birinci* kim dedi, *axırıncı* kim dedi (G.Hüseynoğlu).

**BİRLİK – AYRILIQ** Bizi ruhlandıran bu şanlı *birlik*; Bu qüdrət, bu qüvvət, məhəbbət olmuş (M.Rahim); *Ayrılıq* həyəcanlı vücudunu tutmuşdu (Çəmənzəminli).

**BİRLİKDƏ – AYRILIQDA** Mənim yeganə arzum sizin onunla *birlikdə* qurmaq istədiyiniz xoşbəxtliyi görməkdir (M.S.Ordubadi); *Ayrılıqda* görülən işlər səmərəsiz olur.

**BİRLİKDƏ – TƏKLİKDƏ** Sənin ilə mənim dərdimiz bəlli; *Birlikdə* taparıq bəlkə təsəlli… (Ə.Cavad); *Təklikdə* çaylaq daşıyam; Məni qoymayın təklənəm! (M.Araz).

**BİŞMİŞ – ÇİY** *Bişmiş* süd, yağ, ılıq yumurta, ağ çörək süfrəni bəzədi (Ə.Vəliyev); Hanı burada qədrini bilən; Bəli, *çiy* süd əmib əzəldən insan (H.Hüseynzadə).

**BİTİŞİK – AYRI** Pəri Soltanın evi zindana *bitişik* idi (Nağıl); Vətəndən *ayrı* düşüb, indi naməkan ölürəm (Natəvan).

**BİTİŞMƏK – AYRILMAQ** Borular bir-birinə *bitişdi* (M.Hüseyn); Mən səndən ayrılmaq istəmirəm, ayrıla bilmirəm, ancaq *ayrılıram* (C.Cabbarlı).

**BİTKİN – YARIMÇIQ** Şeir, mədh, qəzəl, həcv, mərsiyə və s. yazdıqda o barədə nə mümkünsə, hamısın de, *bitkin* bir əsər yarat, heç vaxt *yarımçıq* yazma ("Qabusnamə").

**BİTMƏK – QURUMAQ** Ot kökü üstə *bitər* (Ata. sözü); Bir damcıya möhtac idim; *Qurumuşdu* bağça-bağım... (Şəhriyar).

**BİVƏFA – ETİBARLI** Nə gərək sevdiyim o *bivəfanı*; Nə də belə hicran dağı görəydim (Q.Zakir); Sabah bizim ailənin ən *etibarlı* üzvü sayılırdı.

**BIY – VAY** *Bıy*, nə qəşəng ceyrandır, bunu haradan almısan (Mir Cəlal); *Vay* öldüm, vay öldüm, kömək ediniz (S.Rüstəm).

**BOĞUCU – TƏMİZ** Göytəpənin üstünə *boğucu*, ağır qaranlıq çökmüşdü (İ.Şıxlı); Gecə yağış yağdığına görə səhərin havası çox saf və *təmiz* idi (S.S.Axundov).

**BOĞUQ – AYDIN** Allahyar kənd itlərinin *boğuq* səsini eşidib ürəkləndi (İ.Şıxlı); Kükrəyib daşan Kürün qıjıltısı daha *aydın* eşidilirdi (İ.Şıxlı).

**BOL – AZ** Həkim də buyurmuşdu ki, çoxlu süd və *bol* yumurta yesin (S.S.Axundov); Sizin sözünüzün kəsəri *azdır*! (S.Vurğun).

**BOLLUCA – AZCA** Ona yemək vermə, içmək vermə, *bolluca* nağıl söylə (S.S.Axundov); Qoy bu gün *azca* danışsın.

**BOLLUQ – KASADLIQ** O, çörək dostudur, *bolluq* carçısı (Abbasağa); Heç, elə-belə bazarın *kasadlığı* ovqatımı təlx eləyib (Ə.Haqverdiyev).

**BOLŞEVİK – MENŞEVİK** *Bolşevik* nə aldanır, nə də təslim olur (M.S.Ordubadi); Əşi, *menşeviklər* tülkü kimidir; bir az təpinəndə sıpıxır bir-bir... (S.Vurğun).

**BOMBOŞ – DOPDOLU** Anasının hər zaman bəzəkli saxladığı bu otaq *bomboş* idi (S.Rəhman); Tamaşa salonu ağzına kimi *dopdoludur* (C.Cabbarlı).

**BORANLI – İSTİ** Payız çatanda axıra *boranlı*, qarlı qış yetər (A.Səhhət); Nə gözəldir dolaşmaq *isti* yay fəsilləri; Bu sərin sahilləri (M.Müşfiq).

**BORANLIQ – İSTİLİK** Atasız tifilləri basdı *boranlıq*, bizə nə; Tapmayır ac-yalavaclar güzəranlıq, bizə nə? (M.Ə.Sabir); Oğlunun *istiliyini* görən ana gözlərinə dəm verir (Ə.Vəliyev).

**BOŞ – BƏRK** Yetişib köməyə, çatıb haraya; Ona *bərk* də tanış, *boş* da tanışdır (H.Hüseynzadə).

**BOŞ – DOLU** Otaq *dolu* idi, *boş* kürsü yox idi (M.S.Ordubadi).

**BOŞ – ƏSASLI** *Boş* danışmaqdan nə çıxar, ay balam (M.Ə.Sabir); Bu dairə ittifaqın işini *əsaslı* surətdə yoxlardı (S.Rəhimov).

**BOŞ – MÖHKƏM** Danışığı, mühakimələri *möhkəmdir* (M.İbrahimov); Bəlkə *boş* adam olmadı (C.Əmirov).

**BOŞALMAQ – BƏRKİMƏK** Əvvəldən yaxşı danışdı, sonra birdən *boşaldı* (M.F.Axundzadə); Dostluq bərk ayaqda *bərkiyər* (B.Vahabzadə).

**BOŞALTMAQ – DOLDURMAQ** Piri kişi torbadakı arıları bir boş pətəyə *boşaltdı* (S.S.Axundov); Salatın dizi üstə çöküb onları yığdı, səliqə ilə qutuya *doldurdu* (İ.Şıxlı).

**BOŞALTMAQ – YÜKLƏMƏK** Qonaqlar hamısı piyalələrini Əkbərin sağlığına *boşaltdılar* (Ə.Haqverdiyev); Vaxt itirməyib atları *yüklədilər* və yola rəvan oldular (S.S.Axundov).

**BOŞBOĞAZ – BAŞIAŞAĞI** Vera da atası kimi ciddidir, sadədir, çoxdanışan və *boşboğaz* deyil (S.Rəhimov); Aslanı hamı *başıaşağı*, heç kəslə işi olmayan adam kimi tanıyır.

**BOYNUBURUQ – ZALIM** Gözü yolda *boynuburuq* qalınca; Ölüm aşiqlərə xoş səadətdi (Q.Zakir); Ey *zalım* xan! *Zalım* xan! Sən qorxub öz canından; Yurdu versən hər yada; Kor olasan dünyada (S.Vurğun).

**BOYNUYOĞUN – ZƏHMƏTKEŞ** Məşədi Əbdülbağı razı olmamışdı ki, dörd yüz on manat verilsin *boynuyoğun* molla Qivama (C.Məmmədquluzadə); Nənəcan ağıllı, işsevən, *zəhmətkeş*, mehriban, qeyrətli bir qadın idi (N.Nərimanov).

**BOZ – AYDIN** Sabah, Allah qoysa, qurtarrıq, hava *bozdur*: bu dəxi yaxşıdır (N.Vəzirov); Yağış nə qədər gurultulu yağsa, o qədər sonra hava xoş və *aydın* olur (A.Divanbəyoğlu).

**BOZ – YUMŞAQ** Qəhrəmanın ciddi təkidi müqabilində Rüstəm acıqlanır, ona *boz* sifət göstərirdi (S.Rəhimov); ...Yasəmən iyirmi yaşında, gözəl, *yumşaq* təbiətli, şad ürəkli bir qadın idi (S.S.Axundov).

**BOZARMAQ – AÇILMAQ** Payız fəsli olduğu üçün hava yaman *bozarmışdı* (A.Makulu); Bir-iki dəqiqə davam edən yağışdan sonra göy *açılmağa* başladı (Çəmənzəminli).

**BOZARMAQ – QIZARMAQ** Qızın rəngi kül kimi *bozarmışdı* (M.Hüseyn); Utandığından rəngi *qızarmışdı* ("Azərbaycan").

**BOZLUQ – AÇIQLIQ** Dağlara yaxınlaşdıqca aran təbiətinin *bozluğu*, kasıblığı hiss edilmədən geridə qalırdı (M.Eynullayeva); Bu gün havanın *açıqlığı* adama ləzzət verirdi ("Ulduz").

**BÖYÜK – KİÇİK** – Bu mənim qızım və bu da *kiçik* oğlumdur, *böyük* qardaşları Tiflisdə oxuyur (S.S.Axundov).

**BÖYÜTMƏK – KİÇİLTMƏK** *Böyütmək* istəyir öz meydanını; Al-yaşıl geyinib gələn bahar da (Ə.Haqverdiyev); Otağın arasını kəsib *kiçiltmək* istəyir.

**BUĞDAYI – AĞYANIZ** Biri sərasər ağ, həm siyah teli; Biri *buğdayıdır*, amma şəkilli (M.P.Vaqif); Qapını *ağyanız* bir oğlan uşağı açdı.

**BUXOVLAMAQ – AÇMAQ** Daha deyirlər, daşmır; Bəndlər onu *buxovlayıb* (Mir Cəlal); Paltonu çiyninə atıb qapını *açdı* (S.S.Axundov).

**BULANMAQ – AÇILMAQ** Lakin ruzigar hələ tez-tez *bulanırdı* (M.İbrahimov); Göyün üzü *açıldı*.

**BULANMAQ – YAXŞILAŞMAQ** Axşam yaxınlaşdıqca Həsən kişinin əhvalı *bulanırdı* (M.İbrahimov); Tapdıq vücudca *yaxşılaşmışdır* (Ə.Vəliyev).

**BULAŞIQ – TƏMİZ** Bilmirsən axşamdan qalan *bulaşıq* qabları yumaq lazımdır? (A.Şaiq); *Təmiz* qaşıqları götürüb yerinə qoydular.

**BULAŞIQLIQ – TƏMİZLİK** Qabqacağın *bulaşıqlığı* ev yiyəsinin pintiliyinə dəlalət edir. *Təmizlik* yaxşıdır, indi kim istəyir, gəlsin, utanmarıq (A.Şaiq).

**BULAŞMAQ – AÇILMAQ** ...Dağların başı dumanlıdır, üfüqlər *bulaşmağa* başlayır (Çəmənzəminli); Gəlsin bahar fəsli, *açılsın* yazlar (Aşıq Qurbani).

**BULUDLU – AÇIQ** *Buludlu* qaşqabağı birdən ayazıyıb açıldı (S.Rəhimov); Sonra yadına düşdü ki, Zeynəb çəməndə *açıq* yerdə qalmışdı (S.S.Axundov).

**BUMBUZ – İSTİ** Bu doğma dərdimi *bumbuz* ürəklər nə duyar? (S.Rüstəm); Tez ol, *isti* su və bulud hazır et (S.S.Axundov).

**BURMAQ – AÇMAQ** Gədələr Qədim dayının qollarını *burdular* (S.Rəhimov); Çərkəz yorğanı üstündən atıb ayağa durdu. Qollarını *açıb* gərnəşdi (İ.Şıxlı).

**BÜDRƏMƏK – DURMAQ** Vaxt olub ki, *büdrəmişəm*, yenə *durmuşam* (T.Şahdağlı).

**BÜKMƏK – AÇMAQ** Qadın sualımın bir müsahibə şəkli aldığını görüncə əlindəki kitabı *bükdü* (S.Hüseyn); Yenə Səmayənin *açılmış* başı; Qara hörükləri titrədir külək (H.Hüseynzadə).

**BÜKÜLMƏK – AÇILMAQ** Xına bir kağız parçasına *bükülmüşdü* (C.Məmmədquluzadə); Vəlinin gətirdiyi bağlama *açılmadı* ki, *açılmadı*.

**BÜKÜLMƏK – DÜZƏLTMƏK** Bel *büküldü*, gətirdi bəd hər işim (S.Rüstəm); Qadın diksinmiş kimi, *düzəlib* şax durdu (Mir Cəlal).

**BÜRKÜ – SOYUQ** Onsuz da boğuluram, *bürküdür*, otağa girəsi halım yoxdur (M.İbrahimov); *Soyuq*, dəhşətli bir *soyuq* Mayanı titrətdi (M.İbrahimov).

**BÜRKÜLÜ – SOYUQ** İsti *bürkülü* bir gün idi (S.Sərxanlı); İstiyə də tab etdim; *Soyuğa* da alışdım (H.Hüseynzadə).

**BÜRÜMƏK – AÇMAQ** Laçın qəfildən yapıncısını *açıb* Gülyazı *bürüdü* (M.Hüseyn).

**BÜRÜNCƏKLİ – ÇILPAQ** Tüstü *bürüncəkli* qara saçında; Üzünü xəmirlə oxlov ağardır (Abbasağa); Buradan *çılpaq* bir balaca qız çıxdı (S.S.Axundov).

**BÜRÜŞMƏK – AÇILMAQ** Quraqlıqdan pambığın qozaları *bürüşdü*. Sakit *açılır* qapı; Gəlir müəllimimiz (H.Hüseynzadə).

**BÜRÜŞÜK – AÇIQ Bürüşük** və titrək əli ilə göyün şimal tərəfindəki kiçik qara buludu göstərərək: – Baxın – dedi (A.Şaiq); Yarım *açıq* qapı arasından oğlunun sözlərini eşidirdi (S.S.Axundov).

**BÜTÖV – YARIMÇIQ Yarımçıq** bir mahnı gör nələr deyir; *Bütöv* bir aləmdir, bir kainatdır (H.Hüseynzadə).

**BÜTÜN – YARI** *Bütün* var-yoxum sənə qurbandır (“Azərbaycan”); Varımı səninlə *yarı* bölərəm (S.Rüstəm).

**BÜZMƏK – AÇMAQ** Lyudmila küsəyən qızlar kimi dodaqlarını *büzdü* (C.Əmirov); *Açsın* isti qoynunu; Doğma sinif otağı (H.Hüseynzadə).

**BÜZÜK – AÇIQ** Hər şeyə yuxarıdan baxan *büzük* gözlərində hüdudsuz bir təkəbbür çökub qalmışdı (M.İbrahimov); *Açıq* qapıdan musiqi səsi gəlirdi (S.S.Axundov).

**BÜZÜLMƏK – AÇILMAQ** Yadımdadır indi də dodaqlarım *büzüldü* (S.Rüstəm); Oyanır yuxudan sevimli şəhər; *Açılır* evlərin pəncərələri (H.Hüseynzadə).

**BÜZÜŞÜK – AÇIQ** *Büzüşük* duruşdan hiss olunurdu ki, o çox əsəbi və narahatdır. Əyin yuxa, baş *açıq*; Bilmədim necə edim?! (H.Hüseynzadə).

# Cc

**CAHİL – MƏDƏNİ** *Cahil* adam kor kimidir (A.Şaiq); Mən bədii əsərləri müəyyən qədər sevməyən *mədəni* bir adam təsəvvür edə bilmirəm (M.Hüseyn).

**CANLI – ÖLÜ** Əlbəttə, bu işdə əsas *canlı* şahid Məmmədağa idi (C.Əmirov); Nə *ölüyə* hay verir, nə diriyə pay (Ata. sözü).

**CANSIXICI – ŞƏN** Məclisimiz *cansıxıcı* keçir ("Ulduz"); Bu gün ömrü-günü azad; Ürəyi *şən* insanlarıq (C.Novruz).

**CARİ – ƏSASLI** Bu il məktəbdə *cari* təmir, gələn il isə *əsaslı* təmir aparılmalıdır.

**CAVAB – SUAL** *Suallar*, *cavablar*, mübahisələr; Uzanır axşamdan sabaha qədər (H.Hüseynzadə).

**CAVAN – BÖYÜK** – Əlbəttə, *böyüklərin* qayğısına qalmaq *cavanların* borcudur (S.Qədirzadə).

**CAVAN – YAŞLI** Çingiz xan ağıllı, kamallı *cavandır* (S.S.Axundov); *Yaşlı* kişilər həmin torpaq yolla çox karvanların gəlib keçdiyini söylədilər (İ.Şıxlı).

**CAVANLAŞMAQ – QARIMAQ** Özünü iqrar etdiyinə görə o günü Bayram on il *cavanlaşdı* (Ə.Vəliyev); Tarverdi, Pərzad ilə qoşa *qarıyasan* (M.F.Axundzadə).

**CAVANLAŞMAQ – QOCALMAQ** Təbiət dəyişir insan əliylə; Dünya *cavanlaşır*, insan *qocalır* (R.Rza).

**CAVANLIQ – QOCALIQ** Hacı getdikcə *cavanlanır* (M.S.Ordubadi); Bir günün içində on il *qocaldım* (S.Rüstəm).

**CAVANLIQ – QOCALIQ** Oğul, cavansan, *cavanlığın* səhv və xətası olar, çalış xəta etmə (Ə.Haqverdiyev); Bilirəm onu da gözləyir *qocalıq* (R.Rza).

**CAVANLIQDA – QOCALIQDA** *Cavanlıqda* daş daşı, *qocalıqda* ye aşı (Ata. sözü).

**CAYDAQ – GÖDƏK** Yoldaşı əl ağacına oxşayan uzun, *caydaq* adam dinmir (Mir Cəlal); Yarın boyu *gödəkdi*; Gözəl eyibsiz olmaz. (Bayatı).

**CƏFA – SƏFA** Mən yazıq çəkdim *cəfanı*; Müxənnət sürdü *səfanı* (Aşıq Ələsgər).

**CƏFALI – SƏFALI** Uzaqdan dadlı, nəşəli, yaxından zəhərli, *cəfalı*, bəlalı, ömrü puç edən bir şeydir (S.S.Axundov); Doğrudan da, ürəkaçan və *səfalı* bir yer idi (M.Talıbov).

**CƏFƏNG – DUZLU** Onun hekayələrində *cəfəng*, uydurma hadisələr verilir. Salman yenə ona *duzlu*, məzəli məktublar yazır, şeirlər göndərirdi (M.İbrahimov).

**CƏFƏNG – MƏNALI** Onun gördüyü işlərdən mənim xoşum gəlmir, çünki *cəfəngdir* ("Ulduz"); Əhməd dostunun *mənalı* gözlərinə baxdı (İ.Şıxlı).

**CƏFTƏLƏMƏK – AÇMAQ** Fərzəli içəri daxil olub arxasınca qapını *cəftələdi* (S.Rəhimov); Gecdən gec qapını *açdı* ("Azərbaycan").

**CƏHALƏT – MƏDƏNİLİK** *Cəhalət* nə qalın divar imiş (M.İbrahimov); *Mədənilik* də inkişaf, tərəqqi ilə bağlıdır.

**CƏLD – ASTA** Qulluqçu *cəld* qapını açdı (Ə.Haqverdiyev); *Asta* gedən tez gedər (Ata. sözü).

**CƏLDLƏŞMƏK – YAVAŞIMAQ** Qız pambıq yığımında *cəldləşir*. Hərdən musiqi *yavaşıyır*, kim isə fərəhli bir mahnı oxuyurdu (Mir Cəlal).

**CƏMLƏMƏK – ÇIXMAQ** Bu ədədləri bir-birinə *cəmlə*, onların cəmindən beşi *çıx* ("Hesab").

**CƏMLƏMƏK – DAĞITMAQ** Pristav kəndliləri bir yerə *cəmlədi* (S.Rəhimov); Ley vurmuş quş tükü kimi; *dağıdır* Yaponiyada gilanar çiçəklərini (R.Rza).

**CƏNNƏT – CƏHƏNNƏM** *Cənnətin* yazlığı, *cəhənnəmin* payızlığı (Ata. sözü).

**CƏSARƏT – QORXU** Səni bu fəlakətdən yalnız bilik və *cəsarət* qurtaracaq (A.Şaiq); Mənim qayadibi kəndim nə qədər davam edərsə; buranın *qorxusu* yoxdur (S.S.Axundov).

**CƏSARƏTLƏNMƏK – QORXMAQ** Emin guya *cəsarətlənmişdi* (S.Qədirzadə); Ancaq açılmayır o *qorxur* ki, sən; Onu birdəfəlik rədd eləyəsən (S.Vurğun).

**CƏSARƏTLİ – QORXAQ** Bilirsinizmi, çox fikri açıq, çox *cəsarətli* uşaqdır (M.İbrahimov); Belə *qorxaq* başı saxlamağa dəyməz (S.Vəliyev).

**CƏSARƏTLİLİK – ACİZLİK** Bu yarışda *cəsarətlilik* göstərdi. *Acizlik* adamın birinci düşmənidir, yadında saxla (M.İbrahimov).

**CƏSARƏTSİZ – ÜRƏKLİ** Ancaq *cəsarətsiz* ağlın da kəsəri olmaz (M.İbrahimov); Sərvinaz *ürəkli* cavab verdi ("Ulduz").

**CƏSUR – ACİZ** Dağlara səyahət *cəsurların* idmanıdır (S.Qədirzadə); Övladlarım, bu işdə bir qanun var ki, onu pozmaqda biz *acizik* (S.S.Axundov).

**CƏSUR – QORXAQ** O, qüvvətli və *cəsur* kişiyə oxşayırdı (C.Əmirov); Böyük bir cinayətə göndərilən *qorxaq* adamlar kimi əlim-ayağım əsirdi (S.Qədirzadə).

**CƏSURLAŞMAQ – QORXAQLAŞMAQ** İftixar hissi onu *cəsurlaşdırdı* ("Ulduz"); Bilirəm, adam evləndikdə bir balaca *qorxaqlaşır* (M.Hüseyn).

**CƏSURLUQ – QORXAQLIQ** Qardaşın *cəsurluğundan* doğan iftixar hissi Anatolinin qəlbini doldurdu (S.Vəliyev); Hər bir xəsis adamda olduğu kimi, bunda da təbiət böyük *qorxaqlıq* yaratmışdı (S.S.Axundov).

**CİDDİ – MÜLAYİM** Xanım *ciddi* və sevincli bir sima ilə Muxtarın qolundan dartdı və təkidlə dedi (Çəmənzəminli); Açıq və *mülayim* hava Kərəmin ürəyini oxşadı (M.İbrahimov).

**CİDDİ – ZARAFAT** Onlar *ciddi* müqavimət göstərirdilər (M.İbrahimov); Batmaq olarmı xana? O, top, tüfəng, tapança; *Zarafatdır*, ya nədir? (S.Vurğun).

**CİDDİLƏŞMƏK – MÜLAYİMLƏŞMƏK** Aslanın sifəti *ciddiləşdi*, dərin fikrə getdi (S.Vəliyev); Sonra o bir qədər *mülayimləşərək*: Əziz, sən mənim yanıma xəstə gətirmisən, özün də şəfa istəyirsən, qoy biz də işimizi görək (A.Məmmədrza).

**CİDDİLİK – YUMŞAQLIQ** Əliqulu xan həmişə quru görünən sifətinə bir qədər də *ciddilik* artırırdı (A.Məmmədrza); O macal vermədi, mənim *yumşaqlığımdan* istifadə edib danışdı (Mir Cəlal).

**CIĞAL – SAKİT** Ancaq bu başdan bil ki, bizim arvad yaman *cığaldır* (S.Qədirzadə); Təbiət çox *sakitdir* (M.S.Ordubadi).

**CILXA – QARIŞIQ** Mən də adi insanam; Nə başdan-başa tərif, nə də *cılxa* nöqsan (R.Rza); Suyumuz da *qarışıqdır*.

**CILIZ – GÜCLÜ Cılız**, arıq oğlan idi Məhərrəm (M.Eynullayeva); Bilirəm siyasət *güclüdür* səndə (S.Vurğun).

**CINDIR – TƏZƏ** Başında *cındır* yaylıq, əynində cırıq köynək (S.Rüstəm); *Təzə* yaylığı ilə üzünün tərini sildi ("Azərbaycan").

**CİNGİLTİLİ – KAR** Samitlər səs tellərinin iştirakına görə *cingiltili* və *kar* olmaqla iki yerə bölünür.

**CİNLƏNMƏK – SAKİTLƏŞMƏK** Əvvəllər qız bu sözü eşidəndə *cinlənərdi*, onlardan heyfini alardı (S.Qədirzadə); Hirsi soyuyandan sonra *sakitləşərdi*.

**CIRIQ – TƏZƏ** Deyir otuz arşın *təzə* parça olsaydı, yorğan-döşəyi düzəldərdim (Ə.Vəliyev); Erkək atın çulu *cırıq* gərək (Ata. sözü).

**CIRMAQ – TƏZƏLƏMƏK** Bir döyüş və bir zəfər yarpağını *cırıram* (S.Rüstəm); Yer küràmiz fəsil-fəsil; *təzələyir* döşəyini (R.Rza).

**CIRNATMAQ – ŞƏNLƏNDİRMƏK** Poladla Kamran Muradı *cırnatmaq*, məclisi

*şənləndirmək* üçün ona söz atır, bir-birinə göz vururdular (Mir Cəlal).

**CIRTDAN – NƏHƏNG** – Əyə, a *Cırtdan*, bu *nəhəngə* gücün necə çatar, – dedi (İ.Şıxlı).

**CİSMANİ – RUHƏN** *Cismani* olaraq zindandayam, *ruhən* isə buludlar kimiyəm (F.Kərimzadə).

**CİYƏRLİ – QORXAQ** *Ciyərli* oğul özünü hər yerdə göstərir (İ.Şıxlı); Simasından *qorxaq* bir şəxs olduğu hiss olunur.

**CIZMAQ – YAZMAQ** *Yazdın*, *cızdın*; Qabağımda (İ.Tapdıq).

**COMƏRD – XƏSİS** Dəli-dolu, üzügülər, *comərddir* (A.Şaiq); *Xəsis* kaftar it sümüyü yığan kimi, anbarı doldurubdur mıx ilə... (S.S.Axundov).

**COMƏRDLİK – XƏSİSLİK** O, *comərdlik* timsalıdır (“Azərbaycan”); Qardaş, bura *xəsislik* yeri deyil (S.S.Axundov).

**COŞQUN – SAKİT** *Coşqun* Xəzər, qumsal üzüm bağları yadıma düşdü (S.Vəliyev); Axırsınız *sakit*, lal; Bu sahildən o sahilə (R.Rza).

**COŞQUNLUQ – SAKİTLİK** Hardan alım o həvəsi, *coşqunluğu* (C.Novruz); Kənddə *sakitlikdir* (M.İbrahimov).

**CÖNGƏ – DÜYƏ** İndi inəyin yerinə *düyə* bağlarsan, öküzün yerinə *cöngə* (“Aşıq Ələsgər dastanı”).

**CÜCƏRMƏK – QURUMAQ** Çiyid gec *cücərir* (Ə.Vəliyev); Cücərən ağaclar da *quruyur*.

**CÜRBƏCÜR – EYNİ** *Cürbəcür* həvəslər bürüyür varlığımı (M.İbrahimov); Əsərdə *eyni* hadisələr təsvir olunur.

**CÜRƏT – QORXU** Kiminin üzündə şadlıq və *cürət*, kimisində *qorxu* və heyrət görünürdü (S.S.Axundov).

**CÜRƏTLƏNMƏK – QORXMAQ** Ərinin inadkarlığı Nəvazişi də *cürətləndirdi* (S.Qədirzadə); *Qorxma*, bu saat ev yiyəsi çıxar (Mir Cəlal).

**CÜRƏTLİ – QORXAQ** Mən səni görmüşəm söz sərkərdəsi; Alovlu, qüdrətli, *cürətli*, mətin (X.Rza); Dərəyə enmə, qorxaq! *Qorxaq* həllənc daşıdır; Kim ona təpik vursa; Dalı ona qarşıdır (M.Araz).

**CÜSSƏLİ – SISQA** Məsrurə üzünü yanındakı *cüssəli* oğlana tutaraq qısıla-qısıla dilləndi (S.Qədirzadə); Suçular əkini dərin şırımla və *sısqa* axınla suvardılar (Ə.Vəliyev).

**CÜT – TƏK** Onlardan dördü *təkdir*: ənsə, əsas, alın və xəlbir sümüyü. İkisi isə *cütdür*: təpə sümüyü, gicgah sümüyü (S.Qədirzadə).

**CÜZİ – XEYLİ** Qırx il külüng çalıb bir *cüzi* pul əlimə salmışam (S.S.Axundov); İndi həkim olsaydı, bir parça pambıqdan ötrü əpteyə göndərib məndən *xeyli* pul çıxartmışdı (S.S.Axundov).

# Çç

**ÇAĞ – XƏSTƏ** O zaman isə Rüstəmin *çağ* vaxtı idi (M.İbrahimov); Anam *xəstədir*, müsyö, vəziyyəti çox ağırdır (S.Qədirzadə).

**ÇAĞA – BÖYÜK** Xalisə *çağanın* əskisini yuyanda birini orada unudubdur, get onu gətir, gəl (S.S.Axundov); Qəməri güldürdüyün yetər, bir az da səndən *böyük* qardaşını dinlə (S.S.Axundov).

**ÇAĞIRIŞ – ƏMR** Mayanın gözlərində incə və mehriban duyğular, təlaş dolu xoş bir intizar və *çağırış* vardı (M.İbrahimov); Müfid hər nə edirsə etsin, Dilşad yenə də onun ağzına baxır və *əmrinin* intizarını çəkirdi (M.S.Ordubadi).

**ÇAXNAŞMA – SAKİTLİK** *Çaxnaşma* düşdü (M.Süleymanlı); Ətrafda *sakitlikdir* (S.Qədirzadə).

**ÇAXNAŞMAQ – SAKİTLƏŞMƏK** İzdiham *çaxnaşdı* (S.Vəliyev); Nəhayət, *sakitləşdi* (M.İbrahimov).

**ÇAL – QARA** Seyrək, *çal* saçlarını da azacıq isladıb, arxaya darayırdı (S.Qədirzadə); Mariana yəqin ki bunu duyub, *qara*, sıx kirpiklərini aşağı endirdi (S.Qədirzadə).

**ÇALA – DÜZ** Çox çətinliklə Məmişi *çaladan* çıxartdılar (M.Talıbov); *Düzdə* oturdular (M.Hüseyn).

**ÇALIŞQAN – TƏNBƏL** Çox gözəl! Yaşasın *çalışqan* kənd qadınları (Ə.Haqverdiyev); *Tənbəl* adam fikirli olar (Ata. sözü).

**ÇALIŞMAQ – VEYLLƏNMƏK** Biz *çalışmalıyıq* ki, ayrı-ayrı adamların əvəzinə ümumi camaat varlansın, kolxoz dövlətlənsin (Ə.Vəliyev); Sən harda küllənir, *veyllənirsən*? (S.Vurğun).

**ÇAŞBAŞ – TOXTAQ** *Çaşbaş* qaldı ("Azərbaycan"); Gülşənin manqası iki günə qurtarmağı qət etdiyi halda bu arvad çox *toxtaq* danışırdı (Ə.Vəliyev).

**ÇAŞMAQ – TOXTAMAQ** Rantik bir anlığa *çaşdı* (C.Əmirov); Cahangir hərbi *toxtadıb* ortalığa təslim məsələsini atmışdı (S.S.Axundov).

**ÇEVİK – ÖLÜVAY** Hərəkətləri *çevik*, yerişi quş kimi yüngül idi (İ.Şıxlı); Mənim *ölüvay* adamdan xoşum gəlmir (İ.Şıxlı).

**ÇEVİKLİK – ÖLÜVAYLIQ** Onun yerişində, hərəkətlərində əvvəlki zirəklik, *çeviklik* yox idi (C.Məmmədov); Onun *ölüvaylığıdır* ki, biz əzab çəkirik ("Azərbaycan").

**ÇƏKİLMƏK – QABARMAQ** Dəniz gah *qabarır*, gah da *çəkilir*.

**ÇƏKİŞMƏK – BARIŞMAQ** Sözləri düz gəlmədi, *çəkişdilər*. *Barışdı* nə qədər ayrı düşənlər (C.Novruz).

**ÇƏKİŞMƏK – BƏRKİŞMƏK** *Çəkişməsən*, *bərkişməzsən* (Ata. sözü).

**ÇƏKMƏK – BURAXMAQ** Uğur cilovu *çəkdi* (M.Süleymanzadə); Atın başını *buraxdı*.

**ÇƏLİMSİZ – KÖK** Bakıdan gələn, *çəlimsiz* müstəntiqin biri bizi bəzi adamların yanında gözükölgəli etsin (T.Kazımov); *Kök* adam özünü bir az qabağa verdi (Mir Cəlal).

**ÇƏNLİ – AYDIN** Qoynu gah *aydın* havalı, gah *çənli*, dumanlı (R.Rza).

**ÇƏPƏKİ – DÜZ** Yarməmməd *çəpəki* qovluğa baxdı (M.İbrahimov); Səməd çevrilib *düz* oturdu (M.İbrahimov).

**ÇƏPİNƏ – DÜZÜNƏ** ...Ona bir *çəpinə* baxdım (Mir Cəlal); Tərsinə yox, *düzünə* otur, qoy camaat səni görsün.

**ÇƏRƏNÇİ – QARADİNMƏZ** Eh, nə *çərənçi* kişidir (A.Şaiq); Partizanlar xasiyyətcə müxtəlif adamlardır; gülərüz, *qaradinməz*, çoxdanışan (S.Vəliyev).

**ÇƏRƏNÇİLİK – QARADİNMƏZLİK** *Çərənçilik* nəyə gərək (M.İbrahimov); Onun *qaradinməzliyi* həmişə hamını əsəbiləşdirirdi (C.Məmmədov).

**ÇƏTİN – RAHAT** Ulduzlar sayrışanda; Qəlb qəlbə qarışanda; *Çətin* olur ayrılmaq; Göz-gözə alışanda (Bayatı); Qoy bir an ürəyim *rahat* döyünsün; Bu qədər insafsız olmaz ki, adam! (M.Araz).

**ÇƏTİNLƏŞMƏK – ASANLAŞMAQ** Düşünürdüm ki, oğlan qəflət qaçıb tramvaya minsə, işim *çətinləşəcəkdir* (C.Əmirov); Bəxtimizdən oğlanın özü bizim işimizi *asanlaşdırdı* (C.Əmirov).

**ÇƏTİNLİK – ASANLIQ** Çit bazarı kasadlaşmışdı, ya pul tərəfdən *çətinlik* çəkirsiniz? (Ə.Haqverdiyev); Düşmən gəldi, *asanlıqla* bildiyini elədi (Ə.Haqverdiyev).

**ÇIXIQ – BATIQ** Sinəsi *batıq*, sifəti saralıb, çiyinləri qalxıb (Ə.Haqverdiyev); Ayaz gördü ki, onun geniş alnındakı *çıxıq*, yanaqlarındakı nazik damarlar qızarıb (M.İbrahimov).

**ÇIXIŞ – GİRİŞ** Kinoteatrın *çıxış* və *giriş* yerləri ayrıdır.

**ÇIXMAQ – GİRMƏK** Zənən hamamı kimi biri *girir*, biri *çıxır* (C.Cabbarlı).

**ÇILĞIN – SAKİT** Külək çox sərt və *çılğın* idi (M.İbrahimov); Yanvar ayı olduğuna baxmayaraq, hava *sakit* və mülayim idi (M.İbrahimov).

**ÇILĞINLIQ – DİNCLİK** Adamlar *dinclik* və sakitlik istəyirlər, hərbi *çılğınlıq* istəmirlər.

**ÇILPAQ – GEYİMLİ** Yalnız buna görə *çılpağam çılpaq* (S.Rüstəm); Qapı açıldı, cavan və təmiz *geyimli* bir oğlan içəri girdi (Mir Cəlal).

**ÇİÇƏKLƏNMƏK – SOLMAQ** Larisanın gülşəni yenə *çiçəkləndi* (M.Hüseyn); Baharın yaşıl gözəlliyi tez *soldu*, tez çəkildi (M.İbrahimov).

**ÇİN – YALAN** Mənim yuxum *çin* oldu. C.Bərgüşad. Xanım, hamısı *yalandır* (S.S.Axundov).

**ÇİRKAB – TƏMİZLİK** Xirtdəyə qədər *çirkab* içərisinə getdi (M.Talıbov); Beş adam gələndə heç olmasa bir *təmizlik* görsün (Mir Cəlal).

**ÇİRKİN – SƏLİQƏLİ** Tamam bir çox *çirkin* hərəkət və adətləri mənə tərk etdirdi (S.S.Axundov); O işində də *səliqəli* idi (C.Əmirov).

**ÇİRKİN – YARAŞIQLI** Zabit hansı *çirkin* iş üçünsə, ondan istifadə etmək istəyirdi (S.Vəliyev); Humay çox arıq olmasına baxmayaraq, *yaraşıqlı* bir oğlan idi (İ.Əfəndiyev).

**ÇİRKLİ – TƏMİZ** Polislər çarpayının üstünə yığılan *çirkli* paltarlara baxdıqda qadına dedi (S.Vəliyev); Yorğan-döşək *təmizdir* (C.Əmirov).

**ÇİRMƏKLİ – AÇIQ** Tüstülü ocaq başında, qolları *çirməkli*; Paltar yuyur anam (R.Rza); Yaxası *açıq* oğlan yenə mızıldadı (Mir Cəlal).

**ÇİRMƏLƏMƏK – AÇMAQ** Qollarını işgüzar adamlar kimi dirsəyinədək *çirmələmişdi* (S.Qədirzadə); Köynəyinin qolunu *açmışdı* ("Azərbaycan").

**ÇOCUQ – YAŞLI** Siz onu bacarmazsınız, siz hələ *çocuqsunuz* (C.Cabbarlı); *Yaşlı* adamdır, onu hər işə göndərməyin.

**ÇOXALMAQ – AZALMAQ** İnsanın iş günü; *azalsa* da, *çoxalsa* da; İnsanlığın iş günü bitməyəcək (R.Rza).

**ÇOXBİLMİŞ – MAĞMUN** Yoldaş Aslan, mən bicəm, amma sən məndən də *çoxbilmişsən* (M.İbrahimov); O, Allahın *mağmunudur* ("Ulduz").

**ÇOXDAN – İNDİ** Bu yuxunu biz *çoxdan* eşitmişik (C.Cabbarlı); Görəsən *indi* də qarğı danışarmı, ona əfsanə desək (R.Rza).

**ÇOXLU – AZ** Məhsuldarlığı artırmaq, *çoxlu* var qazanmaq haqqında *az* iş görmüşük (Ə.Vəliyev).

**ÇOXLUQ – AZLIQ** Məhsulun *çoxluğu*, *azlığı* bizdən asılıdır (M.İbrahimov).

**ÇOXMƏNALI – TƏKMƏNALI** Sözlər *təkmənalı* və ya *çoxmənalı* olur. "Müasir Azərbaycan dili"

**ÇOXU – AZI** Gecənin *çoxu* gedib *azı* qalmışdı (S.Qədirzadə).

**ÇÖKƏK – DÜZ** Öz yurdlarına, gözəl Borçalı *çökəyinə* qayıdırlar (F.Kərimzadə); Dağında, *düzündə* bitməyəydi qaratikan kolu (R.Rza).

**ÇÖKMƏK – QALXMAQ** Kürün üstünə qaranlıq *çökmüşdü* (İ.Şıxlı); Bulud göyə *qalxmışdı* (İ.Şıxlı).

**ÇÖKÜK – QABARIQ** *Çökük* ovurduna bax, gör üzün nə vəziyyətə düşür. Supərisi qızılı saçları ilə *qabarıq* sinəsini örtdü ("Azərbaycan").

**ÇÖL – İÇ** *Çölüm* özgəni yandırır, *içim* özümü (Anar).

**ÇÖL – İÇƏRİ** *Çölün* aləmi yandırır, *içərin özünü* (Ə.Vəliyev).

**ÇÖRƏKLİ – QƏDDAR** Gözəllikləri səbəbinə onları *çörəkli* adamlar almışlar (M.S.Ordubadi); *Qəddar*, qaniçən adamdır (M.S.Ordubadi).

**ÇUXUR – DÜZ** Mən özümü *çuxur* bir yerə verib dayandım (M.Talıbov); Dərə əlvan, çəmən əlvan, *düz* əlvan... Bu rənglərin düzümünə aldanma (R.Rza).

**ÇÜRÜK – SAF** Xəstənin yastığı yanında bir tərəfi *çürük* nar gördüm (Mir Cəlal); Boşqablara böyük, *saf*, şirin narlar, sarı armud, üzüm qalanmışdı (Mir Cəlal).

**ÇÜRÜK – SAĞLAM** *Çürük* ağac kimi yerə yıxıldı (S.Vəliyev); Sən bu *sağlam* ağacı kökündən, bu coşqun dənizi dibindən qurutmaq istəyirdin (A.Şaiq).

**ÇÜRÜK – TƏZƏ** *Çürük* nərdivanla dama çıxmazlar (Ata. sözü); Hələ yaralarım sağalmamış evə *təzə* bir mala gətirdilər (R.Rza).

**ÇÜRÜMƏK – SAFLAŞMAQ** Deməli, biz *çürümüşük*, hə? (M.İbrahimov); Bu nəcib hisslər daim təkmilləşmədə, gözəlləşmədə, *saflaşmadadır* (Mir Cəlal).

# Dd

**DABANBASARAQ – YAVAŞ** Atları *dabanbasaraq* çapdılar (İ.Şıxlı); Adamlar küçədə *yavaş* hərəkət edirdilər.

**DADANMAQ – YADIRĞAMAQ** Görünür, tülkü toyuqlara *dadanıb*. Nahaq yerə adam hərbi qulluqdan-zaddan *yadırğayır* (Ə.Əbülhəsən).

**DADANMIŞ – TAMARZI** *Tamarzıdan* kəs, *dadanmışa* ver (Ata. sözü).

**DADLANMAQ – ACILAŞMAQ** Qar dağa çıxar, *dadlanar* (Ata. sözü); İstidən kərə çox tez *acılaşır* ("İzahlı lüğət").

**DADLI – ACI** Onun balı çox *dadlıdır* (S.S.Axundov); Mümkün deyil ki, kişi sənə görə, sənə *acı* söz deməyə (N.Vəzirov).

**DADSIZ – ŞİRİN** *Dadsız* ömrü nə eylərdim? Əzəldən (Ə.Cavad); O gözlərini yumacaq dərin və *şirin* bir xəyala dalmışdı (S.Vəliyev).

**DADSIZLIQ – ŞİRİNLİK** Xörəyin *dadsızlığı* iştah küsdürür. Dilində də qəribə bir *şirinlik* var (S.Qədirzadə).

**DAĞ – DƏRƏ** *Dağ dərəyə*, *dərə dağa* bağlıdır (H.Hüseynzadə).

**DAĞ – DÜZ** *Dağlar* açar sinəsini selilə; *Düzlər* yayır mahnısını yelilə (H.Hüseynzadə).

**DAĞILIŞMAQ – YIĞIŞMAQ** Biz *dağılışmaq* üçün sizi gözləyirdik (C.Cabbarlı); Bütün Təbriz tamaşalarına *yığışmışdı* (M.S.Ordubadi).

**DAĞILMAQ – QURULMAQ** Pozuldu çayların bəndi, bərəsi; *Dağıldı* yuvası bulaqların da (H.Hüseynzadə); Yenə axar çaylar üzrə dəmir körpü *qurulacaq*; Yenə sahil lampaları alışacaq çıraq-çıraq (S.Vurğun).

**DAĞILMAQ – YIĞILMAQ** Cəmi yaxın adamları qaçıb *dağıldılar* (Ə.Haqverdiyev); Oraya, qapının önünə çoxlu adam *yığılmışdı* (C.Məmmədov).

**DAĞINIQ – YIĞCAM** Fikrim *dağınıqdır* (C.Əmirov); Fikrini oxucuya *yığcam* şəkildə çatdıra bilmişdir.

**DAĞINIQLIQ – YIĞCAMLIQ** Əsərdə fikir *dağınıqlığı* var. Əsərdə *yığcamlıq* yoxdur.

**DAĞITMAQ – QURMAQ** Onun oyuncaqlarını *dağıdar* və sındırar, bəzən də özünü döyüb qaçardı (A.Şaiq); İgid yoldaşları bir neçə möhkəm tiri çəkib bir-birinə bənd etdilər, körpü *qurdular* (M.Rzaquluzadə).

**DAĞLI – DƏRƏLİ** Bizim yerlər *dağlıdərəlidir* ("Jurnalist").

**DAĞLI – ŞAD** Övlad sarıdan Murad kişinin ürəyi əvvəl də *dağlı* idi (Mir Cəlal); Qadın hər qüssədən, qəmdən azaddır; Ağ günlər eşqilə ürəyi *şaddır* (H.Hüseynzadə).

**DAĞLIQ – DƏRƏLİK** Vaxtilə dərətəpəlik olan yuxarı *dağlıq* hissə indi gülçiçəyə bəzənmişdir. Uçurum, *dərəlik*, sıldırım qayalıq yerlərdən keçirdim (A.Şaiq).

**DAĞLIQ – DÜZLÜK** Bura *dağlıq*, bağçalıq bir yerdir (M.S.Ordubadi); Dərətəpədən *düzlüyə* çıxdıq (A.Şaiq).

**DAXİLƏN – ZAHİRƏN** Novruzəli və usta Zeynallar *daxilən* çox təmiz və xoşxasiyyət adamlardır (M.İbrahimov); Səməd *zahirən*, doğrudan da, mürgüləyən adama bənzəyirdi (İ.Hüseynov).

**DAXİLİ – XARİCİ** *Daxili* xəstəlik mütəxəssisi lazımdır (Çəmənzəminli); Sizin *xarici* görünüşünüz barəsində (C.Əmirov).

**DAXİLİ – ZAHİRİ** *Daxili* bir maraq məni də saxladı. *Zahiri* görkəmlərindən yaşlı adama oxşayırdılar (M.İbrahimov).

**DAİMA – ARABİR** Dünyada istedad, hər böyük hünər; *Daima* vərdişlə inkişaf edir (A.Şaiq); *Arabir* çevrilib yan-yörəsinə baxır (S.Qədirzadə).

**DAİMİ – MÜVƏQQƏTİ** Yalan *müvəqqətidir*, doğruluqsa *daimidir* (S.Rüstəm).

**DAL – ƏVVƏL** Kəndə çatdığı üçün İkram söhbətin *dalını* eşidə bilmədi (Ə.Əbülhəsən); Söhbətin *əvvəlini* xatırlaya bilmədi.

**DAL – İRƏLİ** Həsən kişi Qulunun qolundan tutub *dala* qayıtdı (M.İbrahimov); Əbil ürəkləndi, bir-iki kösöv götürüb *irəli* yeridi (Ə.Vəliyev).

**DAL – QABAQ** Qılıncının *dalı* da kəsir, *qabağı* da (Ata. sözü).

**DALAŞQAN – DİNC** Mahmud uşaqlıq dövründə olduğu kimi, daha nadinc deyil və *dalaşqan* deyildir (A.Makulu); Şəki xanı Hacı Əbdülqədir də *dinc* durmurdu (Çəmənzəminli).

**DALAŞQANLIQ – DİNCLİK** Əhməd *dalaşqanlıqda* ad çıxarmışdır. Məcid *dinclik* vermirdi (M.S.Ordubadi).

**DAL-DALI – İRƏLİ** Dildar *dal-dalı* çəkilib qapını örtdü (Ə.Vəliyev); Sal daşının dibindən *irəliyə* bir qoşalülə çıxmışdır (M.İbrahimov).

**DALĞALI – SAKİT** Qarşımda *dalğalı* dərin birümman; Ümmanı sarsıdır bir acı tufan... (M.Müşfiq); Dərindir, qorxuludur *sakit* axan lal sular (B.Vahabzadə).

**DALĞIN – ŞAD** Mənim qəhrəmanımsa görünür xeyli *dalğın* (S.Rüstəm); Əzizlə Gülsabah da bu səhər çox *şad* görünürdü (Ə.Vəliyev).

**DALĞINLIQ – ŞADLIQ** Kölgə düşmüş əsmər üzə o *dalğınlıq* çox yaraşır (M.Dilbazi); Muradın evində böyük *şadlıqdır* (Ə.Vəliyev).

**DALINCA – QABAĞINCA** Ülkərin *dalınca* Aygün də qalxdı; Əmirxan bu dəfə Əlyara baxdı (S.Vurğun); Elə sənin *qabağınca* çıxdı bayıra.

**DAMAQLI – QARAQABAQ** Tanış faytonçumuz var, ancaq bu gün xəstədir. Bir *damaqlı* oğlandır (Mir Cəlal); O, *qaraqabaq* adam kimi tanınmışdır.

**DAMBAT – TƏVAZÖKAR** Əli kişinin iki oğlu vardır; biri *dambat*, o biri *təvazökardır*.

**DAMBATLIQ – TƏVAZÖKARLIQ** *Dambatlığından* partlayır. Onların bəziləri sadəlik və *təvazökarlıq* kimi sifətləri itirmişlər (Ə.Vəliyev).

**DAMĞALI – TƏMİZ** Sən onda səhv eləmisən ki, belə bir *damğalı* nəsildən özünə dost seçmisən (İ.Hüseynov); O, qızın *təmiz* məhəbbətinə özünü layiq bilmirdi (S.Qədirzadə).

**DAMLAMAQ – BURAXMAQ** Biz onun adamlarından birini tutub *damlamışıq* (M.Hüseyn); Qatar Culfa burnundan fitini *buraxdı* (M.S.Ordubadi).

**DANIŞQAN – QARADİNMƏZ** Qərənfil Cavadova çox *danışqandır* (Ə.Vəliyev); Usta *qaradinməz* kişiydi, haraya isə tələsirdi (Ə.Sadıq).

**DANIŞQANLIQ – QARADİNMƏZLİK** *Danışqanlığıma* görə qınasan da, sənə bir neçə şey də deməyə məcburam (Ə.Əbülhəsən); Onun *qaradinməzliyi* nəşəmizi pozdu.

**DANIŞMAQ – DİNLƏMƏK** *Danış* bir-bir, *dinləyim*; Kaman kimi inləyim (S.Rüstəm).

**DANIŞMAQ – SUSMAQ** Kişi var nə dinər, nə də *danışar*; Qoyar el yolunda ürəyini o (Ə.Cəmil); Cahandar ağa *susurdu* (İ.Şıxlı).

**DANLAQ – TƏRİF** Bir də *danlağından* qaralmaz qanım (S.Rüstəm); Məndə qüdrət yoxdur qələm çalmağa; *Tərif* eyləməyə ancaq birini (Ə.Cavad).

**DANLAMAQ – TƏRİFLƏMƏK** Nə istəyirsən, nə? Bilirəm, yenə deyəcəksən ki, səhv edirsən, yenə məni *danlayacaqsan* (C.Cabbarlı); Bayaqdan bəri səni *tərifləyir* (C.Əmirov).

**DANMAQ – TƏSDİQLƏMƏK** Kəndlilər bir ağızdan o son tüfəngi *dandı* (S.Rüstəm); Qədir raykom katibinin sözünü *təsdiqləmək* məqsədilə bərkdən dedi (Ə.Vəliyev).

**DAR – GENİŞ** Keçdilər *dar* və *geniş* yollardan (H.Cavid).

**DARALMAQ – GENİŞLƏNMƏK** Bəzən yol *daralır*, yolda qalırsan (S.Sərxanlı); *Genişlik* içində heç olarmı ki; Ürək də, arzu da genişlənməsin (B.Vahabzadə).

**DARGÖZ – SƏXAVƏTLİ** Yetişir, çoxalır şairciyəzlər; Acgözlər, *dargözlər*, pulgir, xəbislər... (Şəhriyar); Torpağa ona görə "ana torpaq" deyirlər ki, o da ana kimi hamilə olur, ağrı çəkir, doğur, o da ana məhəbbətlidir, ana *səxavətlidir*, övladcanlıdır (İ.Məlikzadə).

**DARGÖZLÜK – SƏXAVƏTLİLİK** Məni tərif etməkləri onların *dargözlülüyündən* və uzağı görmədiklərindəndir (Ə.Əbülhəsən); Azərbaycanlılar qonaqpərəstliyi və *səxavətliliyi* ilə tanınmışdır.

**DARIXMAQ – ŞADLANMAQ** Atanı düşünmə, mənim üçün *darıxsan*, ana vətənə qulluq et (A.Şaiq); Bir şeydən hamımız *şadlanırdıq* ki, atamın halı düşündüyünüz qədər də ağır deyildi (S.Qədirzadə).

**DARILMAQ – SAKİTLƏŞMƏK** Sənsiz gördüm, mələklərə *darıldım*; Endim yerə, qədəminə sarıldım (Ə.Cavad); Deyəsən, bu cavab anasının qəlbini bir az *sakitləşdirdi* (S.Qədirzadə).

**DARISQAL – GENİŞ** Əjdər bu təpəciklərdən enib kəndin *darısqal* küçələrinə girdi (S.Rəhimov); *Geniş* bir məhəllədir (C.Məmmədov).

**DARISQALLAŞMAQ – GENİŞLƏNMƏK** Otaq *darısqallaşmışdır*. Üfüqlərmi bu qədər *genişlənmişdi*, yoxsa qızın gözünə o cür görünürdü (S.Qədirzadə).

**DARISQALLIQ – GENİŞLİK** Anam, bacım, *darısqallıqdır* (C.Cabbarlı); Sonsuz *genişliyə*, bu ənginliyə; Baxıb nəfəs alır adam dərindən (B.Vahabzadə).

**DARIŞLIQ – GENİŞLİK** Tiflisdə camaat o qədər çox idi ki, gəzməyə yekə bağ *darışlıq* edirdi ("Molla Nəsrəddin"); Baxıb təbiətin *genişliyinə*; Düşünmək, düşünmək istəyir adam (B.Vahabzadə).

**DARQURSAQ – HÖVSƏLƏLİ** ...Minbərli məscidləri olan şəhərlər içində Bəsrə məşhurdur məharət və fəndgirliyi ilə, Kufə – üzü dönüklüyü və bəlağəti ilə, Bağdad cah-calalı ilə, ...Herat – paxıllığı və *darqursaqlığı* ilə... (Ə.Məmmədxanlı); Traktorçu Əli çox *hövsələli* oğlan idi (İ.Şıxlı).

**DARLAŞMAQ – GENİŞLƏNMƏK** Ot basdığından yolumuz *darlaşmışdı*. Gecə Cəmil Əsədin kabinetində bu cür düşündükcə fikir dairəsi *genişlənirdi* (Ə.Vəliyev).

**DARTILI – BOŞ** *Dartılı* ipə toxunma. İpi bərk çəkmək lazımdır, *boşdur*.

**DARTMAQ – BOŞALTMAQ** Ayaz kəskin bir hərəkətlə atın çilovunu *dartdı* (Ə.Məmmədxanlı); Bir anda bir daraq güllə *boşaltdım* (S.Vurğun).

**DARTMAQ – BURAXMAQ** O, Aliyənin sağ biləyindən yapışaraq onu özünə tərəf *dartdı* (C.Əmirov); Bu halda sərayi-şahidən göyə bir fişəng *buraxdılar* (M.F.Axundzadə).

**DAŞQƏLBLİ – MƏRHƏMƏTLİ** *Daşqəlbli* insanları neylərdin, ilahi?! Bizdə bu soyuq qanları neylərdin, ilahi?! (M.Ə.Sabir); Başqalarına baxanda Aslan çox *mərhəmətlidir*.

**DAŞQIN – SAKİT** Qoca qəlbim öcsüz deyil: Yanar od, *daşqın* suyam! (A.Şaiq); Raykom katibi *sakit* dənizi xatırladan bu tarlaya getdi (Ə.Vəliyev).

**DAŞQINLIQ – SAKİTLİK** Çayın yazbaşı *daşqınlığı* narahatlıq doğurur. Zahirən *sakitlik* və ətalətini pozacaq bir hərəkət gözə dəymirdi (M.İbrahimov).

**DAVA – BARIŞIQ** *Dava* var qılıncla qurtarır, *dava* var dillə (Ə.Haqverdiyev); Qonşular *barışıq* gününü intizarla gözləyirdilər.

**DAVA – SÜLH** Barıt və qan qoxusu ağırlaşdı havada; Daşlar belə qanadı bu uğursuz *davada* (R.Rza); Azadlıq vədəsi? O gələcəkdir; Hamısı *sülh* ilə düzələcəkdir (S.Vurğun).

**DAVA-DALAŞ – SAKİTLİK** Belə ki baxardın, hər gün sərxoş bəyin qapısında

*dava-dalaşdır* (S.Rəhimov); Çadıra bir müddət tam *sakitlik* çökdü (S.Qədirzadə).

**DAVAKAR – DİNC** Nənəm çox *davakardır* (M.İbrahimov); Yox qardaş, ... uşaq çox *dinc* uşaqdır (S.Rəhimov).

**DAVAKARLIQ – DİNCLİK** *Davakarlığın* səbəbi var, bilmirsən? (M.İbrahimov); Bəli, Şamama *dincliyi*, rahat oturmağı başqa cür başa düşən adamdı (Ə.Əbülhəsən).

**DAVALI – SAKİT** Məcməyidə gavalı; Yedim, oldum havalı; Qonşuda bir qız sevdim; O da çıxdı *davalı* (Bayatı); Allahyar özünü *sakit* göstərməyə çalışsa da, səhərə qədər yata bilmədi (İ.Şıxlı).

**DAVAMLI – DÖZÜMSÜZ** Gedin bu saat axtarın; bir nəfər kök, *davamlı* həkim tapın gətirin (Ə.Haqverdiyev); Çox *dözümsüz*, hövsələsiz adamdır.

**DAVAMSIZ – DÖZÜMLÜ** Soyuğa *davamsız* idi, o dəqiqə xəstələnirdi. Doğrudan, ana qədər *dözümlü*, cəfakeş məxluq yoxdur (Ə.Vəliyev).

**DAVAMSIZLIQ – DÖZÜMLÜLÜK** *Davamsızlığı* ağrısının artmasına səbəb oldu. Zəhmət *dözümlülük*, səbirlilik tələb edir.

**DAVASIZ – SAVAŞLI** Mən belə güman edirəm ki, Xorasanı *davasız* alaq (Ə.Haqverdiyev); Onların günü *savaşlı* keçir ("Azərbaycan").

**DAYANMAQ – GETMƏK** İri daşa toxunub *dayandı* (İ.Şıxlı); Otaqda xeyli gəzindi, sonra məktəbə *getməyi* qərara aldı (İ.Fərzəliyev).

**DAYAZ – DƏRİN** Oynağımdır hər zaman; Yaşıl kol-kos, *dayaz* çay (A.Şaiq); Bu saat dənizdə ən *dərin* quyu harada qazılır? (M.Hüseyn).

**DAYAZLAŞMAQ – DƏRİNLƏŞMƏK** Quyunun yanları uçub töküldüyü üçün *dayazlaşmışdı*, indi onun içini təmizləyib *dərinləşdirmək* lazımdır.

**DAYAZLIQ – DƏRİNLİK** Xəzər dənizi *dayazlıqlarının* qurudulması neft sənayesinin inkişafı üçün böyük əhəmiyyətə malikdir. Onlar bağda *dərinliyi* üç-dörd metr olan zirzəmi qazıyırlar (C.Əmirov).

**DAZ – TÜKLÜ** Pristav hətta *daz* başının tərini sildi (İ.Şıxlı); Səni gözlər Şəngül, Şüngül; Yuxa *tüklü* gözəl Məngül... (M.Müşfiq).

**DAZBAŞ – TÜKLÜ Dazbaş** Murtuzov eyvana çıxdı (S.Rəhimov); Üz-gözü həmişə *tüklü* və gözləri şorbalı olan bu kişi bazarın ortasındakı dükanda satıcıdır (M.İbrahimov).

**DAZLAŞMAQ – TÜKLƏNMƏK** Mehdinin cavanlıqdan başının tükü tökülmüş, *dazlaşmışdı*. Körpənin başı *tüklənmişdi*.

**DEMƏK – SUSMAQ** Sadıq kişi öz hünərindən söhbət düşmüş kimi, arılardan həvəslə *deməyə* başladı (Mir Cəlal); Kiridi, bir anlığa o *susdu*, o dinmirdi; Onun ata ürəyi, bəs niyə diksinmədi? (B.Vahabzadə).

**DEMOKRATİK – MÜHAFİZƏKAR** Azərbaycan realist və *demokratik* ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Əbdürrəhim bəy Haqverdiyevdir; [Nizami:] Al, oxu, qoy *mühafizəkarlar*, qorxaqlar əmin olsunlar ki, Nizaminin yazdığı məktublardan heç bir kəs zərər çəkməz (M.S.Ordubadi).

**DEMOKRATİK – MÜRTƏCE** İnqilabdan əvvəl *demokratik* fikirli ziyalıları *mürtəce* qüvvələr təqib edirdilər.

**DESPOT – RƏHMLİ** Taxt və tac, yaxşı məqsədlə işə başlayan Nadiri də *despota* çevirir (M.Arif); Mən də ürəyi *rəhmli* adamam (S.Qədirzadə).

**DESPOTLUQ – RƏHMLİLİK** *Despotluğa* qarşı humanizm, azadlıq bayrağı altında mübarizə aparmaq lazımdır. Onun *rəhmliliyinə* çox adam qiymət vermir.

**DEŞMƏK – BAĞLAMAQ** Bəndə çatınca su bəndi *deşib* məğrur bir tərzdə gücü gəldikcə fışqırırdı (Ə.Vəliyev); Tez bəndi *bağlayın*, hər yeri su basacaq ("Azərbaycan").

**DEVİRMƏK – QURMAQ** İndi artıq yıxıldı, batdı qanlı saraylar: *Devirdilər* taxtını, qan içən padşahın (Ə.Cavad); Bu dünyanı

ürəyimcə *qurmaq* üçün səlahiyyət istəyirəm (X.Rza).

**DEYİNGƏN – SAKİT** Arvadın *deyingəni* kişini tez qocaldar (Ata. sözü); Gözlərinizdən görürəm *sakit* qıza oxşayırsınız (S.Qədirzadə).

**DEYİNMƏK – SUSMAQ** Həpirin hirsi soyumadı. O öz-özünə *deyinirdi* (Mir Cəlal); Tüfəngini tuşlayıb atdı, atdı, dalbadal; *Susdu* kol dibi dərhal (B.Vahabzadə).

**DEYİŞMƏK – BARIŞMAQ** Atlılar kimin barəsində isə *deyişirdilər* (Mir Cəlal); Xosrov deyirdi ki, gəlsin *barışaq*; Qan kimi qaynayıb biz də qarışaq (S.Vurğun).

**DƏBBƏLƏMƏK – TƏSDİQLƏMƏK** Sonra *dəbbələməyəsən* ha! (M.İbrahimov); Bu sözləri anam deyirdi. Əmim də *təsdiqləyirdi* (S.Qədirzadə).

**DƏBDƏBƏ – CƏFA** Əbədidir bu səadət, bu sədaqət; Bu təntənə, bu *dəbdəbə*, bu məhəbbət (S.Rüstəm); Dözdü hər *cəfasına*; Ərəb əlifbasını özü öyrətdi ona (B.Vahabzadə).

**DƏBDƏBƏLİ – CƏFALI** Həsrətlə xatırlayır *dəbdəbəli* çağları (S.Rüstəm); İndi *cəfalı* günlər arxada qalmışdır ("Azərbaycan").

**DƏBƏRMƏK – OTURMAQ** Qaçmaq üçün *dəbərdi*; Tez aldı pişik kimi daban (Ə.Nəzmi); Çalış, onlardan uzaqda *otur*, səninlə çox danışmasınlar (S.Qədirzadə).

**DƏCƏL – DİNC** Heç on beş il bundan qabaqkı *dəcəl* uşağa oxşamır (M.İbrahimov); Çox *dinc*, sakit uşaqdır! ("Ulduz").

**DƏCƏLLİK – DİNCLİK** Əmiqızı, ... bu *dəcəlliyi* haradan öyrəndin? (İ.Əfəndiyev); Ancaq o, institutun qəbul imtahanlarına qədər beyninə *dinclik* də verməli idi (S.Qədirzadə).

**DƏHŞƏTLİ – FƏRƏHLİ** Tiflisdəki *dəhşətli* Metex qalasına köçürtdülər (S.Rəhman); İndi biz *fərəhli* günlər keçiririk.

**DƏHŞƏTLİ – MÜLAYİM** Kül rəngli havada toz-duman var; *Dəhşətli* soyuq, ayaz, boran var (A.Şaiq); Hava *mülayimdir*.

**DƏLƏDUZ – DÜZ** Amma *dələduz* nökərlə arası yoxdur (Ə.Haqverdiyev); Axır ki, gəldin *düz* yola (Ə.Vəliyev).

**DƏLƏDUZLUQ – DÜZLÜK** Çünki sənin üzündən *dələduzluq* yağır (C.Əmirov); *Düzlüyün* faydası çoxdur.

**DƏLİ – AĞILLI** Bir *dəli* bir quyuya daş saldı, yüz *ağıllı* çıxara bilmədi (Ata. sözü).

**DƏLİQANLI – QORXAQ** İrəliyə doğru şığıyan *dəliqanlı* Girdman hökmdarı Varazin oğlu Cavanşir idi (M.Hüseyn); Çox *qorxaqdır*, qaranlıq düşən kimi evdən bayıra çıxa bilmir.

**DƏLİQANLI – SAKİT** Semyonov hüzurunda dayanan bu *dəliqanlı* uşaqlara ürəyindən keçənlərin heç birini demədi (İ.Şıxlı); Lakin gecə qaranlıq, *sakit* və dəhşətli idi (C.Məmmədov).

**DƏLİLƏŞMƏK – AĞILLANMAQ** Ona çox fikir verdikcə *dəliləşir*. Balam, görünür ya zəmanə dəyişir, ya adamlar *ağıllanıb* (Ə.Vəliyev).

**DƏLİSOV – AĞILLI** Çağladı *dəlisov* ləpələr kimi; Ağladı südəmər körpələr kimi (T.Mahmud); Buyur, bu da *ağıllınız* (S.S.Axundov).

**DƏLİSOV – QORXAQ** Erkək təbiətli, *dəlisov*, ətli-qanlı bir qız idi (A.Şaiq); Ürkək, *qorxaq* qız uşağı yırtıcının qabağında dura bilmədi (M.İbrahimov).

**DƏLİSOV – MÜLAYİM** *Dəlisov* şimal küləkləri çəkib bu ütünü (S.Sərxanlı); *Mülayim* bir axşam çağıdır (S.Qədirzadə).

**DƏRD – SEVİNC** *Dərd* içində yaşadı; Yazdı *sevinc* nəğməsi (B.Vahabzadə).

**DƏRDLƏŞMƏK – SEVİNMƏK** Bir yerdə *dərdləşər*, bir yerdə *sevinərdilər* (S.Vəliyev).

**DƏRDLİ – ŞƏN** Bədbəxt anam! *Dərdli* gözlərini hər tərəfə çevirib həsrətlə baxdı (A.Şaiq); Bu Vasko da çox gözəl, *şən* oğlandır (S.Vəliyev).

**DƏRDSİZ – NƏŞƏSİZ** *Dərdsiz*, qüssəsiz adamlar kimi şellənə-şellənə addımlayan Əli Rəsulov bir dəfə də olsun dönüb dala

baxmadı (C.Əmirov); Sərdar özünü *nəşəsiz* adamlar kimi aparırdı.

**DƏRƏ – DİK** *Dərədə* gen, *dikdə* dardır, dağ yolları (T.Şahdağlı).

**DƏRƏ – DÖŞ** Yay da yaman gəldi bu tərəflərə; *Dərələr* qaynadı, *döşlər* qaynadı (H.Hüseynzadə).

**DƏRƏ – DÜZ** Qarşıya birdən-birə; Çıxdı uçurum *dərə* (A.Şaiq); Neçə dağ, neçə *düz*, neçə kənd, şəhər ötdük; Biz havaya qalxandan bəri (B.Vahabzadə).

**DƏRƏ – TƏPƏ** O gah *dərəyə* enir, gah *təpəyə* qalxırdı (G.Hüseynoğlu).

**DƏRƏ – ZİRVƏ** Necə də bozarıb *dərələr*, düzlər; Qarlı *zirvələri* fikir aparmış (H.Hüseynzadə).

**DƏRƏDƏKİ – ZİRVƏDƏKİ** Yaş ötdükcə tələsirəm; Gəzmək üçün, görmək üçün; *Zirvədəki* qar qalağı; *Dərədəki* çiçək üçün (H.Hüseynzadə).

**DƏRƏLİ – TƏPƏLİ** Yolumuz *dərəli*, *təpəlidir*.

**DƏRƏLİK – TƏPƏLİK** Uçurum, *dərəlik* sıldırım qayalıq yerlərdən keçirdim (A.Şaiq); Dünən Saracı axtarırdın, deyəsən, *təpəlikdə*? (M.Süleymanlı).

**DƏRHAL – GEC** *Dərhal* pəncərədən çəkildi (A.Şaiq); Mart ayının on beşində bərk yağış yağdığı üçün səpin beş gün də *gec* başlandı (Ə.Vəliyev).

**DƏRİN – DAYAZ** Bulandırıb saf suyu; Qazıdın *dərin* quyu (A.Şaiq); Nurəddin *dayaz* yer axtararkən gəlib bir yerə çatdı ki, orada bir uzun ağac sınıb körpü çayın üstünə düşmüşdü (S.S.Axundov).

**DƏRİN – DAYAZ** Simasında *dərin* bir fikir ya yüngül və şirin xəyalat oxunurdu (Çəmənzəminli); Onların hər ikisi anlaşa bilməyən, *dayaz* bir həqiqəti öyrənmək qabiliyyətinə malik olmayan adamlar idi (M.S.Ordubadi).

**DƏRİNLİK – DAYAZLIQ** *Dərinlik* çox gözəldir: sadə olarsa; Nə çıxır o şeirdən, başımı yorsa? (M.Müşfiq); Hər bir müəllif öz əsərində yaratdığı obrazı hərtərəfli, hətta *dayazlılığını* əks etdirməlidir.

**DƏRMƏK – YIĞMAQ** Bir nimçə üzüm *dərmişdi* (S.Qədirzadə); Vaxtında səpək, vaxtında *yığaq*, vaxtında təhvil verək (Ə.Vəliyev).

**DƏRRAKƏLİ – BALQABAQ** Geniş ürəkli, *dərrakəli*, xeyirxah şəxs belə əhəmiyyətdən və minnətdarlıqdan istisna olunur (M.Talıbov); Xəlil nədir ki, o məni işdən çıxardır, bunlar da *balqabaq* kimi durub baxırlar (M.Hüseyn).

**DƏRRAKƏLİ – DÜŞÜNCƏSİZ** O oğlan yaşda səndən kiçikdir, amma qat-qat *dərrakəlidir* (S.Rəhimov); O dilsiz və *düşüncəsiz* bir zavallıdı (H.Cavid).

**DƏRRAKƏSİZ – DÜŞÜNCƏLİ** Adə, nə *dərrakəsizsən*, barının nə qədər uzunluğu var? (C.Cabbarlı); Əhmədin... gözləri *dalğın* və düşüncəli idi (İ.Şıxlı).

**DƏYİRMİ – YASTI** Üzün ağ, *dəyirmi*, gözün məstanə; Baxışın bağrımı döndərdi qanə (M.P.Vaqif); Maya gücünü toplayıb çırpındı və sağ qolunu onun əlindən qurtarıb *yastı* üzünü şillələdi (M.İbrahimov).

**DƏYİŞİK – DÜZ** *Dəyişik* salma, hər birin öz yerinə qoy (Ə.Haqverdiyev); Ayaqqabını *düz* geyin.

**DƏYİŞİKLİK – SABİTLİK** *Dəyişiklik* nə vaxt olacaqdır? (S.Vəliyev); Frazeologizmləri müəyyənləşdirən meyarlardan biri də məna *sabitliyidir* (H.Həsənov).

**DƏYİŞKƏN – SABİT** Melodiyanı təşkil edən bu zil və bəm səslərin... bəziləri *dəyişkən* və dayanıqsız olur (Ə.Bədəlbəyli); Cəbhədə vəziyyət *sabit* idi (S.Qədirzadə).

**DƏYİŞMƏK – SABİTLƏŞMƏK** Elə ki, Dürdanə gənc ana oldu; *Dəyişib* başqa bir Dürdanə oldu (M.Rahim); Sabit birləşmələrdə tərəflər (sözlər) öz əvvəlki formasını saxlayaraq, həmin formada *sabitləşir* (H.Həsənov).

**DƏYMƏDÜŞƏR – TƏMKİNLİ** Yox, ay *dəymədüşər* qız, şairdən inciməzlər

(H.Hüseynzadə); Aydın Qaradağlının aləmə tanış, *təmkinli* səsi eşidildi (S.Qədirzadə).

**DƏYMİŞ – KAL** *Dəymişini* qoyub, *kalını* dərir (Ata. sözü).

**DİB – BAŞ** *Başı*, *dibi* qar, boran; Papaq geymiş dumandan (A.Şaiq).

**DİB – ÜZ** Sanki qalxmaq istəyir göyə dənizin *dibi* (R.Rza); Dənizin *üzü* sakit, dalğasızdır.

**DİK – ALÇAQ** Girdmanın igid sərkərdəsi meydanda *dik* bir yerdə görünərdi (M.Hüseyn); Qarşıda yol qırağında olan *alçaq* daxmalarda, uca ağaclar, dəmir dirəklər yavaş-yavaş irəli gəlir (S.Qədirzadə).

**DİK – ÇƏPƏKİ** Tahirzadə öz adını deyəndə Mirzə Rza diksinmiş kimi onun üzünə *dik* baxdı (Mir Cəlal); Nə isə o bu gün öz dostuna *çəpəki* baxırdı.

**DİK – DÜZ** Osman gözətçidir o yanki *dikdə*; Seyr edir baş-ayaq Nemsə *düzünü* (H.Sanılı).

**DİK – ENİŞ** Qarlı, uca, *dik* başı; Az qalır dəysin aya (A.Şaiq); O, atı dəhmərləyir, çox çəkmədən *enişi* enib yoxuşa dırmaşır (Ə.Vəliyev).

**DİKBAŞ – MÜLAYİM** Hər xalqın *dikbaş*, lovğa cavanları da olur, səmimi, gözəl qızları da (S.Vəliyev); Xasiyyətcə çox *mülayim* adamdır (A.Məmmədrza).

**DİKBAŞ – TƏVAZÖKAR** Qədirin də Poladdan ona görə xoşu gəlmirdi ki, Polad *dikbaşdır* (Ə.Vəliyev); Mən bir *təvazökar* bəndəyəm (F.Kərimzadə).

**DİKBAŞLIQ – TƏVAZÖKARLIQ** *Dikbaşlığın* axırı budur (A.Şaiq); Şərəf oğlu dostunun bu hərəkətini *təvazökarlıq* sayıb ürəkdən razı qalırdı (M.İbrahimov).

**DİKDİR – DƏRƏ** O biri tərəfdən isə yenə bir *dikdir* var idi (S.Vəliyev); *Dərələrdən* və çaylardan duman qalxırdı (S.S.Axundov).

**DİKƏLMƏK – ƏYİLMƏK** Züleyxa və Balaxanım adını eşidər-eşitməz, papirosları yerdə qoyub *dikəldi* (C.Cabbarlı); *Əyilib* yerdən pencəyini götürdü.

**DİQQƏTLƏ – AYAQÜSTÜ** Aslan adamları *diqqətlə* gözdən keçirirdi (S.Vəliyev); Malik camaatın rahat olduğunu görüb *ayaqüstü* mitinqi bağladı (M.İbrahimov).

**DİQQƏTLİ – HUŞSUZ** Aslan onu *diqqətli* və davamlı süzüb oturmaq üçün yer göstərdi (M.İbrahimov); Bayram balkonda durmasına baxmayaraq, sanki *huşsuz*, fikirsiz idi (Ə.Vəliyev).

**DİQQƏTLİ – LAQEYD** Yoldaş polkovnik, o indi də *diqqətlidir* (C.Əmirov); Davranışlarından belə başa düşürdüm ki, o da mənə qarşı *laqeyd* deyil (S.Qədirzadə).

**DİLCAVABI – YAZILI** Əmanətim də, *dilcavabı* sifarişim də var (A.Şaiq); Mənə *yazılı* cavab verərsiniz.

**DİLƏNÇİ – DÖVLƏTLİ** İndi *dilənçi* sifətində gəzirəm. Deməli, *dövlətli*, varlı bir bəy idim (Ə.Haqverdiyev).

**DİLƏNÇİ – VARLI** Ey mənim yolçu, *dilənçi* lüt qardaşlarım! (C.Məmmədquluzadə); Yalnız kollektiv təsərrüfat quruluşu bizim kəndimizi indiki mədəni, *varlı* səviyyəyə gətirib çatdırmışdır (İ.Əfəndiyev).

**DİLƏNMƏK – VARLANMAQ** Mən də elsiz-obasız bir qoca dilənçiyəm. Kəndlərdə *dilənirəm* (S.S.Axundov); Nurcabbar var-dövlətə də, *varlanmaq* ehtirası ilə özünü oda-közə vuranlara da ikrahla baxırdı (İ.Məlikzadə).

**DİLGİR – ŞƏN** Mənə giley yazan şagirdlərdən mən özüm çox artıq dərəcədə *dilgirəm* (C.Məmmədquluzadə); ...Ətrafa səs-küy, *şən* qəhqəhələr yayıldı (S.Qədirzadə).

**DİLXOR – ŞAD** General bu gün çox *dilxor* idi (S.Rəhman); Biz buna çox *şadıq* (İ.Əfəndiyev).

**DİLXORLUQ – ŞADLIQ** Pirinin *dilxorluğu* bir anda sovuşdu (İ.Əfəndiyev); Sarışın olan yerdə hər zaman gülüşmə, *şadlıq* başlardı (S.Qədirzadə).

**DİLLƏŞMƏK – BARIŞMAQ** Onunla *dilləşmə*, çəkil, get (A.Şaiq); Sabah ikisini də danlayıb *barışdıracağam* (Ə.Vəliyev).

**DİLLİ – HƏYALI** Sən də anan kimi *dillisən* (S.Vəliyev); ...Ananın yanında cavan oğlandan daha çox *həyalı* bir gəlin kimi dolanan Səməd, indi ananın da belini yay kimi əyirdi (Ə.Vəliyev).

**DİLLİ – QARADİNMƏZ** Sən nə *dilli* oğlansan! (S.Vəliyev); Görmürsən *qaradinməzin* biridir.

**DİLLİLİK – QARADİNMƏZLİK** Uşaq adəti xilafına olaraq, bu axşam bir az *dillilik* edirdi (Ə.Əbülhəsən); Onun *qaradinməzliyi* gediş-gəlişə maneçilik törətdi.

**DİNAMİK – STATİK Dinamik** fellərdə hərəkət, iş, aktivlik, *statik* fellərdə isə hal-vəziyyət, passivlik var.

**DİNC – NARAHAT** Məmmədhəsən əmi *dinc* adamdır (C.Məmmədquluzadə); Vahabzadə bu sözün ən yaxşı mənasında *narahat* bir şairdir (M.Hüseyn).

**DİNCƏLMƏK – İŞLƏMƏK** Gah yalquzaq kimi ulayır külək, gah da quduz kimi yatır, *dincəlir* (S.Vurğun); Mən texnikumu bitirib bir sənət qazanacaqdım, başqaları kimi namusla *işləyəcəkdim* (S.Qədirzadə).

**DİNCLİK – NARAHATLIQ** Dedim: – Şirin şey varmı həyatda *dinclik* kimi? (S.Rüstəm); Etiraf etməliyəm ki, bu *narahatlıq* mənə həm də ləzzət verir (S.Qədirzadə).

**DİNDAR – KAFİR** *Dindarın* bu sözü Mələyin ürəyini yaraladı. Bu *kafirlərə* inananları haqq yola qaytar (Ə.Haqverdiyev).

**DİNLƏMƏK – SÖYLƏMƏK** Rəis sizi məmnuniyyətlə *dinləyir* (İ.Əfəndiyev); Mən sizə əqidəmi *söylədim* (M.İbrahimov).

**DİNMƏK – SUSMAQ** Daha *dinmədilər*; *Susdular* artıq (M.Rahim).

**DİNMƏZ – ZƏVZƏK** Eyzən fikirdə, kefsiz, *dinməz*, yəqin burada bir hikmət vardır (Ü.Hacıbəyov); Çox *zəvzək* adamdır.

**DİNMƏZLİK – ZƏVZƏKLİK** Əsgərin *dinməzliyini* o buna görə də pis yerə yozmurdu (Ə.Əbülhəsən); *Zəvzəkliyinə* görə hamı ondan uzaqlaşır.

**DİNSİZ – MÖMİN** *Dinsizin* öhdəsindən imansız gələr (Ata. sözü); Mərhum Zeynəb xanım *mömin*, müsəlman bir Allah bəndəsi idi (Q.Qantəmir).

**DİRÇƏLMƏK – XƏSTƏLƏNMƏK** Uşaq böyümüş, rəngi açılmış, *dirçəlmiş*, çevikləşmişdi (Mir Cəlal); Əziz on iki yaşında olanda bərk *xəstələnmişdi* (Ə.Vəliyev).

**DİRİBAŞ – MAYMAQ** Xala, sən nə *diribaş* qarısan? (N.Vəzirov); Bir nəfər mənə demişdir ki, bəzi *maymaqlar* açarı qıfılın içərisinə qoyur (M.Talıbov).

**DİRİBAŞLIQ – MAYMAQLIQ** Biri o birilərindən *diribaşlığı*, hazırcavablığıyla seçilirdi (M.Eynullayeva); *Maymaqlıq* edib Ağasəlimi əldən buraxmısan (C.Əmirov).

**DİRİLİK – YOXLUQ** Bir söz ki bir cavanın *diriliyinə* səbəb olacaq, onu demək günahdır (Ə.Haqverdiyev); Qaynım həmişəki kimi indi də Midhədin *yoxluğunu* mənə hiss etdirməyə çalışırdı (M.Hüseyn).

**DİRİLMƏK – ÖLMƏK** *Öləcəyəm*, bir də *diriləcəyəm* (C.Cabbarlı).

**DIRMANMAQ – DÜŞMƏK** At belində yavaş-yavaş *dırmanırıq* dağlara (S.Rüstəm); Qaraca qız armudları dərib, pişiyi qucağına alaraq yerə *düşdü* (S.S.Axundov).

**DIŞARI – İÇƏRİ** Di onda mən cəhrəni, xurcunu qoyum *içəri*, qapını bağlayım gedək (Ə.Haqverdiyev); Bacı, köpəkdən qorxuram, *dışarı* çıx (S.S.Axundov).

**DİŞİ – ERKƏK** – ...Hər yuvada bircə *dişi* arı olar, ona şah deyərlər (S.S.Axundov); *Erkək* atı yəhərləyib minəndə ixtiyarsız olaraq gülürəm (Ə.Vəliyev).

**DİŞİCİK – ERKƏKCİK** Bəzi bitkilərin qönçələrində olduğu kimi pambığın qönçəsində də *erkəkcik* və *dişicik* var idi (Ə.Vəliyev).

**DİŞLƏMƏ – ŞİRİN** Bəlkə, biri çayı *şirin* içməyəcək. *Dişləmə* içəcəkdir (S.S.Axundov).

**DİŞLİ – ÖLÜVAY** Özün bilirsən ki, onlar *dişli* tayfadırlar (İ.Şıxlı); Onun tələsməklə işi yoxdur, *ölüvaydır* (“Ulduz”).

**DİVANƏ – AĞILLI** Əqlini itirib qız, *divanədir* (S.Rüstəm); *Ağıllı* düşmən nadan dostdan yaxşıdır (Ata. sözü).

**DİVANƏLƏNMƏK – AĞILLANMAQ** Genə bir Leyliveş yarə dil verdi; Könül Məcnun təki *divanələnmiş* (M.V.Vidadi); İndi Sona lap *ağıllanmışdır* ("Azərbaycan").

**DİVANƏLİK – AĞILLILIQ** Nə işdir bu, bu nə *divanəlikdir* eyləyirsən sən? (C.Cabbarlı); Malik onun *ağıllılığının* səbəbini bilirdi.

**DOĞMA – ÖGEY** Demək, o sənin üçün *doğmadır*, amma bu biriləri *ögey*? (İ.Əfəndiyev).

**DOĞMA – YAD** O *yad* deyil, mənə *doğma* baladan artıqdır (A.Şaiq).

**DOĞMAQ – BATMAQ** Yenidən *doğmaq* üçün *batdı*. Gözlərdən itdi (S.Rüstəm).

**DOĞMAQ – ÖLMƏK** Bir il sonra Zeynəb oğlan *doğdu* (M.İbrahimov); Ölər, kişitək *ölər* ələ düşməz o, yalnız (B.Vahabzadə).

**DOĞMALAŞMAQ – YADLAŞMAQ** Doğmalar get-gedə *yadlaşır*, yadlar isə *doğmalaşır*.

**DOĞMALIQ – YADLIQ** Ancaq bu küskün səs o *doğmalıqdan*, o nəvazişdən uzaq idi (M.Eynullayeva); Ancaq indi uşaqlarının yanında özünün *yadlığını*, özünün zalımlığını dərk elədi (M.Eynullayeva).

**DOĞRU – ƏYRİ** Qələm *əyri* kəsilsə də, *doğru* yazar (Ata. sözü).

**DOĞRU – YALAN** Allah bilir ki, *doğru* deyirəm! (M.F.Axundzadə); Pul tapmışam, *yalan* demirəm (M.F.Axundzadə).

**DOĞRU – YANLIŞ** Mən səni *doğru* yola çəkmək istəyirəm (C.Məmmədov); *Yanlış* hesab Bağdaddan qayıdar (Ata. sözü).

**DOĞRUÇU – YALANÇI** *Yalançının* evi yandı, kimsə inanmadı (Ata. sözü); Deyənlər nə qədər *doğruçu*, nə qədər alicənab şəxslər imiş (M.S.Ordubadi).

**DOĞRUÇULUQ – YALANÇILIQ** Müəllim şagirdlərinə *doğruçuluğu* təbliğ edirdi. Bizcə, *yalançılıq* ləkəsi ölümdən daha çirkindir (H.Cavid).

**DOĞRULTMAQ – GÜNAHLANDIRMAQ** Yarməmmədi mühasiblikdən azad edək, hələlik qoyaq aşağı bir işdə özünü *doğrultsun* (M.İbrahimov); Əvvəlcə dincəlirdi, kitablar oxuyurdu, sonralar isə darılmağa başlayanda ancaq özünü *günahlandırırdı* (M.İbrahimov).

**DOĞRULUQ – ƏYRİLİK** *Doğruluğun* dili belədir yalnız (S.Vurğun); Məncə, ona inanmaq olmaz, kimi dindirirsən *əyriliyindən* dad çəkir (M.İbrahimov).

**DOĞRULUQ – YALANLIQ** Çünki sözlərimizdə *doğruluq* var (S.Vurğun); Kəndçilər etdilər dübarə hücum; Yenə oldu *yalanlığı* məlum (M.Ə.Sabir).

**DOĞULMAQ – ÖLMƏK** Adamlar bir dəfə *doğulur*, bir dəfə *ölür* (F.Kərimzadə).

**DOĞUM – ÖLÜM** – Sizin verdiyiniz nömrə Moskvada *doğum* evidir (S.Qədirzadə); Gözünün içinə baxdı *ölümün*; Neçə yol torpağa çiləndi qanı (B.Vahabzadə).

**DOĞUŞ – ÖLÜM** Əsil möcüzə - *doğuşdur*, törənişdir (İ.Məlikzadə); Elə qızla *ölümə* də getmək qorxulu deyil (S.Qədirzadə).

**DOLAMAQ – AÇMAQ** Çay başından gələrkən saçlarımı əllərinə *doladı*, kəndin içindən sürürdü (C.Cabbarlı); Kapitan gözlərini geniş *açdı* (S.Qədirzadə).

**DOLANBAC – DÜZ** Mahmud Zəncanın *dolanbac* küçələrində gözdən itdi (A.Makulu); İndi şəhərimizdə salınan küçələr *düzdür*.

**DOLAŞIQ – AYDIN** Qəlbimdə ağır-ağır dərdlərim, başımda *dolaşıq* fikirlərim, xəyalım, hərc-mərc gözlərim ulduzlarda, bir müddət yata bilmədim (A.Divanbəyoğlu); Çox *aydın* və dərin mənalı iki xətt şerə oxşayan bu lentlər ona nələr xatırlatmadı (Ə.Vəliyev).

**DOLAŞIQLI – AYDIN Dolaşıqlı** yolda sürəti artırmağın qorxulu olduğunu sezib açıq deyərdi (Mir Cəlal); Bu mənzərəni görərkən hər şey *aydın* oldu (Ə.Məmmədxanlı).

**DOLAŞIQLIQ – AYDINLIQ** İlyas gülünc bir heyrət, qəribə *dolaşıqlıq* içində

çaşıb donmuşdu (Mir Cəlal); Süd kimi *aydınlıq* idi (Ə.Vəliyev).

**DOLAŞMAQ – AÇILMAQ** Ayı zənciri ilə ağaca *dolaşıb* dartınır və bağırırdı (S.S.Axundov); Bir azdan zabit əmr verdi, salı sahilə bağlayan kəndirlər *açıldı* (S.Qədirzadə).

**DOLAYI – BİRBAŞA** Lakin demədi, dönüb *birbaşa* yuxarı qalxdı (M.İbrahimov); Bu görüşdən *dolayı* çox şad olub bağa girdik (Ə.Haqverdiyev).

**DOLĞUN – ARIQ** Qapını açan *dolğun* bir qadın idi (C.Əmirov); Yanaşı əyləndiyimiz Tel adlı *arıq*, lap uşağa oxşayan gənclə artıq dostlaşmışıq (S.Sərxanlı).

**DOLĞUN – ZƏİF** Kəramətin çil, dolu çöhrəsi kimi *dolğun* da səsi vardı (Ə.Əbülhəsən); Arvad, hələ o lazım deyil, uşaq çox *zəifdir*, danışdırma (S.S.Axundov).

**DOLMAQ – BOŞALMAQ** Bir yandan *boşalır*, bir yandan *dolur*; Sirrini verməyir sirdaşa dünya (S.Vurğun).

**DOLU – ARIQ** *Dolu* qadın onun sözünü təsdiq etdi (C.Əmirov); *Arıq* kişi bir az da ona tərəf çəkilib dilini işə saldı (S.Qədirzadə).

**DOLU – XALİ** Abbas kişi *dolu* bir heybə hazırlayıb yəhərin qaşına saldı (Mir Cəlal); Ancaq dünya *xali* deyil (S.Vurğun).

**DOLU – YARIMÇIQ** Barjın göyərtəsi yükdaşıyan adamlarla *dolu* idi (M.Rzaquluzadə); Sözü *yarımçıq* qalmış arvad təsdiq etdi (M.İbrahimov).

**DOLUXSUNMAQ – GÜLÜMSÜNMƏK** Kazım *doluxsundu* (İ.Şıxlı); *Gülümsəyirdi*, kirpikləri titrəyirdi (S.Qədirzadə).

**DOLUŞMAQ – ÇIXMAQ** Məktəblilər dəstə-dəstə; *Doluşdu* dərs otağına (M.Dilbazi); Səhər tezdən durub yaxşı fikirlər, nəcib hisslərlə evdən *çıxarsan* (Ə.Vəliyev).

**DOMBALMAQ – ÇÖKMƏK** Gözləri isə qışqırdıqca, elə bil, daha da *dombalır* (Ə.Əbülhəsən); Onun gözləri *çökmüşdü*.

**DOMUŞMAQ – AÇILMAQ** Arabanın boynunda çömbəlmiş, *domuşub* oturan Əsgər hərdən şallağı tovlayıb kəllərə qışqırır (Ə.Vəliyev); Əhmədin boğazı *açıldı*, dili söz tutdu (Ə.Vəliyev).

**DOMUŞUQ – AÇIQ** Həmişə *domuşuq* vəziyyət alardı. *Açıq* yaxasından görünən sarğı qabaqdan da qana bulaşmışdı (S.Qədirzadə).

**DONQAR – ŞUMAL** O *donqar* kişi çıxıb poçta yönəldiyi vaxt Həmid dayıya rast gəldi (Ə.Əbülhəsən); Gedən boylu, enlikürək, *şumal* bir oğlandı (S.Qədirzadə).

**DONQULDANMAQ – SUSMAQ** Gileygüzarov öz qoyun gözlərini tavana zilləyib qəzəblə *donquldandı* (S.Rüstəm); Gücü ona çatırdı ki, *susurdu* (S.Qədirzadə).

**DONMAQ – AÇILMAQ** *Dondu* cığırlar, izlər; Bu gedişin qəsdi nə? (H.Hüseynzadə); Qiymət içəri girəndə elə bil onun donu *açıldı* (Ə.Vəliyev).

**DONMAQ – ƏRİMƏK** Hələ deyirlər ki, dənizin suyu sahildən xeyli uzaqlara qədər *donub* (M.Rzaquluzadə); Yaz gələn kimi dağların qarı *əriyir*, yağış yağır (Ə.Vəliyev).

**DONMAQ – İSİNMƏK** – Nə səbəbə su qaynayanda buğ olur, niyə *donanda* bərkiyir? (C.Məmmədquluzadə); Xörəyi *isidib* gətirdi (Ə.Vəliyev).

**DONUQ – İSTİ** İki dizi üzərində dikələrək *donuq* və şübhəli baxışlarla məni süzdü (A.Şaiq); Ocaqlar çatılır, ev qızır haman; Humay bürünmüşdü *isti* yorğana (S.Vurğun).

**DONUQLUQ – AÇIQLIQ** Məhərrəm heç vaxt baş aça bilmirdi bu *donuqluqdan* (M.Eynullayeva); Parisə gəldikdən sonra o, birinci dəfə idi ki, şəhəri belə ürək *açıqlığı* ilə seyr edirdi (S.Qədirzadə).

**DOST – ƏĞYAR** Heç bundan yaxşı şey olarmı ki, qəlbdən istədiyin *dostdan* məktub alasan! (N.Nərimanov); Dayandı başımız *əğyar* içində ərşi-əlaya (M.S.Ordubadi).

**DOST – RƏQİB** Hər şeyin təzəsi, *dostun* köhnəsi (Ata. sözü); Artıq mövqelərini

itirən italyan oyunbazları bu qorxulu *rəqibi* aradan götürməyi qərara aldılar (S.Vəliyev).

**DOSTLUQ – DÜŞMƏNÇİLİK** *Dostluq* müxtəlif olur; *Düşmənçilik* kimi (R.Rza).

**DOYMAQ – ACMAQ** Diş qurdalamaqla qarın *doymaz* (Ata. sözü); Cücələrim *acdı*, yemləmək vaxtıdır.

**DOYUNCA – YARIMÇIQ** *Doyunca, doyunca* söhbət edərik (M.İbrahimov); Bu nədir, ə, sözü *yarımçıq* qoyub susdun?! (M.İbrahimov).

**DÖNMƏK – GETMƏK** Bir gün Qərənfillə Bahadır adi qayda üzrə bir yerdə evə *döndülər* (S.Rəhimov); İndi *gedib* səhərə kimi rahat yatacaqsan (S.Qədirzadə).

**DÖNÜK – SƏBATLI** Aslan ... *dönük* fikirli və zəif iradəli adamları sevməzdi (M.İbrahimov); Sən dönməz balıqçısan; Yoldaşların *səbatlı* (M.Rahim).

**DÖNÜKLÜK – SƏBATLILIQ** Xeyr, artıq *dönüklük* umma məndən (H.Cavid); Onun *səbatlılığı* məni sevindirir.

**DÖŞƏMƏK – TƏRİFLƏMƏK** Müşavirədə ona yaman *döşədilər* (İ.Əfəndiyev); Bütün məktublarında qarını *tərifləyirsən* (Ə.Vəliyev).

**DÖŞƏMƏK – YIĞMAQ** Tərgül qazanın altında od yandırdı, samovara köz saldı, masanın üstünə ütülənmiş ağ süfrə *döşədi* (Ə.Vəliyev); – Geri niyə qaytarırsan, tikəndə özümüz düzəldərik, *yığışdır* (M.İbrahimov).

**DÖŞƏNMƏK – YIĞILMAQ** Həyətdə palaz *döşənib*, samovar qurulmuşdu (Çəmənzəminli); Çay içildikdən sonra süfrə *yığıldı*.

**DÖVLƏTLƏNMƏK – YOXSULLANMAQ** Qəm yemə, çox çəkməz *dövlətlənərsən* (S.Rüstəm); Var-yoxdan çıxmış kəndlilər tamam *yoxsullaşmışdılar*.

**DÖVLƏTLİ – GƏDA** O deyəndə bir *dövlətli* xanım, mən *gədanın* birisi (Ə.Haqverdiyev).

**DÖVLƏTLİLİK – KASIBLIQ** İndi dünyada qayda belədir ki, birisi ucadan alçağa enə, *dövlətlilikdən kasıblığa* düşə, həmişə söhbəti aparıb çıxaracaq keçən günlərə (C.Məmmədquluzadə).

**DÖVLƏTLİLİK – YOXSULLUQ** Düşüncəsiz adamlar öz səadətini *dövlətlilikdə* axtarır. Yığıb bir palaza satacaq onu; Budur *yoxsulluğun*, aclığın sonu (S.Vurğun).

**DÖYMƏK – OXŞAMAQ** Xanım haqsız yerə söyüb-danlamağa, *döyməyə*, incitməyə başlayır (S.Hüseyn); Gəl, ipək saçını *oxşayım*; Səninlə bir an da yaşayım (M.Müşfiq).

**DÖYÜKMƏK – TOXTAMAQ** Sofiya xanım Rüstəm bəyi görən kimi əvvəl *döyükdü*, rəngi qaçdı (Çəmənzəminli); Əziz özünü *toxtatmağa* çalışır, həkim əlini ondan çəkir (Ə.Vəliyev).

**DÖYÜNMƏK – DAYANMAQ** Rəng aldı bu nəğməli görünən qövsi-qüzehdən; Qəlbim *döyünüb*, lalə kimi güldü fərəhdən! (S.Rüstəm); Birdən elə bil ürəyi *dayandı*.

**DÖYÜŞKƏN – QORXAQ** Mən də *qorxaq* deyiləm, yaman da *döyüşkənəm* (C.Cabbarlı).

**DÖYÜŞKƏN – SAKİT** Özü arıq bir oğlandır. Amma bilirsən necə *döyüşkəndir* (A.Makulu); Çox *sakit* adamdır (Ə.Vəliyev).

**DÖYÜŞKƏNLİK – QORXAQLIQ** *Döyüşkənlikdə* ad çıxarmışdı. Sən *qorxaqlıq* elədin (Ə.Vəliyev).

**DÖYÜŞMƏK – BARIŞMAQ** Dünyanın sellərində çalxayan bizim həyat; Sağdan sola *döyüşmüş*, sonra yoluna düşmüşdü (M.Müşfiq); Mən onları mütləq *barışdırmalıyam* (Ə.Vəliyev).

**DÖZÜMLÜ – SƏBİRSİZ** Qaraca qız da Nurəddin kimi pis günə *dözümlü*, səbirli bir uşaqdır (S.S.Axundov); Elə *səbirsizdir* ki, bir yerdə beş dəqiqə dura bilmir.

**DÖZÜMLÜLÜK – SƏBİRSİZLİK** Futbol insanda *dözümlülük*, cəldlik, çeviklik kimi keyfiyyətlər tərbiyə edir ("İzahlı lüğət"); Sərvinaz cavab tapmağa hazırlaşdığı vaxt Polad *səbirsizlik* edib öz sualına özü cavab verdi (Ə.Vəliyev).

**DÖZÜMSÜZ – SƏBİRLİ** Püstəxanım həddindən artıq *dözümsüz* idi (M.Hüseyn);

İndi Əziz çox toxtaq, olduqca *səbirli* idi (Ə.Vəliyev).

**DÖZÜMSÜZLÜK – HÖVSƏLƏLİK** *Dözümsüzlük* üzündən özünü daha da xar etmisən (M.Talıbov); *Hövsələliyi* sayəsində salamat qala bilmişdir (“Azərbaycan qadını”).

**DUL – ƏRLİ** Bir neçə *ərli* qadın oturub, *dul* Tellinin qeybətini edirdi (“Ulduz”).

**DUMANLANMAQ – AÇILMAQ** Fəqət nəfəsinə ağır bir şey tıxanmış, gözləri *dumanlanmışdı* (A.Şaiq); *Açıldı* arzuları; Gözündə çiçək-çiçək (B.Vahabzadə).

**DUMANLI – AÇIQ** Maritsa *dumanlı* gözlərini ona zillədi (S.Vəliyev); *Açıq* səma, göy qurşağı; Biri sənsən, biri mən (B.Vahabzadə).

**DUMANLI – AYDIN** Cəfər xeyli fikrə getdi, üzü tutuldu, *dumanlı* baxışları uzaqlara dikib düşündü (M.İbrahimov); Bunların hamısı məlum və *aydındır* (Ə.Vəliyev).

**DUMDURU – BULANLIQ** Küçənin hər iki tərəfindən *dumduru* su axırdı (Ə.Vəliyev); Baxışı *bulanlıq*, gözləri yorğun idi (Ə.Vəliyev).

**DURĞUN – AXAR** *Durğun* göl olduğu yadıma gəlmir (A.Şaiq); *Axar* su murdar olmaz (Ata. sözü).

**DURĞUN – DAŞQIN** Şux səslərlə dolu isti yuvalar; *Daşqın* çaylar, *durğun* göllər bizimdir (A.Şaiq).

**DURĞUNLUQ – İNKİŞAF** Cəfər Cabbarlının vəfatından sonra səhnədə və dramaturgiyada bir *durğunluq* əmələ gəldi (S.Rəhman); *İnkişaf* əksliklər mübarizəsidir.

**DURĞUNLUQ – QAYNARLIQ** Hər duruşunda, hər baxışında bir *durğunluq* var (H.Cavid); Onun üzündən bir *qaynarlıq* duyulur.

**DURĞUZMAQ – YATIRTMAQ** Mənsur onu *durğuzub* aparmaq istədisə də, Sitarə mane olub oturtdu (C.Cabbarlı); Mədinə uşaqlarını *yatızdırıb*, öz işi ilə məşğul olmağa başladı (“Azərbaycan”).

**DURMADAN – ARA-SIRA** Əsirdi *durmadan* birbaşa yellər; Döyürdü bağrını dağ-daşa sellər (S.Vurğun); *Ara-sıra* tünd-məcaz arvad da görünürdü (M.İbrahimov).

**DURMAQ – ƏYLƏŞMƏK** *Durdum* ki, evimizə gedib bu arsızı doydurum (A.Divanbəyoğlu); Onlar *əyləşdilər* və Sərdarın kefini soruşdular (M.S.Ordubadi).

**DURMAQ – GETMƏK** ...Di, burada niyə *durubsan*, buyur, *gedək* mənzilə (C.Məmmədquluzadə).

**DURMAQ – OTURMAQ** Sakitcə *oturmuşuq*; Bir tərəfdə *durmuşuq* (İ.Tapdıq).

**DURMAQ – UZANMAQ** Səhər *durub* Sabunçu məktəbinə getməyə hazırlaşdım (A.Şaiq); Əlini yastıq edib *uzandı* yastığına (S.Rüstəm).

**DURMAQ – YIXILMAQ** Mat-qut dayanıb *durdum*; Qarşısında şairin (S.Rüstəm); Sənin yanında Rəsulova dedim ki, *yıxılmışam*, burnum qanayıb (C.Əmirov).

**DURU – BULANIQ** Beşinci gün idi ki, kolxozçular *bulanıq* arx suyunun əvəzində *duru* şirin su içirdilər (Ə.Vəliyev).

**DURULMAQ – BULANMAQ** O vaxtdan həftələr, aylar dolandı; Sular gah *duruldu*, gah da *bulandı* (S.Vurğun).

**DURULMAQ – BULAŞMAQ** Dünənki bərk qardan sonra gün çıxmış, hava *durulmuşdu* (Mir Cəlal); Bakının havası birdən-birə *bulaşmışdı* (M.İbrahimov).

**DURULMAQ – POZULMAQ** Məhərrəmin birdən-birə kefi *duruldu* (M.Eynullayeva); Qulam Rza adını eşidən kimi mənim kefim *pozuldu* (M.İbrahimov).

**DURUŞ – OTURUŞ** Vardı bir əlçatmaz gənclik vüqarı; Qızın *duruşunda*, *oturuşunda* (Ə.Cəmil).

**DURUŞ – YATIŞ** Baxışım, *duruşum* dəyişdi tamam (Ə.Rza); Körpənin məsum *yatışı*, əlciyəzinin qoyuluşu, bütün əzası ildırım qüvvəsinə dönərək Mərdanı vurdu (Çəmənzəminli).

**DUZLU – ŞİT** Hər gün burda darvaza tağı altında *duzlu* suda pörtlədilmiş qarğıdalı

satan yeniyetmə bir oğlan heyrətlə arxadan onu səsləmişdi (Ə.Məmmədxanlı); Partizanlar bir neçə aydı ki, xörəyi *şit* yeyirdilər (S.Vəliyev).

**DUZSUZ – MARAQLI** Şerində bir axıcılıq hiss olunsa da, *duzsuzdur*. Bu danışıqlardan bir neçəsi *maraqlı* idi (Ə.Vəliyev).

**DÜNƏN – BU GÜN** *Dünən* beş, *bu gün* şeş (Ata. sözü).

**DÜNƏNKİ – BAYAQKI** *Dünənki* bu çöllərdə; Axar zümrüd kimi su (M.Seyidzadə); Eynəkli kişinin *bayaqkı* istehzalı baxışından əsər-əlamət qalmadı (C.Əmirov).

**DÜRTMƏK – ÇIXARTMAQ** Pası mırıldana-mırıldana əyildi, açılmış kağızı qatlayıb onun qoynuna *dürtdü* (S.Rəhimov); Yarməmməd portfelindən bir dəstə əzik-üzük kağız *çıxartdı* (M.İbrahimov).

**DÜRÜST – SƏHV** Sənin fikrin *dürüstdür*. Köhnə *səhvlərini*, keçmiş nöqsanlarını adamların üzünə tez-tez vurmağın nə mənası var (Ə.Vəliyev).

**DÜRÜST – YALANÇI** Əgər siz *dürüst* adam olsaydınız, bu neçə vaxtı bu yolda görünməzdiniz (M.F.Axundzadə); Hər ikiniz *yalançı* və fırıldaqçısınız (C.Əmirov).

**DÜŞKÜN – BƏXTƏVƏR** Olmasaydı əgər bu üç xoş gün; Mənim ömrüm olurdu *düşkün* (A.Səhhət); *Bəxtəvər* başıma, yaxşı tapmışam xoşbəxtliyin yolunu (M.İbrahimov).

**DÜŞKÜN – GÜMRAH** Tərlanım, tərlanım, gözəl tərlanım; Sənə qurban olsun bu *düşkün* canım (S.Vurğun); Bu *gümrah*, bəxtiyar gəncləri görcək; Xəyalən dolanıb gəzdim dünyanı (O.Sarıvəlli).

**DÜŞKÜN – VİCDANLI** Cahangir ağa zəif iradəli, naqis ağıllı, *düşkün* fikirli adam idi (Ə.Vəliyev); Mən *vicdanlı* adamam, razı olmaram ki, sizin kimi yaxşı yoldaşa qarşı qrup düzəltsinlər (İ.Fərzəliyev).

**DÜŞMƏK – ÇIXMAQ** Dünya nərdivandır, biri *çıxır*, biri *düşür* (Ata. sözü).

**DÜŞMƏK – QABARMAQ** Yenicə çırtlayan günəşin ilk şüaları onların üstünə *düşmüşdü* (Ə.Məmmədxanlı); Hər dəfə nəfəs aldıqca sinəsi körük kimi *qabarırdı* (İ.Şıxlı).

**DÜŞMƏK – MİNMƏK** *Minirsən* mən minəndə, *düşürsən* mən düşəndə (S.Rüstəm).

**DÜŞMƏN – DOST** O öz *dostunu* və *düşmənini* tanıya bilmir (M.S.Ordubadi).

**DÜŞMƏN – HƏMDƏM** Biz bəzən *düşməni* tanımayırıq. Onu özümüzə *həmdəm* sayırıq (S.Rüstəm).

**DÜŞMƏNLİK – AŞINALIQ** Dünənki *düşmənliyə* inanmayırdıq (Ə.Əbülhəsən); Od ilə pambığın nə **aşınalığı** (Ata. sözü).

**DÜŞÜNCƏLİ – FƏRSİZ** Səttar xan olduqca *düşüncəli* və kədərli idi (M.S.Ordubadi); Ürəyində, o qocadan *fərsiz* övladına qalan karxana kimi uçulub-dağılıb, bərbad olub (S.Qədirzadə).

**DÜŞÜNÜŞMƏK – DOSTLAŞMAQ** Sən niyə Şiraslanla *düşünüşmüsən*? (S.Rəhimov); Fərman da Qədir kişi ilə *dostlaşdı* (Ə.Sadıq).

**DÜYMƏLƏMƏK – AÇMAQ** Məşədi İbad yaxasını *düymələyir* (Ü.Hacıbəyov); Qulam qızın yaxasının düymələrini *açdı* (S.Qədirzadə).

**DÜYMƏLİ – AÇIQ** Əyricə qaşı var, ucu əyməli; Kətan köynək geyib, köksü *düyməli*. Aşıq Kərəm. Qulam sobanın *açıq* qapısından yerə düşən közü götürüb içəri atdı (S.Qədirzadə).

**DÜYÜN – YAS** Uzaq ellərdə *yasdır*, bizim ellərdə *düyün* (S.Rüstəm).

**DÜYÜNLƏMƏK – AÇMAQ** Qadın bu pullara həsrətlə baxdı və nəhayət, onların beşini götürüb çarqatının ucuna *düyünlədi* (A.Makulu); Göyçək durub qapını *açdı* (Ə.Vəliyev).

**DÜYÜNLÜ – AÇIQ** İlanlar fışıldayır kol-koslar arasından; Ayağa dolaşan *düyünlü* kəndir kimi (S.Rüstəm); Simon yol *açıqdır*, gedə bilərsən (B.Vahabzadə).

**DÜYÜNLÜ – ŞAD** Sevdiyim əyninə geyibdi ağı; Çəkibdi sinəmə *düyünlü* dağı

(“Abbas və Gülgəz”); Ürəkdən *şadam* ki, elə oğlunuz var (Ə.Vəliyev).

**DÜYÜNLÜ – YASLI** İndi elimizin toylu-*düyünlü* günləri başlayır (M.Süleymanlı); *Yaslı* gəlinlərin, *yaslı* qızların; Ahından əridi dağların qarı (S.Vurğun).

**DÜZ – DOLAMA** *Düz* yolla getməyi özünə ölüm bilir. *Dolama* yollarda maşının sizi nə qədər atıb-tutduğunu təsəvvür edin (S.Vəliyev).

**DÜZ – XOR** Ovçu ovun düz görə; *Düz* dolana, *düz* görə; Mən yara neylədim ki; Atdı məni göz görə (Bayatı); *Xor* baxarsan, ac qalarsan (Ata. sözü).

**DÜZ - KÖNDƏLƏN** Yolu gah *düzünə*, gah *köndələninə* getmişdim, şəhərin axşam qaynarındakı izdiham içində çox sıxcalanmışdım, çox çalxalanmışdım... (Ə.Məmmədxanlı).

**DÜZ – NAHAMVAR** *Düz* yolla gedən yorulmaz (Ata. sözü); Evin *nahamvar* palçıq döşəməsinə kandar tərəfdə xaral sərilmişdi (S.Qədirzadə).

**DÜZ – YALAN** *Düz* sözə nə demək olar?! (İ.Əfəndiyev); *Yalan* sözə nə verirlər (“Ulduz”).

**DÜZ – YAMAN** Bircə sən *düz* adamsan (C.Əmirov); Bu dünyada üç şey başa bəladı; *yaman* oğul, *yaman* arvad, *yaman* at (Aşıq Ələsgər).

**DÜZ – YANLIŞ** Ona elə gəldi ki, döyüşçü *düz* məlumat vermir (S.Vəliyev); Elə isə, qızım, mənə *yanlış* məlumat veriblər (S.Vəliyev).

**DÜZƏLİŞMƏK – POZULUŞMAQ** Əvvəl *düzəlişdilər*, bir müddət mehriban yaşadılar, sonra nədənsə *pozuluşdular*.

**DÜZƏLMƏK – ƏYİLMƏK** Döyüşdü gah *əyildi*; Gah dikəlib, *düzəldi* (B.Vahabzadə).

**DÜZƏLMƏK – POZULMAQ** Biz belə qanırıq ki, xəyal, fikir və əqidə *düzəlməsə*, fel heç vaxt düzəlməz (C.Məmmədquluzadə); Anladıqca səni *pozulur* halım (S.Vurğun).

**DÜZƏLTMƏK – DAĞITMAQ** Faşistlər onları buraya göndərmişdilər ki, dağılmış körpüləri *düzəltsinlər*. Ancaq bu igidlər, əksinə, uçulmamış körpüləri də *dağıtdılar* (S.Vəliyev).

**DÜZƏLTMƏK – ƏYMƏK** Qərənfil pəncərənin şüşəsinə baxıb kəlağayısını *düzəltdi* (S.Rəhman); Zinyət fikirli alnını qırışdırıb dodaqlarını *əydi* (Çəmənzəminli).

**DÜZGÜN – YALAN** İti gözləri çox şeylər görür, həssas ağıl isə tam və *düzgün* nəticə çıxarır. *Yalan* ayaq tutar, amma yeriməz (Ata. sözü).

**DÜZLÜK – ƏLİƏYRİLİK** Gənclik həmişə yüksək və təmiz xəyalların, *düzlük* və sədaqətin mücəssəməsidir (M.İbrahimov); Qarətin, *əliəyriliyin* kökünü kəsmək (F.Kərimzadə).

**DÜZLÜK – RİYAKARLIQ** Coşur, əzildikcə daha da ilham; Həqiqət naminə, *düzlük* naminə (B.Vahabzadə); Bu *riyakarlıq*, bu yalançı hörmət Rüstəm kişinin qəzəbini coşdurur (M.İbrahimov).

**DÜZMƏK – DAĞITMAQ** Böyük daşlardan *düzüb* özümə bir meysərə, səndələ oxşar bir yer qayırmışdım (A.Divanbəyoğlu); Uşaqlar daşları *dağıtmağa* başladılar (“Azərbaycan”).

**DÜZÜNƏ – ÇƏPƏKİ** Mənim qarşımda *düzünə* oturdu (T.Hüseynov); Əhməd onu *çəpəki* süzərək cavab verdi (A.Şaiq).

**DÜZÜNƏ – YANAKI** O *düzünə* üzümə baxaraq gülümsədi. Çünki maşın *yanakı* dayanmışdı (C.Əmirov).

# Ee

**EHMALCA – CƏLD** Ana *ehmalca* uşağı qucağına aldı (M.Hüseyn); Mən də *cəld* ayağa durdum (Y.Əzimzadə).

**EHMALLI – CƏLD** O, daşıqçılara yüklərin *ehmallı* düşürülməsini tapşırdı (S.Rəhimov); Sabir *cəld* irəli yeridi (Mir Cəlal).

**EHMALLICA – CƏLD** Rüstəm bəy diksindi, qolunu *ehmallıca* xanımın qolundan xilas etdi (Çəmənzəminli); Anası *cəld* ayağa qalxıb, həyətə gəldi (Mir Cəlal).

**EHMALLIQ – CƏLDLİK** Üslubunda kənd sakitliyi və *ehmallığı* hakimdir (Mir Cəlal); İndi hər bir iş *cəldlik* tələb edir.

**EHTİRAM – NİFRƏT** Ailədəki bu qarşılıqlı *ehtiram* indi artıq ənənə və etiqad halına gəlmişdir (M.Hüseyn); Adamla çörək kəsib üzünə gülən, dalda isə ayağının altını qazan şəxslərə *nifrəti* böyük idi (M.İbrahimov).

**EHTİRAMLA – NİFRƏTLƏ** İçəri daxil olcaq Dəmirov Simona dönüb *ehtiramla* başını əydi və salam verdi (S.Rəhimov); Ətrafındakıları *nifrətlə* süzdü (“Azərbaycan”).

**EHTİRASLI – SÖNÜK** *Ehtiraslı* gözləri ilə ona odlu bir nəzər saldı (C.Əmirov); Səndə var coşqun ehtiras alovu; Yaxar atəşlərin *sönük* bir evi (H.Cavid).

**EHTİŞAM – MATƏM** İndi bayraq kimi ucaldır zaman; Vətən torpağının *ehtiramını* (S.Vurğun); Bu *matəm* xəbəri kənddə heç nəyi dəyişmədi.

**EHTİYATLA – XƏSARƏTLƏ** Hacı Qulu... *ehtiyatla* quyunun yanında uzanıb diqqətlə baxdı (A.Şaiq); O *cəsarətlə* işə girişdi.

**EHTİYATLANMAQ – CÜRƏTLƏNMƏK** Mən, doğrusu, *ehtiyatlanmağa* başladım (Q.Qantəmir); Onları əyləndirməyə, *cürətləndirməyə* çalışırdım (Mir Cəlal).

**EHTİYATLI – DİQQƏTSİZ** Çıxdım küçəyə və *ehtiyatlı* keçib getdim (C.Məmmədquluzadə); *Diqqətsiz* olması narahatlıq doğurur.

**EHTİYATSIZ – TƏDBİRLİ** Bəzən *ehtiyatsız*, kiçik bir xəta; Böyük faciələr yaradır, demək (S.Vurğun); Görünür sən məndən *tədbirlisən* (İ.Şıxlı).

**EKSPORT – İMPORT** Xaricə mal göndərilməsi *eksport*, xaricdən mal gətirilməsi *import* adlanır.

**ELİZİYA – PROTEZA** Sözdə səs düşümü hadisəsinə *eliziya*, sözdə səs artımı hadisəsinə *proteza* deyilir.

**ELMLİ – SAVADSIZ** Əlibəy *elmli* və qoca bir kişi idi (S.S.Axundov); Qızım, mən *savadsızam*, dərsdən başım çıxmaz (Mir Cəlal).

**ELMSİZ – SAVADLI** Mən *elmsiz* bir adamam (M.S.Ordubadi); Biri də *savadlı* lazımdır ki, stolun böyründə otursun, yazsın (Mir Cəlal).

**EN – UZUN** Tövlənin iyirmi səkkiz arşın *uzunu*, yeddi arşın yarım *enidir* (Q.Qantəmir).

**ENİNƏ – UZUNUNA** Parçanın *eninə*, *uzununa* baxıb yerinə qoydu.

**ENLƏNMƏK – UZANMAQ** Bunu qırıb atdıqda pambıq gücü *uzanmağa* yox, *enlənməyə* verir (Ə.Vəliyev).

**ENLƏTMƏK – DARALTMAQ** Ömründə gülüşlə işıqlanmış kimi görünən tutqun sifəti bir az *enlənmişdi* (Mir Cəlal); Yolu *daraltdılar*.

**ENLİ – DAR** İkinci məhəlləyə gəlincə, küçələri *enli*, təmiz və evləri səliqə ilə tikilmişdi (N.Nərimanov); Atlılar *dar* küçələri, əyri döngələri keçib, seminariyanın yanına qədər gəldilər (İ.Şıxlı).

**ENLİ – QISA** Lazar *enli* qaşlarını qaldırıb gülümsədi (S.Vəliyev); Tapdıq məni görcək *qısa* qaşlarını dartdı, gözlərini bərəldib üstünə yeridi (Y.Əzimzadə).

**ENLİ – NAZİK** Kişinin sifəti *enli* və qabarıqdır (Mir Cəlal); Doğrudan da, qurmaq

kimi *nazik* yola araba salmağın nə qədər cəsarət istədiyini düşünür... (Mir Cəlal).

**ENMƏK – QALXMAQ** Uzanıb divanda İlqar bayaqdan; Gah *enir*, gah *qalxır* geniş sinəsi (H.Hüseynzadə).

**ENMƏK – YÜKSƏLMƏK** Peşəm *yüksəlməkdir*, *enmək* bilmirəm (S.Rüstəm).

**ENSİZ – GEN** Yeja özünü kirpi kimi yığdı, *ensiz* çiyinlərini qısıb boğazını uzatdı (S.Vəliyev); Axund öskürən kimi Şirin *gen* və uzun tumanı ilə ayaqlarını örtdü (Mir Cəlal).

**ENSİZ – UZUN** Ortada *uzun*, lakin *ensiz* ayaqaltı xalça salınmışdı (M.İbrahimov).

**ERTƏ – AXŞAM** Sübh çox *ertə* oyanardı qarı; Durquzar idi hamı xidmətkarı (A.Səhhət); *Axşam* kənddə əl-ayaq yığılan vaxt Qədir oyandı (Ə.Vəliyev).

**EŞİK – İÇƏRİ** Hacı Həsən bir söz deməyib gəlir, yapışır İskəndərin qolundan və çəkə-çəkə aparır *eşiyə* (C.Məmmədquluzadə); *İçəri* girən kimi əlini gödəkcəsinin cibinə salardı (Mir Cəlal).

**ETİBARLI – VƏFASIZ** Görünür, *etibarlı* kişisən (A.Şaiq); Bu *vəfasız* dünya mənim son ümidimi söndürdü (M.Hüseyn).

**ETİBARLILIQ – VƏFASIZLIQ** ...Aparatların işdə *etibarlılığı* onların konstruksiya və vəziyyətlərindən xeyli dərəcədə asılıdır (P.Rüstəmzadə); Artıq arvadının *vəfasızlığına* qəti olaraq inandı (Çəmənzəminli).

**ETİNASIZ – DİQQƏTLİ** Yeja onu *etinasız* dinlədi (S.Vəliyev); Buna görə də başqalarına nisbətən daha çox *diqqətli* olmalıdır (C.Əmirov).

**ETİNASIZLIQ – DİQQƏTLİLİK** Rüstəm kişi Mayaya *etinasızlıq* göstərdi (M.İbrahimov); *Diqqətliliyinə* görə təşəkkür edirik.

**ETİRAZ – ETİRAF** Səriyyə xalanın bütün *etirazları* puça çıxdı (S.Rəhimov); Qadının *etirafı* və yaxud təsdiqi mənim marağımı təskin etmirdi (S.Hüseyn).

**EVLƏNMƏK – BOŞANMAQ** Qəribə bu idi ki, Şamxal *evlənmişdi* (İ.Şıxlı); Mən də səni *boşaram*, qalarsan canın çıxa-çıxa (Çəmənzəminli).

**EVLİ – SUBAY** İndi qadan alım, *evlisən*? (Ə.Haqverdiyev); Məgər şəhərdə ağıllı, ailə sevən *subay* kişilər azdır? (C.Əmirov).

**EVLİLİK – SUBAYLIQ** Otuz ildir, sənə ev düzəldirəm, uşaq saxlayıram; Bu da mənim *evliliyimin* əvəzi!.. ("Aşıq Ələsgər" dastanı); Saqqalını *subaylıqda* ağartmayacaqdı ki?.. (M.İbrahimov).

**EYBƏCƏR – QƏŞƏNG** Fərhad xan bığıburma, yekəqarın, *eybəcər* bir pəhləvan idi (Nağıl); Göy üzündə bir *qəşəng*; Tağ görünür yeddi rəng (A.Səhhət).

**EYBƏCƏRLƏŞMƏK – QƏŞƏNGLƏŞMƏK** Qaraşa elə gəlirdi ki, Kələntər çox kök olduğundan, orta boyu bir az qısalır və *eybəcərləşirdi* (M.İbrahimov); Qəhrəman ucalmış, qara saçları daha da sıxlaşmış, özü də dəyişib *qəşəngləşmişdi* (S.Rəhimov).

**EYBƏCƏRLİK – QƏŞƏNGLİK** ...*Eybəcərliyinə* görə heç kəs adını çəkmir (Ə.Əbülhəsən); Qara saçları onun ümumi görünüşünə bir *qəşənglik* gətirirdi (A.Məmmədrza).

**EYİBSİZ – ÇİRKİN Eyibsiz** dost axtaran dostsuz qalar (Ata. sözü); Başqalarının könül qapısına açar salmaq, oğurluqdan da **çirkin** işdir (M.Hüseyn).

**EYİBSİZLİK – NAMUSSUZLUQ** Övladın *eyibsizliyi* valideynin başını ucaldır. Yox, yox, mən belə *namussuzluğa* razı olmaram (M.Hüseyn).

**EYNİ – MÜXTƏLİF** Sən varlığın *eynisən*, buna sözmü var? Ürəyisən, beynisən, buna sözmü var? (M.Müşfiq); *Müxtəlif* bitkilər özünə diqqət tələb edirdi (M.İbrahimov).

**EYNİLİK – MÜXTƏLİFLİK** Lakin yelləncək sürətlə qalxıb endikcə Veysin fikirlərində də elə bil *eynilik* artırdı (Ə.Əbülhəsən); İnsanların düşüncə və istəklərinin bir-birinə zidd və *müxtəlifliyini* gördükcə borana düşmüş yolçu kimi çaşıb qalır (M.İbrahimov).

# Əə

**ƏBƏDİ – MÜVƏQQƏTİ** Sübhün *əbədi* aşiqləri olan boz torağaylar havalanıb səhər nəğmələrini oxuyur (M.Rzaquluzadə); Xalq *müvəqqəti* sükutu pozaraq dedi (M.S.Ordubadi).

**ƏBƏDİLİK – MÜVƏQQƏTİLİK** *Əbədilik müvəqqətilikdən* üstündür ("Qabusnamə").

**ƏBƏDİYYƏT – MÜVƏQQƏTİ** Dünyaya bir dəfə gəlsə də insan; Yenə *əbədiyyət* onundur, fəqət (S.Rüstəm); Əziz bacı, *müvəqqəti* həyatımın əbədi yadigarı bu əksimi sənə verirəm (İ.Şıxlı).

**ƏBƏS – MƏNALI** Ancaq *əbəs* yerə həyəcan keçirirdi (İ.Şıxlı); Uzun və *mənalı* bir sükut Kamranı tutmuşdu (Mir Cəlal).

**ƏBLƏH – AĞILLI** Bu zarafatın o *əbləhə* neçəyə oturacağını göstərirəm (S.Vəliyev); Sözdə hünərdən dəm vurmaq asandır, ancaq *ağıllı* adamlar quru sözə inanmazlar (Mir Cəlal).

**ƏCLAF – VİCDANLI** O vaxt bizim nahiyənin pristavı Navedski adında çox rəhmsiz və *əclaf* bir adam idi (Ə.Vəliyev); Bu xidməti hər bir *vicdanlı* kişi yerinə yetirməli idi (M.S.Ordubadi).

**ƏCLAFLIQ – LƏYAQƏTLİLİK** Görmürsən, kişinin üz-gözündən, hər hərəkətindən *əclaflıq* tökülür (A.Şaiq); Mən onun *ləyaqətliliyinə* lap əvvəldən bələdəm.

**ƏCNƏBİ – ANA** Onları *əcnəbi* dillərdə oxutmuşam (M.S.Ordubadi); Onlar *ana* dilində danışırdılar (M.Hüseyn).

**ƏCNƏBİ – YERLİ** *Əcnəbi* yenə çamadanı verməyib, təcilən... vağzaldan şəhərə çıxdı (S.Qənizadə); Özü də *yerlidir* (Y.Əzimzadə).

**ƏDALƏT – ZÜLM** Aldadır bəşəri yalan vədləri; Haqdan, *ədalətdən* yoxdur bir əsər (S.Vurğun); Tainki ayıqdır, həzər et ər dediyindən; Ər *zülmü* yamandır (M.Ə.Sabir).

**ƏDALƏTLİ – İNSAFSIZ** Heç bundan *ədalətli* qərar olmaz (M.İbrahimov); Bəzən onun gözlərində parıldayan sevinc bir an qədər qısa və *insafsız* idi (M.Hüseyn).

**ƏDALƏTSİZ – İNSAFLI** Heç bir zaman hökumət *ədalətsiz* iş görməz (C.Cabbarlı); *İnsaflı* və mehriban bir adamdır ("Ulduz").

**ƏDALƏTSİZLİK – İNSAFLILIQ** Məgər mən az *ədalətsizlik*, az insafsızlıq görürəm? (Ə.Haqverdiyev); *İnsaflılığına* söz ola bilməz ("Azərbaycan").

**ƏDAVƏT – DOSTLUQ** Bizim qaçdığımıza görə, Pərviz xanla Rəhim xanın arasında *ədavət* düşəcəkdir (Ə.Haqverdiyev); *Dostluqda* deyilən hər sözə min məna verirsən (M.Hüseyn).

**ƏDƏB – QABALIQ** Təzə gəlinlər, cavan qızlar yanına girə bilməzdi; *ədəb*, həya, hörmət vardı (Q.Qantəmir); Bax, mən gəncliyin bu *qabalığı* ilə razılaşa bilmərəm (M.Hüseyn).

**ƏDƏBLİ – KOBUD** Vaqiən Qasım əmi çox *ədəbli* və söz eşidən idi (C.Məmmədquluzadə); O mənə tərəf əyilib, *kobud* bir pıçıltı ilə adımı çağırdı (Y.Əzimzadə).

**ƏDƏBLİLİK – KOBUDLUQ** Oğlan *ədəbliliyindən* başını aşağı saldı və cavab vermədi ("İzahlı lüğət"); Düzdür, biz onun *kobudluğuna* öyrənmişdik (Y.Əzimzadə).

**ƏDƏBSİZ – ABIRLI** Xain, alçaq, *ədəbsiz*, aç qapını (H.Cavid); Mən... təmiz və *abırlı* böyümək istərkən, nə iş idi başıma gəldi (Mir Cəlal).

**ƏFƏL – ZİRƏK** Hə, bala, belə bir kişinin mənim kimi *əfəl* nəticəsi var (B.Bayramov); Varlıdır, arxalıdır, özü də elə bu Səlim kimi *zirəkdir*, gözüaçıqdır (M.İbrahimov).

**ƏFƏLLİK – ZİRƏKLİK** Çox görmüşük dürlü-dürlü ölümləri; Qocalıqdan, xəstəlikdən, *əfəllikdən* ölənləri (X.Rza); Atamın *zirəkliyi* müqabilində mənim çox aciz-avara

bir uşaq olmağımı üzə çəkənlərin ən dəhşətlisi Nabat xalanın oğlu Yaqub idi (Ə.Əylisli).

**ƏFSANƏ – HƏQİQƏT** Bunlar *həqiqətdir*, *əfsanə* deyil; insan nələr qurdu, nələr yaratdı (H.Hüseynzadə).

**ƏFSANƏVİ – ƏSİL** Qartal dedikləri o *əfsanəvi* qəhrəman budur (M.Hüseyn); Çox sağ ol, oğlun Fərid bütün vuruşlarda *əsil* igid olduğunu sübut etmişdir (M.Hüseyn).

**ƏFSANƏVİ – HƏQİQİ** Gülsənəm arvad öz tərifindən ruhlanır, ruhlandıqca da elə bil, qeyri-adi, *əfsanəvi* bir hadisədən danışırdı (M.Hüseyn); *Həqiqi* və əsas söhbətlər axşam şərbəti içilən zaman başlanacaq idi (M.S.Ordubadi).

**ƏĞYARLIQ – DOSTLUQ** Kim olub əğyarə yar, eylər mənə *əğyarlıq* (M.Füzuli); Elə bil o, *...dostluğu*, sədaqəti əsil ürək döyüntüsü ilə tərənnüm edən bir şairə qulaq asırdı (M.Hüseyn).

**ƏHATƏLİ – BİRTƏRƏFLİ** Daha *əhatəli* iclas çağırılsın; Yaxın bir gün, ətraflı danışmaq üçün (R.Rza); Məsələni *birtərəfli* həll etmişlər.

**ƏXLAQLI – POZĞUN** Püstəxanım *əxlaqlı*, namuslu qadındır. Gözəl olmasına baxmayaraq, *pozğun* arvaddır (C.Əmirov).

**ƏXLAQSIZ – NAMUSLU** Şeyx Nəsrullah həyasız, yalançı və *əxlaqsız* bir adamdır (M.İbrahimov); Bu evin sahibi səndən min pay *namuslu* adamdır (Ə.Əylisli).

**ƏXLAQSIZLIQ – NAMUSLULUQ** ...Onun hörmət və nüfuzunun azalması və xidmətlərinin əlindən çıxması Mehribanın *əxlaqsızlığından* irəli gəlmişdir (S.Hüseyn); O, *namusluluğundan* dinib-danışmırdı.

**ƏKİN – BİÇİN** Bağın, *əkinin* xeyrini bəylər görəcəkmiş; Toxum əkməyə dehqanları neylərdin, ilahi? (M.Ə.Sabir); *Biçinə* çin gərəkdir, xırmana vəl (S.Ə.Şirvani).

**ƏKİNÇİ – BİÇİNÇİ** Özünüz də yaz *əkinçi*, qış dilənçi (Ə.Haqverdiyev); *Biçinçi* haqqını yerdən yığar (Ata. sözü).

**ƏKMƏK – BİÇMƏK** Gecə, gündüz *əkir*, *biçir* yoxsul; Yenə görməz evində bir məhsul (A.Şaiq).

**ƏKMƏK – ÇIXMAQ** Arpa *əkdim*, darı *çıxdı* (Ata. sözü).

**ƏKSİNƏ – DÜZÜNƏ** Vəziyyəti büsbütün *əksinə* məna edirsiniz (M.S.Ordubadi); Şərait məsələyə *düzünə* yanaşmağı tələb edir.

**ƏQİDƏLİ – MƏSLƏKSİZ** ...Sizin nəcib ürəkli və yüksək *əqidəli* bir adam olduğunuzu görürəm (M.İbrahimov); O, *məsləksiz* adamdır.

**ƏQİDƏSİZ – MƏSLƏKLİ** ...Bir addım əvəzinə beş addım geri çəkilən *əqidəsiz*, etiqadsız adamlardandır (M.İbrahimov); Onu *məsləkli* bir şəxs kimi tanıyırlar (“Azərbaycan”).

**ƏQLİ – FİZİKİ** *Əqli* əməklə *fiziki* əmək arasındakı ziddiyyət aradan qaldırılmalıdır.

**ƏLALTI – AŞKAR** Tarverdinin bu hərəkəti, *əlaltı* öküzləri satıb yeməyi təlimatçı Məcidi pərt etmişdi (S.Rəhimov); İlahi, yuxu görürəm, ya bu *aşkardır*? – deyə özünü toxtatdı (Mir Cəlal).

**ƏLALTINDAN – AŞKARCA** O, *əlaltından* öz işini görürdü (M.İbrahimov); *Aşkarca* bizim əleyhimizə danışır.

**ƏLBİR – TƏK** Düşünüb bayaqdan tökmüşəm tədbir; Gərək sinə gərək düşmənə *əlbir* (S.Rüstəm); Özün də meydanda *tək* qaldın... (M.Hüseyn).

**ƏLƏK-VƏLƏK – SAKİTLİK** Bu yerdə yer tapılmaz artıq qüssəyə, dərdə; O yerdəsə ürəklər dərddən *ələk-vələkdir* (S.Rüstəm); Mişka əli ilə *sakitlik* işarəsi verdi, başa saldı (Mir Cəlal).

**ƏLƏM – NƏŞƏ** Keçdim artıq gülə-gülə mən *ələmdən nəşəyə* (S.Rüstəm).

**ƏLİAÇIQ – XƏSİS** Dədəm kimi *əliaçıqsan*, verəndə üzünü görmə (M.İbrahimov); Olursunuz, duman olun, sis olmayın; Nədə *xəsis* olsanız da; Sevgidə *xəsis* olmayın! (B.Vahabzadə).

**ƏLİAÇIQLIQ – XƏSİSLİK** Nəbinin igidliyi, *əliaçıqlığı* dillərdə dastan olur ("Qaçaq Nəbi"); Sən niyə indidən uşağı sinsidirsən, yoxsa pulun *xəsisliyini* eləyirsən? (Mir Cəlal).

**ƏLİBOŞ – ƏLİDOLU** Lakin mən onun evinə *əliboş* gəlib *əlidolu* gedən, *əlidolu* gəlib *əliboş* gedən adamların kim olduqları ilə əsla maraqlanmıram (S.Rüstəm).

**ƏLİƏYRİ – DÜZ** Çox zaman *əliəyriləri* bir tərəfdə qoyub, *düz* adamlardan yapışırlar (C.Əmirov).

**ƏLLƏŞMƏK – AVARALANMAQ** Fatma arvad hələ də təndir başında *əlləşir* (Mir Cəlal); Orda-burda *avaralanırdı*.

**ƏLLİ – YAVAŞ** Dedik: Öyrən hər şeyi; *Əlli* tərpən, *əlli*, qız (M.Rahim); Yaman *yavaş* işləyirsən ("Ulduz").

**ƏLSİZ – BACARIQLI** Bizə *əlsiz* adamlar yox, *bacarıqlı* adamlar lazımdır.

**ƏLÜSTÜ – GEC** Məhəmmədhəsən *əlüstü* girdi həyətə (C.Məmmədquluzadə); Bəli, Klara xanım, *gecdir*, çox *gecdir* (C.Əmirov).

**ƏLVERİŞLİ – FAYDASIZ *Əlverişli*** yerlərdə gizlənmiş düşmən snayperləri bir an belə susmur (S.Vəliyev); Baş qoşmaq da *faydasız* idi... (Mir Cəlal).

**ƏLVERİŞLİLİK – YARARSIZLIQ** Lənkəran zonasının subtropik bitkilər yetişdirmək üçün *əlverişliliyi* çoxdan məlumdur. Onun *yararsızlığı* barədə mənə deyiblər.

**ƏLVERİŞSİZ – MÜNASİB** Yaxşı və səmərəli işləmək üçün *əlverişsiz* yox, *münasib* şərait yaradılmalıdır.

**ƏMƏKÇİ – MÜFTƏXOR** Gec-tez *əməkçilər* qələbə çalacaqlar (Çəmənzəminli); Bizim aramızda *müftəxorlara* yer yoxdur.

**ƏMİN-AMANLIQ – MÜHARİBƏ** *Əmin-amanlıq* olmaz, olmasa əmniyyətlər (S.Rüstəm); *Müharibə* deyildir qurbansız, təhlükəsiz (S.Rüstəm).

**ƏMR – XAHİŞ** – Lyudmilacan, sizin hər bir *xahişiniz* mənim üçün *əmrdir* (C.Əmirov).

**ƏNDAMLI – ARIQ** *Əndamlı* xanım xalata oxşar, qırmızı güllü, sarı paltar geymişdi (M.İbrahimov); Polis idarəsi rəisi ucaboy, *arıq* və kürən bir adamdı (M.Hüseyn).

**ƏNDƏRMƏK – DOLDURMAQ** Çuvalın ağzını açıb unu təknəyə *əndərdi* ("İzahlı lüğət"); Maşını *doldurub* yola saldılar ("Azərbaycan").

**ƏNGƏLLİ – ASAN** Heç zərər yox, burax asılsınlar; Daha *əngəlli* bir xəbər var, əvət! (H.Cavid); Baş sahibi olmaq *asandır*, amma bu başı salamat gəzdirmək hünər istər (M.Hüseyn).

**ƏNTƏR – GÖZƏL** Qızların ən *əntəri* Güldəstə idi. Dilarə *gözəl* idi, bəlkə də, yer üzündəki bütün qızlardan *gözəl* idi (Ə.Əylisli).

**ƏNTƏRLİK – GÖZƏLLİK** Onun sir-sifətindən *əntərlik* yağır ("Ulduz"); İndi onun üzündə zərrə qədər də *gözəllik* yox idi (Ə.Əylisli).

**ƏNTİQƏ – KİFİR** Topuşun başı üçün lap *əntiqə* bir yumru oğlan oldun (S.Rəhimov); Bəy olanda nə olar, başı batmış nə qədər də *kifirdir* (Mir Cəlal).

**ƏR – ARVAD** *Arvad* qab dəsmalı ilə gözlərini silib *ərinin* qabağında döyükə-döyükə qaldı (S.Rəhman).

**ƏRİNCƏK – ÇALIŞQAN** Şişman məmur uzun bir sükutdan sonra *ərincək* halda ağır-ağır sözə başladı (M.Hüseyn); Çox *çalışqan* tələbədir.

**ƏRİNMƏK – İŞLƏMƏK** Samovara su tökməyə, kömür salmağa *ərindi* (M.İbrahimov); Uzaqlardan kağızı gəlir, özü də sanitar *işləyir*. (Mir Cəlal).

**ƏSARƏT – AZADLIQ** Zahiri *əsarətdən* xilas olduğumuz kimi, batini *əsarətdən* xilas olmalıyız (C.Məmmədquluzadə); Onda *azadlığa*, gün işığına həsrət qoyanlara qarşı qəzəb hissi coşurdu (Mir Cəlal).

**ƏSARƏT – HÜRRİYYƏT** Könül bir quşdur ki, sevməz *əsarət*; Daim çırpınır, istəyir *hürriyyət* (A.Səhhət).

**ƏSAS – YARDIMÇI** *Əsas* suallar qaldı kənarda, *yardımçı* suallarla tələbəni yordu.

**ƏSASƏN – QİSMƏN** Maarif sahəsində mübahisə *əsasən* tədris ocaqlarına münasibətdə meydana çıxırdı (A.Şaiq); *Qismən* bizlə razılaşdı.

**ƏSASLI – TUTARSIZ** Belə mühüm bir məsələni Telli kimi avam bir qadına qandırmaq üçün *əsaslı* dəlillər və sübutlar lazım gələcəkdir (S.Hüseyn); Onun gətirdiyi dəlillər *tutarsız* idi ("Jurnalist").

**ƏSASSIZ – TUTARLI** Onun verdiyi xəbərlərin bir çoxu *əsassız* xəbərlər idi (M.S.Ordubadi); Vəkilin *tutarlı* dəlillərini; Eşidib az qalır qalxıb əl vura (B.Vahabzadə).

**ƏSƏBİ – SAKİT** Mollayev qaraqabaq, zəhmli və *əsəbi* bir adamdı (M.Hüseyn); Hər yer, hər tərəf *sakit* və durğun görünürdü (Mir Cəlal).

**ƏSƏBİLƏŞMƏK – SAKİTLƏŞMƏK** Cahandar ağa yenidən *əsəbiləşdi* (İ.Şıxlı); Aralıq bir az *sakitləşmişdi* ki, mən şalı boynumdan açdım (Mir Cəlal).

**ƏSƏBİLİK – SAKİTLİK** Səlimin *əsəbiliyi* artır, narahatçılığı çoxalırdı (S.Rəhimov); Zeynəb yenə də *sakitliyini* pozmamış, "işində ol, belə boş sözlərə inanma" - deyə Gülsümə təskinlik vermişdi (İ.Şıxlı).

**ƏSİL – YALANÇI** Lakin yenə təkrar edirəm, məncə, *əsil* qəhrəmanlıq yara bağlamaqdadır, abad etməkdədir (H.Cavid); Onun qəhrəmanlığı *yalançı* qəhrəmanlıqdır.

**ƏSKİ – TƏZƏ** Sonradan qövr eylər *əski* yaralar (S.Vurğun); *Təzə* paltarı ona çox yaraşırdı (M.Hüseyn).

**ƏSKİ – YENİ** **Əski** kənd gecədir, *yeni* kənd gündür (S.Rüstəm).

**ƏSKİKLİK – ARTIQLIQ** Özündə bir *əskiklik* duyurdu (Mir Cəlal); Hər zaman özündəki *artıqlığı* başqalarına çatdırmağa can atırdı ("Azərbaycan").

**ƏSKİLİK – YENİLİK** *Yenilik əskiliyi* udmaq üçün səfərbər (S.Rüstəm).

**ƏTİACI – MÜLAYİM** Ax, necə *ətiacı* arvadsan, – dedim, lakin birdən Yaqutu düşünüb səsimi yumşaldaraq ona yalvardım (Ə.Məmmədxanlı); Zahidin şirin söhbətləri, zahirən *mülayim* xasiyyəti mənim üçün ideal ola bilməz (Mir Cəlal).

**ƏTLƏNMƏK – ARIQLAMAQ** Sifəti o qədər *ətlənmişdi* ki, göyəm çərdəyi boyda gözləri güclə görünürdü (A.Makulu); Lyuba *arıqlamışdı* (Y.Əzimzadə).

**ƏTLİ – ARIQ** Onların əlləri yumru, *ətlidir*, barmaqları olduqca qısadır (M.S.Ordubadi); Atlaz paltar, qırmızı çəkmə geymiş bu *arıq* qızın qaşları mötərizə, burnu sual işarəsinə oxşayırdı (Mir Cəlal).

**ƏTRAFLI – QISACA** Axşam mütləq sizə gələrəm, *ətraflı* söhbət edərik (C.Əmirov); Şən əhvalatı *qısaca* danışdım (Y.Əzimzadə).

**ƏVVƏL – SON** İslana-islana xeyli dolandıq; Yolun nə *əvvəli*, nə *sonu* vardı (H.Hüseynzadə).

**ƏVVƏLA – SONRA** Qəhrəman bəyin, *əvvəla*, pulu yoxdur (Ə.Haqverdiyev); *Sonra* ağır-ağır qalxıb, kölgəlikdə, göy otun üstündə dirsəkləndilər (Mir Cəlal).

**ƏVVƏLCƏ – SONRA** *Əvvəlcə* Lyudmilanı yola salırıq, *sonra* isə bir az gəzirik (C.Əmirov).

**ƏVVƏLİNCİ – AXIRINCI** Doğrudur, bir neçə adam bilir ki, Yusif ilən sən *əvvəlinci* dəfə görüşməyirsən (N.Nərimanov); Başa salmadın məni ki, niyə bu *axırıncı* görüşümüzdür və nə səbəbdən ayrılmalıyıq (Anar).

**ƏYİLMƏK – DURMAQ** Masa ətrafında dörd nəfər də *əyilmişdi* (H.Nəzərli); Bir sutka ayaq üstündə *durdum* (Mir Cəlal).

**ƏYİLMƏK – QALXMAQ** *Əyildi*, ovcunu qoşalayıb, suya saldı (M.Eynullayeva); Ev sahibi də *qalxdı* (Mir Cəlal).

**ƏYLƏNCƏLİ – CANSIXICI** Ona da bir qız nişanlarıq; *Əyləncəli* bir toy məclisi quraraq (H.Cavid); Evin havası *cansıxıcıdır*.

**ƏYLƏNMƏK – GETMƏK** *Əylən*, bir qulaq as sözə ("Koroğlu"); Qədir fürsət bilib yayındı, üzünü bağlara tərəf tutub yavaşca, dala baxmadan *gedirdi* (Mir Cəlal).

**ƏYMƏK – QALDIRMAQ** Sünbüllər ağırlaşıb boynunu *əymişdi* (İ.Şıxlı); Qolumu *qaldırdım* ki, atım, gördüm ki, xortdan yoxdur (Mir Cəlal).

**ƏYRİ - DÜZ** Əyrilər *əyrini* görsün, *düzü* baxsın düzünə; Gəlməyibdir belə bir möcüzə dünya üzünə (Ə.Vahid).

**ƏYRİLİK – DÜZGÜNLÜK** Zira ki, yalan və *əyrilik* həmişə aşkar olub insanı bədnam edir (N.Nərimanov); Şura hökuməti gələn kimi şəhərlərlə kəndlər arasında yolların *düzgünlüyünə* diqqət yetirdi (Ə.Haqverdiyev).

**ƏYRİLİK – DÜZLÜK** Rüstəm kişinin nəyi olsa *əyriliyi* yox idi (M.İbrahimov); Qəzəbləndi indi də; həkimin *düzlüyünə* (B.Vahabzadə).

**ƏYYAR – MƏRD** Qara pəhləvan yaman güclü, həm də yaman *əyyar* idi ("Koroğlu"); Sizin əriniz Əzizbəy çox *mərd*, səmimi və nəcib bir insandı (M.Hüseyn).

**ƏYYARLIQ – MƏRDLİK** Bu qəzvinli Şeydadır ki, gündüz sərraflıq edər, gecə *əyyarlıq* (M.F.Axundzadə); Bu qadının *mərdliyi* yalnız qohum-qardaşı deyil, bütün məhəlləni heyrətə gətirmişdi (M.Hüseyn).

**ƏZAB – ZÖVQ** Fərhad, Fərhad, niyə mənə *əzab* verirsən, vicdanımı parçalayırsan? (C.Cabbarlı); Onun bədii *zövqünü* korlayan mahnılardan yüksək xalq musiqisinə doğru geniş bir yol açacağam (M.Hüseyn).

**ƏZABLI – XOŞ** Bu bir ay Bilqeyis üçün sıxıntılı və *əzablı* keçdi (S.Vəliyev); Qaranlıq qatılaşır, əl-ayaq çəkilir, gündüz adama *xoş* gələn sərinlik sazağa çevrilirdi (Mir Cəlal).

**ƏZABLI-ASAN** Neft səltənəti Bakıda neft tapmaq *əzablı* bir işə çevrilmişdir (A.Şaiq); Danışanlar çox *asan* sözlər deyirdilər (Mir Cəlal).

**ƏZAZİL – İNSAFLI** Qara xan *əzazil* bir xain idi ("Koroğlu"); Onu *insaflı* bir sistem işçisi kimi tanıyırdılar.

**ƏZAZİLLİK – İNSAFLILIQ** Sabiq milyonerin arvadı Nərmin onun *əzazilliyini* görəndə üsyan edib deyir ki, dövlətlilər amansız və mürüvvətsizdirlər (M.Hüseyn); Yunis öz *insaflılığı* ilə insanı heyran edir.

**ƏZƏL – SONRA** Dizi üstə *əzəl* alıb başımı; Sildi lütf ilə qanlı göz yaşımı (A.Səhhət); *Sonra* bunu məsləhət görmədi (Mir Cəlal).

**ƏZİK – ŞAX** *Əzik* donunun ətəyini aşağı çəkdi (İ.Şıxlı); Mərcan xala mənə *şax* manatlar seçib verirdi (Ə.Əylisli).

**ƏZİNİK – GÜMRAH** Mədəd işdən qayıdandan sonra *əzinik* yerə girdi, bir azdan yuxuladı (S.Rəhimov); Səhər yerindən *gümrah* durdu.

**ƏZİNİK – SAF** Stolun üstünə *əzinik* yox, *saf* alma və armud qoyulmuşdu ("Jurnalist").

**ƏZİYYƏT – RAHATLIQ** Vetrova bütün *əziyyətlərə* mərdliklə qatlaşırdı (M.Hüseyn); "Uşağın" kupesini, *rahatlığını* bir də yoxladı... (Mir Cəlal).

**ƏZİYYƏTLİ – RAHAT** Bu, xüsusi diqqətlilik tələb edən çox *əziyyətli* iş idi (C.Əmirov); Yarım saata qədər yenə *rahat* uçuruq (M.İbrahimov).

# Ff

**FACİƏ – KOMEDİYA** Bu dəhşətli *faciəni* görüb ürəyi sıxıldı (S.Vəliyev); *Komediya* müəllifi istər yumor, istərsə də satira gülüşü ilə cəmiyyətin eyiblərini tənqid atəşinə tutmaqla onları islah və ya məhv etmək istəyir (F.Qasımzadə).

**FACİƏLİ – KOMİK** Hamınız tədricən bu ağır *faciəli* günlərə alışır və hadisələrin sonunu gözləyirsiniz (S.Vəliyev); Komediyanın əsas tənqid hədəfi və *komik* qəhrəmanı Tarıverdidir (F.Qasımzadə).

**FAĞIR – DƏCƏL** O, *fağır*, nəzakətli, rəhmli bir gəncdir (M.S.Ordubadi); Rizvan ilə beş *dəcəl*, hər gün burda oynayır (M.Dilbazi).

**FAĞIRLIQ – DƏCƏLLİK** Elə onu bu günə qoyan onun *fağırlığıdır* ("Ulduz"); *Dəcəlliyinə* baxmayaraq, məktəbdə oğlanlar da, qızlar da xətrini istəyirdilər (S.Qədirzadə).

**FANTASTİK – REAL** Bəs *real* həyatsız *fantastik* əsərin taleyi necə olardı ("Azərbaycan").

**FANTASTİKA – REALLIQ** Mən bilən bu cür *fantastika reallığı* zənginləşdirir ("Azərbaycan").

**FARAĞAT – SƏRBƏST** Svetlana Stepanova ayağa qalxıb *farağat* durdu, ucadan dedi (C.Əmirov); Çoxdan bəri ürəkdən və *sərbəst* hərəkət etməyən əl-qolu istədiyi səmtə əyilib büküldü (Ə.Vəliyev).

**FASİLƏLİ – MÜNTƏZƏM** Onların işi *fasiləlidir*. ...Mərmər koridorda yalnız divar saatının *müntəzəm* tıqqıltıları eşidilirdi (M.Hüseyn).

**FASİLƏSİZ – ARABİR** Demək olar ki, bütün ömür boyu *fasiləsiz* işləmişəm ("Azərbaycan"); *Arabir* qəribsədilər, təzədən yollara, səfərlərə çıxmaq istədilər ("Azərbaycan").

**FAYDA – ZƏRƏR** Danışmaqdan *fayda* yoxdur (Ə.Haqverdiyev); Əzizbəyov! Bunlar hamısı sizin *zərərinizədir* (M.Hüseyn).

**FAYDALI – ZƏRƏRLİ** Oxuyun *faydalı* kitablardan (A.Şaiq); O ki qaldı kirpiyə, o da *zərərli* heyvan deyildir.

**FAYDASIZ – XEYİRLİ** Ancaq Rantik yaxşı başa düşdü ki, bütün bunlar *faydasızdır* (C.Əmirov); Əvvəlcə ev sahibəsi, sonra da Mikola, Alyonuşkaya *xeyirli* gecə diləyib, ah-ufla sobanın üstünə qalxdı (S.Qədirzadə).

**FƏAL – PASSİV** O nəinki *fəal* bir şəfqət bacısı, həm də Anita kimi qəhrəman bir qadın idi (S.Vəliyev); Vasilyevskayanın romanları *passiv* müşahidə məhsulu deyildir (C.Mehdi).

**FƏALLAŞMAQ – PASSİVLƏŞMƏK** Formasız materiya passivdir, yalnız materiya forma ilə birləşdikdə *fəallaşır*. Məchul fellərdə subyekt *passivləşir*.

**FƏALLIQ – PASSİVLİK** Məclisin kişilər hissəsi xüsusi *fəallıq* göstərirdi (M.İbrahimov); Sən bu işdə *passivlik* göstərirsən.

**FƏDAİ – FƏRARİ** Adım *fədaidir*, bil ağa dərviş;Çəkmə xəyalımı uzağa, dərviş (M.Rahim); Bizim nəslimizdə *fərari* yoxdur.

**FƏDAKAR – QORXAQ** *Fədakar* adamlardır (M.İbrahimov); Söhrab əqrəb kimi zəhərli, amma dozanqurdu kimi *qorxaqdır* (M.Hüseyn).

**FƏDAKARLIQ – QORXAQLIQ** Sənət dostluq və məhəbbət kimi *fədakarlıq* tələb edir (C.Məmmədov); Ehtiyat *qorxaqlıq* demək deyildir ("İzahlı lüğət").

**FƏHMLİ – KÜT** Çox *fəhmli*, qabiliyyətli uşaqdır (Mir Cəlal); İndi onun simasında, intihara qərar vermiş kimi, *küt* bir durğunluq vardı (Mir Cəlal).

**FƏHMSİZ – AĞILLI** *Fəhmsiz* övladı valideyn nə etsin? ("Azərbaycan"); Sadə, mülayim xasiyyətli, *ağıllı*, tərbiyəli qız idi (S.Qədirzadə).

**FƏLAKƏT – SƏADƏT** O, ailə həyatını gah *səadət*, gah da *fəlakət* törədici bir şəkildə görürdü (M.S.Ordubadi).

**FƏLAKƏTLİ – SƏADƏTLİ** Bu ağır və *fəlakətli* vaxtda nə əcəb o mənim qeydimə qalmayıb? (M.Talıbov); Bizi *səadətli* gələcək gözləməkdədir (M.S.Ordubadi).

**FƏNA – XOŞ** Ah, nə *fəna* xəbər! (S.S.Axundov); Ümidvaram ki, Parisdə daha *xoş* xəbərlər eşidəcəyəm ("Azərbaycan").

**FƏNALAŞMAQ – YAXŞILAŞMAQ** Bax *fənalaşdı* büsbütün halım (H.Cavid); *Yaxşılaşır*, bir-iki günə kimi evə gələr ("Ulduz").

**FƏNALIQ – YAXŞILIQ** Dedim nə yaxşı ki; yuxuda otağın olmuşdu; İblisin *fənalıqlar* ölkəsi (R.Rza); Elədiyim *yaxşılığa* qarşı təşəkkür bu imişmi? (Mir Cəlal).

**FƏRASƏTLİ – MAYMAQ** Rəhmətlik atası kimi çox ağıllı, *fərasətlidir* (S.Vəliyev); Görmürsən *maymağın* biridir (M.İbrahimov).

**FƏRASƏTSİZ – BACARIQLI** Bu dəfə o, *fərasətsiz* oğlu Firidun xanı da özü ilə gətirir (Ə.Haqverdiyev); Xoşbəxtlikdən Gülər ağıllı və *bacarıqlı* qızdır (M.İbrahimov).

**FƏRDİ – KOLLEKTİV** Əsil bizim adamlardan yaranmış hər *kollektiv* belə bir çaydır (M.İbrahimov); *Fərdi* işgüzarlıq heç bir səmərə verməz.

**FƏRDİ – ÜMUMİ Fərdi** əkindən, şəxsi mal-qaradan heç nə çıxmaz (Ə.Vəliyev); Bu bizim *ümumi* işimizdir (Ə.Vəliyev).

**FƏRƏ – BEÇƏ** Kül sənin başına, gözəl *fərə*, *beçə* də səni bəyənmir (Ata. sözü).

**FƏRƏH – KƏDƏR** Uşağı yemək böyütməz, *fərəh* böyüdər (Ata. sözü); Kəndimizi *kədər* bürüdü (M.İbrahimov).

**FƏRƏHLƏNMƏK – KƏDƏRLƏNMƏK** Pakizə döyüşdən qalib çıxdığına *fərəhləndi* və bərkdən qəhqəhə çəkdi (İ.Şıxlı); Məşədibəy Səlimə ürək-dirək vermək əvəzinə, onu daha da *kədərləndirdi* (M.Hüseyn).

**FƏRƏHLİ – KƏDƏRLİ** Burada həyat nə gözəl, *fərəhlidir* (S.Vəliyev); Daxmaya qəribə *kədərli* bir sükut çökdü (S.Qədirzadə).

**FƏRQLƏNMƏK – EYNİLƏŞMƏK** Xüsusi fövqəladə bacarığı, istedadı ilə başqa tələbələrdən *fərqlənirdi* (İ.Fərzəliyev); Sözlərin bir qrupu formaca *eyniləşir* (A.Qurbanov).

**FƏRQLİ – EYNİ** Canlı göyərçinlərdən; Ancaq mən çox *fərqliyəm* (A.Şaiq); Şənbə günü nahardan üç saat sonra vəzirlə *eyni* qəsrdə, *eyni* qayda ilə mister Haroldu qarşıladılar (M.İbrahimov).

**FƏRLİ – BİVEC** Necə yəni oğlanın *fərli* adamları yoxdur? (M.İbrahimov); *Bivec* uşaqdır (S.Qədirzadə).

**FİKİRLİ – ƏHLİ-KEF** Mən görürəm siz ikiniz də *fikirli*, qanacaqlı adamlarsınız (Ə.Haqverdiyev); *Əhli-kefin* biridir, ona iş buyurmaq olarmı? ("Azərbaycan").

**FİNİŞ – START** Kim bilir: haradadır; ömür yolunun *finişi* (R.Rza); Yaxşı *start* götürmüşlər.

**FİRAVAN – ACINACAQLI** Onlar əvvəlcə *acınacaqlı* günlər görürdülər, indi *firavandırlar* ("Ulduz").

**FIRTINALI – SAKİT** Şair dostum *fırtınalı* dənizi daha çox sevir (M.İbrahimov); Hava *sakit* idi (M.İbrahimov).

**FİTNƏKAR – DÜZ** Bəlkə qaçqın pis adamdır, oğru və ya *fitnəkardır* (S.Vəliyev); *Düz* adamdır, yalanla işi yoxdur.

**FİTRİ – SAXTA** *Fitri* xeyirxahlıqla *saxta* xeyirxahlıq arasında da fərq vardır (M.Talıbov).

**FİZİKİ – ZEHNİ** Eyni zamanda insanın ümumi tonusu, *fiziki* və *zehni* iş qabiliyyəti yüksəlir.

**FORMA – MƏZMUN** *Formanı* müəyyən edən və şərtləndirən *məzmunun* özüdür.

**FÖVQƏLADƏ – ADİ** Bu gün onun həyatında *fövqəladə* bir gün idi (S.Vəliyev); Bu, *adi* iclaslardan biridir.

**FÖVQƏLADƏLİK – ADİLİK** Lakin onu da demək istərdim ki, məndə bir *fövqəladəlik* yoxdur (M.S.Ordubadi); Səssiz gedir ömür; *adilik* sızqovundan süzülə-süzülə (R.Rza).

# Gg

**GEC – ERKƏN** Ağa, biz kəndlilər *erkən* yatıb, *erkən* də durmağa adət etmişik (S.S.Axundov); Qız *gec* gəldi, həm də Əhmədin arzu etdiyi kimi o tək idi (Ə.Vəliyev).

**GECƏ – GÜNDÜZ** Bakının *gecəsi* də *gündüzü* kimi işıqlıdır (Ə.Vəliyev).

**GECİKMƏK – TƏLƏSMƏK** Ziyana *tələsdim*, xeyli *gecikdim*; Bir də bu dünyaya gələcəyəmmi? (H.Hüseynzadə).

**GECLİK – TEZLİK** Onun gəlişinin *gecliyi* və ya *tezliyi* məsələnin həllinə təsir etmir ("Azərbaycan").

**GEDİŞ – GƏLİŞ** Gülüm, gəlmişəm mən özüm qurban; *Gəlişin* gözəldir, *gedişin* yaman (B.Vahabzadə).

**GEDİŞLİ – GƏLİŞLİ** Hamısı yel *gedişli*, biri o birindən çapar (M.Rahim); Cəld *gəlişli* Əhməd birdən dayandı ("Azərbaycan").

**GEN – DAR** Dinmədim, *dar* etdilər başıma *gen* dünyanı (S.Rüstəm).

**GENƏLMƏK – DARALMAQ** Birdən onun gözləri *genəldi* (S.Rəhimov); Getdikcə üfüqlər *daralır*, səhra öz şəklini itirirdi (M.İbrahimov).

**GENİŞ – YIĞCAM** Elmin meydanı *geniş*, mənzili uzaqdır (İ.Şıxlı); Üslubun ən *yığcam* forması şeirdir ("Azərbaycan").

**GENİŞLİK – DARLIQ** Mən *genişlik* xoşlayıram; Torpağımın yoxdur sonu (M.Rahim); Tellər azlıq edir, pərdələr *darlıq*; Mən indi bildim ki, nə çəkib Kərəm (H.Hüseynzadə).

**GENİŞLİK – YIĞCAMLIQ** Yaxşı əsər üçün *genişlik* yox, *yığcamlıq*, sanballılıq əsas şərtdir ("Azərbaycan").

**GERÇƏK – YALAN** Lap *gerçək* deyirəm, belə şeylə də zarafat olar? (Ə.Vəliyev); Bütün rayon bilir ki, Sultan Əmirliyə *yalan* satmaq adama çox baha oturur (İ.Hüseynov).

**GERÇƏKLİK – İMKAN Gerçəklik** dedikdə artıq həyata keçmiş, baş tutmuş, realizə edilmiş imkan nəzərdə tutulur. *İmkan* hələ həyata keçməmiş, baş tutmamış gerçəklikdir ("Dialektik materializm").

**GERÇƏKLİK – YALANLIQ** O, *gerçəkliyi* sevən adam idi. Kəndçilər etdilər dübarə hücum; Yenə oldu *yalanlığı* məlum (M.Ə.Sabir).

**GERİ – İRƏLİ** Divarlar çəkilmişdi *geri*; yenə *irəli* gəldilər (R.Rza).

**GERİLƏMƏK – AYAQLAŞMAQ** – Bəri gəl, cənab, – deyə qadın təkrar edərkən soldat bir neçə addım da *gerilədi*, cəld tüfəngini atəşə hazırladı (M.Hüseyn); Qəzet gərək operativ olsun, həyatla *ayaqlaşsın* (C.Əmirov).

**GERİLƏMƏK – İRƏLİLƏMƏK** Mehriban Zeynalı elə halda görüncə qorxub *gerilədi* (S.Hüseyn); Küləyin müqavimətini qıraraq yüngülcə qaçıb *irəlilədi* (M.İbrahimov).

**GERİLİK – İNKİŞAF** Gərsin sinəsini acıya, dərdə; Ensin *geriliyin* pərdəsi, ensin (S.Rüstəm); Bu saat böyük quruluş və *inkişaf* işi gedir (Mir Cəlal).

**GETMƏK – QAYITMAQ** İndi ikisi də sübh açılandan *gedib*, bir də qaş qaralanda *qayıdır* (S.Qədirzadə).

**GEYİMLİ – ÇILPAQ** Şıq *geyimli* bu azərbaycanlı əsgərin ayağında haradansa ələ keçirdiyi təzə uzunboğaz çəkmə vardı (S.Qədirzadə); *Çılpaq* bədənini ona göstərərək müxtəlif fiqurlar edir (S.Vəliyev).

**GEYİMLİ – ÜRYAN** Başıaçıq, sakit duruşlu, bahar *geyimli* rus, sanki onun üzünə gülürdü (Mir Cəlal); Yaşarmış vəqfisevda, safü *üryan* (H.Cavid).

**GEYİNMƏK – SOYUNMAQ** Mən paltomu *geyinmişdim* (İ.Məlikzadə); Əli yatağının üstündə paltarını *soyundu* (Çəmənzəminli).

**GƏDA – BƏY** Çingiz, məhəbbət aləmində *bəy*, *gəda* yoxdur, mən səni sevirəm, sən də məni (S.S.Axundov).

**GƏLƏCƏK – KEÇMİŞ** Mən isə adətim üzrə *keçmişi* yox, ancaq *gələcəyi* düşünürəm (M.İbrahimov).

**GƏLİR – ZƏRƏR** Buna görə də Lyudmila bir drujinaçı kimi Ağəlinin *gəlir* mənbəyini aşkara çıxarmağı qərara almışdı (C.Əmirov); De görüm, onlardan nədir səmərə? Bəlkə də hər kəsə çatır *zərəri* (M.Ə.Sabir).

**GƏLİRLİ – ZƏRƏRLİ** Camaat üçün nə mənfəətlidir, nə *gəlirlidir* onu əksin (B.Bayramov); *Zərərli* otları məhv etmək lazımdır.

**GƏLMƏ – YERLİ** *Gəlmələr yerliləri*; Çapar da, talayar da... (B.Vahabzadə).

**GƏLMƏK – GETMƏK** Mən anadan dünyaya bədbəxt *gəlmişəm*, bədbəxt də *gedəcəyəm* (Ə.Haqverdiyev).

**GƏNC – QOCA** Bunların biri iyirmi yaşında *gənc*, digəri yetmiş sinninə varmış bir *qoca* idi (S.S.Axundov).

**GƏNC – YAŞLI** *Yaşlı* nəsil həmişə *gənc* nəslə qayğı ilə yanaşmalıdır.

**GƏNCLƏŞMƏK – QOCALMAQ** Yenidən *gəncləşirsən* (H.Cavid); Bayaq da sənə ərz elədim, əvvəla, görürsən mən *qocalmışam* (Ə.Haqverdiyev).

**GƏNCLİK – QOCALIQ** *Gənclik* özü gedir; *Qocalıq* özü gəlir (R.Rza).

**GƏRƏKLİ – LAZIMSIZ** Gərəksiz şey *gərəkli* gündə (Ata. sözü); Artıq oturarsa, səriştəni itirib *lazımsız* sözlər danışacağından ehtiyat etdi... (M.İbrahimov).

**GƏRƏKSİZ – VACİB** Tacidar, *gərəksiz* keçmişi burax! (A.Şaiq); Gülçöhrə, get, atan damın dalısında çobanlarla danışır, de ki, bir buraya gəlsin, *vacib* işim var (M.F.Axundzadə).

**GƏRGİN – SAKİT** Şəhərdə vəziyyət *gərgin* idi (S.Vəliyev); *Sakit* və azca qüssəli nəzərlərimi ona dikib durdum (M.İbrahimov).

**GƏRGİNLƏŞMƏK – SAKİTLƏŞMƏK** Soldatın üzü ani bir titrəyişlə tərpəndi, əzələləri daha da *gərginləşdi*, iti çənəsi əsdi (M.İbrahimov); Günəş günorta yerinə gələndə Tehranın bütün küçələri boşalmış və *sakitləşmişdi* (M.İbrahimov).

**GƏRGİNLİK – SAKİTLİK** Adamlarda ciddilik və *gərginlik* duyuldu (Mir Cəlal); Heç olmasa onsuz evdə *sakitlik* idi (M.İbrahimov).

**GƏRMƏK – YIĞMAQ** Qaya sinəsini *gərdi*, uşağı küləkdən qorumaq üçün ("Azərbaycan"); Turac gərilmiş qanadını *yığmağa* çalışdı.

**GƏVƏZƏ – SADƏLÖVH** Yüklər *gəvəzələr* ürək yükünü; Nə deyim bu ağlı dumanlara mən (M.Araz); Yox, aldanma, aldanma! Məni *sadəlövh* sanma! (R.Rza).

**GƏVƏZƏLİK – SADƏLÖVHLÜK** *Gəvəzəliyindən* əl çəkmir. Sonra bir uşaq *sadəlövhlüyü* ilə gözlərimin içinə baxdı (S.Qədirzadə).

**GƏZƏYƏN – NAMUSLU** *Gəzəyən* qadındır, ondan uzaq ol, özünü biabır eləmə ("Ulduz"); Çox *namuslu* kişidir, amma heyif gönü qalındır (M.İbrahimov).

**GİCBƏSƏR – AĞILLI** *Gicbəsərin* biridir ("Azərbaycan"); Vəzifə elə bir qüvvədir ki, ağılsızı *ağıllı*, çirkini gözəl, qocanı cavan göstərir (İ.Fərzəliyev).

**GİCLƏŞMƏK – AĞILLANMAQ** Ona toxunmayın, *gicləşib* ("Azərbaycan"); Demək, indi *ağıllanmısan*, məni istəmirsən? (Mir Cəlal).

**GİLEY – RAZILIQ** Əlindən eşqimə *gileyim* yoxdur (R.Rza); Atam da *razılıq* vermişdi (H.Nadir).

**GİLEYLƏNMƏK – RAZILAŞMAQ** Qızlar kəkotu dərib buradaca qurudar, gəlinlər baş-başa verib xısınlaşar, arabir qayınanalarından *gileylənib*, dad çəkərdilər (İ.Şıxlı); Bayaqdan İmranın onunla *razılaşdığını* zənn edən Kosaoğlu, birə sancmış kimi yerində qurcalandı (İ.Şıxlı).

**GİLEYLİ – RAZI** Eyni zamanda ürəkdə bir-birindən *gileyli* idilər (M.İbrahimov); Leyla *razı* idi öz əməlindən; O, zəhər içmişdi eşqin əlindən (B.Vahabzadə).

**GİRDƏ – YASTI** Yedəyində də bir at, atın üstündə bir cüt çuval və çuvalın içində bir növ *girdə* şeylər (Ə.Haqverdiyev); Yuxarıda, böyük evin *yastı* damı üstündə bir

oğlan uşağı məhəccər qırağında dayanmışdı (Ə.Məmmədxanlı).

**GİRİNTİ – ÇIXINTI** Bu taxta, mebel üçün yaramaz, çox *girintisi*, *çıxıntısı* var.

**GİRİŞ – SON** Əziz müxtəsər bir *giriş* sözü söylədi (Ə.Vəliyev); Sədr *son* sözündə qeyd etdi ki, Vəli öz günahlarını boynuna alır.

**GİZLİ – AŞKAR** Gah *gizli*, gah *aşkar*; Ayaq basar hər yerə (A.Şaiq).

**GİZLİN – AÇIQ** Yəqin bir-birinə *gizlin* sözləri varmış (M.Hüseyn); Buna görə də qızını yola salarkən *açıq* ürəklə Həsəni evə gətirməyi ona tapşırardı (M.İbrahimov).

**GÖDƏK – UZUN** *Gödək* atıldı vurdu *uzunun* başına, uzun dedi: – Əcəb yadıma saldın (Ata. sözü).

**GÖDƏKLİK – UZUNLUQ** ...Ömrümün belə *gödəkliyindən* şikayətlənməzdim (S.Qədirzadə); Katibin son sözləri onu o qədər tutmuşdu ki, gəldiyi yolun *uzunluğunu* belə duymadı (Ə.Vəliyev).

**GÖDƏLMƏK – UZANMAQ** *Uzanacaq* kölgələr; *Gödələcək* kölgələr; İdman et hər səhər (İ.Tapdıq).

**GÖNDƏRMƏK – GƏTİRMƏK** Ancaq hər ehtimala qarşı Səttarın barmaq izlərini ekspertizaya *göndərmək* lazımdır (H.Nadir); Lazımdırsa, *gətirim*, açın baxın (H.Nadir).

**GÖRÜŞ – VİDALAŞMA** *Görüş* üçün günortadan əlverişli vaxt tapmaq olmazdı (M.İbrahimov); *Vidalaşma* vaxtı gəlib çatdı (H.Nadir).

**GÖRÜŞMƏK – VİDALAŞMAQ** Bakı varlıları ilə *görüşmək* və *vidalaşmaq* qərarına gəlmişdi (M.S.Ordubadi).

**GÖTÜRMƏK – QOYMAQ** Ağzına bax, tikə *götür* (Ata. sözü); Kərim kitabı büküb pəncərəyə *qoydu*.

**GÖYÇƏK – ÇİRKİN** Eybi yoxdur, *göyçək* xanımların haqqında hamı danışır (Ə.Haqverdiyev); Molla qoca, çopur, *çirkin*, yoxsul adam idi (Mir Cəlal).

**GÖYÇƏKLƏŞMƏK – ÇİRKİNLƏŞMƏK** Zərifə ilin müəyyən vaxtlarında kökəlir və ya arıqlayır. Buna münasib də gah *göyçəkləşir*, gah da *çirkinləşirdi* ("Azərbaycan").

**GÖYƏRMƏK – QIZIŞMAQ** Görürəm, soyuqdan gömgöy *göyərmisən*. Keç otur qayıqda, əl-ayağın *qızışsın* (H.Nadir).

**GÖYNƏMƏK – QIZIŞMAQ** Nə ürəyim *göynəyir*; nə sözlər yandırır dodaqlarımı (R.Rza); Otağın havası onu *qızışdırırdı*.

**GÖZƏL – ÇİRKİN** Elə gecə-gündüz *gözəl* arvad arzulayır (Ə.Haqverdiyev); Özünün arvadı bir *çirkin* şeydir (Ə.Haqverdiyev).

**GÖZƏL – İFRİTƏ** Belə kafir ataya *gözəl* balanı vermərəm (S.S.Axundov); *İfritə* huşunu itirib yerə yıxıldı (M.Talıbov).

**GÖZƏLLƏŞMƏK – EYBƏCƏRLƏŞMƏK** Düzlər ətirlənir baharla, yazla; Güllər, çiçəklər də *gözəlləşibdir* (H.Hüseynzadə); Onun dodaqları əsdi, *eybəcərləşdi* (M.Hüseyn).

**GÖZƏLLİK – ÇİRKİNLİK** Gecələr hər şəhərə bir cür *gözəllik* gətirir (S.Sərxanlı); O inanırdı ki, ata haqqında pis düşünmək ən böyük xəyanət və *çirkinlikdir* (M.İbrahimov).

**GÖZLÜ – KOR** *Kor* gəldi, *gözlü* getdi (Ə.Haqverdiyev).

**GÖZÜAC – GÖZÜTOX** *Gözütox* adamlar həmişə rəhmli olur. *Gözüac* adamlar isə insafsız, rəhmsiz olur.

**GÖZÜQANLI – MƏRHƏMƏTLİ** Sədaqət mənə *gözüqanlı* adam kimi baxırdı (İ.Əfəndiyev); Az danışır, danışanda gülümsəyir, çox ürəyi yumşaq və *mərhəmətli* qadındır (M.İbrahimov).

**GÖZÜTOX – TAMARZI** *Gözütox* adamların haram malla işləri olmaz ("Azərbaycan"); *Tamarzı* gözlərlə Naznazı şişə çəkirdi (M.İbrahimov).

**GÖZÜYAŞLI – GÜLƏR** Sonra da *gözüyaşlı* onu əsgərliyə yola salıb, heç bir söz deməmişdi (T.Kazımov); *Gülər* üzünə baxanda adam dərdini unudurdu ("Ulduz").

**GUR – SAKİT** Gah *sakit*, gah *gur* axıb; Dəhnəsindən darıxıb; Sahilə çıxan sular! (R.Rza).

**GURLUQ – ZƏİFLİK** İşığın *gurluğu* və ya *zəifliyi* cərəyanın gücündən asılıdır.

**GURULTULU – SAKİT** Bir-birlərinə olan sədaqəti *gurultulu* sözlərlə izah edərək

badə qaldırıb içir, içirlər (S.Vurğun); Gözlərinizdən görürəm *sakit* qıza oxşayırsınız (S.Qədirzadə).

**GÜCLƏ – KÖNÜLLÜ** Özünü *güclə* saxladı, uşağın başını sığalladı (Mir Cəlal); O *könüllü* gəlmişdi (“Azərbaycan”).

**GÜCLÜLÜK – ZƏİFLİK** O *güclülüyünə* güvənirdi. Bu acizlik, bu *zəiflik* o dərəcəyə çatdı ki, öz-özündən iyrənməyə, özünə nifrət etməyə başladı (M.İbrahimov).

**GÜCSÜZ – QÜVVƏTLİ** O sizə qarşı *gücsüzdür* (C.Cabbarlı); Bu *qüvvətli* bir axın idi ki, öz təbii məcrasına düşmüşdü (M.İbrahimov).

**GÜCSÜZLÜK – QÜVVƏTLİLİK** *Gücsüzlüyünü* hiss edib inildədi (İ.Şıxlı); *Qüvvətliliyini* yoxlamağa səy göstərdi (“Ulduz”).

**GÜLƏRÜZ – QARAQABAQ** Əsli *gülərüz* və şən qadındır (“Azərbaycan”); Yemişlərin bəzisi *qaraqabaq* adamlar kimi burnunu yerə dikmişdi (Mir Cəlal).

**GÜLƏRÜZLÜ – QARAQABAQ** *Gülərüzlü* kumıkların, lakların; Aulların qoy mehmansız qalmasın (Abbasağa); Kərəm az danışan və *qaraqabaq* idi (M.İbrahimov).

**GÜLƏRÜZLÜ – QAŞQABAQLI** Söndü o *gülərüzlü* o günəş, söndü; Ah... o gözəl varlıq torpağa döndü (S.Vurğun); *Qaşqabaqlı* bacısını çağırıb üzündən öpdü (M.İbrahimov).

**GÜLƏŞ – QƏMLİ** *Güləş* qadınlar həmişə şən görünür (“Azərbaycan”); Burada *qəmli* bir sükut hakim idi (Mir Cəlal).

**GÜLÜMSƏMƏK – KƏDƏRLƏNMƏK** Mənim də xəyalım sizin kimidir; bəzən *kədərlənir*, bəzən *gülümsər* (R.Rza).

**GÜLÜŞ – AĞLAŞMA** Sağlam *gülüş* kəndin bütün həyatını yeni bir sevinclə güldürəcəkdir (C.Cabbarlı); *Ağlaşma* getdikcə şiddətlənirdi (M.Hüseyn).

**GÜLÜŞMƏK – AĞLAŞMAQ** Biz də şirin söhbət edərək yeyərdik, danışardıq, *gülüşərdik*, axırda da Tamam maraqlı nağıllarını danışardı (S.S.Axundov); Körpə uşaqlar aclığa davam gətirməyib *ağlaşırdılar* (Çəmənzəminli).

**GÜMRAH – ƏZGİN** Döyüşçülər nə qədər şən, *gümrahdılar*! (S.Vəliyev); Hər tərəfdə *əzgin* kəndlilər bəylərdən intiqam almağa başladılar (H.Nəzərli).

**GÜMRAH – YORĞUN** Əlli yaşlı olmasına, çəkdiyi əzablara baxmayaraq, çox *gümrah* idi (S.Vəliyev); Adi paltar geyən Rəsulov özünü *yorğun* adam kimi göstərib dedi (C.Əmirov).

**GÜMRAHLAŞMAQ – SUSTALMAQ** İstirahətdən sonra *gümrahlaşmışdı* (“Azərbaycan”); Bədəni *sustalmışdı*, sanki ağac altından çıxmışdı (S.Qədirzadə).

**GÜMRAHLAŞMAQ – YORULMAQ** Elə *gümrahlaşırsan*, elə saflaşırsan ki, deyəsən, heç ömür boyu nə *yorulursan* burada, nə də qocalırsan (M.S.Ordubadi).

**GÜMRAHLIQ – YORĞUNLUQ** Özündə bir *gümrahlıq* duydu (“Ulduz”); Ürəyində bir ağırlıq, beynində *yorğunluq* hiss etdi (İ.Şıxlı).

**GÜNAH – SAVAB** *Günahın* cəzası ölümdə yox, dirilikdədir (Çəmənzəminli); Dinləyib axirət üçün *savab* qazanarıq (S.S.Axundov).

**GÜNAHKAR – TƏQSİRSİZ** Sanki pərvanə idi öz varı ətrafında; On gün əvvəlki *günahkar* bir adam (S.Rüstəm); Bu işdə o tamam *təqsirsizdir*.

**GÜNAHSIZ – CİNAYƏTKAR** Qıymaz axsın qoca Qafqaza *günahsız* qanlar (S.Rüstəm); On gün ərzində *cinayətkar* qaçıb gizlənə bilər (C.Əmirov).

**GÜNAHSIZ – MÜQƏSSİR** Kəsildi yollarda *günahsız* başlar (S.Rüstəm); Mən *müqəssirəm*, Sevil! (C.Cabbarlı).

**GÜNAŞIRI – GÜNDƏ** *Günaşırı* rayona çağırırdılar (Ə.Vəliyev); *Gündə* mənə də deyir ki, gəl yazıl bizə, sənə tüfəng verək (Mir Cəlal).

**GÜNBATAN – GÜNDOĞAN** *Günbatana* niyə gedirsən? – dedi, – Ayağı yer tutan *gündoğana* tərəf gedir (M.Süleymanlı).

**GÜNƏVƏR – QUZEY** *Günəvər* yerə uzandı (“Azərbaycan”); *Quzey* ətəyi uçurum idi, dibi görünməz dərə uzanırdı (M.Süleymanlı).

# Hh

**HAKİM – MƏHKUM** Mən tələb edirəm, möhtərəm *hakim*; Cəzasız qalmasın onun təhqiri (B.Vahabzadə); *Məhkumu* möhkəm sıxışdırdılar ("Ulduz").

**HAKİM – MÜTTƏHİM** Xətib minbərdən yerə düşməmiş əhali *hakimi* və xətibi gözləməyərək məsciddən çıxdı (M.S.Ordubadi); Özünü darta-darta *müttəhimlər* kürsüsündə əyləşdi (C.Əmirov).

**HAQQ – ZÜLM** Biri *haqqı* müdafiə edir, digəri *zülmü*, Pəricahan, səni bu haqq yola dəvət edirəm (S.S.Axundov).

**HAQLI – ƏDALƏTSİZ** Büronun qərarı *haqlıdır*. Sizin təklifiniz çox *ədalətsizdir* (Ə.Vəliyev).

**HAQLI – GÜNAHKAR** Aslan *haqlıdır* (S.Vəliyev); *Günahkar* düşdü qazamata, dalınca da on beş günahsızı sürüklədi (M.İbrahimov).

**HAQSIZ – ƏDALƏTLİ** *Haqsızlıq* oldu qanun; Yıxıldı xanimanlar (Ə.Cavad); Xalqın qərarı daha *ədalətli* olar (M.Hüseyn).

**HAQSIZLIQ – ƏDALƏTLİLİK** Nə *haqsızlıq*, nə aclıq, nə istismar olacaq (S.Rüstəm); Məhkəmə hökmünün *ədalətliliyi* hamının ürəyindən idi.

**HALAL – HARAM** – Belə nə üçün? Desin ya *halaldır*, ya *haram* (S.S.Axundov).

**HAL-HAZIRDA – KEÇMİŞDƏ** Mən *hal-hazırdan* danışıram (S.S.Axundov); *Keçmişdən* aldığım dərin duyğular; Acı tərbiyələr ruhuma hakim (M.Müşfiq)

**HAMAR – KƏLƏ-KÖTÜR** Hər yan əl içi kimi düz və *hamardır* (S.Sərxanlı); Sona *kələ-kötür* yollarda bir xeyli yüyürdü (S.Vəliyev).

**HAMARLAMAQ – YASTILAMAQ** Baş barmağı ilə basıb *hamarladı* (İ.Şıxlı); Yəni dəmiri qızğın ikən *yastıla* (S.S.Axundov).

**HARA – ORA** Mən bu sinnimdə *hara* gedib çıxaram (S.S.Axundov); *Ora* meyxanadır (S.S.Axundov).

**HARIN – BAŞIAŞAĞI** *Harın* adamdır ("Ulduz"); Çox hörmətcil, *başıaşağı* adamdır (S.Qədirzadə).

**HAVADAR – HİMAYƏSİZ** Könlümdən keçəni duymadınsa da; Ömrümə, günümə *havadar* oldun (B.Vahabzadə); Aralıqda mövcud olan bütün anlaşılmazlıq, hətta bir para ixtilaflar da *himayəsizlik* nəticəsində yaradılmışdır (M.S.Ordubadi).

**HAVALANMAQ – AĞILLANMAQ** İnsan baxır *havalanır* (M.Müşfiq); Qulaməli fikirləşdi ki, yəqin arvad *ağıllanıb*, namusla yaşamağın mənasını başa düşüb (İ.Fərzəliyev).

**HAVALI – AĞILLI** Yox, bu məndən də *havalıdır*, rəhbər olmaq istəyir (M.İbrahimov); Sevda *ağıllı* qız idi (İ.Fərzəliyev).

**HAY-KÜY – SAKİTLİK** Yenidən *hay-küy* qopanda Kamal otura bilməyib zalı tərk etdi (M.İbrahimov); Zalda elə *sakitlik* yaranmışdı ki, onların hər bir hərəkəti və xüsusən ayaq səsləri eşidilir, əzici təsir bağışlayırdı (M.İbrahimov).

**HAZIRDA – GƏLƏCƏKDƏ** Göstərmə o gül çöhrəni, qoy bilməsin aləm; *Hazırda* bizim əsrdə cənnət yenə vardır (Ə.Vahid); Hər obada mən varam; Qəlbinizdə çağlaram; Dilinizdə qaynaram; *Gələcəkdə* yaşaram! (B.Vahabzadə).

**HEÇ – HƏ Heç**, elə-belə gəldik baş çəkək (C.Cabbarlı); *Hə*, o mənə Qarabağdan, Eloğlundan çox danışdı (S.Rəhimov).

**HEÇLİK – VARLIQ** Lakin mən bu *heçlikdə* də bir həqiqətəm (C.Cabbarlı); Yaşamaz eşqsiz, ruhsuz sənətkar; Onun *varlığı* da quru sümükdür (S.Vurğun).

**HEY – HƏRDƏN** Məni çəkə-çəkə *hey* apardılar; Gördüm qayıqdadır o qoçaq Eldar

(S.Vurğun); Əntiqə *hərdən* özünə cürət verib ağasından soruşdu (Mir Cəlal).

**HEYBƏTLİ – NƏŞƏLİ** *Heybətli* bir mənzərə zühur etdi (S.S.Axundov); İlyas diksindi və keçmişin şirin və *nəşəli* xatirələrindən ayrıldı (M.S.Ordubadi).

**HƏ – YOX** Yanardağ, son sözümdür. Solmaz sabah ölməlidir. *Hə*, ya *yox* (C.Cabbarlı).

**HƏQİQƏT – XƏYAL** İnsanın xoş *xəyalı* çevrilir *həqiqətə* (S.Rüstəm).

**HƏQİQƏT – YALAN** Getdi Telli xanım, getdi çal-çağır; *Həqiqət* belədir, *yalan* neyləsin (H.Hüseynzadə).

**HƏQİQİ – YALANÇI** *Həqiqi* dost çox gec ələ gələr (M.Talıbov); O da arvadı kimi *yalançı* və lovğa idi (C.Əmirov).

**HƏLƏ – SONRA** Əşrəf həyatında *hələ* heç bir qəhrəmanlıq eləməmişdi (S.Rəhman); *Sonra* yenidən düşüncəyə daldı (M.İbrahimov).

**HƏLƏLİK – HƏMİŞƏLİK** *Hələlik* onlar öz aralarında barışa bilmirdilər (M.S.Ordubadi); Qızım, onların qanadları *həmişəlik* deyildir, onlar töküləcəkdir (S.S.Axundov).

**HƏLİM – SƏRT** O ən sadə, ən *həlim*, ən gözəl bir qız idi (M.S.Ordubadi); O nədənsə axır illərdə əvvəlki kimi *sərt* təbiətli deyildi (S.Hüseyn).

**HƏLİMLƏŞMƏK – SƏRTLƏŞMƏK** Qoca kişi *həlimləşmişdi* ("Ulduz"); Hava *sərtləşir* (M.İbrahimov).

**HƏLİMLİK – SƏRTLİK** *Həlimlik* aciz adamların xislətidir (S.Qədirzadə); *Sərtlik* sizə yaraşmır ("Azərbaycan").

**HƏMDƏM – ƏĞYAR** O qızıl saçların pərişandır; *Həmdəmin* meydi, bir də hicrandı (S.Rüstəm); Tək-tək şeir yazsan da; Bir şux qıza, gəlinə; Qoy *əğyar* sevinməsin (R.Rza).

**HƏMİŞƏ – MÜVƏQQƏTİ** *Həmişə* şad görüm üzünüzü mən; Bir ağrı keçməsin ürəyinizdən (S.Vurğun); Rəssam olmağımı *müvəqqəti* unutsunlar (S.Vəliyev).

**HƏMİŞƏLİK – MÜVƏQQƏTİ** Gərək *həmişəlik* bizim içərimizdə qalasan (Ə.Haqverdiyev); Mən *müvəqqəti* Bakıdan çıxıb getmək istəyirəm (C.Əmirov).

**HƏRARƏTLİ – SOYUQ** O, cavan və *hərarətli* ürəyi zərif bir şey kimi ehtiyatla ovcuna aldı (C.Məmmədov); Ürəyi buz kimi *soyuq* idi ("Azərbaycan").

**HƏRB – SÜLH** Bu gündən hazır ol, *hərbə* girişək; Taxtını-tacını mən alam gərək (S.Vurğun); Əmiraslan ağa, mən də, Hacı da *sülh* tərəfdarıyıq (S.S.Axundov).

**HƏRDƏN – HƏMİŞƏ** Sifətindən *hərdən* bir şadlıq görünürdü (Çəmənzəminli); Gördün? Gözləri də *həmişə* gülür (S.Vurğun).

**HƏRDƏNBİR – ADDIMBAŞI** *Hərdənbir* ustanın arvadı Ələsgər ağagilə işləməyə gedir (Çəmənzəminli); Onu izləyir, hər *addımbaşı* sataşırdılar (İ.Şıxlı).

**HƏRFİ – MƏCAZİ** "Oyun" anlayışını dəqiqləşdirmək üçün Kortasar bu anlayışın *hərfi* mənasına müraciət edir ("Azərbaycan"); Sözün *məcazi* mənası mətn daxilində aydınlaşır (H.Həsənov).

**HƏRİF – ARİF** O öz məsələsinə *arifdir* (C.Cabbarlı); Doğrusu, *hərifin* təklifi xoşuma gəldi (Çəmənzəminli).

**HƏRİFLİK – ARİFLİK** *Hərifliyini* bilmirəm, ancaq kalandır (C.Əmirov); Onun *arifliyinə* söz ola bilməz.

**HƏRİS – SƏXAVƏTLİ** O pul, mal-dövlət *hərisidir* (C.Əmirov); Kimisi onu düz, *səxavətli* adam, kimisi fırıldaqçı adlandırırdı (İ.Fərzəliyev).

**HƏRİSLİK – SƏXAVƏTLİLİK** Tüstünü *hərisliklə* ciyərimə çəkdim (S.Qədirzadə); *Səxavətlilik* göstərir (M.Süleymanlı).

**HƏRTƏRƏFLİ – BİRTƏRƏFLİ** Badam bacı, biz sizi *hərtərəfli* təbrikə gəlmişik (A.Şaiq); Hüsaməddin, çox təəssüf edirəm ki, mənim bu sevgim *birtərəflidir* (M.S.Ordubadi).

**HƏRZƏ – MƏNALI** *Hərzə* sözün mərəzi gələr (Ata. sözü); Onun söhbəti şirin və *mənalı* idi ("Ulduz").

**HƏSƏD – TƏMİZ** Qadının baxışlarında *həsəd* oxunurdu. Ürəkləri çox *təmizdir*, söz deyirsən dərk edirlər, götürürlər (M.İbrahimov).

**HƏSRƏT – VÜSAL** Necə dözmək olar bəs; Əbədi *həsrətinə* (R.Rza); Çəkilin, ey düşüncələr, çəkilin; *Vüsal* günü gələcək (R.Rza).

**HƏVƏSKAR – PEŞƏKAR** Bəli, yoldaş mayor, mən *həvəskar* sürücüyəm (C.Əmirov); *Peşəkar* futbolçudur.

**HƏVƏSLƏ – ZORLA** *Həvəslə* şərab içməyə başladı (S.Vəliyev); Ulduz mənim idi, onu məndən *zorla*, güclə aldılar, mənim namusumu ayaqladılar (M.İbrahimov).

**HƏYALI – ƏXLAQSIZ** Qan *həyalı*, namuslu qadının başına sıçradı, əlini çəkib şala büründü (S.S.Axundov); Hamınız *əxlaqsız*, murdar tayfasınız (S.Qədirzadə).

**HƏYALILIQ – NAMUSSUZLUQ** *Həyalılığını* nümayiş etdirməyə can atırdı ("Ulduz"); Hələ gözlə, sənin bu ocağına *namussuzluq* ləkəsi yaxmasınlar (M.İbrahimov).

**HƏYAT – ÖLÜM** *Ölüm*, *həyat* yanaşıdır əzəldən (H.Hüseynzadə).

**HƏYƏCANLANMAQ – SAKİTLƏŞMƏK** Qadın bir az da *həyəcanlandı* (İ.Fərzəliyev); Mən yenə *sakitləşdim* (S.Qədirzadə).

**HƏYƏCANLI – SAKİT** Əsmət *həyəcanlı* gəldi haraya; Polad itələdi kənara onu (M.Rahim); Şirzad adəti üzrə *sakit* görünürdü (M.İbrahimov).

**HƏZİN – ÜRƏKAÇAN** Nə *həzin* sədan gəlir, ey sevimli bulağım (S.S.Axundov); Mərdanəlik cəvahiri günəş kimi işıq saçar; Xoş ülfətin *ürəkaçan*, uca qəlbin alicənab (Şəhriyar).

**HİCRAN – VÜSAL** Sevən bilir xal nədir; *Hicran* nə, *vüsal* nədir (M.Rahim).

**HİDDƏTLƏNMƏK – SAKİTLƏŞMƏK** Zeyil bunları düşünərək *hiddətlənir*, coşur (Çəmənzəminli); Şamxal bir az sakitləşdi (İ.Şıxlı).

**HIRILDAMAQ – ZIRILDAMAQ** Hır-hır *hırıldayacaq*, zəhərləsəm də onu (S.Rüstəm); Elə hey *zırıldayırdı* ("Ulduz").

**HİRSLƏNMƏK – SAKİTLƏŞMƏK** Zərnigar xanım daha da *hirsləndi* (İ.Şıxlı); Qaçay bununla özünü *sakitləşdirməyə* çalışmışdı (İ.Məlikzadə).

**HİRSLİ – SAKİT** A kişi, sən nə *hirsli* adammışsan (Ə.Haqverdiyev); Neçin belə *sakit* oturmuşam mən? (B.Vahabzadə).

**HİSLİ – TƏMİZ** Bağlamaram mən də *hisli* yaylığı (A.Şaiq); Orda hava *təmizdir*, dəniz yaxın (R.Rza).

**HİYLƏGƏR – MƏRD** Böyük bir yazıçı deyib ki, bic və *hiyləgər* adamlar hamını aldadıb tora sala bilərlər (M.İbrahimov); O yaxşı gündə nəcib və xeyirxahdır, ürəyi genişdir, səxavətlidir, *mərd* və qayğıkeşdi (M.İbrahimov).

**HİYLƏGƏRLİK – MƏRDLİK** Onun bu hərəkətlərində bir sünilik, naşı bir *hiyləgərlik* duyulur (Mir Cəlal); Məncə, bu *mərdlikdir* dünyanın varı? (S.Vurğun).

**HOQQABAZ – MƏRD** *Hoqqabazdır*, gündə bir oyun çıxardır. Bir tanışdır, bizim fəhlədir; Ancaq dərrakəli, *mərddir*, zirəkdir (S.Vurğun).

**HOQQABAZLIQ – MƏRDLİK** ..Qocaldın, gərək cavanlıq *hoqqabazlıqlarından* əl çəkəsən, çünki ölümə yaxın olduqca cavanlıqdan bir o qədər uzaqlaşırsan ("Qabusnamə"); Üzündən, gözündən *mərdlik* tökülür (S.Vurğun).

**HÖCƏT – ÜZÜYOLA** Atası kimi təkəbbür, kinli, *höcət*, qoçaq bir dəliqanlıdır (S.S.Axundov); Kasıbsan, *üzüyolasan*, işləyənsən (Mir Cəlal).

**HÖKMLÜ – MÜLAYİM** Ondan da zəhərli və *hökmlü* bir səslə dedi (M.İbrahimov); Ancaq Sabit Mirzə onun ... ağımtıl üzündə nurlu, *mülayim* bir təbəssüm gördü (İ.Məlikzadə).

**HÖNKÜRMƏK – QAQQILDAMAQ** İkiəlli üzümü qapayıb *hönkürdüm* (S.Qədirzadə); Gül, amma *qaqqıldama* (Mir Cəlal).

**HÖNKÜRTÜ – QƏHQƏHƏ** Sevincimdən *hönkürtü* ilə ağladım (M.Talıbov); Hər tərəfdən *qəhqəhələr* ucaldı (S.S.Axundov).

**HÖRMƏK – AÇMAQ** Əziz stolun üstünə salınmış üstü butalı göy süfrənin saçaqlarını gah qız teli kimi *hörür*, gah da *açırdı* (Ə.Vəliyev).

**HÖRMƏTCİL – KOBUD** Özü də ağıllı, sadə, *hörmətcil* bir qızdır (S.Qədirzadə); Çox *kobud*, qanacaqsız qadındır.

**HÖRMƏTCİLLİK – KOBUDLUQ** Hörmətcilliyinə *hörmətcildi*, amma *kobudluğu* da var ("Azərbaycan").

**HÖVSƏLƏLİ – SƏBİRSİZ** Ancaq yadında möhkəm saxla ki, mən *hövsələli* adamam (C.Əmirov); Kişi, sən nə *səbirsiz* adamsan (S.S.Axundov).

**HÖVSƏLƏSİZ – TƏMKİNLİ** Tələsir yanmış ürək – *hövsələsiz* quşcuğazım; Qalmamış səbri daha, fəryadı, fəğanı sevir (Şəhriyar); Çox *təmkinli* kişidir (A.Məmmədrza).

**HÖVSƏLƏSİZLİK – SƏBİRLİLİK** Bizim borcumuz səbirli olmaqdır, ay Rüstəm, *hövsələsizlik* eləyib hər şeyi üzlərinə vursaq, onlar da dartınıb ipi-örkəni qırarlar (M.İbrahimov); Bu yerdə *səbirlilik* tələb olunur.

**HÜNDÜR – ALÇAQ** Tap görüm, atdan *alçaq*, itdən *hündür* (S.S.Axundov).

**HÜNDÜRBOYLU – BALACABOYLU** Qarşıdakı səkidə səliqə ilə geyinmiş *hündürboylu* qız dayanmışdı (C.Əmirov); Səməd *balacaboylu*, qarabuğdayı oğlandı (M.İbrahimov).

**HÜNDÜRLƏTMƏK – ALÇALTMAQ** Damın üstünü gah *hündürlətdilər*, gah da *alçaltdılar* ("Azərbaycan").

**HÜNƏRLİ – QORXAQ** Qara köpək çox heybətli və *hünərli* bir it idi (S.S.Axundov); Dedim görüm, *qorxaq* uşaq deyilsən ki... (S.S.Axundov).

# Xx

**XAİN – SADİQ** Bu *xain* yenə xəbərə getdi (A.Şaiq); *Sadiq* yoldaşdır, ona sirrini deyə bilərsən ("Ulduz").

**XAİNLİK – SADİQLİK** Məzlum qorxaq idi, qorxaqlıqla *xainlik* eyni şeydir (S.Vəliyev); *Sadiqlik* kəlməsi onun dilindən düşmür ("Ulduz").

**XALİS – QARIŞIQ** Hə, bacı, mən əminəm ki, bu *xalis* brilyantdır (C.Əmirov); Bu rənglərin *qarışıq* naxışı; otağımı baharlayır; ətirlər, könül dolusu qalaydı (R.Rza).

**XAM – TƏCRÜBƏLİ** Çünki mən görürəm ki, sən *xam* adamsan (C.Əmirov); O, professorun qabağında oturan lap *təcrübəli* casusdur (M.Hüseyn).

**XAN – KƏNDLİ** Yazıq *kəndli xan* yerini sürür kotanla (S.Rüstəm).

**XAN – NÖKƏR** *Xana nökər* olanın ayağını daş aparar (Ata. sözü).

**XANIM – QULLUQÇU** Mən gözləyirdim, əvvəl yol *xanımındır*, sonra *qulluqçunun* (S.S.Axundov).

**XANIMLIQ – QULLUQÇULUQ** *Xanımlığa* gəlməmişəm (A.Şaiq); Sənin elə peşən *qulluqçuluq* olub (A.Məmmədrza).

**XANLIQ – NÖKƏRLİK** Ağsaqqallar gəlib *xanlıq* dəyirmanının yanında xanı gözləsinlər (Ə.Haqverdiyev); O bir neçə ilə *nökərlik* etmişdir (A.Məmmədrza).

**XARAB – SAF** Ah! Ey cavanlığın gülü; Nə tez soldun, *xarab* oldun? (Ə.Cavad); Körpənin nəfəsidir; Səhərin *saf* küləyi (B.Vahabzadə).

**XARAB – YAXŞI** – Uşaq *xarabdır*, Zəhra, xarabdır (M.İbrahimov); İndi uşaq *yaxşıdır*, gəzir (Mir Cəlal).

**XARABA – ABAD** Ölkə *abad* ikən, dəyirman *xarab* idi (Ata. sözü).

**XARABALIQ – ABADLIQ** *Xarabalıqdan abadlıq* axtararsınız (C.Cabbarlı).

**XARABLAŞMAQ – YAXŞILAŞMAQ** Həzərat! Özünüzə məlumdur ki, dünya getdikcə *xarablaşır*, yəni mən onu demək istəyirəm ki, bu dünya getdikcə xarab olur... (Ü.Hacıbəyov); Bəhmən bir az arıqlamışdı, amma ağarmışdı, *yaxşılaşmışdı* (İ.Məlikzadə).

**XARİC – DAXİL** Bahar fəsli təzəcə *daxil* olmuşdu (Ə.Haqverdiyev); O zaman Kipiani ələ keçdi. Əhmədi isə məktəbdən xaric etdilər (İ.Şıxlı).

**XARİCİ – DAXİLİ** Mən öz *daxili* varlığımla *xarici* təbiətdəki gözəllik arasında bir uyğunsuzluq hiss etdim (M.İbrahimov).

**XARİCİ – YERLİ Xarici** adamlarla bir az ehtiyatlı hərəkət etmək lazımdır. Semixatkada cəmisi iyirmi-otuz *yerli* adam yaşayırdı (S.Qədirzadə).

**XATAKAR – XEYİRXAH** *Xatakar* uşaqdır, əlindən bir xata çıxar ("Ulduz"); Qəlbdən *xeyirxah* olsa da, aciz idi (M.İbrahimov).

**XATAKARLIQ – XEYİRXAHLIQ** Onun əlindən *xatakarlıqdan* başqa bir şey gəlməz ("Azərbaycan"); *Xeyirxahlığın* üçüncü növü nə fitridir, nə də lovğalıq üzündəndir (M.Talıbov).

**XATALI – XEYİRXAH** Bundan əlavə padşahlıq dumasının vəkili olmaq çox *xatalı* işdir (S.S.Axundov); Bu, həqiqi *xeyirxahların* təqsiri deyildir (M.Talıbov).

**XATIRLAMAQ – UNUTMAQ** Salman sözarası ona otuz yeddinci ili də *xatırlatdı* (M.İbrahimov); Ər də, arvad da gündüzün ağır və üzücü zəhmətlərini *unutdu...* (Mir Cəlal).

**XEYİR – ŞƏR** Axşamın *xeyrindən* sabahın *şəri* yaxşıdır (Ata. sözü).

**XEYİR – VAY** *Xeyir* iş yerdə qalmaz (Ata. sözü); Qədirin *vay* xəbəri çoxdan alçaq daxmanı titrətmişdi (Mir Cəlal).

**XEYİRLİ – ŞƏRLİ** *Xeyirli* yola hər bir yerdə, hər hansı anda addım atsan yaxşıdır

(M.Talıbov); *Şərli* işlərdən nə qədər qıraq olsan daha yaxşıdır ("Azərbaycan").

**XEYİRSİZ – FAYDALI** – Ey *xeyirsiz* böcək; Xallı qanadlarınla çox da öyünmə (A.Şaiq); Bəlkə məsləhətlərimdə özün üçün *faydalı* bir şey tapdın (S.Qədirzadə).

**XEYR – BƏLİ** *Xeyr*, inanın ki, qabaqlar mən heç yerdə sizə rast gəlməmişəm (C.Əmirov); Mən ölüm, Baloğlan, belədir, ya qeyri belədir? *Bəli*, *bəli* (C.Cabbarlı).

**XƏFƏ – SƏRİN** *Xəfədir*, içində oturmaq olmur ("Ulduz"); *Sərin* mehdən səhər-səhər gül titrəyir, yarpaq əsir (R.Rza).

**XƏFƏLİK – SƏRİNLİK** Havanın *xəfəliyi* adamı işdən də qoyur ("Azərbaycan"); De, keçdimi bir *sərinlik* ürəyindən? (S.Vurğun).

**XƏFİF – ŞİDDƏTLİ** *Xəfif* külək əsirdi ("Azərbaycan"); *Şiddətli* xəzri küləyi əsir, evlərin qapı və pəncərələri vıyıldayır (S.Vəliyev).

**XƏLƏF – SƏLƏF** Bütün yer üzünün əşrəfiydi o; Adəmin ən böyük *xələfiydi* o (Şəhriyar); Ehtiram olsa da, hamı əzəldən; "*Sələfin* yolundan mən uzaq!" – deyir (B.Vahabzadə).

**XƏLƏL – XEYİR** Qeyrət günüdür, olmayalar özgəyə möhtac; Kim qatsa *xələl* şərə, edin ortadan ixrac (Ə.Vahid); *Xeyir* dilə qonşuna, xeyir gəlsin başına (Ata. sözü).

**XƏLVƏTİ – AŞKAR** *Xəlvəti* yer tapıb gizlədin, məni görməsinlər (İ.Fərzəliyev); "İlahi, yuxu görürəm, ya bu *aşkardır*?" – deyə özünü toxtatdı (Mir Cəlal).

**XƏLVƏTLİK – AŞKARLIQ** *Xəlvətlik* idi (Mir Cəlal); Fikir *aşkarlığı* onun ifadə olunmağından asılıdır.

**XƏSİS – BƏDXƏRC** *Xəsisdən* alınan yumurtanın sarısı olmaz (Ata. sözü); *Bədxərcdir*, ona pul vermək olmaz.

**XƏSİS – COMƏRD** Bu *xəsis* kişidən nə desən, çıxar (A.Şaiq); Mən sənin kimi *comərd* ola bilmərəm ki (A.Şaiq).

**XƏSİS – SƏXAVƏTLİ** *Xəsis* pulludur, nə tövr çıxartsaq halaldır (Ə.Haqverdiyev); Əli, sən çox *səxavətli* və yaxşı oğlansan (C.Əmirov).

**XƏSİSLİK – BƏDXƏRCLİK** Heç vaxt *xəsislik* etməyin (M.S.Ordubadi); *Bədxərcliyinə* çoxdan bələdəm ("Azərbaycan").

**XƏSİSLİK – SƏXAVƏTLİLİK** Rəhmsizliyi və *xəsisliyi* mütəfəkkirlər dəliliyin bir növü bilmişlər (M.Talıbov); Ev sahibinin safürəkliliyini, *səxavətliliyini* hiss etdik ("Ulduz").

**XƏSTƏ – SAĞLAM** Biri *xəstədir*, biz *sağlamıq* (M.Talıbov); Düşündüm: insan *xəstələnər* də, *sağalar* da (R.Rza).

**XƏSTƏLİK – SAĞLAMLIQ** Mən yorğun və ac idim, çox əziyyət və *xəstəlik* çəkmişdim (M.Talıbov); *Sağlamlıqdan* başqa bir şey aramaq nahaqdır (Mir Cəlal).

**XƏYAL – HƏQİQƏT** Bu bir *həqiqətdir*, deyildir *xəyal* (S.Rüstəm).

**XƏZAN – BAHAR** Süleymanam, bilir aləm, *xəzanla* yoxdur işim; Məhəbbətin gülüşündən doğan *baharım* var (S.Rüstəm).

**XƏZRİ – GİLAVAR** Nə *xəzri*, nə *gilavar*; Xəzər qoyub başını; Bakının sinəsinə yatıb (R.Rza).

**XİFFƏT – FƏRƏH** *Xiffəti* qeyrətli edər (Ata. sözü); Qızı *fərəh* qarışıq təəccüb bürüdü (S.Qədirzadə).

**XİFFƏTLƏNMƏK – FƏRƏHLƏNMƏK** Oğlunun dərdini çəkməkdən yazıq arvad *xiffətlənmişdir* ("Azərbaycan"); Bu sual Leondrı *fərəhləndirdi* (S.Qədirzadə).

**XİLAF – DOĞRU** Tənqid hər kəsə aid olsa da, müəllifə *xilaf* işdir (Mir Cəlal); Sərimək nədir, *doğru* sözümdür (M.İbrahimov).

**XİLAS – MƏHV** Əsarət zəncirlərini kəsib *xilas* edək (S.S.Axundov); Gərək Şahbaz bəyin nəslini qırıb, yer üzündən *məhv* edək (S.S.Axundov).

**XİLASKAR – ZÜLMKAR** Baxmayıb canının ağrılarına *xilaskar* atanın öpdü üzündən (H.Hüseynzadə); *Zülmkardır*, qəddardır, heç kəsə rəhmi gəlmir.

**XIRDA – BÖYÜK** *Xırda* uşaqlar da gərək məktəbə getsinlər (Ə.Haqverdiyev); Maral

hələ kiçik yaşlarından *böyük* arzularla yaşayırdı (S.Qədirzadə).

**XIRDALAŞMAQ – İRİLƏŞMƏK** Daşlara nə var ki; Yüz əyil, yüz dikəl; Sürtülüb *xırdalaş*, ol hamar (R.Rza); Gözləri elə bil *iriləşmişdi* (S.Qədirzadə).

**XIRDALI – İRİLİ** Bir dünya var, kainatın bir hissəsi; *İrili*, *xırdalı* məmləkətlərə doğru (R.Rza).

**XIRDALIQ – BÖYÜKLÜK** Söhbət meyvənin *xırdalığı* və ya *böyüklüyündən* çox, şirinliyindən gedir ("Azərbaycan").

**XOF – CƏSARƏT** Yoxsa gopçu Ədilin sözündən *xofa* düşmüşsünüz (S.S.Axundov); İş adamdan *cəsarət*, qeyrət tələb edir.

**XOFLANMAQ – CƏSARƏTLƏNMƏK** Soldat Ostapenkonun hərəkətindən *xoflanmışdı* (Mir Cəlal); Və nəhayət, bir gecə qız *cəsarətlənib* ona tanış yollarla cəbhəni keçərək qaçdı (S.Qədirzadə).

**XOFLU – CÜRƏTLİ** Sən də dönmüsən lap o *xoflu* xəlifəyə, hər şeydən qorxursan (M.İbrahimov); Əvvəlinci dəfədən sübut elə ki, ərindən qat-qat *cürətlisən* (M.Hüseyn).

**XOŞBƏXTLİK – ZÜLM** Sizin kimi adamları qurtarmaq mənim üçün *xoşbəxtlikdir* (S.Vəliyev); *Zülm* həmçinin şər əməlidir (Ə.Haqverdiyev).

**XOŞQILIQ – AMANSIZ** Düşmənə *amansız* ol; dosta *xoşqılıq* (R.Rza).

**XOŞLAMAQ – PİSLƏMƏK** İndi Fatmanisə xala elə bilir ki, sən *xoşlayıbsan* (Ə.Haqverdiyev); İşi-gücü elə onu-bunu *pisləməkdir*.

**XOŞLUQ – PİSLİK** Mən mağaraya girib; Cüməyə yalvarıram; Əgər *xoşluq* ilə gəlsə heç (A.Şaiq); *Pislik* onun əlində bir qurtum su içmək kimi bir şeydir.

**XOŞLUQLA – ZORLA** *Xoşluqla* gəlməsə, o vaxt *zorla* və güc ilə durub ayaqlarımı da tərpədərəm (A.Şaiq).

**XOŞSİFƏT – MISMIRIQ** *Xoşsifət*, zarafatcıl, baməzə kişidir (Ə.Vəliyev); İncidən, *mısmırığına* dəyən odur... (M.İbrahimov).

**XUDBİN – TƏVAZÖKAR** Bu bir az da deyəsən *xudbindir* (M.İbrahimov); *Təvazökar*, ağıllı bir qızdır ("Ulduz").

**XÜBAR – CÜNUN** Sən bir varlı, mən bir fəqir, sən bir *xübar*, mən bir *cünun* (C.Cabbarlı).

**XÜLYA – REAL** Birinin görürsən ki, başında *xülyası* var (S.Rüstəm); Yazıçı *real* hadisələri qələmə almışdır.

**XÜSUSİ – RƏSMİ** Hərgah *xüsusi* kağıza qulaq asmasa, onda *rəsmi* təliqəni verərsən (Ə.Vəliyev).

**XÜSUSİ – ÜMUMİ** Səttar xanla Bağır xan qalxıb *xüsusi* otağa keçdi (M.S.Ordubadi); Bağır xanın əyləşdiyi *ümumi* otağa girdik (M.S.Ordubadi).

**XÜSUSİYYƏTÇİLİK – KOLLEKTİVLİK** Yoxsa "mən aldım, işini düzəltdim, ortadan çıxdım, qalanlarının canı çıxsın, nə vecimə" demək *xüsusiyyətçilik* və əclaflıqdır (M.İbrahimov); *Kollektivlik* hər şeyi həll edir.

# İi

**İBARƏLİ – SADƏ** Armudboğaz, şişbığ satıcının belə *ibarəli* nitqindən baş açmayan Leylək istər-istəməz əsəbiləşdi (S.Rəhimov); Tamaşaçılar onun *sadə* nitqinin təsiri altındadırlar ("Ulduz").

**İBLİS – MƏLƏK** Ədavət toxumu səpmək üçün siz; Gah *mələk* oldunuz, gah da bir *iblis* (S.Rüstəm).

**İBTİDAİ – MÜASİR** *İbtidai* alətlərlə qazıldığı üçün baltanı çıxartmaq son dərəcə böyük əhəmiyyət kəsb edir (M.Hüseyn); Məsələn, sizin *müasir* quruluşdan narazı olduğunuzu mən çoxdan bilirəm (M.Hüseyn).

**İCTİMAİ – XÜSUSİ** *İctimai* və *xüsusi* təsərrüfatlar arasında fərq qoymaq lazımdır.

**İÇ – BAYIR** Əvvəl evin *içi*, sonra *bayırı* (Ata. sözü).

**İÇ – ÇÖL** *İçim* özümü yandırır, *çölüm* sizi (A.Məmmədov).

**İÇƏRİ – BAYIR** *Bayırı* kaşı-çini, *içərisi* toyuq hini (Ata. sözü).

**İÇMƏK – TÖKMƏK** Kim *içməsə*, yaxasına *tökəcəyik* (Mir Cəlal).

**İDBAR – GÖZƏL** Rədd ol qapıdan, ağlama zar-zar, dilənçi! Vaqqıldama bayquş kimi *idbar*, dilənçi! (M.Ə.Sabir); Özünüz *gözəl* və göyçəksiniz (C.Əmirov).

**İDBAR – İQBAL** Sübh söndü şəb ki, xəlqə qəbilə idi bir çıraq; Gecəki *iqbalı* gör, gündüzdəki *idbarə* bax! (M.P.Vaqif).

**İDDİALI – BAŞIAŞAĞI** Nə soxulmusan araya, a başıbəlalı, fələ? Nə xəyal ilə olubsan belə *iddialı*, fələ?! (M.Ə.Sabir); Onun heç kəslə işi yoxdur, *başıaşağı* adamdır.

**İDEAL – ÇİRKİN** Ən *ideal* adamlardan biri də Ramizdir. Osmanlı işğalçıları *çirkin* məqsədlərini xalqa izah edirdi (M.Hüseyn).

**İDXAL – İXRAC** Hazırda ölkəmiz... dərman maddələrinin *idxalından* tamamilə azad olmuşdur (R.Əliyev); Sənayeləşdirmə hələ başa çatdırıldığı zaman biz xammal və yeyinti məhsullarını *ixrac* edən bir ölkə idik.

**İDRAKLI – SƏFEH** Sən *idraklı* olduğun üçün bilirdim ki, sözümü tez anlayacaqsan (C.Cabbarlı); Hansı *səfeh* oğlu bundan sonra qaymaq satar (Mir Cəlal).

**İDRAKSIZ – DÜŞÜNCƏLİ** *İdraksız* bir kütlənin səfeh qorxaqlığına, qurban olub gedir (C.Cabbarlı); Özü də ağıllı, *düşüncəli* uşaqdır (M.Hüseyn).

**İFRİTƏ – GÖZƏL** O *ifritə* qadının alçaq fitnəsini hamımız başa düşdük (M.Hüseyn); Babaxanın oraya yolu düşür, belə *gözəl* bir qızın yayın istisində tarlada çalışan görür (Mir Cəlal).

**İFRİTƏ – HƏYALI** Elə qarı qapını örtcək dəyişilib oldu bir küpəgirən *ifritə*, cadu (Nağıl); *Həyalı* qızarar, həyasız ağarar (Ata. sözü).

**İĞTİŞAŞ – SÜLH** Hər yerdə *iğtişaş*, hər yerdə üsyan;Alovlu nəğmələr ucalır göyə (S.Rüstəm); Hamı *sülh* istəyir (Mir Cəlal).

**İXTİLAF – BİRLİK** Hər kiçik *ixtilaf* ailəni pozarsa, onda nə olar? (Mir Cəlal); *Birlik* lazımdır bizə! (M.Hüseyn).

**İXTİYAR – GƏNC** Qızlar, gəlinlər sevinir, uşaqlar, *gənclər*, *ixtiyarlar* sevinir, bütün kainat belə sevinirdi (C.Cabbarlı).

**İXTİYARLIQ – GƏNCLİK** *İxtiyarlıq* ölümün qonşusudur (H.Cavid); Təhqir olunmuş *gənclik* vüqarımı müdafiə edərək, əsəbi və titrək barmaqlarımla ağzıma gələni yazdım... (Mir Cəlal).

**İKİBAŞLI – AYDIN** Qaraş *ikibaşlı* söz soruşduqda Maya da ondan incidi, birbirindən soyuq ayrıldılar (M.İbrahimov); Bu o qədər *aydın* və sadə bir həqiqətdir ki... (M.Hüseyn).

**İKİDİLLİ – SƏMİMİ** Yox böylə *ikidilli*, yaman üzlü cəfakar; Bir zərrə utanmaz! (M.Ə.Sabir); ...Püstəxanımla *səmimi*

salamlaşandan sonra onları yerbəyer elədi (M.Hüseyn).

**İKİLƏŞMƏK – TƏKLƏŞMƏK** Səs *ikiləşdi*, üç oldu, sonra tamam kəsildi (G.Hüseynoğlu); Ədhəm bilirdi ki, Səlim *təklənəndə* öz təsir gücünü xeyli itirir, çaşır, təntiyir (B.Bayramov).

**İKİLİKDƏ – TƏKLİKDƏ** Teymurla Güldəstə *ikilikdə* qalmışdılar (H.Seyidbəyli); *Təklikdə* heç nə eləyə bilməzsən ("Ulduz").

**İKİMƏNALI – AÇIQ** Pərdəli, *ikimənalı* danışıqlardan da xoşum gəlməz (Ə.Vəliyev); Əsil etika *açıq* danışmağı sevir (M.Hüseyn).

**İKİTİRƏLİK – BİRLİK** Kəndə *ikitirəlik* salıb; Pirəli getdi; İstəyincə paşalıq (M.Rahim); Güc *birlikdədir* (Ata. sözü).

**İKİÜZLÜ – SƏMİMİ** Siz bağışlayın, yoldaş Mədəd, ba Tarıverdi xalis *ikiüzlüdür* (S.Rəhimov); O çox *səmimi* yoldaşdır.

**İKİÜZLÜLÜK – SƏMİMİLİK** *İkiüzlülük* qorxudan əmələ gələn bir xəstəlikdir (M.Hüseyn); Xüsusən Nazim Hikmətlə əlaqədar yazılmış səhifələrdə *səmimilik* və dəqiqlik xüsusi nəzərə çarpır.

**İQRAR – İNKAR** İkidir gərçi pəriçöhrələrin küftarı; Bir imiş bunların *iqrarı* ilə *inkarı* (Q.Təbrizi).

**İLHAMLI – SÖNÜK** S.Vurğunun dərin *ilhamlı* lirikası... mədəniyyətimizin qızıl fonduna daxil olmuşdur (M.Hüseyn); "Ədəbiyyat və incəsənət" qəzetinin son nömrəsində gedən şeirlərin bir qismi *sönükdür*.

**İLIQ – SOYUQ** Günəşin ilk *ılıq* şüaları sularda oynaşırdı (S.Vəliyev); Bu nadir möcüzə, hiss edir *soyuğu*, istini (R.Rza).

**İLIQLIQ – SOYUQLUQ** İstilər çəkilmişdi, lakin havada xoş *ılıqlıq* var idi (Çəmənzəminli); Bu sualların buz *soyuqluğunu* Məryəm bütün bədəni ilə hiss etdi (Elçin).

**İLK – AXIR** Dünyada hər könül yüksəliş arar; Varlığın nə *ilki*, nə *axırı* var (S.Vurğun).

**İLLƏTLİ – SALAMAT** Bədənin məriz və *illətli* hissəsi *salamat* olan hissəsinə kömək əvəzinə ağırlıq və əziyyət yetirir... (F.Köçərli).

**İNAD – ÜZÜYOLA** Gülsabahın atası çox *inad* adamdı (Ə.Vəliyev); Kasıbsan, *üzüyolasan*, işləyənsən (Mir Cəlal).

**İNADCIL – SADƏLÖVH** *İnadcıl* qızın da başına görün nə gəldi (G.Hüseynoğlu); Yeja bu *sadəlövh* adamın beynəlxalq vəziyyətlə tanış olmasına heyrət edərək düşündü (S.Vəliyev).

**İNADKAR – ÜZÜYOLA** O da bilir ki, sən *inadkarsan* (S.Vəliyev); Qıraqdan qulaq asan, lakin onu görməyən adam güman edirdi ki, kabinetdə Anketovdan başqa beş-altı nəfər *üzüyola*, sakit bağça uşağı var (Mir Cəlal).

**İNAMSIZ – ETİBARLI** *İnamsız* hərəkətləri bizi təngə gətirdi. Öz ətrafımıza *etibarlı* adamlar yığaq (S.Vəliyev).

**İNAMSIZLIQ – ETİBARSIZLIQ** Axı bu *inamsızlıq* nədən irəli gəlir? (İ.Şıxlı); Bizim yanımızda öz *etibarlılığını* itirmişdir ("Azərbaycan").

**İNCƏ – KOBUD** Arvadım, arvadım, sən bir qədər *incə* sözlər öyrənsəydin, heç zərər görməzdin (C.Cabbarlı); Mən burada *kobud* bir səhv buraxdım (Mir Cəlal).

**İNCƏ – SƏRT** O qanadlı gəncin sadə; Təmiz, *incə* ruhu vardı (N.Rəfibəyli); Buna görə də ağzından ara-sıra *sərt* sözlər də çıxırdı (M.İbrahimov).

**İNCƏLİK – KOBUDLUQ** Gözəllik, *incəlik*, sevgi, vəfa insandan ayrılmaz (S.Rüstəm); Mən onun hərəkətində bir *kobudluq* hiss edirəm.

**İNCƏLİK – QABALIQ** Düzü belədir, hər halda bu *incəliyi* nəzərə almaq lazımdır (M.Talıbov); İncəlir hər *qabalıq* sənətdən (H.Cavid).

**İNCƏLMƏK – KÖKƏLMƏK** Hərzəvü hədyan oxumaqdan; *İncəldi* uşağım (M.Ə.Sabir); Bəlkə, heç *kökəlməyəcək* (S.S.Axundov).

**İNCƏLMƏK – SƏRTLƏŞMƏK** Ürəyim çocuq kimi *incəlmiş*; Nəhayət, səni tapdım (C.Cabbarlı); Hər gün əsəbiləşir, ürəyi *sərtləşmişdir*.

**İNCİK – RAZI** Nəhayət, Səlim ağa özünü *incik* yerinə qoydu, silkinib ayağa durdu (M.İbrahimov); Sara isə müdirin iltifatından *razı* idi (Mir Cəlal).

**İNCİKLİK – RAZILIQ** Zoranın sifətində dərhal *inciklik* əlaməti göründü (S.Vəliyev); Arvad *razılıq* verib, kəbin də kəsilib (Mir Cəlal).

**İNCİTMƏK – BARIŞMAQ** Fatma babasının sözündən *incimədi* (Çəmənzəminli); *Barışmaq*, böyük və alicənab işdir (M.Hüseyn).

**İNDİ – ƏVVƏL** *İndi* məftilə ehtiyac yoxdur (Çəmənzəminli); Məftil bundan çox *əvvəl* götürülmüşdü (Çəmənzəminli).

**İNDİ – İNİŞİL** Onlar *indi* xoşbəxt yaşayırdılar (Ə.Vəliyev); Axı Əlyar *inişil*; Bir ay Bakıda yatdı (B.Vahabzadə).

**İNDİ – SONRA** *İndi* belələri tapılmaz (C.Əmirov); *Sonra* hamıya müraciətlə soruşdu (C.Əmirov).

**İNDİDƏN – DÜNƏNDƏN** Rüstəm kişi elə *indidən* müavini itaətdə saxlamağı qərara aldı (M.İbrahimov); *Dünəndən* hamı onun yolunu gözləyir.

**İNDİKİ – SONRAKI** **İndiki** makinalar ən uzaq dalğaların səslərini alaraq kağız üzərinə qeyd edir (Çəmənzəminli); *Sonrakı* günlər daha fərəhli olacaq (“Azərbaycan qadını”).

**İNKİŞAF – TƏNƏZZÜL** Azərbaycan xalq təsərrüfatının həlledici sahəsi olan neft sənayesi sürətlə *inkişaf* etmişdir. Al, mən bu dildə şeir oxumağa *tənəzzül* etmərəm! (M.Hüseyn).

**İNSAFLI – KAFİR** Görürəm çox *insaflı* oğlansan (A.Şaiq); Yüzbaşı yaman *kafir* imiş (Mir Cəlal).

**İNSANİ – HEYVANİ** C.Cabbarlının qəhrəmanları nəcib *insani* hisslərə malikdirlər (M.Arif); Başqa bir roman isə *heyvani* hissləri tərənnüm edir (Ə.Şərif).

**İNSANLIQ – BARBARLIQ** Rəşidin bu *insanlığını* və hümmətini hər kəs bildi (İ.Musabəyov); Mən belə *barbarlığa* dözmərəm (C.Cabbarlı).

**İNTİM – AŞKAR** Jandarm rəisi hər bir kəlməsini az qala *intim* bir ifadə ilə deməyə çalışır (M.Hüseyn); Mənim işim *aşkardır*.

**İNTİZAMLI – NADİNC** Daima *intizamlı*, səliqəli olan Talıb İsayev hər bir işçiyə, hər bir tapşırığın yerinə yetirilməsinə tələbkarlıqla yanaşan adam idi (C.Əmirov); Yaman *nadinc* uşaqdır (“Ulduz”).

**İNTİZAMSIZ – TƏRBİYƏLİ** [Qoşqar:] Bilirsiniz ki, mən *intizamsız* adam deyiləm... (İ.Hüseynov); Deyəsən o çox *tərbiyəli* yoldaşdır.

**İRADƏLİ – QORXAQ** Sən çox *iradəli* adamsan (M.S.Ordubadi); Mənə ağıl öyrətmə, *qorxaq*! (M.Hüseyn).

**İRADƏLİLİK – QORXAQLIQ** *İradəlilikdə* heç kəs Səlimə çatmaz (“Ulduz”); Bu *qorxaqlıqdır*, yoxsa cinayət? – deyə o, komandirin gözlərinin içinə baxa-baxa soruşdu (M.Hüseyn).

**İRADƏSİZ – CÜRƏTLİ** Zeynal *iradəsiz* bir gəncdir (S.Hüseyn); Fariz evimizə gələn gündən mənə *cürətli*, qorxmaz bir oğlan kimi təsir bağışlamışdır (Y.Əzimzadə).

**İRADƏSİZLİK – CƏSARƏTLİLİK** *İradəsizlik* etsə, özünü məhv edə bilər (Z.Xəlil); Pəri xala bir az da *cəsarətlilik* göstərib müəllimlərin xahişini xatırladı (M.İbrahimov).

**İRƏLİ – SONRA** O məndən bir-iki saat *irəli* gəldi (N.Vəzirov); *Sonralar* xatirələr bizi öz qucağına aldı (Y.Əzimzadə).

**İRİ – BALACA** Onun *iri*, qara gözləri parlayır, yanırdı (C.Məmmədov); *Balaca* şəhərin küçələrini duman bürümüşdü (Çəmənzəminli).

**İRİ – XIRDA** Bir sürü *xırda* və *iri* yaşlı uşaqlardıq (S.Hüseyn).

**İRİLƏŞMƏK – BALACALAŞMAQ** Səfiqulu bəyin gözləri *iriləşib* oynamağa başlayırdı (M.İbrahimov); Həmin şəklin önündə qubernator lap *balacalaşır...* (İ.Şıxlı).

**İRİLİK – XIRDALIQ** Bu *irilikdə* mirvari... heç Xəta padşahının xəzinəsində də tapılmaz (S.S.Axundov); Almanın *xırdalığına* baxma, çox şirindir.

**İRİŞMƏK – AĞLAMAQ** Ramazanov mənə yaxınlaşdı, məni tanıyıb, yalandan *irişdi* (S.Rəhman); Uşaq da yadına salıb *ağlayır* (Mir Cəlal).

**İSİNMƏK – SOYUMAQ** Qüvvətimiz, ümidimiz, arzularımız məhəbbətlə *isinmişdir...* (Ə.Məmmədxanlı); ...Mənə tərəf çevriləndə *soyuyub* ayazıyır, elə bil ki, üstümə qar-yağış tökəcək (M.İbrahimov).

**İSİTMƏ – ÜŞÜTMƏ** Bədənimə *isitmə* gəldi. Dünən gecədən bəri onu tərk etməyən *üşütmə* və qorxu rəf oldu (C.Əmirov).

**İSLAQ – QURU** Şən qəhqəhələrlə *islaq* otların arasında çiyələk dərib yeyirdilər (A.Şaiq); *Quru* qobu qırağı ilə əlində kağız qovluğu olan bir gənc yeriyirdi (Mir Cəlal).

**İSLANMAQ – QURUMAQ** Az keçdi, yenə güclü yağış başladı başdan; Bir anda bahar paltarım *islandı* yağışdan (S.Rüstəm); Səriyyə xala bağırmaq və ağlamaq istəyir, bacarmırdı. Sanki gözlərinin yaşı *qurumuşdu* (M.İbrahimov).

**İSLATMAQ – QURUTMAQ** Yağış *isladar*, gün *qurudar* (Ata. sözü).

**İSMƏTLİ – NAMUSSUZ** Görmüşdüm ağıllı, *ismətli*, qoçaq; Manqabaşçısıydı, qəşəng gəlindi (Ə.Cəmil); Bu *namussuzu* nə üçün qolları bağlı gətirmədin? (M.Hüseyn).

**İSMƏTLİLİK – ƏXLAQSIZLIQ** Özündə bir *ismətlilik* duyurdu. Şeir adına dinsizlik və *əxlaqsızlıq* dərsi verən bu kitab dünya üzü görməyə haqlı deyildir (M.Hüseyn).

**İSMƏTSİZ – NAMUSLU** Mənim sözüm budur ki, ümumiyyətlə, heç bir millətin barəsində demək olmaz ki, filan millətin övrətləri bietibar və *ismətsizdir* ("Molla Nəsrəddin") Qorxma, bacın *namuslu*, ismətli qızdır (S.S.Axundov).

**İSRAFÇI – QƏNAƏTÇİ** Bu hay-huy içərisində olanlar özləri də *israfçı* axmaqlar və bədbəxt vəhşilər kimi yaşayacaqlar (M.Talıbov); *Qənaətçidir*, malının qədrini bilir.

**İSRAFÇILIQ – QƏNAƏTÇİLİK** Əgər keçmişdəki varlılar ifrat *israfçılıq* edirdilərsə, bunu öz eyş-işrətləri üçün öz evlərində edirdilər (M.Talıbov); Hər bir işdə *qənaətçilik* olmalıdır.

**İSTEDADLI – KÜT** Hər ailənin öz *istedadlı* israfçısı vardı (C.Məmmədov); Kəs səsini köpək... Beyniniz *kütdür* (S.Rüstəm).

**İSTİ – AYAZLI** Yayın *isti* günləri idi (S.S.Axundov); *Ayazlı*, şaxtalı bir qış axşamı; Yeddi yoldaş olub yola düzəldik (S.Vurğun).

**İSTİ – SOYUQ** Yaramaz uşaq yamanca mənim *isti* aşıma *soyuq* su qatdı (S.Hüseyn).

**İSTİBDAD – SƏADƏT** Yoldaşlar, *istibdad* pəncəsində işləyən yüz minlərcə işçilər baş qaldırmadadır (Çəmənzəminli); Odlar yurdunun *səadəti* sənin, mənim səadətimdir (M.Hüseyn).

**İSTİQANLI – SOYUQQANLI** İyirmi dörd yaşlı, canı-başı sağlam, *istiqanlı* bir oğlan özünü nə qədər saxlayacaqdı (M.İbrahimov); Lakin Rəna *soyuqqanlı*, möhkəm idi, tələsmir, nişan alaraq vururdu (C.Məmmədov).

**İSTİLİK – SOYUQLUQ** Alnımda bir *istilik* hiss edər-etməz gözlərimi açdım (M.S.Ordubadi); Azacıq sonra isə həmin *soyuqluq* isindi (İ.Şıxlı).

**İŞCİL – TƏNBƏL** Pah, insan da belə *işcil* olar? (Mir Cəlal); Hər əyrinin, *tənbəlin* xan qızı kimi başına dolanmayacağıq ki?.. (M.İbrahimov).

**İŞCİLLİK – TƏNBƏLLİK** *İşcillikdə* olmasın qoy onların misli heç (M.Rahim); Səni kəndə qaçmağa məcbur edən *tənbəllikdir* (Z.Xəlil).

**İŞGƏNCƏ – KEF** O bu *işgəncədən* qurtarmaq üçün düşünür, fürsət gözləyir (S.Vəliyev); Cibim dolu, *kefim* saz idi (Mir Cəlal).

**İŞGƏNCƏLİ – NƏŞƏLİ** Bizim gözlərimiz önündə uzun, *işgəncəli* bir insan həyatı gəlib keçir (M.Hüseyn); Yuxusunda *nəşəli* günlərini görüb ağzı sulanır.

**İŞGÜZAR – TƏNBƏL** Küçə sürətlə ora-bura gedən, *işgüzar* adamlarla dolu idi (S.Rəhman); Mədəd "*tənbəl*" sözünü

deyəndə Güldanəyə elə gəldi ki, onu ilan çaldı (Ə.Vəliyev).

**İŞGÜZARLIQ – BACARIQSIZLIQ** O, Məşədibəyin *işgüzarlığını*, möhkəmliyini, Məşədibəy isə onun kəsərli yazı üsulunu bəyənirdi (M.Hüseyn); Onun *bacarıqsızlığı* barədə sonra danışarıq.

**İŞGÜZARLIQ – TƏNBƏLLİK** Çünki onu tanıyırdı, *işgüzarlığına* bələd idi (Mir Cəlal); Bağban əmi, özün demirdin ki, çox yatmaq *tənbəllik* əlamətidir (Y.Əzimzadə).

**İŞIQ – QARANLIQ** *İşıq qaranlıqla*, kədər fərəhlə; Ayrılıq görüşlə bir yerə düşdü (H.Hüseynzadə).

**İŞIQ – ZÜLMƏT** Qalır və birdən-birə ona elə gəlir ki, qarşısında daha iki tələbəsi yox, *işıqla zülmət* dayanmışdı (G.Hüseynoğlu).

**İŞIQLIQ – QARANLIQ** Ay səni görüm, *işıqlığa* çıxasan! (M.Hüseyn); ...Ərinin gələcəyini, *qaranlıq* taleyini düşünürdü (Mir Cəlal).

**İŞILDAMAQ – SÖNMƏK** Elektrik lampaları axşamın dumanları içərisində sönük bir parıltı ilə *işıldayırdı* (Q.İlkin); Ağsaqqal kişi çubuğunu *söndürdü* (Mir Cəlal).

**İŞLƏK – TƏNBƏL** Siz Əhməd Soltanzadə kimi *işlək* adamı bəyənmirsiniz. (M.Süleymanzadə); İş görməkdə *tənbəl*, amma yeməkdə alıcı quşdur.

**İŞLƏMƏK – AVARALANMAQ** İşçilər istiyə baxmadan od kimi *işləyirdilər* (Mir Cəlal); Ona iş demə, elə qoy *avaralansın* ("Ulduz").

**İŞLƏMƏK – DAYANMAQ** Sanki Fərhadın ürəyi elə bu an *işləməyə*, onun vücudu bu dəqiqə hərəkət etməyə başladı (Ə.Vəliyev); Elə bil birdən ürəyi *dayandı*.

**İTİ – KÜT** Qılıncdan *itidir* qələmin, sözün... (S.Rüstəm); O indi aciz və *küt* bir mətbəx bıçağı deyil, sınaqlardan çıxmış kəsərli bir qılınc idi (Mir Cəlal).

**İTİ – YAVAŞ** Ancaq Məzlum üsulluca restoranı tərk etdi, *iti* addımlarla buradan uzaqlaşdı (E.Sultanov); Qız *yavaş* addımlarla onu izləyir (M.Hüseyn).

**İTİGÖZLÜ – FƏRSİZ** Onu, o *itigözlü*, girdə və gülərüzlü müəllimi kim tanımır, kim əzizləmir? (Mir Cəlal); *Fərsiz* qoyunu qurd yeyər (Ata. sözü).

**İTİLİK – KÜTLÜK** Bıçağın *itiliyi* və ya *kütlüyü* ancaq bir şeyi doğramaq zamanı bilinir.

**İTİRMƏK – QAZANMAQ** Lap balaca yaşlarında o, ata və anasını *itirmişdi* (M.İbrahimov); Xalq qız verib quda *qazanar*, biz qız verib qada qazandıq (Ata. sözü).

**İTİRMƏK – TOXTAMAQ** Lyudmila özünü *itirdi* (C.Əmirov); Polad birdən sarsılıb yıxılan kimi olur. Ancaq tez özünü *toxtadır* (M.Hüseyn).

**İTTİFAQ – AYRILIQ** Pozulmaz bu qardaşlıq, pozulmaz bu *ittifaq* (S.Rüstəm); Yaddır eşqimizə *ayrılıq*, ölüm (S.Rüstəm).

**İTTİFAQ – TİFAQ** Susdu bülbüllərin nədən, orman?! Pozdumu *ittifaqını* o xəzan? (A.Şaiq); Aralarına *tifaq* düşdü.

**İYRƏNC – GÖZƏL** Salman havalanıb pörtərək, eybəcər və *iyrənc* şəklə düşdü (M.İbrahimov); O *gözəl* nəğməni oxusana! (M.Hüseyn).

**İYRƏNC – NAMUSLU** Mən sənə söz verirəm, artıq bu *iyrənc* yolu təqib etməyəcəyəm (M.S.Ordubadi); Lakin mən hər şeydən əvvəl *namuslu* bir atanın oğluyam (M.Hüseyn).

**İZTİRAB – RAHATLIQ** Bu, gəncliyin ilk *iztirabı* idi (S.Vəliyev); O ölmüş olsa da, bu vicdan əzabı mənə ömrüm boyu *rahatlıq* verməyəcəkdir (M.Hüseyn).

**İZTİRABLI – XOŞBƏXT** Yox, demə dirçəldik, yenə yeridik; Eşqin *iztirablı*, çətin yolunda (S.Rüstəm); Ah, sən *xoşbəxt* uşaqsan (S.S.Axundov).

# Kk

**KAFİ – PİS** Güclə *kafi* qiymət alırdı (İ.Fərzəliyev); Dərslərindən *pis* qiymət alır ("Azərbaycan").

**KAFİR – MÜSƏLMAN** De, sən hara? Rusiya hara? Yoxsa satılmısan o *kafirlərə*? (S.Vurğun); Yoxsa *müsəlmanlar* şəhərə giriblər? (Mir Cəlal).

**KAFTAR – CAVAN** Deyirlər ki, ay *kaftar*, bizim qızımız qırmızı saqqallı qoca kişinin tayıdır? (Ə.Haqverdiyev); *Cavan* adamsan, nə çoxdur ər, birinə qoşulub getsənə? (Mir Cəlal).

**KAL – YETİŞMİŞ** ...*Kal* meyvələrdən dərib ağzına atır... (M.İbrahimov); Ağaclar *yetişmiş* sarı, dolu, sulu, şirin armudu ehmallıca yerə buraxırdı (Mir Cəlal).

**KALAFA – DÜZ** Qaralır daxmanın *kalafa* yeri; Dəstə şərqisilə çəkilir geri (S.Vurğun); Onlar dərin bir həyəcanla *düzə* sarı baxırdılar (M.Hüseyn).

**KALAFALIQ – DÜZƏNLİK** – O dağın dibində saraylar tikilmiş, indi *kalafalıqları* qalıb (M.Süleymanlı); O, *düzənliyin* adı qılıncdır, çıxdığımız yol sarı yoldur (M.Süleymanlı).

**KALLAŞMAQ – AÇILMAQ** Getdikcə onun səsi *kallaşırdı* (F.Kərimzadə); Birdən səsi *açıldı* ("Ulduz").

**KAMALLI – SƏFEH** Bu oğlan *kamallı* oğlandır (S.S.Axundov); Çox *səfeh* adamdır ki, dirilib (Mir Cəlal).

**KAMALSIZ – AĞILLI** Mən onlara, ağılsız, qabiliyyətsiz, *kamalsız* adam deyə bilmərəm (Ə.Haqverdiyev); Gülər *ağıllı* və bacarıqlı qızdır (M.İbrahimov).

**KAMİL – NÖQSANLI** *Kamil* insan kamalından bəlli olar (Ata. sözü); Hələ o özünü *nöqsanlı* bir şəxs kimi tanıtmışdır ("Azərbaycan").

**KAMİLLİK – SƏFEHLİK** Dedilər *kamilliyin*, hürufiliyin yeri zindandır (F.Kərimzadə); Bu da sənin *səfehliyindir* ("Azərbaycan").

**KARLI – ZƏRƏRLİ** Zaman şuluqluq, qışqabağı bir *karlı* iş yox, filan yox! (Mir Cəlal); *Zərərli* işdir, mən ona qol qoya bilmərəm ("Azərbaycan").

**KASAD – GƏLİRLİ** Hacı nə bizim bazarımız *kasaddır* və nə də puldan çətinlik çəkirik (Ə.Haqverdiyev); Alverimiz *gəlirlidir*.

**KASADLAŞMAQ – VARLILIQ** Çit bazarı *kasadlaşmışdı*, ya pul tərəfindən çətinlik çəkirsiniz? (Ə.Haqverdiyev); İşim yaxşıdır, alverimiz pis deyil, *varlanırıq* ("Ulduz").

**KASIB – DÖVLƏTLİ** İndi böyüdükcə baxıb görürəm ki, *dövlətli* ilə *kasıbın* arasında böyük fərq var (Ə.Haqverdiyev).

**KASIB – VARLI** – Dünyadır, ay Səyalı xala! Biri varlı olar, o biri *kasıb* (Mir Cəlal).

**KASIBLAŞMAQ – VARLANMAQ** Var-yoxu əlindən çıxıb, *kasıblaşıb* ("Azərbaycan"); Baloğlan *varlanmaq* üçün daima müxtəlif yollar axtarıb tapmaq haqqında düşünürdü (C.Əmirov).

**KASIBLIQ – VARLILIQ** Üzündən, gözündən *kasıblıq* yağır (B.Vahabzadə); *Varlılığa* tələsən, yoxsulluğa tez düşər (Ata. sözü).

**KEÇİNMƏK – YAŞAMAQ** Arvadın ürəyi titrədi və gördü ki, gəlin "körpə"sini bağrına basaraq *keçinmişdi...* (İ.Şıxlı); Bu dünyada *yaşamaqdan* şirin bir şey ola bilməz (S.Rəhimov).

**KEÇMİŞ – İNDİ** Çiçəklinin nə *keçmişinə*, nə *indisinə* yaraşır (Ə.Vəliyev).

**KEÇMİŞ – İSTİQBAL** Mən öz *keçmişinə* heykəl yonmağı; Alnına yazdıran oğullardanam... (M.Araz); Oğlanlarının *istiqbalı* haqqında da Hacı Vəlinin müəyyən planları və prinsipləri var idi (Çəmənzəminli).

**KEÇMİŞ – MÜASİR** Xatırlayın; *keçmiş* və *müasir*; fironları (R.Rza).

**KEF – KƏDƏR** *Kef* məclisini qoyaq sonraya (A.Şaiq); Gəlməsin üstümüzə dalğası dərdin, *kədərin* (S.Rüstəm).

**KEF – QƏM** Görünür, ikiymiş dünyada vətən; Biri zalımların *kef* yuvasıdır; Biri məzlumların *qəm* havasıdır (S.Vurğun).

**KEFCİL – KƏDƏRLİ** *Kefcil* adamdır, heç kefdən qalmır ("Azərbaycan"); Səttar xan olduqca düşüncəli və *kədərli* idi (M.S.Ordubadi).

**KEFLƏNMƏK – AYILMAQ** Səni içirdib *kefləndirmək* istəyirəm (S.Qədirzadə); Çaxır boçkası kimi doldurub qarnını, üç gün *ayılmaz* (S.Rəhman).

**KEFLİ – AYIQ** Bəlkə... bəlkə *keflisən*? (C.Əmirov); Bu başlarla aşıq-aşıq oynayan; Çevik əldə, *ayıq* başda nə günah (M.Araz).

**KEFSİZ – SAZ** Sərvər, bu gün səni çox *kefsiz* görürəm, nə olub məgər? (Ü.Hacıbəyov); Qurban götür kəs məni; Qənarədən as məni; Al könlümü, *saz* eylə; Sinən üstə bas məni (Bayatı).

**KEFSİZLƏŞMƏK – YAXŞILAŞMAQ** ...Atanın da gözünə görün, bir az *kefsizləyib* (M.İbrahimov); İstirahətdən sonra xəstənin vəziyyəti xeyli *yaxşılaşmışdı*.

**KƏBİN – TALAQ** Elə olan surətdə mənim özüm sizə yaxşı *kəbin* kəsdirərəm (Ə.Haqverdiyev); Fövrən bir molla çağırıb, vəkil elə ki, get Mədinədə mənim arvadımın *talağını* ver (Mir Cəlal).

**KƏC – DÜZ** Hələ bir yol üzümə *kəc* baxmayıb (S.Qədirzadə); Adam gərək dost-tanışa *düz* baxa ("Ulduz").

**KƏCİNƏ – DÜZÜNƏ** Ay arvad, mən ha düzəldirəm, sən məni tərsinə burur, *kəcinə* çəkirsən (Mir Cəlal); Sən *düzünə* danışsan, ona xeyir olar.

**KƏCLİK – ÜZÜYOLALIQ Kəclikdən** nə çıxar, *üzüyolalıq* səni ucaldar ("Azərbaycan").

**KƏDƏR – SEVİNC** Həm *sevinc*, həm *kədər* tutdu məclisi; İlk dəfə şair tək xəyala vardım (H.Hüseynzadə).

**KƏDƏRLƏNMƏK – SEVİNMƏK** Bilmədi ki, bu hala *sevinsin*, yoxsa *kədərlənsin* (İ.Şıxlı).

**KƏDƏRLİ – SEVİNCLİ** Bəli, o çox *kədərli* idi (C.Əmirov); Mənə ümman desələr; Azad süzən gəmim ol; Səadətli, *sevincli*, fərəhli aləmim ol (M.Rahim).

**KƏDƏRLİ – ŞƏN** Yadımdadır, oğlum, o gün həm **şən**, həm də *kədərli* idi (A.Şaiq).

**KƏHƏR – YABI** *Kəhər* olmasın lap *yabı* olsun, mollaya bir at vacib idi (Mir Cəlal).

**KƏLƏKBAZ – SADƏLÖVH** *Kələkbaz*, daha nə düşünürsən (A.Şaiq); Hanı *sadəlövh* çağım; Onlara inanırdım (C.Novruz).

**KƏNAR – YAXIN** Onun yanına *kənar* və *yaxın* adamlar toplaşmışdılar ("Azərbaycan").

**KƏNARDA – YAXINDA** Salman yastıqlanaraq *kənarda* oturmuşdu (M.İbrahimov); Bu arada, *yaxında* dörd-beş əl şiddətli tapança atılır (H.Cavid).

**KƏSƏ – DOLANBAC** *Kəsə* yolla getsək, onlara çatarıq. Cığır *dolanbac* yol kimi əyri idi, on addım qabağı görmək olmurdu (M.İbrahimov).

**KƏSƏRLİ – KÜT** O indi aciz və *küt* bir mətbəx bıçağı deyil, sınaqlardan çıxmış *kəsərli* bir qılınc kimi idi (Mir Cəlal).

**KƏSİCİ – KÜT** Baxışlar xəncər kimi *kəsicidir* (M.İbrahimov); Bu elə *kütdür* ki, heç yerə də qoymaz (S.S.Axundov).

**KƏSİR – ARTIQ** Gəl, gəl ki, yoxaldaq hər cəbhədə *kəsiri* (S.Rüstəm); Bıy, ay kişi, məndə *artıq* heyvan nə gəzir (M.İbrahimov).

**KƏSKİN – ZƏİF** Sual *kəskin* və amansız idi (C.Məmmədov); Onun cavabları çox *zəif* idi ("Azərbaycan").

**KƏSKİNLƏŞMƏK – ZƏİFLƏŞMƏK** Nigarançılığın göyərtisi getdikcə *kəskinləşirdi* (S.Sərxanlı); Qızdırma ürəyi çox *zəiflədir* (M.İbrahimov).

**KƏSKİNLİK – ZƏİFLİK** İnsanların gözlərində, baxışlarında, hərəkətlərində dərhal diqqəti cəlb edən bir *kəskinlik* vardı (M.Hüseyn); Lakin tərcümə işlərinin *zəifliyindən* çox narazıdır (M.Hüseyn).

**KƏSMƏ – DOLAMA** Buradan *kəsmə* enmək mümkün idi (S.Vəliyev); Adamlar həmin boşluq ətrafındakı yolla *dolama* gedəcəkdir (S.Vəliyev).

**KİÇİK – BÖYÜK** Nə *böyüyün* yerini bilirsiniz, nə *kiçiyin* (C.Cabbarlı).

**KİÇİK – YEKƏ** İdealları *yekə*; Ürəkləri *kiçik* (R.Rza).

**KİÇİKLİ – BÖYÜKLÜ** 24 ölkə gəzdim; *böyüklü*, *kiçikli* (R.Rza).

**KİÇİKLİK – BÖYÜKLÜK** Əlbəttə, əlbəttə, biz həmişə *kiçikliyinizdə* varıq (C.Cabbarlı); Başın *böyüklüyü* yiyəsinə donuz güldürər (Ata. sözü).

**KİÇİLMƏK – BÖYÜMƏK** Niyə *kiçildim*; Nə oldu birdən (İ.Tapdıq); Bunu, əziz ata, ona görə yazıram ki, bilsən, mən daha *böyümüşəm* (S.Vəliyev).

**KİFİR – GÖZƏL** Həmişə *gözəl* qızlar *kifir* kişilər haqqında bu cür düşünürlər (C.Əmirov).

**KİFİRLƏŞMƏK – GÖZƏLLƏŞMƏK** Arıqladıqca *kifirləşir*. Siz isə gündən-günə cavanlaşır, daha da *gözəlləşirsiniz* (C.Əmirov).

**KİFİRLİK – GÖZƏLLİK** – Yox canım! Qumru hara, belə *kifirlik*, neybətlik hara! (Mir Cəlal); Qırmızı paltar və üzünə tökülən qara zülflər qızın nazik bədəninə daha da *gözəllik* verirdi (Çəmənzəminli).

**KİFLİ – SAF** Onda onun *kifli*, üfunətli düşüncələrində bitdən sirkəyədək nə desən tapılardı (Mir Cəlal); Mavi, *saf* sular sakit-sakit axırdı (S.Qədirzadə).

**KİLİDLƏNMƏK – AÇILMAQ** Dili *kilidləndi* (Ə.Vəliyev); Əhmədin boğazı *açıldı*, dili söz tutdu (Ə.Vəliyev).

**KİLİDLİ – AÇIQ** Qapı *kilidli* idi. Onun başı *açıq* idi (Ə.Vəliyev).

**KİLKƏLİ – TƏMİZ** O qab *təmiz* deyil, dibi *kilkəlidir*.

**KİN – MƏHƏBBƏT** Qoy bu sonsuz *məhəbbət* günəş kimi var olsun! Onlara verməz aman *kinimin* dalğaları (S.Rüstəm).

**KİNLİ – SAKİT** *Sakit* ağaclar; *Kinli* dolunun; hərbinə düşür (İ.Tapdıq).

**KİNSİZ – ƏDAVƏTLİ** Güllü qarının xasiyyəti mülayim, ürəyi *kinsizdir* (T.Kazımov); Ondan özünü gözlə, *ədavətli* adamdır ("Ulduz").

**KİP – BOŞ** Sonuncu dəfə Məstan otağa girəndə qapı *kip* örtüldü (T.Məmmədov); Pəncərə *boş* bağlanıb.

**KİRİMƏK – QIŞQIRMAQ** Əllərini bir-birinə vurub *kiridi* (Mir Cəlal); Qədir sözünü qurtarmamışdı ki, bəy *qışqırdı* (Mir Cəlal).

**KİRLİ – TƏMİZ** İdris tərli, *kirli* corablarını gizləmək üçün çəkməsini ayağına taxdı (Mir Cəlal); Sütuna vurduğu mıxdan tiftikli *təmiz* məhrəba asmışdı (Ç.Məmmədzadə).

**KİRLİLİK – TƏMİZLİK** Bu qızın ancaq bilikdir, *təmizlikdir* zinəti (H.Cavid); Onun əynindəki paltarların *kirliliyi* pintiliyindən irəli gəlir.

**KİŞİ – ARVAD** *Arvadın* hünəri nədir ki, *kişiyə* əl atsın (S.S.Axundov).

**KİŞİLƏNMƏK – ARVADLANMAQ** – Ay kimsən? – deyə Mikola səsinə güc verib yaşına münasib olmayan bir tərzdə *kişiləşdi* (S.Qədirzadə); Sən də *arvadlanma*, hamı səni tanıyır.

**KOBUDLUQ – ZƏRİFLİK** Kobud dedim, *kobudluq* yerində xoşa gəlir (S.Rüstəm); Tıqqıltının *zərifliyindən* duydum ki, qadın barmaqlarıdır (S.Qədirzadə).

**KOLLEKTİV – TƏKBAŞINA** Bu işin öhdəsindən *kollektiv* gələ bilər. *Təkbaşına* iş görmək də çətindir (M.S.Ordubadi).

**KOLLEKTİVLƏŞMƏK – FƏRDİLƏŞMƏK** Buna görə də əmək *kollektivləşməli* və istehsal vasitələri kollektivin əlində olmalıdır (C.Cabbarlı); Bəzi adamlar *fərdiləşməyə* meyil göstərir.

**KOMALAŞMAQ – DAĞILMAQ** Qadınlar *komalaşdılar* (Mir Cəlal); Vətəndaşlar, xahiş edirəm, *dağılın* (S.Qədirzadə).

**KOMİK – QARAQABAQ** ...Dəhşətli faciədə *komik* rol oynayan istedadsız bir

aktyor qədər miskindir (M.Hüseyn); Evində və kənarda bəzən əsəbi, *qaraqabaq*, qaradinməz görünən bu qadının burada, bağçada kədərləndiyini, ya hirsləndiyini görən olmamışdı (Mir Cəlal).

**KOMİK – SATİRİK** Mənim dediyim *satirik* və *komik* janra aiddir (M.İbrahimov).

**KONKRETLƏŞMƏK – ABSTRAKTLAŞMAQ** Fikri *abstraktlaşdırmaq* yox, *konkretləşdir* ki, dinləyici özü üçün bir nəticə çıxartsın ("Ulduz").

**KONKRETLİK – ABSTRAKTLIQ** Cavab *konkretlikdən* çox uzaqdı, buna görə də Bəşirli onun sözünü kəsdi (Ə.Vəliyev); Gəl sən *abstraktlıqdan* uzaqlaş, bu heç kəsə fayda vermir.

**KORAFƏHM – FƏRASƏTLİ** O, *korafəhm* deyil, Bilal (G.Hüseynoğlu); *Fərasətlidir*, Allah başacan eləsin (G.Hüseynoğlu).

**KORAZEHİN – FƏRASƏTLİ** *Korazehin* uşaqdır, məsələni çətin anlayır ("Azərbaycan"); Belə halda cürətli, cəld, güclü, *fərasətli* adam qalib gəlir (S.Vəliyev).

**KORŞALMAQ – KƏSƏRLƏŞMƏK** Bıçağı bülövə çəkdim, indi *kəsərləşib*. Bu qılınc isə çox *korşalmışdı* (M.İbrahimov).

**KORTƏBİİ – ŞÜURLU** İşə *kortəbii* yox, *şüurlu* yanaşmaq fayda verə bilər.

**KOSMOPOLİT – NİHİLİST** Nə *nihilist* deyən var, nə də ki, *kosmopolit* (R.Rza).

**KOŞ – İTİ** Bircə *koş* bıçaq da dəyməsin gözə (C.Novruz); Onların dişi neştərdən də *itidir* (A.Məmmədrza).

**KÖHNƏ – TƏZƏ** *Təzə* qoltuqlarda *köhnə* falçılar; Nə qədər baş-başa gəlməliyik biz (H.Hüseynzadə).

**KÖHNƏLİK – TƏZƏLİK** Atar *köhnəliyi* üstündən tamam... (M.S.Ordubadi); Gözüm də, ürəyim də *təzəlik* axtarır (S.Qədirzadə).

**KÖHNƏLMƏK – TƏZƏLƏNMƏK** Düzdür, amma fikirləri də, özü də bir az *köhnədir* (M.İbrahimov); Ala gözlərini gördüm; *Təzələndi* köhnə dərdim (Aşıq Ələsgər).

**KÖHNƏLMƏK – YENİLƏŞMƏK** ...Xanpəri hələ *köhnəlməyibdir...* (Ə.Vəliyev); Fərəhlə çırpınır könlü insanın; Həyat *yeniləşir*, yaşadıqca biz (Ə.Cavad).

**KÖK – ARIQ** Yasəmən, gör sənə nə *kök* qırqovul ovlamışam (S.S.Axundov); Saralmışın biridir, uzun, özü də *arıq* (C.Əmirov).

**KÖKƏLMƏK – ARIQLAMAQ** Bəlkə heç *kökəlməyəcəyəm* (S.S.Axundov); O, Kiçik bəy kök, dolğun bir adamdı, *arıqlamaq* üçün çox səy edirdi (S.Vəliyev).

**KÖKLÜ – ƏSASSIZ** Sənin gətirdiyin dəlillər *köklü* deyil, *əsassızdır*.

**KÖKLÜK – ARIQLIQ** Dayıdostum anamın *köklüyünə* işarə ilə söhbətə qarışdı (S.Qədirzadə); At *arıqlıqda*, igid qəriblikdə (Ata. sözü).

**KÖLƏ – AZAD** Köksündə *kölə* qəlbi döyünür (C.Cabbarlı); Ağlama, qardaşımsan, yaşa, yarat! Yaxındır gözlənilən *azad* bir həyat (S.Vurğun).

**KÖLƏLİK – AZADLIQ** Gör nə kökə saldı sənin həyatını *köləlik* (S.Rüstəm); *Azadlıq* gözəl yaşamaq üçündür (C.Cabbarlı).

**KÖNÜLLÜ – ZORLA** O, hərbi çağırışı gözləmədən cəbhəyə *könüllü* gəlmişdi (Ə.Vəliyev); Heç kəsi dərnəyə *zorla* yazmırlar (Mir Cəlal).

**KÖNÜLSÜZ – ÜRƏKLİ** Qaşığı əlinə alıb boşqabdakı dovğanı *könülsüz*, həvəssiz içməyə başladı (İ.Məlikzadə); Bizim suallara *ürəkli* cavab verirdi ("Azərbaycan").

**KÖRPƏ – BÖYÜK** Yüzlərcə *körpə* və rəngsiz əllər ətrafa səpələnmişdi (Çəmənzəminli); Uca olduğundan ananın özü; Ucadır, *böyükdür* hədiyyəsi də (B.Vahabzadə).

**KÖRPƏLİK – BÖYÜKLÜK** *Körpəlik* gülüşüm qanadlarında; Bir gün geriyə dönə, qaranquş! (M.Araz); Sən haqdan dönmədin həyat naminə; Bundadır *böyüklük*, bundadır hünər! (B.Vahabzadə).

**KÖVRƏK – BƏRK** Könlümdə həsrətin *kövrək* sazı var ("Ulduz"); Bizim canımız *bərkdir* (Ə.Haqverdiyev).

**KÖVRƏKLİK – BƏRKLİK** Mən bir qranitəm ki, hər parçamda duyulur; *bərkliyim*; döyüşlərdə *bərkliyim*; ülfətdə *kövrəkliyim* (R.Rza).

**KÖVRƏLMƏK – BƏRKİMƏK** Səfər tez-tez *kövrəlirdi* (İ.Tapdıq); Biz mübarizədə böyüyüb *bərkimişik* (Ə.Vəliyev).

**KÖVRƏLMƏK – SƏRTLƏŞMƏK** Qəhərlənir, çox *kövrəlirəm* (M.Rahim); Çoban Kərəm yenidən *sərtləşdi* (M.İbrahimov).

**KÜKRƏK – SAKİT** Bu adamlar *kükrək* bir dəniz, daşqın bir çay misalında idilər (Ə.Vəliyev); Həsən adəti üzrə *sakit* idi (M.İbrahimov).

**KÜKRƏMƏK – SAKİTLƏŞMƏK** Gizlənmiş, boğulmuş qəzəb yeni qüvvə ilə *kükrəməkdə* idi (M.İbrahimov); Uşaq bir xeyli ağladıqdan sonra *sakitləşdi* ("Azərbaycan").

**KÜLƏKLİ – SAKİT** Gündə milyon dəfə dəyişir halın; Bakının *küləkli* günlərin kimi (O.Sarıvəlli); Hava *sakit* və aydın idi (M.İbrahimov).

**KÜR – RAHAT** Sonra ağzı göyçəklər deyəcəklər ki, Əlyarov *kürdür*, heç kəslə yola gedən deyil (M.Hüseyn); O çox *rahat* uşaqdır, heç kəsə toxunmur.

**KÜRLƏŞMƏK – RAHATLAŞMAQ** Uşaq hey ağlayır, *kürləşir*, sakitləşmir. Əvvəl aşıb-coşdu, sonra *rahatlaşdı* (A.Məmmədrza).

**KÜRLÜK – RAHATLIQ** Uşağın heç *rahatlığı* yoxdur, *kürlük* eləyir ("Ulduz").

**KÜSKÜN – RAZI** Arıq, zərif, gözləri *küskün* qadının da təəccübdən gözləri açıla qaldı (M.Eynullayeva); Onlar bu görüşdən çox *razıdırlar* (Mir Cəlal).

**KÜSKÜNLÜK – BARIŞIQLIQ** Əkbəri bir uşaq *küskünlüyü* bürüdü (Mir Cəlal); Ailələr arasında *barışıqlıq* oldu ("Azərbaycan").

**KÜSMƏK – BARIŞMAQ** *Küsmək barışmağa* yoldur (Ata. sözü).

**KÜSÜLÜ – BARIŞIQLI** *Küsülü* qardaş, gəl yükü çataq, yenə küsümüz küsü (Ata. sözü); *Barışıqlı* məsələsinin üstündən keçdilər ("Azərbaycan").

**KÜT – BACARIQLI** Elə çıxırdı ki, Ramiz çox *küt* uşaqdır (M.İbrahimov); Əslində isə çox *bacarıqlı* və istiqanlı oğlandır (C.Əmirov).

**KÜT – ZİRƏK** Nə *küt* şeysiniz, ay məndən olub, mənə oxşamazlar (M.İbrahimov); Reyhanın əri İdris çox *zirəkdir*, çelddir (M.İbrahimov).

**KÜTBAŞ – DÜŞÜNCƏLİ** Müstəbiddir, cəlladdır, qaniçəndir, *kütbaşdır* (M.İbrahimov); Çox *düşüncəli* idi Laciverd (S.Qədirzadə).

**KÜTBEYİN – ZEHİNLİ** Sona *kütbeyin* yox, *zehinli* bir qız idi.

**KÜTLƏŞMƏK – KƏSƏRLƏŞMƏK** Ayın arxasınca fikirləşərək; Nəhayət yorulur, *kütlənir* başı (S.Vurğun); Böyüdükcə onda dərsə həvəs artır, başı *kəsərləşir*.

**KÜTLƏVİ – FƏRDİ** Tamaşalara *fərdi* və ya *kütləvi* şəkildə getmək olar.

**KÜYLÜ – SƏSSİZ** Məclisimiz *küylü* keçdi. Gülarə çarpayının üstünə sərilib *səssiz* ağlamağa başladı (C.Məmmədov).

**KÜYLÜLÜK – SƏSSİZLİK** Bizim həyət o biri həyətlərdən *küylülüyü* ilə fərqlənir. *Səssizlik* içində, yol ayrıcında; Atın qulaqları şəkləndi birdən (H.Hüseynzadə).

# Qq

**QABA – ZƏRİF** Çox uzun lağlağı, həm də *qaba* bir adam idi (M.Hüseyn); Məktubu oxuyarkən əlindən çıxardığı *zərif* yun əlcəkləri paltosunun cibinə soxdu (Ə.Əbülhəsən).

**QABAQ – SONRA** Məsələn, hər kəs su içməmişdən *qabaq* su içmək ehtiyacı duyur (M.İbrahimov); Pələngin dərisini soyub evə qayıdandan *sonra* qonşular başına yığıldılar (A.Şaiq).

**QABAQCA – ARXACA** Mən *qabaqca* gedirəm, o da *arxamca* gəlirdi (S.Hüseyn).

**QABAQCA – DALINCA** Özü *qabaqca*, mən isə *dalınca* getdim (M.S.Ordubadi).

**QABAQCA – SONRA** *Qabaqca* Münəvvər xanım atası ilə görüşürdü: – Ana, salamat qal! Yenə tezliklə sənin ziyarətinə gələrəm (M.S.Ordubadi); *Sonra* Miko elə oradaca qədəhini yenidən doldurub dedi (İ.Əfəndiyev).

**QABAQCIL – MÜHAFİZƏKAR** *Qabaqcıl* ziyalılarda bir ruh yüksəkliyi, coşqunluq, ümid hiss edilirdi (A.Şaiq); Öz əqidəsinə görə çox *mühafizəkar* adamdır (Ə.Şərif).

**QABAQKI – SONRAKI** İki gün *qabaqkı* əzab və əziyyət yenə də yadına düşdü (Ə.Vəliyev); Mən *sonrakı* günümüzü fikir eləyirəm, sən də kef axtarırsan.

**QABALAŞMAQ – ZƏRİFLƏŞMƏK** Şaiqin rəftarı yoldaşlarına qarşı *qabalaşmışdı*. Zərifə böyüdükcə həm xasiyyətcə, həm də zahiri cəhətdən *zərifləmişdir*.

**QABALIQ – ZƏRİFLİK** *Qabalığı* üstündə onu Anateli bir dəfə vəzifəsindən qovmaq istəyirdi (S.Vəliyev); Taqqıltının *zərifliyindən* duyuram ki, qadın barmaqlarıdır (S.Qədirzadə).

**QABARIQ – YATIQ** Sinəsi *qabarıqdır*, canlıdır biləkləri (S.Rüstəm); Onun sifəti bir qədər *yatıqdır* ("Jurnalist").

**QABARMA – ÇƏKİLMƏ** Qərbi Avropanın şimal və qərb hissələrində böyük *qabarma* və *çəkilmələr* olur.

**QABARMAQ – ENMƏK** Birdən sanki üfüq *enir*, torpaq *qabarır*; Qarşımızı kəsən, dağı bir əl qopardı (R.Rza).

**QABARMAQ – YATMAQ** Çingiz köks dolusu nəfəsini dərdi, sinəsi *qabardı*, *yatdı* (S.Qədirzadə).

**QABARMAQ – YUMŞALMAQ** Göyərçin Xudaverdini götürüb qapıdan cəld çıxaraq Maroya *qabardı* (S.Rəhimov); Bu fikir Lal Hüseyni *yumşaltmağa*, əvvəlki incik görkəmini dəyişməyə məcbur etdi (M.İbrahimov).

**QABARTMAQ – YATIRTMAQ** At yalını *qabarmış*, quyruğunu dikəltmiş, gözlərini və ayaqlarını oynadırdı (S.Rəhimov); Şiraslan... üzüyuxarı qabaran saçlarını bir anlığa da olsa, dala *yatırtdı* (S.Rəhimov).

**QAÇARAQ – YAVAŞ-YAVAŞ** Bərabərimə yetişincə çəpərin arxasından iki əlləri ilə boynu qucaqlayıb *qaçaraq* gözdən qeyb oldu (S.Hüseyn); Əbil Qənbərovun təklifləri *yavaş-yavaş* bura toplaşanların ürəyinə yol tapdı (Ə.Vəliyev).

**QAÇMAQ – DAYANMAQ** O tələsik yerindən durub qapıya *qaçdı* (M.İbrahimov); Məni hərarət çulğaladı. Küçənin ortasında *dayandım* (S.Qədirzadə).

**QADA – SEVİNC** Bənd oldu könül bir gülə, səs tutdu mahalı; Guya ki, bu dünyada qan oldu, *qada* düşdü (C.Cabbarlı); Gözlərinə səadətə oxşar bir *sevincin* işığı düşdü (M.İbrahimov).

**QADALI – FƏRƏHLİ** A üzü qaralı, başı *qadalı*, xatınları, oğul-uşağı nə deyə dustaq etdin (M.Rzaquluzadə); Körpə uşaqların gələcəyi nurlu, *fərəhli* olacaq.

**QADIN – KİŞİ** Ayrım qızı şişman bir *qadın* idi. Kiçik qumral gözləri, ay kimi yuvarlaq üzü var idi (A.Şaiq); İmanın olsun, ay *kişi*! Niyə bica söz danışırsan (M.İbrahimov).

**QADINLIQ – KİŞİLİK** Gəlinlər *kişilik* duyduqca səndə; Bir istilik keçdi gül

dodaqlara (S.Vurğun); Gəlin tez uçuraq o daş qəfəsi; Gülsün *qadınlığın* ağlayan səsi (S.Vurğun).

**QADİR – BACARIQSIZ** Min nemət yetirir vətən torpağı; Alqış, mərd, qabarlı, *qadir* əllərə! (Ə.Cəmil); Elə *bacarıqsızdır* ki, on saata işə sala bilməyəcək (M.İbrahimov).

**QAXAC – YUMŞAQ** Çörək gün altında quruyub *qaxaca* dönmüşdü (Ə.Əbülhəsən); Kəhər hələ kifayət qədər qurumamış *yumşaq* otu böyründən söküb yeyirdi (M.İbrahimov).

**QAİB – ZÜHUR** Ceyran söz anlar kimi sıçrayıb meşədə *qaib* olur (Çəmənzəminli); Gecmi, tezmi bilməm, amma həqq edər bir gün *zühur* (M.Hadi).

**QAQQILDAŞMAQ – AĞLAŞMAQ** *Qaqqıldaşın*, qoy yatanlar ayılsın (S.Rüstəm); Uşaqların *ağlaşmağı* kəndin kimsəsiz sükutunu pozdu (Ə.Məmmədxanlı).

**QALAQLAMAQ – DAĞITMAQ** Bəziləri isə dizi üstə oturub yenicə gətirdikləri quru odunu *qalaqlayırdılar* (M.Hüseyn); Ona binan əmr etdim ki, ...körpüləri *dağıtsınlar* və yolları pozsunlar (M.F.Axundzadə).

**QALAMAQ – KEÇİRMƏK** Fəcrin soyuq tonqalı yananda; Mən də tonqal *qaladım* gah dağda, gah aranda (Ə.Cəmil); İşığı *keçirib* yerinə girdi.

**QALAMAQ – SÖNDÜRMƏK** Tellinin axşam gətirdiyi südlə şam etmiş, axırda sobasını yenidən *qalayıb* yatağına uzanmışdı (S.Hüseyn); Muzdur üfləyib çırağı *söndürdü* (M.İbrahimov).

**QALDIRMAQ – DÜŞÜRMƏK** Yeməyini yalqız yeyən, yükünü özü *qaldırar* (Ata. sözü); Dərbari-şahinin qapısında fərmanlar Yusif Sərracı atdan *düşürdülər* (M.F.Axundzadə).

**QALDIRMAQ – ENDİRMƏK** Musa başını yuxarı *qaldırdı* (M.Hüseyn); Arvad ərini geyindirib, qolundan yapışıb, pilləkəndən *endirib* qayıtdı (Ə.Haqverdiyev).

**QALDIRMAQ – SALMAQ** Sərxan əlindəki fənəri yuxarı *qaldırdı* (M.Hüseyn); Əlindəki boşqabı yerə *saldı* (“Ulduz”).

**QALXIQ – YATIQ** Şinelinin *qalxıq* yaxasından üzü və çuxura düşmüş gözləri də güclə görünürdü (Ə.Əbülhəsən); Ay işığında onun *yatıq* üzü nurlandı (“Ulduz”).

**QALXMAQ – DÜŞMƏK** Kərim dayı cəld yuxarı *qalxdı* (M.İbrahimov); – Yoxdur, xanım, yoxdur! – deyib cəld geri döndü və həyətə *düşdü* (M.İbrahimov).

**QALXMAQ – SƏRİLMƏK** Günəş yavaş-yavaş *qalxırdı* (S.S.Axundov); Arvad yerə *sərildi* (S.Vəliyev).

**QALXMAQ – YIXILMAQ** Fəhlələr qayıqdan düşüb buruğa *qalxdılar* (M.Hüseyn); *Yıxıldı* şah palıd, qopdu xan çinar; Daşlar bir-birinə dəyib apardı (H.Hüseynzadə).

**QALIN – İNCƏ** *Qalın* dodaqları gömgöy kəsilir; Canından istilik uçub əskilir (S.Vurğun); Gözəllərin gərək *incə* belləri; Qənddən, nabatdan şirin dilləri. Aşıq Qurbani.

**QALIN – NAZİK** Rade qoltuq cibindən köhnə cildli, *qalın* bir dəftər çıxardıb Silvaya göstərdi (S.Vəliyev); Qızın *nazik*, qırmızı dodaqları ağ sifətinə xüsusi bir gözəllik verirdi (S.Vəliyev).

**QALIN – SEYRƏK** Saman və ot tayaları, *qalın* kol-kos, yaşıl ağaclar islandıqca havanı xoş bir ətirlə doldururdu (M.İbrahimov); *Seyrək* kirpiklərindən yaş gilələndi (S.Qədirzadə).

**QALINLAŞMAQ – SEYRƏLMƏK** Yavaş-yavaş payız qışa çevrilir, bacaların tüstüsü *qalınlaşırdı* (M.İbrahimov); Sarıya çalan bığları *seyrəlmişdi* (S.Qədirzadə).

**QALINLIQ – İNCƏLİK** Dərin dərənin içi ilə qumluq aşağı axan suyun yanlarını kağız *qalınlığında* buz tuturdu (S.Rəhimov); Elələri də çoxdur, heç bir *incəlik* bilmir, hər şeyin astarını dartıb çölə tökürlər (M.İbrahimov).

**QALINLIQ – SEYRƏKLİK** Meşənin *qalınlığından* keçmək olmur. Pambıq kol-

larının *seyrəkliyi* məhsulun artımına təsir göstərir.

**QALMAQ – GETMƏK** Şəhərdən gələn bütün təbliğatçılar, məsul işçilər onlarda *qalarmışlar* (S.Hüseyn); Vaqon çox sürətlə *gedirdi* (S.S.Axundov).

**QALMAQAL – SAKİTLİK** Toy evində düşmüş böyük *qalmaqal* (M.S.Ordubadi); Dərəqılınc bağlarına həzin bir *sakitlik* çökmüşdü (S.Qədirzadə).

**QALMAQALLI – SAKİT** *Qalmaqallı* işlərlə işim yoxdur ("Ulduz"); Kənd qaranlıq və *sakit* idi (M.İbrahimov).

**QAMƏTLİ – YÖNDƏMSİZ** Rəşid... *qamətli* bir qızın ardınca düşüb heç yana baxmadan tələsik gedir, özünü ona yetirməyə çalışırdı (M.Hüseyn); Atamın büsbütün *yöndəmsiz* bir surəti də onların arasında idi (S.Qədirzadə).

**QANACAQLI – HƏYASIZ** Mirzə Qulam *qanacaqlı* adama oxşayırdı (Mir Cəlal); Bu *həyasız* oğlunu gətir qulluğuna! (A.Şaiq).

**QANACAQSIZ – TƏRBİYƏLİ** Dünyada tapılmaz mənə bənzər *qanacaqsız*; Bildir qoşunum batdı, qırıldı yanacaqsız (Ə.Vahid); *Tərbiyəli* oğlandır, ana, bir qrupda oxuyuruq (İ.Fərzəliyev).

**QANİÇƏN – RƏHMLİ** Daşqəlbli *qaniçən* qazaqlar... zavallı işçiləri bacardıqca qılıncdan keçirirdilər (S.S.Axundov); *Rəhmli*, yumşaq adamdır.

**QANIQARA – ŞAD** Dəniz buruğundan daha da *qanıqara* qayıtmış Qüdrət Laləni yuxudan oyatmadı (M.Hüseyn); *Şad* və mehriban yaşayırdı (M.İbrahimov).

**QANIQARALIQ – NİKBİNLİK** Yox, Qəmər, bir də Camala rast gəlsəm, *qanıqaralıq* olacaq (S.Rəhman); Bu *nikbinlik*, bu cəsarət, bu inam sonsuz ilham mənbəyi olacaq.

**QANMAZ – NƏZAKƏTLİ** *Qanmaza* yumruğunu düyünlə, sonra söz qandır (Ata. sözü); Deyir, Jeroma çox ağıllı, tərbiyəli, həm də *nəzakətli* qızdır (S.Qədirzadə).

**QANSIZ – RƏHMLİ** Nə *qansız* adamsan, a kişi! (Mir Cəlal); Pəhləvan cüssəli bu adam çox *rəhmli* və xoşrəftardır ("Azərbaycan").

**QANSIZLIQ – RƏHMLİLİK** Yox, əyə, bu boyda *qansızlıq* olar? (S.Vurğun); *Rəhmlilik* ona güc gəldi.

**QANUNAUYĞUN – TƏSADÜFİ** Verilən sual *təsadüfi* yox, *qanunauyğun* idi ("Azərbaycan").

**QANUNİ – BİC** O, *qanuni* uşaqdır. Camaat, bir məktəbin ki, müəllimi *bic* doğa, o məktəbə uşaq vermək olar? (C.Cabbarlı).

**QANUNİ – SÜNİ** Müstəntiq müqəssirlə *qanuni* rəftar edirdi ("Azərbaycan"); *Süni* nəvazişlə soruşdu (M.İbrahimov).

**QAPALI – AÇIQ** Küçə dükanlarından başqa hər yer *qapalı* idi (M.S.Ordubadi); Qara uzun saçları *açıq* ağ sinəsinə tökülmüşdü (M.İbrahimov).

**QAPALILIQ – AÇIQLIQ** Təbiətdəki *qapalılığa* rəğmən, o gənc qadın haqqında sənə heç nə söyləmədim (İ.Əfəndiyev); Mən aydınlıq, *açıqlıq* sevirəm (M.İbrahimov).

**QAPIBİR – UZAQ** Lətifəgilin *qapıbir* qonşusu mühəndis Tapdıqov daldan gəlir, qızların söhbətini aydın eşidirdi (M.Hüseyn); Uca dağlar arasında yerləşən Lanq kəndinin işıqları qaranlıq gecədə zəif şölə saçan *uzaq* ulduzlar kimi görünürdü (S.Qədirzadə).

**QAPQARA – İŞIQLI** Bir tərəf *qapqara*, o biri tərəf isə *aşıqlı* idi (Çəmənzəminli).

**QAPMAQ – AÇMAQ** Birdən kimin əlləri isə arxadan Aynanın gözlərini *qapadı* (Ə.Məmmədxanlı); Niqabın üzdən *aç*, ey gül, kim olsun dilgüşə məclis (S.Ə.Şirvani).

**QARA – BƏYAZ** Həmin gecə göy üzünü *qara* buludlar tutub şiddətli yağmur yağmağa başladı (S.S.Axundov); *Bəyaz* simasında xəfif bir təbəssüm oynadı (M.İbrahimov).

**QARA – ŞAD** Məndədir *şad* xəbər, hər *qara* xəbər (S.Vurğun).

**QARA – YAXŞI** *Qara* xəbər tez yetişər (Ata. sözü); *Yaxşı* şeir heç vaxt ölməz (S.Rəhimov).

**QARABƏXT – BƏXTƏVƏR** Özünün şəxsi həyatında *qarabəxt* olduğunu anladı. (B.Talıblı); A *bəxtəvərlər*, ananız gəldimi? Qondu yuva üstünə dincəldimi? (A.Səhhət).

**QARACA – AĞCA** İminin *qaraca* qaşları, kiçikcə gözləri var idi (İ.Əfəndiyev); Kamilənin totuş və *ağca* əlləri vardı.

**QARAÇI – SAKİT** Yoxsa o mənim saçlarımı yolar, yaman *qaraçı* arvaddır (C.Əmirov); – Yox, atacan, bəzən mənim kimi *sakit* adamların kini daha böyük olur (S.Qədirzadə).

**QARAÇILIQ – HƏYALILIQ** Boy, boy, boy! İvan bəy, *qaraçılıq* lazım deyil (N.Vəzirov); Qumru *həyalılığından* qıpqırmızı qızardı.

**QARAÇUXA – ALAÇUXA** *Qaraçuxa* yatdı, *alaçuxa* qalxdı (Ata. sözü).

**QARADABAN – UĞURLU** Qonşumuz Afərdə arvad *qaradabandır,* səhər-səhər kimə rast gəlsə idi, onun işi düz gəlməzdi. Ana uşaqlarına hər səhər *uğurlu* yol dilər.

**QARADİNMƏZ – SÖHBƏTCİL** Xəlil əslində *qaradinməz* adam idi (Mir Cəlal); Bu bir *söhbətcil* arif adam idi (Ə.Haqverdiyev).

**QARAGÜNLÜ – AĞGÜNLÜ** Hər yerdə *qaragünlü* xətadan uzaq olmaz (Q.Zakir); *Ağgünlü* olmuş məni bu yaşımda gör gətirib haralara çıxarırsan (Çəmənzəminli).

**QARAGÜNLÜ – XOŞBƏXT** Mən gərək ömrüm olduqca özümü *qaragünlü* edim?! (M.F.Axundzadə); Yox, Ulduzum, sən bu dünyada hamıdan *xoşbəxtsən* (M.İbrahimov).

**QARAGÜNLÜK – XOŞBƏXTLİK** Bu qənaətə gələndən sonra mən binəva öz *qaragünlüyümü* qablaşdırırdım (S.Rüstəm); Belə bir *xoşbəxtlik* görəsən ona müyəssər olacaqdımı? (A.Məmmədrza).

**QARALAMAQ – POZMAQ** Gənc rəssam şahidi olduğu mənzərəni tələsik dəftərçəsinə *qaralayırdı* (Ə.Məmmədxanlı); Dünən yazdıqlarını bu gün *pozurdu* (“Ulduz”).

**QARALAMAQ – YAZMAQ** Kazım ilə söhbətdən sonra müdir onun adını *qaraladı* (Mir Cəlal); Ər oxurmuş da, *yazarmış* da, anam! Ər deyil, möhlik azarmış da, anam! (M.Ə.Sabir).

**QARALIQ – AĞLIQ** Qış çıxır, üzü *qaralıq* kömürə qalar (Ata. sözü); Təslim əlaməti deyil bu *ağlıq* (S.Rüstəm).

**QARALMAQ – AÇILMAQ** Bu zaman hava yavaş-yavaş *qaralmağa* başladı (M.S.Ordubadi); Gül ilə həmzəban olubdu bülbül; *Açılıb* bənövşə, yasəmən, sünbül (Q.Zakir).

**QARALMAQ – QIZARMAQ** Üfüqlər gah *qaralır*, gah *qızarırdı* (M.İbrahimov).

**QARALMAQ – YANMAQ** Uzaqda fişənglər *yanır*, *qaralır*; Başımın üstündə güllə fit çalır (Ə.Cəmil).

**QARALTI – AĞARTI** İşığam qaranlıqda, deyiləm bir *qaraltı* (S.Rüstəm); Uzaqdan gözümə bir *ağartı* görünür (“İzahlı lüğət”).

**QARANƏFƏS – YAVAŞCA** Zavoddan gəlmiş bir adam *qaranəfəs* içəri girdi (M.Hüseyn); Bir dəfə səhv elədin, *yavaşca* üstündən keçdim (Ə.Vəliyev).

**QARANLIQ – AYDIN** Çiskin və *qaranlıq* gecəni *aydın* bir səhər əvəz etdi (M.İbrahimov).

**QARANLIQ – AYDINLIQ** İçəri *qaranlıq* çökdü (S.Qədirzadə); Qışlaqda idik, payızın *aydınlıq* gecəsi idi (A.Şaiq).

**QARANLIQ – BƏLLİ** O hansı *qaranlıq* məsələdir? (M.S.Ordubadi); Onun nələr çəkdiyi mənə *bəllidir* (İ.Şıxlı).

**QARANLIQ – İŞIQLI** *Qaranlıq* yerə daş atmazlar (Ata. sözü); Hər şeyi *işıqlı* və cazibədar idi (M.İbrahimov).

**QARANLIQ – MƏDƏNİLİK** Bizim qabağımızda dağ kimi duran istibdad, Şərq istibdadı və Şərq *qaranlığı* idi (C.Məmmədquluzadə); *Mədənilik* ətalətin və cəhalətin qənimidir.

**QARANLIQLAŞMAQ – AĞARIŞMAQ** Ayna Sənəm qarıgildən *qaranlıqlaşanda*

qayıtdı (Ə.Məmmədxanlı); Silsilə təpələrin zirvəsi *ağarışırdı* (İ.Şıxlı).

**QARAŞIN – AĞBƏNİZ** *Qaraşın*, yaraşıqlı, bığlı bir kişidir (S.Sərxanlı); *Ağbəniz* qız gündən qaçırdı ("Jurnalist").

**QARAVAŞ – XANIM** Onun bacısı Səkinə *xanım* pəncərə qabağında durub *qaravaşı* Gülsəbanı çağırır (M.F.Axundzadə).

**QARAYAXA – HƏYALI** Vallah, lap əlindən cana gəlmişəm; Sırtıq, *qarayaxa* "kavaler"lərin (C.Novruz); Qızdan *həyalı* oğlana rast gəlmisən, şərbət olmamış və olacaq! (M.İbrahimov).

**QARAYAXALIQ – HƏYALILIQ** Onun *qarayaxalığı* məni təngə gətirdi. *Həyalılıq* hissi onu boğurdu.

**QARAYANIQ – DÜMAĞ** Kəlbalı alçaqboylu... gödək qılçaları xeyli içəriyə əyilmiş, *qarayanıq* bir adam idi (S.Rəhimov); Dünən mağazadan *dümağ* parça aldı ("Ulduz").

**QARAYEL – AĞYEL** Əsdi *qarayel* çəltiyə, bostana nə borcum? (M.Ə.Sabir); *Ağyel* əsdikcə taxıllar tel-tel olur.

**QARĞAMAQ – TƏRİFLƏMƏK** Başmaqlarını sürüyə-sürüyə onun dalınca yortan Məsmə qarı indi də Xasaya *qarğıyırdı* (M.Hüseyn); Kimə *təriflədim*, dodağını büzüb, məni məsxərəyə qoydu (S.Qədirzadə).

**QARĞIŞ – ALQIŞ** Mənim *qarğışım* onu tutmasa mən heç nə bilmirəm (M.Hüseyn); *Alqış* deyir mənim doğma yurdum Azərbaycan da (R.Rza).

**QARI – CAVAN** Ayna, *qarının* qolundan tutaraq yanına çəkdi (Ə.Məmmədxanlı); Yanına *cavan* bir oğlan göndərəcəyəm (S.Qədirzadə).

**QARINQULU – GÖZÜTOX** Belə sualı ancaq tənbəl və *qarınqulu* adam verə bilər (S.Vəliyev); Şaiq *gözütox*, başıaşağı bir kəsdir.

**QARIŞDIRMAQ – AYIRMAQ** Ana, südlü yaymanı cılxaca süddən bişirim, yoxsa su da *qarışdırım*? (Ə.Haqverdiyev); Mən səndən ayrılmazdım, *ayırdı* yağı məni (Bayatı).

**QARIŞIQ – AYDIN** Bu çöhrədə saf, *aydın*, qayğı *qarışıq* bir təbəssüm var (S.Sərxanlı).

**QARIŞIQ – AYDIN** O axşam bu *qarışıq* fikirlərlə avara-sərgərdan şəhərin küçələrini dolaşdım (S.Qədirzadə); İndi isə getdiyi bu *aydın* yollar məni əməyə-zəhmətə aparır, səadətə, xoşbəxtliyə gətirib çıxarır (S.Qədirzadə).

**QARIŞIQ – TƏMİZ** Səndə *təmiz* fransız qanı yoxdur. Deyəsən, *qarışığın* var (S.Qədirzadə).

**QARIŞMAQ – AÇILMAQ** Get-gedə şər *qarışırdı*, səhər *açılırdı* (S.Qədirzadə).

**QARMAQARIŞIQ – AYDIN** Nizami bu *qarmaqarışıq* səslər davam etdiyi zaman nə isə Fəxrəddinin qulağına pıçıldadı (M.S.Ordubadi); İndi ki belədir, adınızı bu kağıza *aydın* yazın (C.Əmirov).

**QARMAQARIŞIQLIQ – ƏMİN-AMANLIQ** Bu evə yenicə köçmüşük, hələ *qarmaqarışıqlıqdan* heç şey tapmaq olmaz. Nədənsə sizin dəstəniz Təbrizə girdiyi gündən bəri *əmin-amanlıq* yarada bilmədi (M.S.Ordubadi).

**QARMAQARIŞIQLIQ – NİZAMLILIQ** Bu *qarmaqarışıqlıq* içərisində, bu həyəcanlı günlərdə Münəvvərin sevgilisi haradan gəldi, məni necə tapdı?! (S.Qədirzadə); Bir qrupun şagirdləri *nizamlılığı* ilə o biri qruplardan seçilirdi.

**QARNITOX – GÖZÜAC** *Qarnıtox* adamla yoldaşlıq eləmək çox asandır, amma *gözüacla* dolanmaq, yol getmək dəhşətdir.

**QARŞI – ARXA** Baxınız, *qarşımı* tutmuş bir axın; Güclüdən güclü, dənizdən daşqın (M.Müşfiq); Qız *arxası* üstə uzanıb kitab oxuyurdu (N.Nərimanov).

**QART – CAVAN** Ağır yaralanmış o *qart* canavar, qəzəblə sıçrayır hey üstümüzə (S.Vurğun); Yaxın gəlin, *cavan* oğlan (S.Qədirzadə).

**QART – MÜLAYİM** Sülhün *qart* düşmənləri titrəşir əbəs (Ə.Cəmil); *Mülayim* və yumşaq səsi dəyişdi (M.İbrahimov).

**QARTLAŞMAQ – CAVANLAŞMAQ** Bu sürünün keşiyini çəkən toplan artıq *qartlaşmışdı*. Qocaların da könlündən *cavanlaşmaq* keçir.

**QARTLIQ – CAVANLIQ** İtin *qartlığı* çox pis olur. Kamalın *cavanlığına* baxma, tanınmış neftçidir (S.Qədirzadə).

**QASIRĞA – BÜRKÜ** Pozmamışdır vüqarını nə *qasırğa*, nə tufan (S.Rüstəm); Axşam qaranlığı düşdüyünə baxmayaraq, hava hələ *bürkü* idi (S.Rəhman).

**QASIRĞALI – BÜRKÜLÜ** Dəniz *qasırğalı*, dəniz əsəbi; Dağ kimi dalğalar verib əl-ələ (O.Sarıvəlli); *Bürkülü* iyun günlərinin birini Murad Kür qırağındakı söyüdlükdə, Əziz isə təcrübə tarlasında qarşıladı (Ə.Vəliyev).

**QAŞQABAQ – ÜZÜGÜLƏR** Xudayar bəy *qaşqabaq* ilə cavab verdi (C.Məmmədquluzadə); Səməd kişi bizi *üzügülər* qarşıladı.

**QATI – DURU** Elə et ki, sıyıq *qatı* yox, *duru* olsun ("Azərbaycan qadını").

**QATI – RƏHMLİ** Görürsən? O imiş *qatı* düşmənim; Onu yandırsam da, haqqım var mənim (S.Vurğun); Görünüşdən *rəhmli* adama oxşayır.

**QATİL – GÜNAHSIZ** Meşədə, dağda, güd, qanlı *qatili* güd (S.Rüstəm); Zavallı qadın nahaqdan üç il *günahsız* müqəssir olmuşdur (S.Qədirzadə).

**QATILAŞMAQ – DURULMAQ** Az sonra ehtiyat çəninə axan maye *qatılaşmağa* başladı (Ə.Vəliyev); Qatı maye su qarışdıqca *duruldu* (Ə.Vəliyev).

**QATILAŞMAQ – ZƏİFLƏMƏK** Çən get-gedə daha da *qatılaşırdı* (M.Hüseyn); Axşamdan uğuldayan külək səhərə yaxın *zəiflədi*.

**QATİLLİK – GÜNAHSIZLIQ** Onun boynuna üç təqsir sarınmışdı: saxtakarlıq, israfçılıq və *qatillik* (S.Rəhimov); *Günahsızlığı* onu bu dəfə o qovğadan xilas etdi ("Ulduz").

**QATILMAQ – DURULMAQ** Elə bil birdən-birə onun qanı *qatıldı* ("Ulduz"); Öpdüm dönə-dönə, sinəmə basdım; Elə bil *duruldu* ürəyimdə qan (S.Rüstəm).

**QATIŞDIRMAQ – FƏRQLƏNDİRMƏK** Zalım oğlu aləmi bir-birinə qatıb, fikirlərin hamısını bir-biri ilə *qatışdırıb* ki, indi gəl sən, onları bir-birindən *fərqləndir*.

**QATLAMAQ – AÇMAQ** Asya süfrənin ucunu *qatladı* (Mir Cəlal); Bir enlikürək, boy-buxunlu oğlan iclası *açdı*, danışdı (Mir Cəlal).

**QATMAQ – AYIRMAQ** Gözəldir, günəşi, ayı səsləyib; Onları da bizim dəstəyə *qatmaq* (M.Müşfiq); *Ayırdı* məndən o məhruyi biməqam fələk (S.Ə.Şirvani).

**QAYDA-QANUN – HƏRC-MƏRCLİK** *Qayda-qanun* bilmirdi, basıb yeyirdi (M.İbrahimov); Aranı qarışdırmaq, *hərc-mərclik* törətmək, dünyanı alt-üst etməkdən başqa bir niyyəti yoxdur (M.İbrahimov).

**QAYDALI – SƏLİQƏSİZ** Bunun oynamağı gözəl və *qaydalı* idi (S.S.Axundov); Mariana ürəyində bu *səliqəsiz* arvaddan şikayətlənərək əl-üzünü yumağa getdi (S.Qədirzadə).

**QAYDASIZ – SƏLİQƏLİ** Təcrübədən bilirik ki, məhsulun *qaydasız* yığılması kolxoza böyük zərər vurur (V.Əliyev); O da təmiz və *səliqəli* geyinmişdi (M.İbrahimov).

**QAYIDIŞ – GEDİŞ** Müharibə vaxtı Bakıya gəlmişsiniz? İlk *qayıdışımdır* (Mir Cəlal); *Gedişi* köksümə çökür odlu dağ; Görüşü qəlbimdə yandırır çıraq (A.Şaiq).

**QAYITMAQ – GETMƏK** Məryəm səhər *gedir*, axşam *qayıdırdı* (M.İbrahimov).

**QAYNAMAQ – QURUMAQ** Buradan mən görürəm çeşmələri *qaynamaqda* (A.Səhhət); Qurban bildi ki, ləyəndəki kəc *quruyub* zay olub (C.Məmmədquluzadə).

**QAYNAMAQ – SOYUMAQ** Həyət arı yuvası kimi *qaynayırdı* (İ.Şıxlı); Rüstəm

kişinin aylarla içərisində gəzən nifrəti hələ *soyumamışdı* (M.İbrahimov).

**QAYNAMAQ – SOYUMAQ** Samovar elə şiddətli *qaynayır* ki, guya ... bu saat hərəkət edəcək (C.Məmmədquluzadə); Çay *soyumuşdu* (Ə.Vəliyev).

**QAYNAR – SOYUQ** Əsən yellər ətir saçır bizim *qaynar* çöllərə (S.Vurğun); *Soyuq* uşağın əl və ayaq barmaqlarının ucunu ilan kimi sancırdı (A.Məmmədrza).

**QAYNARLIQ – SOYUQLUQ** Su *qaynarlıq* həddinə çatıbdır. Suyun *soyuqluğu* bədənini, qollarını gizildətdi (M.Eynullayeva).

**QAYNARLIQ – SÖNÜKLÜK** Həmin bu *qaynarlıq* Şehlidə dərzlərin çoxluğundan deyil, payızın nəmişliyindən, qışın tez gələcəyi qorxusundan idi (S.Rəhimov); Onun *sönüklüyü* xəstəliyi ilə bağlıdır.

**QAZANC – ZİYAN** *Ziyanın* yarısından qayıtmaq da *qazancdır* (Ata. sözü).

**QAZANCLI – ZƏRƏRLİ** Bundan sonra hərgiz dəxi belə *qazanclı* səfərdən geri qalmayacağam (M.F.Axundzadə); Mən paytaxtı *zərərli* ünsürlərdən təmizlədiyim zaman Qətibəni də oğlunun yanına, Rey şəhərinə göndərmişdim (M.S.Ordubadi).

**QAZANCSIZ – ZƏRƏRSİZ** İş xoşuma gəlir, amma *qazancsızdır*. Bu vasitə ilə onu özü üçün *zərərsiz* bir hala sala bilərdi (S.Hüseyn).

**QAZANMAQ – XƏRCLƏMƏK** Kərbəlayı Məmmədəli iki il yarımdır ki, qürbətə çıxıb, az-çox çörək pulu *qazansın* (C.Məmmədquluzadə); Harda xərcləyirsən, kiminlə *xərcləyirsən*, niyə xərcləyirsən, başına harada daş salırsan, bilmirik (M.İbrahimov).

**QAZMAQ – DOLDURMAQ** Onları vazaya *doldurub* stolun üstünə qoyar, hər gün sularını dəyişər... (M.İbrahimov); Bu saat dənizdə ən dərin buruq harada *qazılır*? (M.Hüseyn).

**QEYB – ZÜHUR** Gülüşün gülər üzündəki sevinc *qeybə* çəkildi (Ə.Vəliyev); Bizlərdə millət qurğuları şəxsi qurğular şəklində *zühura* gəlir (C.Məmmədquluzadə).

**QEYRƏTLİ – RƏZİL** Ağa Əli tərəqqipərvər iranlıların ən *qeyrətli*, ən məsləkli cavanlarından idi (Çəmənzəminli); Haramzada!.. Sən nə *rəzil* adamsanmış? (S.Qədirzadə).

**QEYRƏTSİZ – ŞƏRƏFLİ** *Qeyrətsizə* haram olsun bu torpağın çörəyi (S.Rüstəm); *Şərəfli* bir ömrün sonuna bir bax! (S.Vurğun).

**QEYZLƏNMƏK – SAKİTLƏŞMƏK** Kasıb-kusubun da özünə görə namusu var və namusum da məni *qeyzlənməyə* vadar edir (Ə.Haqverdiyev); Mən yenə *sakitləşmədim* (S.Qədirzadə).

**QEYZLİ – SAKİTCƏ** Kassiri *qeyzli* çağırıb buyurdu ki, "komandir"ə on manat versin (Ə.Haqverdiyev); Gözünü ondan çəkmədən telefondakına qulaq asıb *sakitcə* razılaşdı (M.İbrahimov).

**QEYZ-MƏRHƏMƏT** Mən *qeyzimdən* əsirdim (S.Qədirzadə); Bəli, mən ondan *mərhəmət* ummaqda səhv eləməmişəm (S.Qədirzadə).

**QƏDDAR – RƏHMLİ** – Əşi, bu həkimlər nə *qəddar* adamdırlar, xəstəliyimə inanmırlar, vay-vay! (T.Kazımov); Yarımca saat sonra Aslan *rəhmli* qadının göstərdiyi dar cığırla sürətlə addımlayırdı (S.Vəliyev).

**QƏDİM – MÜASİR** Divarda bədənnüma bir cüt *qədim* güzgü vardı (S.Hüseyn); Bunu *müasir* gəncə qadağan etmək olmaz.

**QƏDİM – TƏZƏ** Tanışlığımız *təzə*; Dostluğumuz *qədimdir* (İ.Tapdıq).

**QƏDİMİ – YENİ** *Qədimi* qulundur Zakiri-xəstə; Məhəbbət et ona, barı, görəndə (Q.Zakir); İrəlidə Səmədi tamamilə *yeni* bir həyat, *yeni* işlər, *yeni* qayğılar gözləyirdi (İ.Hüseynov).

**QƏDİMLİK – YENİLİK** Necə? Yoxsa mənim nəslimin *qədimliyinə* şübhə edirsən? (S.S.Axundov); On ilin ərzində kənddəki *yenilik* tək bir məktəb binasından ibarətdir (Ə.Vəliyev).

**QƏFİLDƏN – TƏDRİCƏN** O, *qəfildən* başını qaldırıb üzünü Sarışına tutdu (S.Qədirzadə); *Tədricən* hava açılırdı.

**QƏFLƏT – MƏDƏNİYYƏT** Vay sənin halına, vay sənin halına ki, *qəflət* gözünü örtübdür (M.F.Axundzadə); *Mədəniyyət* xalqın gözünü açır, onun inkişafına təkan verir.

**QƏFLƏTƏN – TƏDRİCƏN** Su kənarında *qəflətən* naçar; bir quzu bir gün oldu qurda düçar (A.Səhhət); O *tədricən* dostuna yanaşdı.

**QƏHƏR – SEVİNC** Uşaqların belə kədərli ağlamasını görüncə Gövhərə *qəhər* üz verirdi (Ə.Vəliyev); *Sevincim* mahnıya çevrilmişdi... (S.Qədirzadə).

**QƏHƏTLİK – BOLLUQ** Təbrizdə bu saat *qəhətlikdir* və əhali çörək üzünə həsrətdi (C.Məmmədquluzadə); İl var *bolluq* olur; İl var kasad olur; Bu il *bolluq* idi (R.Rza).

**QƏHQƏHƏ – AĞLAŞMA** Kərim babanın elə sükut ilə büzülüb durmasından bir *qəhqəhə* qopdu (A.Şaiq); *Ağlaşma* qurub ərlərinin ətəklərindən yapışıb davaya getməyə qoymurlar (S.S.Axundov).

**QƏHRƏMAN – QORXAQ** Ceyran cəsur, mətin, *qəhrəman* bir qadın idi (S.Hüseyn); Ana yurdu bu şən torpaq; Yetişdirməz xain, *qorxaq* (A.Şaiq).

**QƏHRƏMANLIQ – QORXAQLIQ** *Qəhrəmanlıq* yalnız silah deyil, bilik də tələb edir (M.S.Ordubadi); Qıraqdan baxanlar müəllimin *qorxaqlığına* gülmüşdülər (Mir Cəlal).

**QƏLBİ – ALÇAQ** Göylərə baş vuran bu *qəlbi* dağlar; həyata çağırır hər zaman bizi (S.Vurğun); İndi dostunun evində onun başaltısı *alçaq* idi (Ə.Vəliyev).

**QƏLBİQARA – TƏMİZ** Hər *qəlbiqara* nakəs ilə eyləmə ülfət (S.Ə.Şirvani); O qızın *təmiz* məhəbbətinə özümü layiq bilmirdim (S.Qədirzadə).

**QƏLƏBƏ – MƏĞLUBİYYƏT** *Qələbə* bayrağı qaldırıb yenə; Əmək cəbhəsinin qəhrəmanları (O.Sarıvəlli); Sığdıra bilmədi dağ qüruruna; Təpə önündəki *məğlubiyyəti* (B.Vahabzadə).

**QƏLƏT – DOĞRU** A qardaş, bircə qulaq as, gör nə deyirəm, sən qoçaqlığı lap *qələt* anlayırsan (M.F.Axundzadə); Yar yanında günahkaram; *Doğru* sözüm yalan oldu (Aşıq Ələsgər).

**QƏLİZ – ASAN** Dursun ölmədiyini... *qəliz* andlar ilə zor-güc Ballıya inandırdı (A.Şaiq); İndiyə qədər sənin ifadə etdiyin vəzifələr bundan *asan* vəzifələr idimi? (M.S.Ordubadi).

**QƏLİZ – SADƏ** Çox *qəliz* soruşmadınızmı? (C.Cabbarlı); Niyə sən *sadə* şeyləri başa düşmürsən? (M.İbrahimov).

**QƏLİZLİK – SADƏLİK** Məsələnin *qəlizliyindən* bir şey anlamaq olmur ("Azərbaycan"); Bəli! – deyə sarışın bir uşaq *sadəliyi* ilə cavab verib, Səlimxanovun üzünə baxdı (S.Qədirzadə).

**QƏM – ŞAD** Olubdu *qəm* yatağı *şad* gördüyün könlüm (Heyran xanım).

**QƏMGİNLİK – ŞADLIQ** *Qəmginliyinə* səbəb sevimli müəllimlərindən ayrılacağı idi (S.S.Axundov); Qəlbinə *şadlıq* doldu (S.Qədirzadə).

**QƏMLƏNMƏK – ŞADLANMAQ** Eldar *qəmləndi* bu işə (A.Şaiq); Lyudmila ilə birlikdə Kiyevə gedəcəyindən sevinən Rantik ürəyində *şadlandı* (C.Əmirov).

**QƏMLİ – ŞAD** Hüseyn Günəşə baxaraq nə isə *qəmli*, dərin şeylər düşünürdü (S.Rəhimov); *Şad* xəbər alan kimi sevinə-sevinə qadına müraciət etdi (C.Əmirov).

**QƏNAƏT – İSRAF** Xəstənin borcu bir *qənaətdir* (M.S.Ordubadi); İsraf *haramdır* (Ata. sözü).

**QƏNAƏTKAR – İSRAFÇI** Öz sənətini sevən, son dərəcə *qənaətkar*, ağırtəbiətli bir kəndli var (A.Şaiq); Əlbəttə, bilirsiniz ki, adətən *israfçılar* çox vaxt xəsis, saxta, xeyirxahlar isə lovğa olurlar (M.Talıbov).

**QƏNİM – DOST** Hər şeyin bir *qənimi*, bir zavalı var (M.İbrahimov); Sən həyat *dostusan*, ellər zinəti! İnsanlıq eşqidir köksündə yanan (S.Vurğun).

**QƏNŞƏR – ARXA** Yanında xırda gümüş qaşıq olan fincan isə qocanın qarşı tərəfindəki həsir səndəlin *qənşərinə* qoyulmuşdu

(İ.Əfəndiyev); Mədəd naharını qurtarıb qapıdan çıxdı, Kosa onun *arxasına* düşdü (S.Rəhimov).

**QƏRBİ – ŞƏRQİ** *Qərbi* və *Şərqi* Sibir faydalı qazıntıları, neft və qazı ilə məşhurdur.

**QƏRƏZLİ – XEYİRXAH** ...Nə isə *qərəzli* və kinli adam tərəfindən yazıldığını hiss etdi (M.İbrahimov); Təbiəti belədir, *xeyirxahdır* (M.İbrahimov).

**QƏRƏZLİLİK – XEYİRXAHLIQ** Sən həmişə çalışırsan ki, *qərəzliliklə* iş görəsən. Bu *xeyirxahlıq* kimə lazımdır ki, adamların həvəsini öldürəcək, nöqsanı deməyə qoymayacaq? (M.İbrahimov).

**QƏRƏZSİZ – ƏDAVƏTLİ** Sən həmişə *qərəzsiz* yardıma tərəfdar olmusan. İşində də, rəftarında da *ədavətlidir*.

**QƏRİB – DOĞMA** Yox, qardaşım, bizi dartıb *qərib* vilayətə apardığın yetər, daha bunu vermərəm, – deyə anam dayımın təklifini rədd etdi (S.S.Axundov); Gəlir vətən oğlu *doğma* diyara (M.Rahim).

**QƏRİB – VƏTƏN** *Qərib* yerdə dost olan adam *vətəndə* doğma qardaş olar (S.Vəliyev).

**QƏRİBƏ – ADİ** Bu xəbər hamıya *qəribə* təsir bağışladı (S.Vəliyev); Bu sizin üçün *adi* alışqanlardan deyil (S.Qədirzadə).

**QƏRİBƏLİK – ADİLİK** Onun hərəkətində bir *qəribəlik* vardı. Onun *adiliyi* ilə ciddiliyi arasında heç bir fərq görünmürdü.

**QƏRİBLƏŞMƏK – DOĞMALAŞMAQ** Qərib get-gedə *doğmalaşır*, doğmalar isə əksinə, *qəribləşir*.

**QƏRİBLİK – DOĞMALIQ** Yad ellərə düşəndə *qəriblik* boğur məni… (Ə.Cavad); Buna baxmayaraq, burada Güləbətin qəribə bir *doğmalıq* hiss edirdi (M.İbrahimov).

**QƏRİBSƏMƏK – SEVİNMƏK** Mən tanıdığım bir nəfər də yox idi. Ona görə bir küncdə *qəribsəyirdim* (Mir Cəlal); Səsini eşidəndə o qədər *sevindim* ki, sanki neçə ay idi görüşmürdük (M.İbrahimov).

**QƏSBKAR – XİLASKAR** Nifrət olsun, lənət olsun tarixlərdə *qəsbkara* (M.Dilbazi); Rüxsarə axırıncı olaraq öz *xilaskarını* ziyarət etməli, onunla vidalaşmalı idi (S.Rəhimov).

**QƏŞƏNG – KİFİR** Qaranlıq gecəni işıqlandıran ay hər yerdə parlaq və *qəşəngdir* (S.Vəliyev); Hərdən *kifirə* də gözəldir deyin (C.Novruz).

**QƏŞƏNGLƏŞMƏK – KİFİRLƏŞMƏK** Ucalmış, qara saçları daha da sıxlaşmış, özü dəyişib *qəşəngləşmişdi* (S.Rəhimov); Elə gözəl xanım indi arıqlamış, balacalaşmış, *kifirləşmişdi*.

**QƏŞƏNGLİK – KİFİRLİK** Sıx qara saçları... sifətinə bir *qəşənglik*, bir yaraşıq verir (S.Rəhimov); Üzündən, gözündən *kifirlik* daşır; Deyəsən qəlbində qürur oynaşır (S.Vurğun).

**QƏŞŞ – AYILMA** Mən qorxudan bihuş olub yıxıldım; *Qəşş* aləmində bir tamaşa qıldım (A.Səhhət); Həkim xəstənin *ayılmasını* gözlədi (M.Hüseyn).

**QƏTİLİK – TƏRƏDDÜDLÜK** Şamonun *qətiliyini* görən Safo onun sözünü çevirmədi (S.Rəhimov); Onun səsində qətiyyət yox, *tərəddüdlük* vardı.

**QƏZƏBLƏNMƏK – SAKİTLƏŞMƏK** Ancaq gərək sualımdan *qəzəblənməyəsən*. *Qəzəblənmərəm*, xəbər al! (Ə.Haqverdiyev); Anası Sənubər Güləndamın hövsələdən çıxdığını görüb onu *sakitləşdirdi* (İ.Fərzəliyev).

**QƏZƏBLİ – SAKİT** Patrul *qəzəbli* bir pıçıltı ilə xəbər aldı (S.Vəliyev); Sular yatağında *sakit* və hərəkətsiz idi (S.Qədirzadə).

**QIMIŞMAQ – AĞLAMSINMAQ** Mirzə Kələntər maarif şöbəsinin müdirinin üzünə baxıb *qımışdı* (S.Rəhman); Kiçikbəyim *ağlamsınaraq* başmağı onun əlindən alıb, hasarın üstündə oturdu (Çəmənzəminli).

**QINAMAQ – TƏRİFLƏMƏK** *Qınamasın* məni könlü bütünlər; Fikrim dağınıqdır, xatirim əvraq (Q.Zakir); Qoçəli bir neçə dəfə də Qulu ilə görüşüb onu *təriflədi* (İ.Fərzəliyev).

**QIPIQ – AÇIQ** Biz tarixdə heç bir zaman; Gözü *qıpıq* olmamışıq! (S.Tahir); O, yaşa-

dığı mühitə Nəcəf bəy kimi deyil, gözü *açıq* baxır, kiminlə nə cür davranmağı bacarır (Ə.Haqverdiyev).

**QIRAQ – ORTA** Sağ əlimi masanın *qırağına* dayayıb durdum (A.Şaiq); Qulam bu dəfə arxa tərəfdə yox, *ortada*, qurşağa qədər suyun içində oturdu (S.Qədirzadə).

**QIRAQ – ORTA** Sağ əlimi masanın *qırağına* dayayıb durdum (A.Şaiq); Qulam bu dəfə arxa tərəfdə yox, *ortada*, qurşağa qədər suyun içində oturdu (S.Qədirzadə).

**QIRAQ – DOST** Dəryada çıraq yanar; Baxdıqca iraq yanar; Yar yarına qovuşsa; *Dost* gülər, *qıraq* yanar (Bayatı).

**QIRXDİLLİ – NAMUSLU** Yaxanı ona tanıtma, *qırxdilli* qadındır, səni tələyə sala bilər. Qiymətin dediyinə görə, Gülsabah çox çalışqan və *namusludur* (Ə.Vəliyev).

**QIRIQ – BÜTÖV** Bahadır bu fikirdə ikən İvan qapını açıb, əlində samovar, üstündə mis çaynik, iki fincan, bir neçə qənd *qırığı* içəri daxil oldu (N.Nərimanov); *Bütöv* bir qəndi ağzına qoydu.

**QIRIQ – SAZ** Sarxan əlindəki *qırıq* fənəri yuxarı qaldırdı (M.Hüseyn); Rabitə hələlik *saz* işləyirdi (S.Qədirzadə).

**QIRIQLIQ – SAZLIQ** Bütün vücudumda bir *qırıqlıq*, bir sızıltı hiss edirəm (A.Şaiq); Əhməd kişinin *sazlığı* qaldı qiyamətə.

**QIRIŞIQ – AÇIQ** Polkovnikin alnındakı *qırışıqları* sıxlaşdı (S.Qədirzadə); *Açıq* yaxasından görünən sarğı qabaqdan da qana bulaşmışdı (S.Qədirzadə).

**QIRIŞMAQ – AÇILMAQ** Onun alnı *qırışmışdı*, qaşları az qala gözlərini bürümüşdü (Ə.Vəliyev); Çəmənlikdə xudmani süfrələr *açıldı*, şirin söhbətlər başlandı (S.Qədirzadə).

**QIRMAQ – DÜZƏLTMƏK** Ləpələr bu pilləkənləri saxsı qab kimi vurub *qırır* (Mir Cəlal); Qərənfil pəncərənin şüşəsinə baxıb kəlağayısını *düzəltdi* (S.Rəhman).

**QISA – ƏTRAFLI** Oxundu *qısa* dua; əyildilər torpağa (A.Şaiq); Kürd Əhməd, xarici ticarətxanalarla əlbir olmuş bir ovuc tacirlərin işlədiyi cinayətləri *ətraflı* olaraq Friduna danışdı... (M.İbrahimov).

**QISA – GENİŞ** Heyif ömür *qısa*, arzu *genişdir*; Kim bu qayğı ilə titrəməmişdir? (M.Müşfiq).

**QISABOYLU – UCABOYLU** Kərim baba... *qısaboylu*, geniş kökslü qoca idi (A.Şaiq); Onlar bir-biri ilə çox məsləhət etdi, nəhayət, *ucaboylu* kök jandarm yavaş-yavaş pilləkənləri çıxmağa başladı (A.Şaiq).

**QISALIQ – UCALIQ** Ağıl adamın boyca *qısalığı* və ya *ucalığı* ilə ölçülmür.

**QISALMAQ – UZANMAQ** Gecələr *uzanır*, günlər *qısalır*; Göy üzünü qara buludlar alır (A.Şaiq).

**QISILMAQ – AÇILMAQ** Heç *qısılma* bu məclisdə; Bu məclis ər meydanıdır (Aşıq Vəli); Salmanın rəngi *açıldı* (M.İbrahimov).

**QISIR – DOĞAR** Şirinin qızı *qısır* Narıngüllə bərk alışıb (İ.Əfəndiyev); Çobanlar *doğar* qoyunlara qış aylarında daha çox fikir verirlər.

**QISIR – SAĞMAL** Südün dadını *qısır* əmən dana bilər (Ata. sözü); Gecə-gündüz çörəyini yeyib, çayını içib özünü də qumarda *sağmal* inək kimi sağırdı (S.S.Axundov).

**QISQANC – ÜRƏYİAÇIQ** Qaynana bu səadətə qarşı *qısqanc* və zidd vəziyyət almışdı (Çəmənzəminli); *Ürəyiaçıq* adamdır ("Azərbaycan").

**QISQANCLIQ – TƏMİZLİK** Sənin *qısqanclıqların* da, şübhələrin də mənə xoş gəlir (M.İbrahimov); Ürəyimdə qoşun-qoşun *təmizliklər*; Bir də infarkt uyuyarmış (C.Novruz).

**QIŞ – YAY** *Qışda* yel tutmayan, *yayda* günəş görməyən bir skamyaları ver (Çəmənzəminli).

**QIŞQIRIQ – SAKİTLİK** Bu qədər *qışqırığa* durdu qonum-qonşu tamam (M.Ə.Sabir); *Sakitliyi* gərginliyə dəyişən var (C.Novruz).

**QIŞQIRMAQ – SUSMAQ** Bir də var qüvvəsi ilə *qışqırdı* (S.Qədirzadə); Bondarçuk birdən *susdu* (S.Qədirzadə).

**QIŞLAQ – YAYLAQ** Küləkli qar, yağış yağar uzun-uzadı *yaylağa*; Köçər bu vaxt el-oba, enər tamam *qışlağa* (A.Səhhət).

**QIŞLAMAQ – YAYLAMAQ** Bu qış burada *qışlamasan*, madarım keçməz (S.S.Axundov); İbrahim əmi bu yayı yaylaqda *yaylamışdır*.

**QIŞLIQ – YAYLIQ** *Qışlığın* tədarükünü yayda, *yaylığın* tədarükünü isə qışda görmək lazımdır.

**QIT – BOL** Sərv ağacı hər ağacdan ucadır; Əsli *qıtdır*, budağında bar olmaz (Xəstə Qasım); Ancaq xoşbəxtlikdən meyvənin *bol* vaxtı idi (Ə.Vəliyev).

**QITLIQ – BOLLUQ** Qıtlıq illər yağışıtək quruyub göz yaşımız... (Şəhriyar); Bir yanda hakimdə böyük bir bolluq; Bizim nəsibimiz aclıq, yoxsulluq! (Ə.Cavad).

**QIVRAQ – XƏSTƏ** Həkim yaşlı, lakin *qıvraq* bir adamdır (Ə.Əbülhəsən); Burada *xəstə* çoxdur (S.Qədirzadə).

**QIVRAQLAŞMAQ – XƏSTƏLƏNMƏK** İstirahətindən sonra xeyri *qıvraqlaşıbdır*. Anam *xəstələnmişdi* (S.Qədirzadə).

**QIVRILMAQ – AÇILMAQ** Yumaq kimi yumrulanan qızıl ilan *qıvrılıb açıldı...* (İ.Şıxlı).

**QIYIQ – AÇIQ** Elə bil bütün bunlar da tatarın *qıyıq* gözlərindən gizli qalmırdı (Ə.Əbülhəsən); Əlini Mayanın *açıq* çiyninə vurdu... (M.İbrahimov).

**QIYILI – AÇIQ Qıyılı** gözlərində gizli bir kin qaynayır (İ.Tapdıq); ...Onun alnı *açıq*, üzü də ağdır (S.Vurğun).

**QIYQACI – DÜZ** Səkinə Vəlinin üzünə *düz* baxdı. Pərşan ona *qıyqacı* bir nəzər saldı (M.İbrahimov).

**QIYMAQ – AÇMAQ** Hesabdar gözlərini *qıyıb*, üfüqdə iki boy qalxmış günəşə baxdı (M.İbrahimov); *Aç* gözün, gözlərinin qurbanı; Bir tamaşa elə, gör dünyanı (A.Səhhət).

**QIYMAQ – ƏSİRGƏMƏK** Ay zalım oğlu, adam da İskəndər kimi oğlana *qıyıb* güllə atarmı? (Ə.Haqverdiyev); İsmət! Allah *əsirgəsin*, nədir bu halət? (H.Cavid).

**QIZARMAQ – AĞARMAQ** Günəş üfüqdə yandı; *Qızardı* yavaş-yavaş (M.Müşfiq); Hamıdan gec yatıb qalxdınız erkən; *Ağardı* dan yeri gözlərinizdə (B.Vahabzadə).

**QIZARMAQ – BOZARMAQ** Kişinin sifəti *bozardı* (Ə.Vəliyev); Zoyanın yanaqları *qızardı* (S.Vəliyev).

**QIZARMAQ – SIRTILMAQ** Ruqiyyə mətləbi anladı, ətrafa baxdı, bir kəs yox idi. Dan şəfəqi kimi *qızardı* (A.Divanbəyoğlu); Səndə təqsir odur ki, uşaq vaxtında fağırı haqq yerə, nahaq yerə o qədər döydün ki, axırda *sırtıldı...* (Ə.Haqverdiyev).

**QIZDIRMA – ÜŞÜTMƏ** Bir həftədir ki, uşağım *qızdırma* içində yanır (C.Cabbarlı); Bədəninə *üşütmə* düşdü (S.Qədirzadə).

**QIZDIRMAQ – SOYUTMAQ** Yasəmən çayın qırağında su *qızdırıb* paltar yuyurdu (S.S.Axundov); Çayı *soyutmayın*, için (S.Vəliyev).

**QIZĞIN – SAKİT** Azərbaycan ədəbi dili qılınc döyüşünü andıran *qızğın* münaqişələr, kəskin deyişmələr dilidir (M.İbrahimov); Ölkənin *sakit*, işıqlı həyatı da düşmən gülləsindən bircə anda beləcə pozulmuşdu (S.Qədirzadə).

**QIZĞIN – SOYUQ** Yəni dəmiri *qızğın* ikən yastıla (S.S.Axundov); Dəryanın baxışları *soyuq*, səsi yad idi (S.Qədirzadə).

**QIZĞIN – ZƏİF** Becərmənin *qızğın* dövrü idi (M.İbrahimov); Elə bil *zəif* ürəyi həmişəlik olaraq sağaldı (Ə.Vəliyev).

**QIZĞINLIQ – SAKİTLİK** Bir həftə əvvəldən aşağı bazarda, istərsə də yuxarı bazarda bir *qızğınlıq* müşahidə edilirdi (H.Sarabski); Hələ ki, *sakitlikdir* (S.Qədirzadə).

**QIZIŞMAQ – SAKİTLƏŞMƏK** Xan büsbütün *qızışıb* qəzəblə bağırdı (M.Rzaquluzadə); Tərlandan məktub aldığı üçün *sakitləşdi*.

**QIZIŞMAQ – SOYUMAQ** Yarım saatdan sonra mehmanxanada oyun *qızışdı* (C.Əmirov); Monbazonun hirsi *soyudu* (S.Qədirzadə).

**QIZMAQ – SAKİTLƏŞMƏK** Əşrəf anasının bu böyük xəbəri etinasız qarşılamasına *qızdı* (Mir Cəlal); Mən yenə *sakitləşdim* (S.Qədirzadə).

**QIZMAQ – SOYUMAQ** Tez *qızar*, gec *soyuyardı* (R.Rza).

**QIZMAQ – ÜŞÜMƏK** Ümid və sevincin istisindən canı *qızdı* (M.İbrahimov); – Bəs onda mən niyə *üşümürəm*? – deyə qız başını qaldırmadan soruşdu (S.Qədirzadə).

**QIZMAR – SƏRİN** Şaxta *qızmar* bir dəmir kimi onu dağlayırdı (Ə.Məmmədxanlı); Bura həm kölgə idi, həm də *sərin* idi (M.İbrahimov).

**QİYABİ – ƏYANİ** "Satım, satmayım..." deyən miyanə satqınları; *Qiyabi* satqınları, *əyani* satqınları (X.Rza).

**QİYAMƏT – PİS** Dostlar oturmuşdular. Gecəni *qiyamət* keçirirdilər (Mir Cəlal); Yaxşısı budur ki, nə pis iş tut, nə də *pis* söz eşit (M.İbrahimov).

**QİYAMƏT – SAKİT** Lakin paltarları səhnəyə aparılmış arvadların *qiyamətindən* xəbərim yox imiş (H.Sarabski); Göy meşələr, *sakit* kəndlər, səs-küylü limanlar tamaşalı yerlərdir (S.Qədirzadə).

**QİYAMƏT – ŞƏN** Hər günüm hicrində, ey məh, bir *qiyamət* tək keçər (S.Ə.Şirvani); Səhər *şən* və gümrah oyanmışdım (S.Qədirzadə).

**QOCA – CAVAN** *Qocanın* biliyi, *cavanın* biləyi (Ata. sözü).

**QOCALI – CAVANLI** Uzaqlar, yaxınlar döydü qapını; *Qocalı*, *cavanlı* düşdükcə bəndə (H.Hüseynzadə).

**QOCAMAN – BALACA** Geniş və *qocaman* meşənin ən yaxşı vaxtı idi (Mir Cəlal); Bu *balaca* qızın barəsində nə qədər yazsanız ləyaqəti var (S.Qədirzadə).

**QOCAMAN – GƏNC** *Qocaman* sənət xadimini dinləməyi arzu edən çox idi (Mir Cəlal); Qarı *gəncə* yer göstərdi (S.Qədirzadə).

**QOÇAQ – QORXAQ** Məgər bu şəhərdə hamıdan *qoçaq* mən oldum? (C.Məmmədquluzadə); Mən *qorxaq* sandığım adamları utandırmaq üçün kartof-soğan soymağa mətbəxə göndərirəm (S.Qədirzadə).

**QOÇAQ – TƏNBƏL** Cahan hər işi düzəldir, *qoçaq* arvaddır (Ə.Haqverdiyev); Özündən zəiflərə zülm edənlər və *tənbəllər* qalmayacaq (M.İbrahimov).

**QOÇAQLAŞMAQ – TƏNBƏLLƏŞMƏK** Kamran yaman *qoçaqlaşıb* (Ə.Vəliyev); Traktorçu son vaxtlar yaman işdən soyuyub, yaman *tənbəlləşmişdir* ("Ulduz").

**QOÇAQLIQ – TƏNBƏLLİK** Cahanın *qoçaqlığını* ondan bil ki, bu yaşında üç-dörd ayın içində savadlandı (Ə.Haqverdiyev); Gözünə döndüyüm Anaxanım da eləmə *tənbəllik*, elə birinci kərə doğum evindən çıxanda nə az, nə çox, gözəl-göyçək üç uşaq gətirdi (S.Qədirzadə).

**QOÇAQLIQ – QORXAQLIQ** A qardaş, bircə qulaq as, gör nə deyirəm, sən *qoçaqlığı* lap qələt anlayırsan (M.F.Axundzadə); Toxtat özünü; *Qorxaqlıq* daha sənə eyibdir! (İ.Tapdıq).

**QOÇU – FAĞIR** *Qoçular*, quldurlar qatar taxardı; *Fağır*-füqaraya yan-yan baxardı (Aşıq Ələsgər).

**QOÇULUQ – FAĞIRLIQ** Millətpərəstlikdən, vətəndaşlıqdan dəm vururuq qaraca qəpikdən ötrü, *qoçuluq* edirik genə o qəpikdən ötəri (N.Vəzirov); *Fağırlıq* olar, amma bu dərəcədə də yox da.

**QOHUM – YAD** Hazırda mən öz *qohumlarım* və elim ilə bərabər cəbhəyə gedirəm (M.S.Ordubadi); Azad *yad* adamın bu hərəkətlərindən çox şübhələndi, dərhal ayağa qalxıb onu qarşıladı (A.Şaiq).

**QOHUMLAŞMAQ – YADLAŞMAQ** Mən özümü çox xoşbəxt hesab edirəm ki, sənin ilə *qohumlaşmaq* mümkün olaydı (S.S.Axundov); Gediş-gəliş olmayanda qohum da *yadlaşır*.

**QOHUMLUQ – YADLIQ** Bununla bizim bir yüngülvari *qohumluğumuz* da varmış (C.Məmmədquluzadə); *Yadlığı* yadına düşüb qəhərləndi.

**QOXU – ƏTİR** Bu rütubət və üfunət *qoxusu* oradan gəlirdi (M.Rzaquluzadə); Hər tərəfə *ətir* səpilmişdi (Mir Cəlal).

**QOXULU – ƏTİRLİ** Ətrafdakı *qoxulu* bataqlıq məni o qədər də bürüməmişdir ki, ondan xilas olub çıxa bilməyim (Ə.Şərif); Axırda lap yaxında üzbəüzündə durub, şadlıqla gülәndə ılıq, *ətirli* nəfəsi oğlanın sinəsində gəzdi (S.Qədirzadə).

**QOLÇOMAQ – KƏNDLİ** Molla Rəcəb bir dəstə kənd *qolçomaqları* ilə və bəyləri ilə bir yerdə həbsə alınıb, dama salındı (B.Talıblı); Deyirlər *kəndliyə* verilir torpaq; Arpa yeyənlərin iştahına bax! (S.Vurğun).

**QONDARMA – TƏBİİ** Sonra *qondarma* bir qəhqəhə çəkib bərkdən güldü (S.Qədirzadə); *Təbiidir* ki, öz oğluna da hisslər və duyğular aşılamağa çalışmış... (M.İbrahimov).

**QONDARMAQ – DAĞITMAQ** Naşı bənna *qondarıbdı* novdanı, xalq neyləsin? (M.Möcüz); Bu saat yenə sultanın qoşunları İranın bu guşəsini söküb kəndləri *dağıtmaqdadır* (C.Məmmədquluzadə).

**QONUŞMAQ – SUSMAQ** Gəl yanıma, sənin ilə *qonuşaq*; Könlümüzün istəyəni danışaq (H.K.Sanılı); Yaylım atəşi *susmaq* bilmir, yerə-göyə meydan oxunurdu (S.Qədirzadə).

**QOPMAQ – YAPIŞMAQ** Kolun budağı ayının gücünə davam etməyib *qopdu* (S.S.Axundov); Tez əyilib mili yerdən götürdü və arvadına verdi, sonra onun yarıçılpaq ətli qolundan *yapışdı* (M.İbrahimov).

**QORXAQ – İGİD** Ürkək, *qorxaq* qız uşağı yırtıcının qabağında dura bilmədi (M.İbrahimov); Dəli *igiddir*, əlindən xata çıxa bilər (Ə.Haqverdiyev).

**QORXAQ – MƏRD** *Qorxaqdır*, çox da ki, *mərd* çıxıb adı (S.Rüstəm).

**QORXAQLAŞMAQ – İGİDLƏŞMƏK** Bayram son vaxtlar yaman qorxaq olub, nədənsə *qorxaqlaşıb*. Əzəldən qoçaq idi. İndi *igidləşib* (Ə.Vəliyev).

**QORXAQLIQ – İGİDLİK** Cəbhədə top gülləsindən baş götürüb qaçmaq *qorxaqlıq* deyil, cənab zabit, *igidlikdir*! (S.Qədirzadə).

**QORXAQLIQ – QƏHRƏMANLIQ** – Yox, Salmanov, onun *qorxaqlığını* mən gərək Salatınlı camaatına bu saat bildirim (T.Kazımov); Mənim yoldaşlarım dağlarda böyük *qəhrəmanlıqlar* göstərirlər (S.Vəliyev).

**QORXAQLIQ – MƏRDLİK** *Mərdlik* hünər döşündəki medalda; Alnındakı qırışlarda oxunur (Ə.Cəmil); Əvvəllər göstərdiyi *qorxaqlıq* Məzluma çox baha başa oturmuşdu (S.Vəliyev).

**QORXMAQ – ÜRƏKLƏNMƏK** Ağa, nə üçün fikir edirsən, yoxsa qaçaqlardan *qorxursan*? (N.Nərimanov); Baloğlan Qədirov pulun tapılmadığını görüb *ürəkləndi* (C.Əmirov).

**QORXMAZ – AĞCİYƏR** Nəhayət, bəlli oldu ki, *qorxmaz* uşaq tüfəng ilə o tərəflərdə gəzişirmiş (A.Şaiq); Adam bu qədər *ağciyər* olmaz (S.Qədirzadə).

**QORXMAZLIQ – AĞCİYƏRLİK** Əmirin üsuli-idarəsinə qarşı bir düşmən kimi hücum edən şair öz böyüklüyünü və *qorxmazlığını* ziyarətdə onların hamısına göstərdi (M.S.Ordubadi); İndi o bu qədər parlaq bir gələcəyə gəlib çıxandan sonra,… o vaxtkı *ağciyərliyinə* öz ürəyində gülürdü (Ə.Məmmədxanlı).

**QORXU – SEVİNC** Bunu hiss etmiş kimi Mələyin ürəyinə bir *qorxu* çökdü (M.İbrahimov); Gözlərinə səadətə oxşar bir *sevincin* işığı düşdü (M.İbrahimov).

**QORXUSUZ – CƏSARƏTSİZ** *Qorxusuz* keçib gedir qüdrətli dağ qartalı (R.Rza); Müdirin iri gövdəsinə baxmayaraq, boş adamdı, *cəsarətsizdi* (S.Qədirzadə).

**QOŞA – TƏK** Onlar *qoşa* durdular (Ə.Vəliyev); Sarışın səngərdə *tək* qaldı (S.Qədirzadə).

**QOŞA – TƏKBƏTƏK** Ceyranlar *qoşa* gedər; Gözlə, ox boşa gedər; Yar ilqara düz olsa; Ömür, gün xoşa gedər (Bayatı); Bu gün hər şey həll olunmalı idi. Özü də *təkbətək*, qabaq-qabağa (İ.Şıxlı).

**QOŞALAMAQ – TƏKLƏMƏK** Zeyğəm isə əllərini *qoşalayıb* çırtıq çalırdı (S.Rəhimov); Kamilə gəlinciyini o biri oyuncaqlarından seçib *təklədi*.

**QOŞALAŞMAQ – TƏKLƏŞMƏK** Atlar *qoşalaşdı* (İ.Şıxlı); Axsaq qoyun sürüdən aralanıb *təkləndi*.

**QOŞALIQ – TƏKLİK** *Qoşalıq* anaya sevinc gətirdi. *Təklik*, kimsəsizlik onun da qəlbini sıxmırmı? (S.Qədirzadə).

**QOŞMAQ – AÇMAQ** Sənin xatirin üçün qırx yeddi manata *qoşaram* (Ə.Haqverdiyev); Süngülər açmayan yolu *açdın*; Qələmindən cavahirat saçdın (A.Səhhət).

**QOŞULMAQ – AYRILMAQ** Mən də "Qardaşlar" birliyinə *qoşuldum* (Ə.Məmmədxanlı); Gülnaz bir neçə addım anasından *ayrılıb*, özünü qabaqda gedən üç nəfərə çatdırdı (M.İbrahimov).

**QOVĞA – ASAYİŞ** Aləmə şuriş salıbdır, fitnəyə, *qovğayə* bax (Heyran xanım); Şəhərdə *asayiş* və əmniyyəti pozmaq... istəyənlər olduğu yerdə cəzalanacaqdır (M.S.Ordubadi).

**QOVUŞDURMAQ – AYIRMAQ** Muğanlı Səfərəli qızını sevgilisinə *qovuşdurmadımı*? (M.F.Axundzadə); Bəli, Mariananı ondan *ayırmağı* ancaq sən bacararsan (S.Qədirzadə).

**QOVUŞMAQ – AYRILMAQ** Turşsu çayların içi ilə Araza axır, Kürə *qovuşur* (S.Rəhimov); Münəvvərin səsinə xəyaldan *ayrıldım* (S.Qədirzadə).

**QRUPLAŞMAQ – BÖLÜŞMƏK** Sabirin əsərlərini janra görə *qruplaşdırmaq* da həmişə müəyyən çətinliklər törədir (M.Məmmədov); Hər nə əlinə düşsə idi, yoldaşları ilə *bölüşərdi* (S.S.Axundov).

**QUBAR – SEVİNC** Zülmətin yer üzünü qaplaması; Qəlblərdə oyandırırdı *qubar* (C.Cabbarlı); Gözlərində *sevinc* işartısı vardı (S.Qədirzadə).

**QUBARLANMAQ – SEVİNMƏK** – Ə, ay Fikrət, adamın ürəyini niyə partladırsan, niyə belə *qubarlanırsan*? (M.İbrahimov); Məgər mən elə bu yerdənmi gəlmişəm, qonaqların yanında fəxr edib *sevinməsin*! (S.Qədirzadə).

**QUBARLI – FƏRƏHLİ** Dərdli, *qubarlı* aşiq; Gəlib görüşür yenə (M.Rahim); Raykom katibi ürəkdən gələn *fərəhli* bir səslə dedi (Ə.Vəliyev).

**QUCAQLAŞMAQ – ARALANMAQ** Bəs elə isə gəl ağuşuma, *qucaqlaşalım* (C.Cabbarlı); Güləsər ondan aralanıb evlərinə doğru yollandı (İ.Şıxlı).

**QUDUZ – MÜLAYİM** Qurban olum, qardaş! Bunlar çox *quduz* adamdırlar. Sərhesab ol (N.Vəzirov); Sadə, *mülayim* xasiyyətli, ağıllı, tərbiyəli qadın idi (S.Qədirzadə).

**QUDUZLAŞMAQ – MÜLAYİMLƏŞMƏK** Ana, *quduzlaşır* həyat, ilbəil; Dalayır puç olan ümidlərimi (B.Vahabzadə); Rövşən oğlunu sərt qarşıladı, sonra *mülayimləşdi*.

**QUL – AĞA** İndi mən sənə nökərəm, mən sənə *qulam*, gəl, gəl barışaq (C.Məmmədquluzadə); Doğru deyir, *ağa*, onlar heç vaxt özlərini bu ağzıbirə salmazlar (N.Vəzirov).

**QULDUR – RƏHMLİ** İndi ona yaxın düşməkmi olar? Özü güclü-zorlu, başında qolu-zorba *quldurlar* (M.Rzaquluzadə); Nə üçün onların içərisində *rəhmli* şəxslər azdır? (M.Talıbov).

**QULDURLUQ – RƏHMLİLİK** Balam, mən saqqalımın bu ağ vaxtında necə sizə izin verim ki, gedib *quldurluq* edəsiniz (C.Məmmədquluzadə); Bu qədər də *rəhmlilik* kimə lazımdır?

**QUNDAQLAMAQ – AÇMAQ** Adını Leyla qoyub, qızı *qundaqladılar* (S.Rüstəm); Uşağın qundağını *açdılar*.

**QURAQ – YAĞAR** Göy xəsis, yer ondan betər; *Quraq* yerdə toxum yanar (A.Şaiq); *Yağar* aylarda yerə şitil basdırmaq çətin olur.

**QURAQLIQ – YAĞARLIQ** *Quraqlıq* bir dərəcədə idi ki, baharın orta ayında otlar saralıb, quruyurdu (A.Şaiq); Bu hadisə *yağarlıqla* əlaqədardır (Ə.Vəliyev).

**QURAŞDIRMAQ – DAĞITMAQ** Sökdüyü təkəri *quraşdırıb* yerinə keçirdikdən

sonra üst-başını çırpıb ayağa durdu (İ.Şıxlı); İsgəndər Rumi ... Əcəm ölkəsindəki bütün atəşgədələri *dağıtmışdı* (Ə.Məmmədxanlı).

**QURDLU – SAF** Salman dayı, bu cür, *qurdlu* qaysılar da sizindir? (A.Şaiq); Bu alma *safdır*.

**QURDLU – TƏMİZ** Onun gözü ac, ürəyi *qurdlu* idi (M.Rzaquluzadə); Əfsus ki, *təmiz* qəlbli, yaxşı niyyətli adamların hamısı möhkəm iradəyə malik olmur (S.Qədirzadə).

**QURĞU – MÜSİBƏT** Zülmünü aşkar qıldın nümayan; *Qurğular* pozulub, sanlar itibdir (Aşıq Ələsgər); Kino tamaşalarına bilet almaq *müsibət* idi (S.Qədirzadə).

**QURMAQ – DAĞITMAQ** *Qururuq* biz çayların üstündə asma körpü (S.Rüstəm); Hər şey yanıb *dağılmış*, yerlə yeksan olmuşdur (S.Qədirzadə).

**QURMAQ – SÖKMƏK** Atam Kərim baba ilə alaçıq *qurmağa* gəldi (A.Şaiq); Köçəndə alaçığı *sökdülər* (M.Süleymanlı).

**QURMAQ – UÇURMAQ** Belədir insan; Bir yandan *uçurur*, bir yandan *qurur* (S.Vurğun).

**QURMAQ – YIXMAQ** Neçə dəfə mənə ailə *qurmağı* təklif edib (C.Əmirov); İşi-peşəsi onun-bunun evini *yıxmaqdır* (C.Əmirov).

**QURTARACAQ – BAŞLANĞIC** Meşənin *qurtaracağına* iki verst qalmış bir atlı, yaraqlı adam Cəfərin qabağını kəsdi (S.S.Axundov); Ancaq *başlanğıc* üçün bu heç də pis deyildi (Ə.Əbülhəsən).

**QURTARMAQ – BAŞLAMAQ** Danışan qazmaçı bir neçə kəlmə ilə sözünü *qurtardı* (M.İbrahimov); *Başlasın* qoy bu adla; Gəncliyin xoş nəğməsi (S.Rüstəm).

**QURTULMAQ – TUTULMAQ** Biz bu ərəb yırtıcılarından, bu vəhşi əlbəyilərdən *qurtulmalıyıq* (C.Cabbarlı); Onlar Kipianinin nə üçün *tutulduğunu* soruşur, bu işin səbəbini bilmək istəyirdilər (İ.Şıxlı).

**QURTULUŞ – ƏSARƏT** Əlində tutduğun o böyük məşəl; Göstərir aləmə *qurtuluş* yolu (S.Vurğun); Könül bir quşdur ki, sevməz *əsarət*; Daim çırpınır, istəyir hürriyyət (A.Səhhət).

**QURU – ƏSASLI** Elm adına bir *quru* böhtandı bu! Nifrətə şayandı bu! (M.Ə.Sabir); ...Kolxozun rəhbər işçiləri *əsaslı* səbəb olmadan və rayon təşkilatları ilə razılaşdırılmadan tez-tez vəzifələrindən dəyişdirilir (Ə.Vəliyev).

**QURU – ƏTLİ** Gözlərini anasının yanına sallanmış damarlı, quru əllərinə zillədi (Ə.Məmmədxanlı); Qırmızı gilasa oxşar ətli dodaqları və balaca zərif burnu vardı (S.Qədirzadə).

**QURU – MÜLAYİM** Dəmir *quru* və tələbkar bir sifət aldı (S.Rəhimov); Lakin deyəsən, o yenə əvvəlki kimi gülərüzlü, sakit, *mülayim* idi (M.İbrahimov).

**QURU – RÜTUBƏTLİ** Torpaq *qurudur*, göydən bir damcı da düşməmişdi. Mən bu əsərimi indi yaşadığım kiçik, *rütubətli*, qaranlıq zirzəmidə yaradıram (S.Vəliyev).

**QURU – SULU** Dağda, dənizdə, *quru* çöllərdə, ormanda yaşayan canlı heyvanlar, onların yeyib-içməsi və şəkilləri də fərqlidir (M.S.Ordubadi); *Sulu* əllərini əvvəlcə saçına, sonra da saqqalına çəkdi (İ.Şıxlı).

**QURU – TƏZƏ** Yediyi, içdiyi həmişə dişləmə çay ilə *quru* çörək idi (B.Talıblı); *Təzə* çörəyin iyi həyəti bürümüşdü (M.İbrahimov).

**QURU – YAĞIŞLI** Son vaxtlar rayonlarda havalar *quru* yox, *yağışlı* keçir.

**QURU – YAĞLI** Daima qısqanan ürkək bir həyat; Məncə bu dünyada bir *quru* səsdir (S.Vurğun); Mən bədbəxt də bu tülkülərin *yağlı* dillərinə aldandım (C.Əmirov).

**QURU – YAŞ** *Qurunun* oduna *yaş* da yanar (Ata. sözü).

**QURU – YUMŞAQ** Yazıq bir parça *quru* çörəyi də göz yaşı ilə yeyir (A.Şaiq); Qonşusu isə ehmalca başını tərpətdi, yanaqları *yumşaq* rahətül-hülqum kimi titrədi (S.Qədirzadə).

**QURUCU – DAĞIDICI** Uşağı mübarizə və *qurucu* həyata hazırlamaq lazımdır (S.Rəhimov); Dalğanın *dağıdıcı* zərbəsinə davam gətirməyib yıxıldı ("Azərbaycan qadını").

**QURULAMAQ – İSLATMAQ** Zöhrə suya çəkməkdə olduğu paltarı sərib qurtardı, əlini *quruladı* (Ə.Vəliyev); Gözlərindən tökülən isti yaşlar isə açıq sinəsini *islatdı* (H.Nəzərli).

**QURULANMAQ – İSLANMAQ** Təhminə *qurulanırdı* (Anar); Gəldiyev gələn kimi düyü *islanır*, qazan asılırdı (Mir Cəlal).

**QURULMAQ – DAĞILMAQ** Nuxada yeni fabriklər, zavodlar *qurulmuşdu* (İ.Əfəndiyev); Ağlım başımda olmadığından dəzgahda qəzaya yol vermişdim, hər şeyi sınıb *dağılmışdı* (S.Qədirzadə).

**QURULMAQ – SÖKÜLMƏK** Yeni axar çaylar üzrə dəmir körpü *qurulacaq*; Yeni sahil lampaları alışacaq çıraq-çıraq (S.Vurğun); Köhnə, uçuq körpülər *söküldü*.

**QURULUQ – BATAQLIQ** Adanın *quruluq* hissəsində oturub dənizə baxırdıq. Gəl danışaq ki, *bataqlığa* gedən namərddir (M.İbrahimov).

**QURULUQ – CANLILIQ** Əsərin dilində *quruluq* var. Roman *canlılığı* ilə oxucunu razı salır.

**QURULUQ – KÖKLÜK** Onun *quruluğunu* zahiri görünüşündən təyin etmək olur ("Ulduz"); Dayıdostum anasının *köklüyünə* işarə ilə söhbətə qarışdı (S.Qədirzadə).

**QURULUQ – NƏMLİK** O, köksündə nə isə tənglik, bundan başqa boğazında da bir *quruluq* hiss edirdi (Ə.Əbülhəsən); Qar az yağdığından torpağın *nəmliyi* kifayət deyil (Ə.Vəliyev).

**QURUMAQ – GÖYƏRMƏK** Hər yay arxdan su daşıyıb, bu ağacı *qurumağa* qoymamışdı (M.İbrahimov); Qar əriyir, sellər axır, ot *göyərir* səhrada (C.Cabbarlı).

**QURUMAQ – İSLANMAQ** Hava o qədər istidir ki, adamın dil-dodağı *quruyur* (A.Şaiq); Qorxuram göz yaşımdan; Qoynunda gül *islana* (Bayatı).

**QURUMAQ – KÖKƏLMƏK** Dərd onu üzür, elə bil ki, heç nə yemir, *quruyur*. Heç bir iş görmür, yeyib-içib yatır, günbəgün *kökəlir*.

**QURUMAQ – YAŞLANMAQ** A...a... boğazım nə üçün *qurudu* (C.Əmirov); Su içəndən sonra özünə gəldi, boğazı *yaşlandı* (M.Süleymanlı).

**QUSMAQ – UDMAQ** ...Qan sorub şişdikdə sahibi onları sıxır, tamam sorduqları qanı *qusurlar* (M.F.Axundzadə); Biz hava istərik, təmiz bir hava; hava qoxlamayaq, hava *udaq* biz (H.Hüseynzadə).

**QUŞBEYİN – AĞILLI** İndi onlar, o *quşbeyin* Məmiş də qəmiş olub keçiblər yazığın boğazına (İ.Fərzəliyev); Qulam, göz dəyməsin, çox *ağıllıdır*, bizi hər görəndə əldən-ayaqdan gedir (S.Qədirzadə).

**QUZEY – GÜNEY** Gərək o adamın dədəsinə od vurasan və elə vurasan ki, heç bilməsin ki, bəla *güneydən* gəldi, ya *quzeydən* (N.Vəzirov).

**QUZULAMAQ – BƏRKİMƏK** Bir tərəfi *quzulayıb* ot saçaqları saxlanan bir təpədə iri qol-qanadlı qurumuş bir ağac vardı (Çəmənzəminli); Rüstəmə elə gəldi ki, arvadının əli *bərkimiş* və kobudlaşmışdır (M.İbrahimov).

**QÜDRƏTLİ – ZƏİF** *Qüdrətli* yurdumuza; hər sənətkar gərəkdir (M.Rahim); Düşmən o qədər də *zəif* deyildi (S.Qədirzadə).

**QÜDRƏTLİLİK – GÜCSÜZLÜK** Rəşidin *qüdrətliliyinə* hamı bələd idi. İşləyəndə öz *gücsüzlüyünü* hiss etdi.

**QÜDSİYYƏT – EYBƏCƏRLİK** Cavab ver, odlar gəlini! Axır bütün ümid sənin *qüdsiyyətindədir* (C.Cabbarlı); Vəlini düşündürən bütün *eybəcərliyi* ilə hiss etdiyi həyat məsələləri idi (M.Hüseyn).

**QÜRRƏLİ - XOFLU** Gah elə *qürrəli*, gah elə *xoflu*; Hamımız bir səsli, bir adam kimi; Hamı cilovludur, hamı buxovlu; Hamı da sozalan yağsız şam kimi (M.Araz).

**QÜRRƏLİ – TƏVAZÖKAR** Çox *qürrəli* uşaqdır, həyətdəki uşaqların heç biri ilə yaxınlıq etmir. Tofiqdən çox xoşum gəlir, çox *təvazökar* adamdır.

**QÜRUB – MƏŞRİQ** Onlar hadisə yerinə çatanda gün *qüruba* əyilmişdi (T.Kazımov); Gün *məşriqdən* doğur.

**QÜRURLU – TƏVAZÖKAR** Bu dağlar qucağında bəslədiyim adamlar kimi *qürurlu* idi (S.Vəliyev); Xoşuna gələn odur ki, çox *təvazökardır* (M.İbrahimov).

**QÜSSƏ – NƏŞƏ** *Nəşənin* qədrini bilməzdi insan; *Qüssə* olmasaydı, qəm olmasaydı (M.Rahim).

**QÜSSƏLƏNMƏK – ŞADLANMAQ** Sanki Mənsurənin məyusluğuna *qüssələnməkdənsə*, *şadlanırdı* (S.Qədirzadə).

**QÜSSƏLƏNMƏK – ŞƏNLƏNMƏK** O, səhər tezdən Silanı yola salıb ayrıldığı üçün *qüssələnir* (S.Vəliyev); Çöldə traktorun səsi canlanır; Obalar *şənlənir*, həyəcanlanır (S.Vurğun).

**QÜSSƏLİ – ŞAD** İnsanların əksəriyyəti ya çox *qüssəli*, ya da çox *şad* dəqiqələrində ağlayırlar (M.İbrahimov).

**QÜSSƏLİLİK – ŞƏNLİK** Payızın son ayı *qüssəliliyi* andırır. Uşağın dünyaya gəlməsi evə bir *şənlik* gətirmişdi (Çəmənzəminli).

**QÜSURLU – TƏMİZ** Mən də onlardanam, baxışım *qüsurlu*, gözüm zəifdir (M.Talıbov); Bütün fəsillərdə qanı qaynayan; mehriban balalar safdır, *təmizdir* (C.Novruz).

**QÜSURSUZ – NAQİS** Əməliyyatı *qüsursuz* yerinə yetirdiyini düşünüb dedi (C.Əmirov); Bu yaşa gəlmişəm, məndən bir pis söz, bəd hərəkət, *naqis* əməl görməmisiniz (Ə.Vəliyev).

**QÜVVƏTLƏNMƏK – ZƏİFLƏMƏK** Gecədən əsməyə başlayan yay küləyi yavaş-yavaş *qüvvətlənir* (M.Hüseyn); Bu səs nə qədər *zəifləmişdi* (M.İbrahimov).

**QÜVVƏTLİ – ZƏİF** *Qüvvətli zəifi* basacaq, əzəcək (S.S.Axundov).

**QÜVVƏTSİZ – GÜCLÜ** Lakin qızışmış köhlən at *qüvvətsiz* uşağa qulaq asmadı (S.S.Axundov); Sanki *güclü* şimşək çaxdı, buludlar parçalandı, asiman guruldadı, dolu yağdı (S.Qədirzadə).

**QÜVVƏTSİZLİK – GÜCLÜLÜK** *Qüvvətsizliyi* onu əldən salmışdı. Fənd işlədə bilməsə də, *güclülüyü* sayəsində rəqibinə qalib gəldi.

# Ll

**LAQEYD – CİDDİ** Hürü isə bu baxışlara qarşı *laqeyd* görünürdü (M.İbrahimov); Ostapenko *ciddi*, iti, əsəbi bir halda işləyirdi (Mir Cəlal).

**LAQEYDLƏŞMƏK – CİDDİLƏŞMƏK** Növrəstə *laqeydləşdi* (M.Eynullayeva); Salman dərhal *ciddiləşdi* (M.İbrahimov).

**LÜLQƏNBƏR – AYIQ** Bir gün görəydin *lülqənbər* çıxıb kolxoz idarəsinin qabağındakı iri palıd kötüyünün üstünə (H.Nadir); İçmiş olsa da, özünü *ayıq* kimi aparırdı.

**LÜMLÜT – GEYİMLİ** Səlim ağanın dalından dəyib *lümlüt* çölə atır (M.İbrahimov); *Geyimli* bayıra çıxdı ("Azərbaycan").

**LÜT – ƏHVALLI** *Lütəm*, artıq bütün varım getdi (S.Rüstəm); Belə baxanda çox qanacaqlı, *əhvallı* adama oxşayırdı (S.Qədirzadə).

**LÜT – GEYİMLİ** Ona toxunmayın, o *lütdür* (C.Məmmədquluzadə); Əynində ağ xalat olan təmiz *geyimli* yaşlı arvad uşağı yerinə saldı (M.İbrahimov).

**LÜTLƏMƏK – GEYİNDİRMƏK** Qışın oğlan çağında onu *lütləyib* yola salmaq yox, *geyindirmək* lazımdır ("Ulduz").

# Mm

**MAFRAQ – BƏRK** Ağacın budağı çox *mafraqdır*, tez sınacaqdır. Palıd uzunömürlü, *bərk* ağacdır.

**MAĞMUN – ZİRƏK** O da sənin kimi utancaq, *mağmunun* biri idi (Mir Cəlal); *Zirəkdir*, gözüaçıqdır, işdən tez baş açandır (M.İbrahimov).

**MAHİR – ACİZ** Gülpəri də öz işində *mahirdir* (Ə.Haqverdiyev); Lakin yenə də özü yeriməkdə *aciz* idi (M.İbrahimov).

**MAHİRLİK – ACİZLİK** İşə qarşı onda xüsusi bir *mahirlik* var. Sonra ürəyi yumşaldı, *acizliyini* büruzə verdi (M.İbrahimov).

**MAJOR – MİNOR** *Major*, *minor*. Bəm, ya zil. Bunlardır, ən şad, ən ümidsiz nəğmələrin anası (R.Rza).

**MAKSİMAL – MİNİMAL** İndi hər bir peşə sahibindən *minimal* yox, *maksimal* bilik tələb olunur ("Azərbaycan").

**MAKSİMUM – MİNİMUM** Veteranlara *maksimum* qayğı göstərilməlidir. Bu işin yerinə yetirilməsi üçün *minimum* vaxt verilir.

**MALBAŞ – DƏRRAKƏLİ** *Malbaş* uşaqdır. Başına heç nə girmir ("Ulduz"); O oğlan yaşda səndən kiçikdir, amma qat-qat *dərrakəlidir* (S.Rəhimov).

**MARAQ – ŞÜBHƏ** *Maraq* dolu gözəm mən: baxmaya bilmərəm (R.Rza); Onu sevəcəyinizə *şübhəm* yoxdur (M.İbrahimov).

**MARAQLI – BOŞ** Dinləyirdim *maraqlı* söhbətini: qoca müəllimin (R.Rza); Mən and içirəm ki, *boş* sözdü (Mir Cəlal).

**MARAQSIZ – MƏNALI** Əsər *maraqsızdır*, oxumaq olmur ("Azərbaycan"); Bu gün hər şey gözəl, hər şey *mənalıdır*, – dedi (M.İbrahimov).

**MATƏM – SEVİNC** *Matəm* içindədirlər gördülər hamı (M.Rahim); Bu kəndin əhalisi elə bil *sevincdən* yatmaq istəmirdi (S.Vəliyev).

**MATƏMLİ – ŞAD** O qara *matəmli* günləri unut (S.Rüstəm); Qonaq cənnətə düşmüş kimi, heyran və *şad* idi (Mir Cəlal).

**MAYMAQ – GÖZÜAÇIQ** – Görmürsən, *maymağın* biridir (M.İbrahimov); Yəqin o şofer bacarıqlı adamdır, *gözüaçıqdır* (M.İbrahimov).

**MAYMAQLIQ – GÖZÜAÇIQLIQ** *Maymaqlıqdan* nə çıxar, *gözüaçıqlıq* lazımdır.

**MEHRİBAN – SƏRT** Üzünü Silaya tutub mülayim və *mehriban* səslə dedi (S.Vəliyev); Yollar uzun, mənzil uzaq; *sərt* daşlara dözmür ayaq (R.Rza).

**MEHRİBANÇILIQ – ƏTİACILIQ** O gündən onların arasındakı *mehribançılıq* ədavətə çevrilir (M.İbrahimov); *Ətiacılıq* onun canında var (M.Hüseyn).

**MEHRİBANLAŞMAQ – SƏRTLƏŞMƏK** Günəş *mehribanlaşır*; Bağçada gül üşümür (R.Rza); Mələyin ürəyi *sərtləşirdi* (M.İbrahimov).

**MEHRİBANLIQ – ƏTİACILIQ** Əhməd onun səsindəki süni *mehribanlığı* duydusa da, üstünü vurmadı (İ.Şıxlı); Elə *ətiacılığı* onu hörmətdən salmışdı (S.Qədirzadə).

**MEHRİBANLIQ – SƏRTLİK** Dostun olsa rəşadət; *Mehribanlıq*, ədalət (M.Rahim); Surxayın *sərtlik* və ehtiyatkarlığı ailədən xaricdə özünü göstərirdi (M.İbrahimov).

**MƏCBURİ – KÖNÜLLÜ** Qızcığaz hansı tərəfə qaçsaydı, hər yerdə onu bu cür ağır, *məcburi* əziyyət gözləyirdi (S.Qədirzadə); *Könüllü* dəstəyə qoşuldu ("Azərbaycan").

**MƏCHUL – BƏLLİ** *Məchul* bir vahimə ikimizi də sarsıtdı, divara sıxıldıq (M.İbrahimov); Aslan yatışından da *bəllidir* (Ata. sözü).

**MƏDAXİL – MƏXARİC** Məgər mənim *mədaxilim* budur? (Ə.Haqverdiyev); Bu da kolxozun *məxaricini* xeyli azaltdı (M.İbrahimov).

**MƏDƏNİ – KOBUD** *Mədəni* adam belə yerlərdə yaşaya bilməz (C.Cabbarlı); Qorxma, sən *kobud* deyilsən axı (M.İbrahimov).

**MƏDƏNİLİK – ƏDƏBSİZLİK** Oğlan *mədəniliyindən* başını aşağı saldı və cavab vermədi (Ə.Vəliyev); Danışanın sözünü kəsmək *ədəbsizlik* hesab olunurdu (M.İbrahimov).

**MƏDƏNİLİK – KOBUDLUQ** Zeynalın *mədəniliyi* qarşısında donub qaldı (S.Qədirzadə); Hətta bu ahəngdə, səndəki *kobudluğun* xoş gəldiyini bildirən bir məna da vardı (M.İbrahimov).

**MƏDƏNİYYƏT – CƏHALƏT** Orada gördüyü yüksək *mədəniyyət* və tərəqqi nümunələri onu ruhlandırır (F.Qasımzadə); Əl çək bu *cəhalətdən*, ata! (M.İbrahimov).

**MƏDƏNİYYƏTSİZ – TƏRBİYƏLİ** Bacarıqsız, *mədəniyyətsiz* əkinçi vardır (Ə.Vəliyev); *Tərbiyəli* ailədəndir (S.Qədirzadə).

**MƏDƏNİYYƏTSİZLİK – MƏRİFƏTLİLİK** Mən bərkdən danışanları sevmirəm, bunu da bir növ *mədəniyyətsizlik* əlaməti hesab edirəm (S.Qədirzadə); Onun *mərifətliliyinə* gəldikdə demək lazımdır ki, bu cəhətdən o başqalarından seçilir ("Ulduz").

**MƏDH – HƏCV** Xoşlanmaz heç vaxt o *mədhlərdən* (B.Vahabzadə); XIX əsr ədəbiyyatında ayrı-ayrı şəxslərin eyiblərini tənqid edən və fərdi mahiyyət daşıyan *həcv* geniş yayılmışdır (F.Qasımzadə).

**MƏĞLUB – QALİB** Cavanşirin ordu başçısı Qartal, *məğlub* olub geri çəkilir (M.Hüseyn); Dözə bilsən gərək: *qalib* gələ biləsən gərək; Sevincə də, dərdə də (R.Rza).

**MƏĞLUBİYYƏT – QALİBİYYƏT** *Qalibiyyəti* də dadmışdı, *məğlubiyyəti* də (F.Kərimzadə).

**MƏĞRİB – MƏŞRİQ** Tutaq ki, *məşriqdən məğribə* qədər; Mənə xərac verdi bütün ölkələr; Nə olsun? Bədbəxtəm, bədbəxtəm, inan! (S.Vurğun).

**MƏHDUD – GENİŞ** Onun imkanları *geniş* deyil, *məhduddur*.

**MƏHDUDLUQ – GENİŞLİK** Vaxtın *məhdudluğu* onun əl-qolunu bağladı. Burada R.Rza sərbəst şerinin imkan *genişliyi* ilə özünü bir daha büruzə verir.

**MƏHDUDLUQ – SƏRBƏSTLİK** *Məhdudluq* onun bütün arzularını puç etdi (Ə.Vəliyev); Onun duruşunda və görkəmində bir *sərbəstlik* vardı (M.İbrahimov).

**MƏHƏBBƏT – NİFRƏT** *Məhəbbət* sonsuz, *nifrət* dərin (H.Hüseynzadə).

**MƏXFİ – AŞKAR** Doktor, sizə bir işim düşüb, ancaq *məxfidir*, gərək heç kəs bilməsin (C.Əmirov); Sənə açıq deyirəm, dalda bir cür, *aşkarda* başqa cür hərəkət edən adamlar məhəbbətin böyüklüyünü başa düşə bilməzlər (Ə.Vəliyev).

**MƏXRƏC – SURƏT** Kəsr xəttinin altındakı ədəd *məxrəc*, üstündəki ədəd *surət* adlanır.

**MƏKR – MƏHƏBBƏT** *Məkr* onun gözlərində oynayır. *Məhəbbət* mənim gözlərimdə Çandranı xilqətin tacına çevirmişdi (M.İbrahimov).

**MƏKRLİ – MƏHƏBBƏTLİ** H.Turabovun qəhrəmanı qüvvətli xarakterdir: *məkrlidir*, tədbirlidir, amansızdır. Onun *məhəbbətli* nəğmələri dinləyiciləri nəşələndirirdi ("Azərbaycan").

**MƏLAHƏTLİ – CIR** Birdən kişi yaşına uyğun olmayan zil və *məlahətli* səslə oxudu (İ.Şıxlı); Misraların axır kəlmələrində *cır* səsini uzadıb ulayırdı (S.Qədirzadə).

**MƏLUM – MƏCHUL** Onun nəyə işarə vurduğu *məlum* idi (S.Qədirzadə); Lakin sevgisi də adı kimi *məchuldur* (M.S.Ordubadi).

**MƏLUMLUQ – MƏCHULLUQ** Fellərdə *məlumluq* məzmunu felin mənası ilə

bağlıdır. Yoxsa bu *məchulluqdan* nə çıxar? (İ.Şıxlı).

**MƏNA – FORMA** *Məna* sözün məzmunu, daxili cəhəti ilə, *forma* isə sözün zahiri ilə, səs tərkibi ilə əlaqələrdir (H.Həsənov).

**MƏNALI – BOŞ** Çünki Məşədi Kazım ağanın iki *mənalı* sözündən bir şey anlamışdı (M.S.Ordubadi); *Boş* söz niyə danışırsan? (Mir Cəlal).

**MƏNASIZ – MARAQLI** Nə qədər buna *mənasız* xərc vururdular (Ə.Haqverdiyev); Burada işləmək, yaşamaq çox *maraqlıdır*.

**MƏNBƏ – MƏNSƏB** *Mənbə* çayın başlanğıcı, *mənsəb* isə onun başqa bir çaya və dənizə töküldüyü yerdir.

**MƏNƏVİ – CİSMANİ** Sən məndən yaxşı bilirsən ki, *cismani* ölüm *mənəvi* ölümdən qat-qat yaxşıdır (F.Kərimzadə).

**MƏNƏVİ – FİZİKİ** Müharibənin ən gərgin günlərində də o belə dözülməz *mənəvi* əzablar çəkməmişdi (C.Məmmədov); *Fiziki* işdən çoxdan ayrılmışdır (Ə.Vəliyev).

**MƏNƏVİ – MADDİ** Yazılanlar çox olar, bunlara *maddi* və *mənəvi* cəhətdən kömək verilərsə, məqsəd əldə edilər (M.S.Ordubadi).

**MƏNFƏƏT – ZƏRƏR** Tacir ancaq iki şey tanıya bilər: o da *zərər*, bir də *mənfəət* (M.S.Ordubadi).

**MƏNFƏƏTLİ – ZƏRƏRLİ** Ən *mənfəətli* şeydir (Ə.Vəliyev); Çox vermək də az vermək qədər *zərərlidir* (Ə.Vəliyev).

**MƏNFİ – MÜSBƏT** Bəli, *mənfi* atəşə tutulmaqla da *müsbət* müdafiə və təsdiq oluna bilər (M.İbrahimov).

**MƏNFİLİK – MÜSBƏTLİK** Yəni ancaq onun naqis cəhətlərini görmək, *mənfiliyin* təsvirinə aludəlik göstərmək (M.İbrahimov); Əsərin maraqlı və məzmunlu olması onun *müsbətliyidir* (F.Qasımzadə).

**MƏNFUR – GÖZƏL** Pərşana rəzil və *mənfur* göründü (M.İbrahimov); Axı Rasim elə o zaman da *gözəl* idi (M.İbrahimov).

**MƏNFURLUQ – GÖZƏLLİK** Onun *mənfurluğu* rəzilliyindən irəli gəlir ("Ulduz"); *Gözəllik* ondur, doqquzu dondur (Ata. sözü).

**MƏRDANƏ – GİZLİ** *Mərdanə* qardaş qabağında yüz dəfə ölüb dirilsən, yenə azdır (Ə.Haqverdiyev); Yoldaşlar bunu gördükcə aralarındakı *gizli* məhəbbətin uzun sürməsini arzu edirdilər (M.İbrahimov).

**MƏRDANƏLİK – QORXAQLIQ** Ömrün zinətidir, bil: *Mərdanəlik*, dəyanət (M.Rahim); Götürüb baxdıqca *qorxaqlığımdan* utanırdım (Mir Cəlal).

**MƏRDİMAZAR – XEYİRXAH** *Mərdimazarı* axtarmaqla deyil, rast gəlməklədir (Ata. sözü); Təbiəti belədir, *xeyirxahdır* (M.İbrahimov).

**MƏRDİMAZARLIQ – XEYİRXAHLIQ** Axı *mərdimazarlıq* yaxşı şey deyildir (C.Əmirov); – Nə olar, *xeyirxahlıq* pis şey deyil ki (M.İbrahimov).

**MƏRƏKƏ – SAKİTLİK** Danış, danış eşidək gördüyün o *mərəkəni* (S.Rüstəm); Çadıra bir müddət tam *sakitlik* çökdü (S.Qədirzadə).

**MƏRHƏMƏT – QƏZƏB** Kəramət və *mərhəmət* isə böyüklük və geniş qəlbimdən doğur (M.Talıbov); Gör ürəklərində nə boyda kin və *qəzəb* gizlənir (M.İbrahimov).

**MƏRHƏMƏTLİ – İNSAFSIZ** Sanki o *mərhəmətli* kişi həvəslə çalışan toxucuya baxır, mənalı sükutu ilə ona sözlər deyirdi (Mir Cəlal); O, qansız və *insafsız* adamın sərt üzünə baxıb özünə cürət verirdi (Mir Cəlal).

**MƏRHƏMƏTLİ – QƏZƏBLİ** *Mərhəmətli*, möhtərəm anayadır bu kağız! (S.Rüstəm); İndi *qəzəbli* və səbirsiz onu gözləyirdi (S.S.Axundov).

**MƏRHƏMƏTSİZ – RƏHMLİ** Gülsabah bunu ata gözü yox, *mərhəmətsiz* və soyuq, həyətdəki işığın bir parçası olduğu qənaətinə gəldi (Ə.Vəliyev); Mən də ürəyi *rəhmli* adamam (S.Qədirzadə).

**MƏRHƏMƏTSİZLİK – İNSAFLILIQ** Ona yardım göstərməmək *mərhəmətsizlikdir*. Əlinin *insaflılığı* nəticəsində o darda qalmadı ("Azərbaycan").

**MƏRİFƏTLİ – QANACAQSIZ** *Mərifətli* yoldaşlara canımı da qurban verərəm (İ.Fərzəliyev); Ədəbsizlər, *qanacaqsızlar*, yazıqla nə işiniz var? (Ə.Abbasov).

**MƏRİFƏTSİZ – QANACAQLI** *Qanacaqlı* ailədir (İ.Fərzəliyev); Belə *mərifətsizləri* sözlə tərbiyə etmək heyvana ali təhsil verməkdən çətindir (S.Qədirzadə).

**MƏRKƏZ – UCQAR** Məni o yerin *mərkəzi* və şənbə bazarı olan Qəssan qəsəbəsinə sürdülər (M.Talıbov); Azərbaycanın ən *ucqar* rayonlarından biri də Xocavənddir.

**MƏTİN – ZƏİF** Ceyran cəsur, *mətin*, qəhrəman bir qadın idi (S.Hüseyn); Sözün açığı, yoldaşlar, rəhbərlik *zəifdir* (M.İbrahimov).

**MƏTİNLİLİK – ZƏİFLİK** *Mətinlilik*, dözümlülük inqilabçı üçün səciyyəvi xüsusiyyətlərdir. Özünün *zəifliyini* hiss etdi (Mir Cəlal).

**MƏYUS – MƏSUD** Bir gün olacaqsan, inan ki, *məyus* (S.Rüstəm); *Məsud* və xoş baxışları ilə oğlunun hərəkətlərini izləyirdi (Mir Cəlal).

**MƏYUSLAŞMAQ – ŞADLANMAQ** Bayatının sözləri onu daha da *məyuslaşdırdı* (İ.Şıxlı); Sevinən ürəklər *şadlandı*, gülən gözlər şənləndi (S.Qədirzadə).

**MƏYUSLUQ – ŞADLIQ** Bu qadının çöhrəsində bir *məyusluq* göründü (S.S.Axundov); Getdikcə sərbəstlik, *şadlıq*, hay-küy artırdı (M.İbrahimov).

**MƏZƏLİ – QARAQABAQ** Siz nə *məzəli* oğlansınız (S.Vəliyev); Bilirsənmi, Zaxar qardaş, Həsən yaman *qaraqabaq* oğlandır (İ.Şıxlı).

**MƏZƏLİLİK – QARAQABAQLIQ** – Özünü *məzəliliyə* qoydun, bəsdir! (M.İbrahimov); Onun *qaraqabaqlığı* bizi narahat edir (Ə.Vəliyev).

**MƏZƏMMƏT – TƏRİF** Ceyran qara, parlaq gözlərindəki ağır *məzəmmətli* ox kimi ovçunun qəlbinə sancdı (C.Məmmədov); Alim və bilikli adamların *tərifini* qazandı (M.İbrahimov).

**MƏZƏMMƏTLƏMƏK – TƏRİFLƏMƏK** ...Xanpərini danlayır, *məzəmmətləyir*, axırda da ona məsləhət görürdülər ki, adamlardan aralanmasın, öyrətsin (Ə.Vəliyev); O hey dostunu *tərifləyir* ("Ulduz").

**MƏZƏMMƏTLİ – TƏRİFLİ** Adam onun *məzəmmətli* sözlərini eşitməmək üçün baş götürüb getmək istəyir (Ə.Vəliyev); Sənin *tərifli* briqadirin Bayramı Əziz mənim göstərişimlə işdən götürmüşdür (Ə.Vəliyev).

**MƏZHƏKƏLİ – FACİƏLİ** O, *məzhəkəli* əsərlərin müəllifi kimi tanınır (F.Qasımzadə); Bura *faciəli* teatr tamaşasını xatırladır (S.Vəliyev).

**MƏZLUM – ZALIM** *Məzlumlar* da, *zalımlar* da Rusiya təbəəsi olmaq və konsulxana himayəsinə girməyə öyrənmişdi (M.S.Ordubadi).

**MƏZLUMLUQ – ZALIMLIQ** Üzünə zillənmiş gözlərdə qəzəb, nifrət qarışıq bir *məzlumluq* vardı (İ.Şıxlı); *Zalımlığı* ilə şöhrət tapmışdı (S.Qədirzadə).

**MƏZMUN – FORMA** Şeirlərində *məzmuna* müvafiq *forma* tapırdı: təşbeh, istiarə və s. bədii məcazları həmişə *məzmuna* uyğun şəkildə seçirdi (F.Qasımzadə).

**MƏZMUNLU – CANSIXICI** Öz dövrünün ictimai eyiblərini dolğun, *məzmunlu* satiraları ilə tənqid atəşinə tutmuşdu (F.Qasımzadə); Hər şey *cansıxıcıdır* (M.İbrahimov).

**MƏZMUNSUZ – MƏNALI** Söhbətlər çox qırıq və *məzmunsuz* idi (M.S.Ordubadi); Komediyanın sonu *mənalı* bir finalla qurtarır (F.Qasımzadə).

**MİNMƏK – ENMƏK** Oho var, dağa *mindirər*, oho var, dağdan *endirər* (Ata. sözü).

**MİSKİN – XOŞBƏXT** O cür zavallı, *miskin* adamlara mənim həmişə yazığım gəlib (M.İbrahimov); Ah, sən nə *xoşbəxt* uşaqsan (S.S.Axundov).

**MİSKİNLİK – XOŞBƏXTLİK** Mənim nanəcibliyindən yoxsulluğa, *miskinliyə* giriftar olmuş bu bir neçə adama rast gəldiyim üçün şükür etdim (M.Talıbov); Sizə *xoşbəxtlik* üz verib, mehriban yaşayın (Mir Cəlal).

**MISMIRIQ – XOŞSİFƏT** Atam yenə nə olub *mısmırığı* yerlə sürünür? (S.Qədirzadə); Bu *xoşsifət* adam niyə Pavlosuz, parolsuz gəlib (S.Vəliyev).

**MONOLOQ – DİALOQ** Əsərin ekspozisiyasında verilən Heydər bəyin bu *monoloqu* çox maraqlıdır (F.Qasımzadə); Sabirin “İki həpənd” şeri *dialoqun* ən yaxşı nümunəsidir.

**MÖCÜZƏ – ADİ** Ay kişi, lap *möcüzədir* ki! (M.İbrahimov); Hər tərəfə işıq saçanda artıq motor *adi* yeknəsəq səsi ilə fırlanırdı (M.Hüseyn).

**MÖCÜZƏLİ – ADİ** *Möcüzəli*, yaz havalı, davamlı bir səs dalğası haradansa harasa axıb gedirdi (S.Sərxanlı); Yarış isə *adi* iş gününün qanadıdır (S.Sərxanlı).

**MÖHKƏM – ZƏİF** Mənim başım da, *möhkəm* qollarım da var (Ə.Haqverdiyev); Lakin ruzigar lalənin ləçəyini tökərsə: suçlu *zəif* laləni, qüvvətli ruzigarımdır (R.Rza).

**MÖHKƏMLƏNMƏK – BOŞALMAQ** Sülh ordusu getdikcə *möhkəmlənir* (İ.Şıxlı); Əvvəldən yaxşı demişdi, sonra birdən *boşaldı* (M.F.Axundzadə).

**MÖHKƏMLƏNMƏK – ZƏİFLƏMƏK** Bəli əsəblərim *möhkəmləşir*, möhtərəm təbiblərim (S.S.Axundov); Əsəb sistemi xeyli *zəifləmişdir* (M.İbrahimov).

**MÖHKƏMLƏTMƏK – BOŞALTMAQ** Körpə ağacların dibini *boşaltmaq* yox, *möhkəmlətmək* lazımdır ki, külək onları kökündən çıxartmasın.

**MÖHKƏMLƏTMƏK – SARSITMAQ** Bu çarpışma onun iradəsini *möhkəmlətdi* (Mir Cəlal); Bu fikir qıza rahatlıq vermir, onun bütün iradəsini *sarsıdırdı* (C.Əmirov).

**MÖHKƏMLƏTMƏK – ZƏİFLƏTMƏK** Öz mövqeyini *möhkəmlətdi* (M.Hüseyn); Bu bir ayda fikir məni xeyli *zəiflətdi*, rəngim ağardı (M.İbrahimov).

**MÖHKƏMLİK – BOŞLUQ** Zivər gənclikdən *möhkəmlik*, diqqət və gözəl mənəvi keyfiyyət görməyincə təslim olmur (S.Qədirzadə); İş *boşluq* sevmir.

**MÖHKƏMLİK – ZƏİFLİK** Səndələdisə də, özünü topladı, *möhkəmliyini* itirmədi (Mir Cəlal); O ilk həmlədə *zəifliyini* hiss etdi (Mir Cəlal).

**MÖMİN – ATEİST** Ateizm tərəfdarı olan şəxsə *ateist* deyilir. Çölləri seyr edirdi: olmuşdu *mömin* bəndə (A.Şaiq).

**MÖVCUDİYYƏT – YOXLUQ** *Mövcudiyyəti* heç kəs inkar edə bilməz. Qaynım həmişəki kimi indi də Midhədin *yoxluğunu* mənə hiss etdirməyə çalışırdı (M.Hüseyn).

**MÖVHUMAT – ATEİZM** Bu olar! Bu olmaz! Bu *ateizm*, bu *mövhumatdır* (R.Rza).

**MURDAR – TƏMİZ** *Murdar* əskiyə od düşməz (Ata. sözü); Kərim dayı Rəfiqə xanım kimi səliqəli, *təmiz* və nəcib bir xanıma ikiqat bükülüb əzilmiş jurnal vermək istəmirdi (M.İbrahimov).

**MURDARLAMAQ – TƏMİZLƏMƏK** Kafir oğlu bunu mənə qabaqca de, mən də əlimi *murdarlamayım* (Ə.Haqverdiyev); Yoxlamış və silib *təmizləmişdi* (S.Qədirzadə).

**MURDARLIQ – TƏMİZLİK** Su *murdarlıq* götürməz (Ata. sözü); *Təmizlik*, sədaqət, əxlaq başqa şeydir, bunlara dəxli yoxdur (M.İbrahimov).

**MÜASİR – KÖHNƏ** Həmin kənddə *müasir* gənclərin tələblərini ödəyən hər cür şərait yaradılmışdır. Bilirəm, *köhnədir* eşqin dastanı; Ondan taleyini qurtaran hanı? (R.Rza).

**MÜASİRLƏŞMƏK – KÖHNƏLƏŞMƏK** Bir sıra məsələlərə münasibət *müasirləşmişdi*. İlin axırında yoldaş aqronom görər ki, *köhnələr* nə edir, yenilər nə cür köhnəlir (Ə.Vəliyev).

**MÜASİRLİK – QƏDİMLİK** B.Vahabzadənin başqa kamil cəhətlərindən biri də odur ki, şair öz əsərlərində tarixi *müasirlik* qədər yaşada bilir (Ç.Aytmatov); Nə qədər ki, Dədə palıd burdadı, Bağır dünyanın *qədimliyinə* də, ədəbiliyinə də inanır (İ.Məlikzadə).

**MÜBARİZ – ƏFƏL** O, Zaranı xatırladıqda, özünü daha qüvvətli, daha *mübariz* bir adam kimi hiss edərdi (S.Vəliyev); Çalış bacarıqsız, *əfəl* adamlar olsun (İ.Fərzəliyev).

**MÜCƏRRƏD – KONKRET** *Mücərrəd* mühakimələr və ümumi fərziyyələr onlar üçün əhəmiyyətsizdir (M.Talıbov); Deyəsən, *konkret* cavabdan uzaq düşdüm.

**MÜCƏRRƏDLİK – KONKRETLİK** ...Ayrı-ayrı surət və xarakterləri səciyyələndirərkən *mücərrədliyə* və sxematizmə yol verməmiş, hər surəti öz fərdi xüsusiyyəti ilə canlandırmışdır (F.Qasımzadə); Əsərdə *konkretlik* yoxdur (F.Qasımzadə).

**MÜDRİK – SƏFEH** Təbiəti etibarilə xoşxasiyyət, bir qədər *müdrik* və baməzə adamdır (M.İbrahimov); Amma lotular mənim bu *səfeh* ağamı yaxşı tovlayıb tapıblar (S.S.Axundov).

**MÜDRİKLƏŞMƏK – SƏFEHLƏŞMƏK** Bizim əsr *müdrikləşib*, yaşa dolub (C.Novruz); *Səfehləşmə*, ağlını başına yığ (“Ulduz”).

**MÜDRİKLİK – SƏFEHLİK** Mənim ürəyimi dağ boyda eləyən ağsaqqalın *müdrikliyidir* (F.Kərimzadə); O da öz *səfehliyinin* yox, sadəliyinin güdazına gedir (F.Kərimzadə).

**MÜFƏSSƏL – QISA** Deyirəm, nə varsa, *müfəssəl* danış! (S.Vurğun); Sual *qısa* və aydın olduğu üçün cavab da eyni dərəcədə *qısa* və aydın olmalı idi (M.Hüseyn).

**MÜFLİS – VARLI** Qalanları, yəni milyonlarla adam əslində yoxsul və *müflisdir* (M.Talıbov); *Varlı* kisəsini döyür, kasıb dizini (Ata. sözü).

**MÜFLİSLƏŞMƏK – VARLANMAQ** İndi Heydər bəy elə *müflisləşmişdir* ki, toy etməyə pulu yoxdur (F.Qasımzadə); Onun yeganə məqsədi pul yığmaq, *varlanmaqdır* (F.Qasımzadə).

**MÜFTƏ – PULLU Müftə** sirkə baldan şirindir (Ata. sözü); *Pulludur*, havayı deyildir.

**MÜFTƏXOR – ZƏHMƏTKEŞ** Özgənin zəhməti ilə çörək yeyənlərə *müftəxor* deyirlər (Ə.Haqverdiyev); Biz deyirik: “Hamı millətlərin *zəhmətkeşləri* qardaşdırlar” (H.Nəzərli).

**MÜFTƏXORLUQ – ZƏHMƏTSEVƏRLİK** *Müftəxorluq* nə gözəl peşə idi, tutmuş idim (M.Ə.Sabir); Müəllimlər öz şagirdlərini *zəhmətsevərlik* ruhunda tərbiyə etməlidirlər.

**MÜHARİBƏ – SÜLH** *Müharibə* hamıya bədbəxtlik gətirir (S.Vəliyev); [Bağır xan:] Biz düşmənin *sülh* təklifini qəbul etməklə, sülhpərvər dünyanın məhəbbətini daha artıq qazana bilərik (M.S.Ordubadi).

**MÜXƏNNƏT – SADİQ** İgid ölər adı qalar, *müxənnətin* nəyi qalar (Ata. sözü); Dosta, ailəyə *sadiq* adamdır (“Ulduz”).

**MÜXƏNNƏTLİK – SADİQLİK** – O nadürüstün əlindən hər *müxənnətlik* gələr, yoldaş komissar! (M.Hüseyn); Onun ən yaxşı cəhətlərindən biri də dosta *sadiqliyidir* (“Azərbaycan”).

**MÜXTƏSƏR – GENİŞ** O, Səmədə *müxtəsər* bir cavab verdi (Ə.Vəliyev); Ev böyük; *Geniş* pəncərəli, qapılı (R.Rza).

**MÜKALİMƏ – MONOLOQ** *Mükalimə* iki adam arasında gedən söhbət, *monoloq* isə bir adamın söylədiyi nitqdir.

**MÜKƏDDƏR – SEVİNC** Yenə də diqqətli, xeyli *mükəddər*; Yanaşıb qızına “can bala” dedi (M.Rahim); İndi isə *sevinc* hədsizdi (Ə.Vəliyev).

**MÜKƏMMƏL – ZƏİF** Fizikanı yaxşı bildiyi üçün Məmməd çox asanlıqla, həm də tezcə bu bəhsi də *mükəmməl* öyrənib mənimsəyərdi (Ə.Əbülhəsən); Neyləyim, qüdrətim *zəifdir* hələ; Görüm təbiətin kor olsun gözü! (S.Vurğun).

**MÜLAYİM – SƏRT** Finlandiyanın *sərt* qışı şəraitindən xəstələnmiş polkovnik Ə.Əliyev *mülayim* qurşağa göndərilir.

**MÜLAYİM – ZƏHMLİ** Yədulla *mülayim* səslə soruşdu (C.Əmirov); Cahandar ağa *zəhmli* baxışlarını nökərlərin üzünə zillədi (İ.Şıxlı).

**MÜLAYİMLƏŞMƏK – SƏRTLƏŞMƏK** Rüstəm getdikcə *sərtləşir*, heç kəsin fikrinə qulaq asmaq istəmirdi (M.İbrahimov); Balacaya birdən-birə elə gəldi ki, Daşdəmirin baxışları yumşaldı, *mülayimləşdi* (G.Hüseynoğlu).

**MÜLAYİMLİK – KOBUDLUQ** Mən *mülayimlik* və mətanət göstərdiyim üçün əsirlikdə əziyyət çəkmədim (M.Talıbov); Onun sözləri sanki Qaraşın soyuq rəftarının, *kobudluğunun* izlərini silib apardı (M.İbrahimov).

**MÜLAYİMLİK – SƏRTLİK** O saat səsinə *mülayimlik* gəldi (Çəmənzəminli); Xanım bu acı və istehza ilə dolu sözlərə Güləbətinin bu vaxta qədər görmədiyi bir *sərtlik* və qətiyyətlə son qoydu (M.İbrahimov).

**MÜNAQİŞƏ – SÜLH** Onların arasındakı *münaqişə* uzun sürmədi (H.Nadir); Hamı *sülh* istəyir (Mir Cəlal).

**MÜNTƏZƏM – HƏRDƏNBİR** Onu *müntəzəm* surətdə becərmək, həm də becərmək deyil, nazını çəkmək lazımdır (Ə.Vəliyev); *Hərdənbir* imkan düşəndə Mərdəkandan Moskvaya gül də aparıram (C.Əmirov).

**MÜNTƏZƏM – VAXTAŞIRI** Petrus sol ayağı üstə geri dönüb *müntəzəm* addımlarla uzaqlaşdı (M.İbrahimov); Anam *vaxtaşırı* məni başa çıxırdı (S.Qədirzadə).

**MÜRƏKKƏB – ASAN** Mən miss Hanna ilə bu kimi *mürəkkəb* bir məsələ ətrafında mübahisəyə girmək istəmirdim (M.S.Ordubadi); Silvionun dueli indiki vuruşmadan çox *asandır* (M.Hüseyn).

**MÜRƏKKƏB – SADƏ** Cümlə quruluşuna görə *sadə* və ya *mürəkkəb* olur.

**MÜRƏKKƏBLƏŞMƏK – ASANLAŞMAQ** Əvvəllər çox adi saydığım məsələlər indi onun zehnində birdən-birə *mürəkkəbləşir*, onun iradəsini, mətanətini zəiflədirdi (M.Hüseyn); Mən dərsinizi *asanlaşdıraram* (M.Hüseyn).

**MÜRƏKKƏBLƏŞMƏK – SADƏLƏŞMƏK** Sonradan məsələ getdikcə *mürəkkəbləşdi* və heç də onun düşündüyü kimi olmadı (S.Qədirzadə); Həmişə rəsmi, yekəxana, quru görünən raykom katibi adiləşir, *sadələşirdi* (B.Bayramov).

**MÜRƏKKƏBLİK – ASANLIQ** İşin *mürəkkəbliyi* və ya *asanlığı* icraçının işə münasibətindən asılıdır.

**MÜRƏKKƏBLİK – SADƏLİK** Kərim həyat hadisələrinin *mürəkkəbliyini* və dolaşıqlığını düşündüyü zaman elə bilir ki, onu dərin və çıxılmaz bir quyuya atmışlar (M.İbrahimov); Xaspolad onların heyrətinə səbəb olan bir *sadəlik* və yüngüllüklə dedi (M.İbrahimov).

**MÜRTƏCE – QABAQCIL** Mənim fikrimcə, qorxu son dərəcə də *mürtəce* bir hissdir (M.Hüseyn); Çar hökuməti *qabaqcıl* fikirli adamları nəzarətsiz qoymurdu.

**MÜRTƏCE – MÜTƏRƏQQİ** Qan-qan deyir yollara satılmış *mürtəcelər* (S.Rüstəm); Mərəndin *mütərəqqi* və sülhsevər adamları da bu bayramı birinci dəfə olaraq azad və sıxıntısız keçirmək üçün hazırlıq görürdülər (M.İbrahimov).

**MÜSİBƏT – SƏADƏT** Dörd milyondan artıq əhalinin *səadəti* də, *müsibəti* də məndən asılıdır (M.S.Ordubadi).

**MÜSTƏBİD – ZAVALLI** *Müstəbiddir*, cəlladdır, qaniçəndir, kütbaşdır (M.İbrahi-

mov); Mən ürəyimdə heyifsiləndim ki, *zavallı* qızı məktəbdən məhrum edəcəklər (T.Ş.Simürğ).

**MÜSTƏBİDLİK – ZAVALLILIQ** *Müstəbidlik* onun təbiətində idi (M.İbrahimov); Onun *zavallılığına* ürəkdən heyifsiləndim (“Azərbaycan”).

**MÜSTƏQİL – ASILI** Ona görə də, ay uşaqlar, mən *müstəqil* bir iş istəyirəm (İ.Fərzəliyev); Hamısı bizdən *asılıdır* (Mir Cəlal).

**MÜSTƏQİLLİK – TABEÇİLİK** *Müstəqillik* ona sərbəst hərəkət etməyə imkan verir (M.Talıbov); Yaxud da *tabeçilik* və yalanı eşidib təsdiq etməkdən ibarətdir (M.Talıbov).

**MÜŞKÜL – ASAN** Rədd ol, həll edərəm özüm *müşkülü*! (M.Rahim); Bundan *asan* şey yoxdur (S.Vəliyev).

**MÜTƏRƏQQİ – MÜHAFİZƏKAR** Lakin o bütün bu məhdud və ziddiyyətli cəhətləri ilə, zəif və passiv etirazları ilə bərabər, öz dövrü üçün yeni və *mütərəqqi* bir simadır (F.Qasımzadə); O, *mühafizəkar* adamların hücumuna məruz qalır (F.Qasımzadə).

**MÜTİ – ASUDƏ** Yeja sifətinə *müti* bir ifadə verməyə çalışdı (S.Vəliyev); *Asudə* gəzin indi bu dünyanı, uşaqlar! (M.Ə.Sabir).

**MÜTİLİK – ASUDƏLİK** Demə, gözə görünən sakitlik, susqunluq və *mütilik* aldadıcı bir pərdə imiş (M.İbrahimov); *Asudəlik* istərsən, dünyadan uşaqlaş sən; Keçmişlərə et tövbə, təqsirinə peşman ol (Heyran xanım).

**MÜTLƏQ – NİSBİ** Bilin, yoxsulluq iki cürədir: *mütləq* yoxsulluq və *nisbi* yoxsulluq (M.Talıbov).

**MÜTTƏFİQ – RƏQİB** Axı indi müharibə bizimlə *müttəfiqlərin* arasındadır (S.Vəliyev); *Rəqiblər* arasında saziş bağlandı.

**MÜVƏFFƏQİYYƏTSİZLİK – UĞURLULUQ** Kapitan ilk nəzərdən leytenant Stepanovanın *müvəffəqiyyətsizliyə* uğradığını başa düşdü (C.Əmirov); İşin *uğurluluğu* hamımızın ürəyindəndir.

# Nn

**NADAN – AĞILLI** *Ağıllı* düşmən *nadan* dostdan yaxşıdır (Ata. sözü).

**NADAN – MƏDƏNİ** *Nadan* atadan qız nə tərbiyə götürə bilər (S.S.Axundov); O, *mədəni* bir ailədə boy atmışdı ("Azərbaycan").

**NADANLIQ – MƏDƏNİLİK** Bir çoxları *nadanlıq*; Pəncəsində sıxıldı (H.Cavid); *Mədənilik* xalqın qəfil yuxusundan oyanmasına səbəb olur ("Ulduz").

**NADİNC – SAKİT** *Sakitdir*, *nadinc* deyil (M.Talıbov).

**NADİR – KÜTLƏVİ** *Nadir* malların çoxunu müdir özünə yaxın olan mağazalar arasında bölüşdürürdü (C.Əmirov); Bakıda *kütləvi* malların sərgisinin açılışı olacaqdır.

**NADÜRÜST – MƏRD** A *nadürüst* balası; sən dedin ki, mən də başa düşəm (S.S.Axundov); Türkün zatındadır kişilik, *mərdlik*; O, öz düşmənini vurmaz arxadan (B.Vahabzadə).

**NADÜRÜSTLÜK – MƏRDLİK** İki nəfər arasında zahiri dostluğun daimiliyi üçün mütləq yalan və *nadürüstlük* lazımdır (M.Talıbov); Əsil *mərdlik* timsalıdır ("Azərbaycan").

**NAĞD – BORC** Bu gün nisyədir, sabah *nağd* ola bilər (M.Hüseyn); *Borc* verməklə tükənər, yol getməklə tükənməz (Ata. sözü).

**NAĞD – NİSYƏ** *Nağdı* qoyub *nisyənin* dalınca düşmə (Ata. sözü).

**NAHAMAR – DÜZ** Ən yazıq, ən kiçik; *Nahamar* bir daşın ömrünə; Min insan ömrü də bərabər deyildir (R.Rza); *Düz* yol gedən yorulmaz (Ata. sözü).

**NAXOŞ – SALAMAT** Dünyada qoca, ya cavan nə gəzir? Bir *naxoş* var, bir *salamat* (Ə.Haqverdiyev).

**NAXOŞLUQ – SALAMATLIQ** Bəs eşitdim mallarda *naxoşluq* var imiş (Ə.Haqverdiyev); Danış görək şəhərdə daha nə var, *salamatlıqdır*? (C.Əmirov).

**NAİNSAF – RƏHMLİ** *Nainsafın* kəli qaçar (Ata. sözü); *Rəhmli* adamların işi uğurlu olur.

**NAQİS – KAMİL** Bu yaşa gəlmişəm, məndən bir pis söz, bəd hərəkət, *naqis* əməl görməmisiniz və eşitməmisiniz (Ə.Vəliyev); *Kamil* bir şəxsdir (M.İbrahimov).

**NAMƏRD – CƏSARƏTLİ** *Namərd* gəlib mərd olmaz (Ata. sözü); Kolxoz sədrinin səmimi etirafı, doğru danışması, *cəsarətli* fikri onu fərəhləndirdi (Ə.Vəliyev).

**NAMUSLU – HƏYASIZ** Ağıllı və *namuslu* adamlar bu böhtanlara inanmazlar (M.İbrahimov); Bıyy, nə *həyasız* kişidir, içəriyə niyə baxır? (M.Hüseyn).

**NAMUSSUZ – TƏRBİYƏLİ** Xanın nökəri sənin kimi *namussuzlardır* (A.Şaiq); *Tərbiyəli* oğlandır, ana, bir qrupda oxuyuruq (İ.Fərzəliyev).

**NANƏCİB – LƏYAQƏTLİ** *Nanəcibdən* ağa olmaz, təkədən qoç (Ata. sözü); Çox *ləyaqətli* yoldaşdır (M.Hüseyn).

**NANƏCİBLİK – LƏYAQƏTLİLİK** Mənim *nanəcibliyimdən* yoxsulluğa, miskinliyə giriftar olmuş bu bir neçə adama rast gəldiyim üçün şükür etdim (M.Talıbov); O, *ləyaqətliliyi* ilə bizim gözümüzdə ucalır.

**NARAHAT – ARXAYIN** Hər dəfə telefon zəngi eşidəndə Sandrodan bir xəbər veriləcəyini düşünən polkovnik *narahat* idi (S.Qədirzadə); Dərdin elə busa, lap *arxayın* gəz (S.Vurğun).

**NARAHATLAŞMAQ – ARXAYINLAŞMAQ** Oğlunun hərəkətlərini görüncə *narahatlaşır* (Ə.Vəliyev); Siz də Çaxunaşvilini burada görüb *arxayınlaşmısınız* (C.Əmirov).

**NARAHATLIQ – ARXAYINLIQ** *Narahatlığı* daha da çoxaldı (S.Qədirzadə); Bir *arxayınlıq* nəğmələşir könlümüzdə (R.Rza).

**NARIN – İRİ** Şumumuz çox *narındır* (Ə.Vəliyev); Gülşən isə kəsdiyi *iri* bir cimi götürüb arxın alt tərəfinə qoydu və qızlara dedi (Ə.Vəliyev).

**NARINLAŞMAQ – İRİLƏŞMƏK** Qar dənələri getdikcə *narınlaşırdı* (A.Məmmədrza); Havalar quraq keçdiyindən yerdəki çumbuzlar *iriləşirdi*.

**NASAZ – SAĞLAM** Yoldaşım *nasazdır* (M.İbrahimov); Kişi *sağlam*, ağlı başında bir adam idi (M.İbrahimov).

**NAŞI – TƏCRÜBƏLİ** Ailəni iki nəfər *naşı* və həyata təzəcə atılan, eyni zamanda bir-birini sevən iki adam qurmağa məcburdur (M.S.Ordubadi); Əlbəttə, o *təcrübəlidir* (C.Əmirov).

**NATAMAM – BÜTÖV** Hamısı *natamamdır* (S.Rüstəm); Hələ kəsilməyib, *bütövdür* (Ə.Vəliyev).

**NAZİK – QABA** Mənim bu *qaba* ürəyimdə *nazik* hisslər günü-gündən artmaqdadır (Ə.Haqverdiyev).

**NAZİKLƏŞMƏK – QALINLAŞMAQ** İstilər düşdükcə novdan donmuş su *nazikləşir*, əriyib yox olur (Ə.Vəliyev); İndi suyu sovulmuş dəyirman get-gedə soyuyur, novdan tökülən su donur, buz *qalınlaşırdı* (Ə.Vəliyev).

**NƏCİB – KOBUD** Cahangir ağa kimi *nəcib* ağa heç bir oymaqda tapılar? (Ə.Haqverdiyev); Ürəyim sanki *kobud* bir pəncənin sərt barmaqları arasında cənglənir (S.Qədirzadə).

**NƏCİBLİK – KOBUDLUQ** *Nəciblik* həməndir, hünər o hünər; Günəşdən istilik, işıq alaram (M.Rahim); Burada *kobudluq*, etinasızlıq, dönüklük – hər şey vardır (M.İbrahimov).

**NƏHƏNG – BALACA** *Nəhəng* bir xeyli şaha baxdı (İ.Şıxlı); Çənəsi yumru, burnu *balaca* idi (S.Qədirzadə).

**NƏM – QUPQURU** Kibrit evin rütubətindən *nəm* çəkmişdi (S.Vəliyev); Kişi əlini bədəninə çəkdi, *qupquru* olduğunu görüb paltarını geyindi (İ.Şıxlı).

**NƏM – QURU** Yaxşı ki, hər yer *nəmdir*, ləpirlər yaxşı görünəcək (C.Əmirov); İnəyin dərisi *quru* idi (C.Əmirov).

**NƏMİŞLİK – QURAQLIQ** Bu il, qızım, türkün sözü, *nəmişlik* olmadı, havalar, türkün sözü, quru keçdi, mən də borca düşmüşəm (C.Cabbarlı); Bu il *quraqlıq* keçir.

**NƏMLİ – QURU** Məlul baxır Mərmərə; Göy gözləri *nəmlidir* (M.Rahim); Hava *qurudur* (Ə.Vəliyev).

**NƏŞƏ – CƏFA** Quşlar verər səs-səsə: *Nəşə* gələr hər kəsə (A.Şaiq); Dosta bir belə bəla, *cəfa* vermək rəvadır? (S.S.Axundov).

**NƏŞƏ – KƏDƏR** Sabahın mənə *kədər* və ya *nəşə* gətirməsinin əhəmiyyəti yoxdu (M.İbrahimov).

**NƏŞƏ – MÜSİBƏT** Sonsuz *nəşə* duyuram bu sonsuz gəzhagəzdən (S.Rüstəm); Sizin *müsibətiniz* olduqca ağırdır (M.S.Ordubadi).

**NƏŞƏLƏNMƏK – KƏDƏRLƏNMƏK** Qız artıq *nəşələnmişdi*, içir və oxuyurdu (M.S.Ordubadi); O özü də *kədərlənmişdi* (M.Hüseyn).

**NƏŞƏLİ – CƏFALI** Uzaqdan dadlı, *nəşəli*, yaxından zəhərli, *cəfalı*, bəlalı ömrü puç edən bir şeydir (S.S.Axundov).

**NƏŞƏLİ – DƏRDLİ** Bu gün *nəşəlidir* söylədiyim qız (S.Vurğun); Gözlərindən görürəm ki, *dərdlisən* (C.Əmirov).

**NƏTİCƏ – BAŞLANĞIC** *Nəticədə* kişi peşələrinin sayı xeyli artar. Ancaq *başlanğıc* üçün bu heç də pis deyil (Ə.Əbülhəsən).

**NƏZAKƏTLİ – KOBUD** Rəisin *nəzakətli* ədaları Məşədibəyi təəccübləndirmədi (M.Hüseyn); Çox *kobud* adamdır (M.Hüseyn).

**NƏZAKƏTSİZ – LƏYAQƏTLİ** Heç bir *nəzakətsiz* söz tapa bilmədim (Mir Cəlal); O, *ləyaqətli* adamdır.

**NƏZAKƏTSİZLİK – QANACAQLILIQ** Demərəm, bilirsiniz ki, qadından onun

yaşını soruşmaq *nəzakətsizlikdir* (C.Əmirov); *Qanacaqlılığı* onun kollektiv arasında hörmətini artırır.

**NƏZƏRİ – TƏCRÜBİ** Dərsin *nəzəri* məsələləri *təcrübi* məşğələlərdə şərh olunmalıdır.

**NƏZƏRİYYƏ – PRAKTİKA** *Nəzəriyyə* ilə *praktika* bir-birini tamamlayır. Nəzəriyyə praktikasız kordur, praktikasız nəzəriyyə heçdir.

**NİCAT – FƏLAKƏT** *Nicat* və mərhəmət qapıları açılmadı (M.İbrahimov); Onların bütün hərəkətləri böyük bir *fəlakət* bildirirdi (M.İbrahimov).

**NİFRƏT – MƏHƏBBƏT** *Məhəbbət* və *nifrətdən* başqa laqeydlik də var (A.Məmmədov).

**NİFRƏT – RƏĞBƏT** Rəsulovun bu baxışında həm maraq, həm də *nifrət* oxunurdu (C.Əmirov); Əsər tamaşaçıların *rəğbətini* qazanmışdı.

**NİKBİN – BƏDBİN** Aslan düşərgədə də belə xəyalpərvər və *nikbin* idi (S.Vəliyev); Həsən təbiətin *bədbin* və hövsələsiz bir adamı idi (Çəmənzəminli).

**NİKBİNLƏŞMƏK – BƏDBİNLƏŞMƏK** *Nikbinləşməyə* əsas vardır. Günəş də bunu görüb ümidini kəsir, *bədbinləşir*, bəxtinə lənət oxuyurdu (Ə.Vəliyev).

**NİKBİNLİK – BƏDBİNLİK** Vaqiflə Vidadinin məşhur "Deyişmə"sində... sevinc ilə kədər, *nikbinliklə bədbinlik*, əqli-ürfani ucalıqla dünyəvi eşq qarşılaşır (Ə.Səfərli).

**NİMDAŞ – TƏZƏ** Sən bir dayan, bir baxım görüm bəlkə *nimdaş* bir şey tapa bildim (C.Cabbarlı); – Əlbəttə, *təzə* maşındır (T.Kazımov).

**NİSGİL – SEVİNC** Danış ki, ürəyində qalmasın bir *nisgilin* (S.Rüstəm); Sabirin gözlərində *sevinc* ifadəsi canlandı (M.Hüseyn).

**NİSGİLLİ – NƏŞƏLİ** Onun evə qəlbi *nisgilli* qayıtmasına qıymadı (İ.Şıxlı); *Nəşəli* həyat sürürdü (İ.Fərzəliyev).

**NİZAMİ – POZUQ** Demək, içərimizdə *nizami* əsgər yoxdur (S.Vəliyev); Özünün *pozuq* dəstəsi ilə dağlara dırmaşmağa başladı ("Ulduz").

**NİZAMLAMAQ – POZMAQ** Xətayi öz qoşununu *nizamladı* (M.Ələkbərli); Dəstəni *pozdu* (M.İbrahimov).

**NİZAMLI – POZUQ** İngilis desantı *nizamlı* matros cərgələri ilə sahilə çıxdı (C.Məmmədov); *Pozuq* cərgədir, bir ölçü götürmək lazımdır.

**NORMAL – GİC** Baş adi baş idi, qarşısındakı da *normal* adam idi ("Azərbaycan"); *Gic* toyuq yumurta aparar (Ata. sözü).

**NÖKƏR – AĞA** *Ağa* ilə xanım savaşdı, arada *nökərin* canı çıxdı (Ata. sözü).

**NÖKƏRLİK – BƏYLİK** Lakin bu sevinc... onun tutqun, yoxsulluq və *nökərlik* qayğıları içərisində sönüb getdi (Mir Cəlal); *Bəyliyini* bizə göstərir? (M.İbrahimov).

**NUR – ZƏHRİMAR** Üz-gözündən *nur* tökülür ("Ulduz"); Keşişin qaşqabağından *zəhrimar* tökülürdü (İ.Fərzəliyev).

**NUR – ZÜLMƏT** Sevən ürəklərə eşqin *nur* saçır; Çiçəklər gülümsər günəş doğanda (M.Araz); Tənha qayalara, lal meşələrə; *Zülmət* gecələrdə hayandı Göy göl (M.Araz).

**NURLU – ZÜLMƏTLİ Nurluyam** bir xəzan yarpağı kimi (S.Sərxanlı); Qəfil təzadların sıçrayış yeri; Gah *zülmətli* olub, bu yer, gah işıq (M.Araz).

# Oo

**OBYEKT – SUBYEKT** Fellərin mənaca müxtəlifliyi *subyektin* fellərə qarşı, subyektin *obyektə* qarşı və bir fellə obyekt arasındakı münasibətdən irəli gəlir (M.Hüseynzadə).

**OBYEKTİV – SUBYEKTİV** Dildə omonimlərin mövcudluğu dilçilik ədəbiyyatında *obyektiv* və *subyektiv* amillərlə izah olunur (H.Həsənov).

**OBYEKTİVLİK – SUBYEKTİVLİK** Hadisələri izah edərkən *subyektivliyə* yol vermək olmaz, onlara *obyektivlik* əsasında yanaşılmalıdır.

**ODLU – SÖNÜK** *Odlu* gənc əllaməlik və səbirsizliklə dedi (M.İbrahimov); Yeddi qonşuya da onun *sönük*, lakin təsirli səsi gedərdi (Mir Cəlal).

**OĞRU – DOĞRU** Aləmə *oğruyam*, sənə ki *doğruyam* (Ata. sözü).

**OĞRULUQ – DOĞRULUQ** Niyə verdin fənayə *doğruluğu*; İrtikab eylədin bu *oğruluğu*? (M.Ə.Sabir).

**OXUMUŞ – AVAM** Sən *oxumuş* bir oğlan, *avam* hacılara belə yaraşmayan sözlər danışırsınız (C.Cabbarlı).

**OXUNAQLI – ÇƏTİN** Əsərin dili aydın və *oxunaqlıdır*. Əsərdə *çətin* tələffüz olunan sözlər vardır (“Ulduz”).

**OLMAQ – ÖLMƏK** *Oldu* ilə *öldüyə* çarə yoxdur (Ata. sözü).

**OLUM – ÖLÜM** Hamletin səsi gəldi qulağına: “*Olum*, ya *ölüm*!” R.Rza.

**ONDA – İNDİ** Əgər *onda* mane olurdular, *indi* olmazlar (Mir Cəlal).

**ORA – BURA** *Orada* həyat başqa, *burada* isə bambaşqadır (M.S.Ordubadi).

**ORTA – ALİ** Sabah *orta* məktəbi bitirib *ali* məktəbə girəcəyəm (S.S.Axundov).

**ORTABAB – YOXSUL** Keçmişdə nə varlı, nə də *yoxsul*, nə aşağı, nə də *ortabab* olduğunu bilməyən, həmişə adamlara artıq və şübhəli gözə baxıb duran Vəli kişi soruşdu (M.İbrahimov).

**ORTABOYLU – UCABOYLU** Cahan xanım *ortaboylu* idi (M.İbrahimov); Mən Cavadam, *ucaboylu*; İndi isə kül adamam (C.Novruz).

**ORTADA – QIRAQDA** *Ortada* yeyir, *qıraqda* gəzir (Ata. sözü).

**ORTANCIL – BÖYÜK** Tacirin *ortancıl* oğlu da *böyük* qardaşı kimi cavahiri qırmağa cəsarəti çatmır (A.Şaiq).

**OTURAQ – KÖÇƏRİ** *Oturaq* həyat sürürdülər (“Ulduz”); Qürbətə uçmurmu, *köçəri* quşlar?! (R.Rza).

**OTURMAQ – QALXMAQ** Biri *qalxıb*, o birisi *otururdu* (Mir Cəlal).

**OTURUŞLU – DURUŞLU** Başıaçıq, sakit *duruşlu*, bahar geyimli rus, sanki onun üzünə gülürdü (Mir Cəlal); Sakit *oturuşlu* xanım bu gün gözümə qəmli görünürdü (“Azərbaycan”).

**OYAQ – YATMIŞ** İmir *oyaq* idi (M.Süleymanlı); *Yatmış* uşağı dəli edərsən.

**OYNAQ – SÜST** Danışarkən nazik və *oynaq* qaşları onun çöhrəsini daha da cazibədar edirdi (S.Vəliyev); O bu gün *süst* idi.

**OYNAQLIQ – SÜSTLÜK** Əmin ol ki, Özdəmiri səfil edən həm Afətdir, həm də onun oynaqlığıdır (H.Cavid); *Süstlük* onu qaradinməzləşdirmişdir (“Azərbaycan”).

# Öö

**ÖCƏŞKƏN – SAKİT** *Öcəşkən*, dalaşqan uşaqdır ("Ulduz"); *Sakit*, ağıllı adama oxşayır (S.Qədirzadə).

**ÖCƏŞMƏK – SAKİTLƏŞMƏK** Bir ana şivəni, bir el qayğusu; Bir el şairinin təmiz duyğusu; Və onunla gedən bir *öcəşmədir*; Bir quru səhradan çıxan çeşmədir (M.Müşfiq); Axır ki, *sakitləşdi* (M.Hüseyn).

**ÖGEY – DOĞMA** Dedim *ögey* atadan ata olmaz bunlara (M.Eynullayeva); – Sən mənim *doğma* atamsan! (Ə.Vəliyev).

**ÖGEYLİK – DOĞMALIQ** *Ögeylik* bəllidir başdan, binadan;Qatı düşmənidir ilk məhəbbətin (M.Rahim); Məhərrəm çoxdan eşitmədiyi bu səsdə bir *doğmalıq*, bir nəvaziş axtarırdı (M.Eynullayeva).

**ÖLƏZİMƏK – DƏBƏRMƏK** Artıq kənd ayağındakı cərgə tonqallar *öləziməkdə* idi (S.Qədirzadə); Sönən ocağı bir az *dəbərtdi* (M.Süleymanlı).

**ÖLMƏK – YAŞAMAQ** Bizə *yaşamaq* da, *ölmək* də tanış; Bir az da başqa bir aləmdən danış! (S.Vurğun).

**ÖLÜ – DİRİ** Mən vaxtilə *diri* idim, indi isə bir *ölü* (C.Cabbarlı).

**ÖLÜ – SAĞ** Qurban *sağdır*, amma canı nasazdır (Ə.Haqverdiyev); Barı *ölü* barmaqları kimi; O quru budaqlardan utan! (R.Rza).

**ÖLÜLÜK – DİRİLİK** Min günün *ölülüyündən*, bir günün *diriliyi* yaxşıdır (Ata. sözü).

**ÖLÜVAY – BACARIQLI** *Ölüvay* oğlu, *ölüvay*, dur bir sən də hərəkətə gəl ("Azərbaycan"); Çox *bacarıqlı* qızdır (C.Əmirov).

**ÖLÜVAY – ZİRƏK** Zalım balası çox *ölüvaydır* (İ.Fərzəliyev); Vəfadar qoçaqdı, güclü idi, cəld və *zirəkdi* (M.İbrahimov).

**ÖLÜVAYLIQ – QIVRAQLIQ** Sənin *ölüvaylığın* ucundan bu günə qalmışıq. Bir *qıvraqlıq* yoxdur (Mir Cəlal).

**ÖMÜRLÜK – MÜVƏQQƏTİ** *Ömürlük* bir eşqin yolçusuyuq biz! (S.Vurğun); *Müvəqqəti* çətinlikdir, dözmək lazımdır.

**ÖN – ARXA** Qoy əssin *önümüzdə* yağılar yarpaq kimi (S.Rüstəm); Bu vaxt düşmən *arxama* keçib məni gördü (S.S.Axundov).

**ÖRTMƏK – AÇMAQ** Elə xırman yerlərini də çayır *örtmüşdü* (İ.Şıxlı); Anam *açardı* o kitabı, kədərlənəndə (R.Rza).

**ÖRTÜLÜ – AÇIQ** *Örtülü* süfrənin bir eybi olar, *açıq* süfrənin min eybi (Ata. sözü).

**ÖTƏRİ – DİQQƏTLƏ** Qonşuluq üzündən, görəndə *ötəri* bir salam verərdim (Mir Cəlal); Qulam keçib *diqqətlə* ora baxdı (S.Qədirzadə).

**ÖTÜRMƏK – QARŞILAMAQ** Bayramqabağı qonaqların bir qismini *ötürürdülər*, bəzilərini isə *qarşılayırdılar*.

**ÖZBAŞINA – RƏSMİ** Hələlik Kür dolaşır *özbaşına* (S.Rüstəm); *Rəsmi* evlənmək çox asan işdir (M.İbrahimov).

**ÖZBAŞINALIQ – RƏSMİLİK** Qanunsuzluq, *özbaşınalıq* və vəhşiliklə barışa bilmirdi (S.Şamilov); *Rəsmilik* dairəsində istintaqa başladı (H.Nadir).

**ÖZGƏ – DOĞMA** *Özgə* uşağını saxlamaq bir xəta şeydir (S.S.Axundov); Öz *doğma* millətindən; Qoruyur özgələri (B.Vahabzadə).

**ÖZGƏLƏŞMƏK – DOĞMALAŞMAQ** Gələndə qonaqsan, gedəndə qonaq; Nə tez *özgələşdi* bu ocaq sənə? (B.Vahabzadə); Üç yüz yad şairi *doğmalaşdıran*; Şerindən qüvvətli tərcüməsilə... (X.Rza).

# Pp

**PAKLIQ – ÇİRKİNLİK** Baxdım, baxdım, sifətində mələkə *paklığı* vardı (Çəmənzəminli); Gərək insan aynaya baxsın, görünüşü yaxşıdırsa, işi də görünüşü kimi yaxşı olmalıdır, çünki gözələ *çirkinlik* yaraşmaz… (“Qabusnamə”).

**PARA – BÜTÜN** *Paraya* dəymə, *bütünü* kəsmə, doğra doyunca ye (Ata. sözü).

**PARÇA – BÜTÖV** Qranit *parçası*, kütləsindən ayrılsa da, qranitdir. O, *bütövdən* qəlbidir (R.Rza).

**PARILDAMAQ – SÖNMƏK** Hər şeydən xəbərsiz olan Ay həmişəki kimi *parıldayır*, gecəyə bəzək verirdi (S.Vəliyev); Bu səhnə çox sürməyir, lampa *sönür*, pərdə salınır (Mir Cəlal).

**PAYLAMAQ – YIĞMAQ** Xonçadakı saçaqlı konfetləri xışmalayıb qızlara *payladı* (İ.Şıxlı); Meyvələr ağırlaşır; Şirə *yığır* özünə (O.Sarıvəlli).

**PƏRAKƏNDƏLİK – YIĞCAMLIQ** Tətillər dağınıq gedir hələlik; İnqilab sevməyir *pərakəndəlik* (S.Vurğun); *Yığcamlıq* R.Rza yaradıcılığı üçün səciyyəvidir.

**PƏRİŞAN – XOŞBƏXT** Dünyanın *pərişan* bağında canan; Mən nəğməli bülbül, sən bir baharsan (R.Rza); Özünü *xoşbəxt* adamlar kimi aparırdı (S.Qədirzadə).

**PƏRİŞANLIQ – XOŞBƏXTLİK** Həqiqi yoxsulluq və *pərişanlıq* görməzlər (M.Talıbov); Səndən, oğlum, yeganə xahişim budur: çalış ki, Könülün bu evdən apardığı ən qiymətli cehizi olan *xoşbəxtliyi* itməsin (S.Qədirzadə).

**PƏSDƏN – UCADAN** *Pəsdən* yox, *ucadan* oxumağı xoşlardı.

**PİNTİ – SƏLİQƏLİ** Qış getsə, gəlsə yaz, *pinti* qız üzün yumaz (Ata. sözü); Axşam tarla düşərgəsinin *səliqəli* otağında briqada üzvləri hesabdarın üstü şüşəli iri yazı stolunun ətrafına yığışmışdılar (Ə.Vəliyev).

**PIRPIZ – SIĞALLI** ...*Pırpız* qırmızımtıl saçları eynimdə dumanlandı (S.Qədirzadə); Saçları *sığallı* idi (Ə.Vəliyev).

**PİS – YAXŞI** Qoymayaq *yaxşını* pisləsin *pislər* (R.Rza).

**PİSİKMƏK – ŞİRNİKMƏK** Rüstəm kişi də məsələnin bu tərəfindən yapışıb onu *pisikdirdi* (M.İbrahimov); Elə həmin gündən başlayaraq pula *şirnikib* cibgirliyə başladı (C.Əmirov).

**PİSLƏMƏK – XOŞLAMAQ** Bilirəm, belə *xoşlayırsan* (R.Rza); Sövdələşməni *pisləyirsən*?!

**PİSLƏMƏK – TƏRİFLƏMƏK** Ədhəmi bütün şəhər *tərifləyəndə* Səbrini *pisləyirdi* (M.Hüseyn).

**PİSLƏŞMƏK – YAXŞILAŞMAQ** ...Xəstəxanada yatan arvadının əhvalı getdikcə *pisləşirdi* (S.Qədirzadə); Xəstənin *yaxşılaşması*, irəli gəlməsinin bir səbəbi də onun mənəvi cəhətdən, ruhən dinc və arxayınlığıdır (Mir Cəlal).

**PİSLİK – YAXŞILIQ** Doğrudur, insan *yaxşılıqdan* razı, *pislikdən* narazı olur (M.Talıbov).

**POZĞUN – NAMUSLU** Həlimənin *pozğun* qadın olduğuna öz-özlüyündə yəqinlik hasil edən kapitan Rəsulov söhbəti davam etdirdi (C.Əmirov); Hər *namuslu* oğul, hər namuslu qız; Elin balasıdır, elindir yalnız (S.Vurğun).

**POZUŞMAQ – DÜZƏLİŞMƏK** İndi ki, belə oldu, mən bu işi *pozacağam* (S.S.Axundov); Mən dilim dolaşa-dolaşa söz verdim ki, Dilgüşa ilə tezliklə *düzəlişərik* (Ə.Vəliyev).

**PROLOQ – EPİLOQ** *Proloq* ədəbi əsərdə başlanğıc, giriş, *epiloq* isə ədəbi əsərin son hissəsidir.

**PULLU – KASIB** Çünki onlar *kasıb* deyil, *pulludur* (A.Şaiq).

# Rr

**REAL – XƏYALİ** R.Rza *real* həyati hadisələri qələmə alırdı. ...Körpəlikdə onun üçün yanmaq anlaşılmaz, lap *xəyali* bir şey imiş (M.İbrahimov).

**RƏĞBƏT – KÜFR** Əvvəl *küfrü* ilə qorxudurdu; İndi *rəğbəti* ilə qorxudur (R.Rza).

**RƏĞBƏT – NİFRƏT** Aslan bütün komandir heyəti üzvləri ilə yaxından tanış olmuş və onların böyük *rəğbətini* qazanmışdı (S.Vəliyev); Xalqın qəzəb və *nifrətinin* həddi yox idi (S.Vəliyev).

**RƏHMDİL – ZALIM** Ancaq bilirəm ki, siz *rəhmdil* bir adamsınız (C.Əmirov); Dünyada zindan və *zalım* qalmayacaqdır (M.İbrahimov).

**RƏHMDİLLİK – ZALIMLIQ** *Rəhmdillik* eləyirik, sonra da əzabını çəkirik (S.Vəliyev); Şahın *zalımlığı* hamıya aydın idi.

**RƏHMLİ – İNSAFSIZ** Doğrudan da Rade *rəhmli* adam idi (S.Vəliyev); Ay *insafsız*, yəni sənin hərəkətə gələn vaxtın olmayacaq? (İ.Fərzəliyev).

**RƏHMSİZ – İNSAFLI** Nə üçün şahların çoxu öz rəiyyətlərinə qarşı *rəhmsizdir*? (M.Talıbov); Mən sizi bir *insaflı* adam kimi tanıyıram.

**RƏİYYƏT – BƏY** *Rəiyyət* nə qədər avam olsa, bir elə *bəy* üçün məsləhətdir (Ə.Haqverdiyev).

**RƏİYYƏTLİK – BƏYLİK** Arvad tayfası bir şeydir ki, gözü tutub, ürəyi yapışandan sonra nə *bəylik* axtarır, nə *rəiyyətlik* (Ə.Haqverdiyev).

**RƏSMİ – ADİ** Yəni yük daşımaqdan ötrü mənə *rəsmi* paltar geyindirdilər (M.Talıbov); *Adi* paltarda bizi qarşıladı ("Ulduz").

**RƏŞADƏT – QORXAQLIQ** ...Bu qəhrəman bir daha ayağa qalxmaq, qılınc vurmaq üçün özündə bir mətanət və qüdrət, ruh və *rəşadət* tapacaqdımı? (M.İbrahimov); *Qorxaqlıqda* tayı yoxdur.

**RƏŞADƏTLİ – QORXAQ** Eşq olsun *rəşadətli* Azərbaycan Ordusuna! *Qorxaq* nə zərər edər, nə mənfəət (Ata. sözü).

**RƏZALƏT – FƏZİLƏT** Bu *fəzilət* deyil, *rəzalətdir* (H.Cavid).

**RƏZİL – LƏYAQƏTLİ** Anri lənət yağdırır: *Rəzil* mütləqiyyətə! (B.Vahabzadə); Moskvada *ləyaqətli* bir işə keçdi (M.İbrahimov).

**RİCA – ƏMR** Onu göndər mənə, budur bir *ricam*; Qoy səndən uzaqda duyum iyini (R.Rza); *Əmrinizin* dalını buyurunuz (S.S.Axundov).

**RİYAKAR – HƏYALI** Ancaq ki, *riyakar* gözlərdən uzaq; Aparın, bir çayda basdırın məni! (R.Rza); Özünü *həyalı* bir gəlin kimi aparırdı (İ.Şıxlı).

**RİYAKARLIQ – HƏYALILIQ** Nicat yolunuzu, mahiyyətinizi hiylə və *riyakarlıqda* görürsünüz (M.Talıbov); Onda qız *həyalılığı* vardır (S.Qədirzadə).

**RÜTUBƏTLİ – QURU** Sizin zirzəmi bizimkindən *rütubətlidir* (S.Vəliyev); Oturmağa *quru* yer axtarırdı (Ə.Vəliyev).

# Ss

**SABAH – BU GÜN** *Sabah* tamaşa günüdür, ciddi hazırlaş (S.Vəliyev); Qapının ağzında Qızyetər qarı; Əlləri qoynunda oturub *bu gün* (S.Vurğun).

**SABAHKI – BUGÜNKÜ** *Sabahkı* təntənənin sorağını aldılar (S.Rüstəm); *Bugünkü* plovun xərci də mənlədir (S.S.Axundov).

**SABİQ – GƏLƏCƏK** *Sabiq* tacir Ağa Qurbanı hamı tanıyırdı (Ə.Haqverdiyev); *Gələcək* günlərə aparmalıyam, mürəkkəb əsrimi (R.Rza).

**SABİT – DƏYİŞKƏN** Əsil aşiq olur sevgidə *sabit* (H.Cavid); Hibrid orqanizmlər daha *dəyişkən* olur (M.Axundov).

**SABİT – SƏRBƏST** Cəbhədə vəziyyət *sabit* idi (S.Qədirzadə); Nizami yenə *sərbəst* cavab verdi (M.İbrahimov).

**SABİTLƏŞMƏK – SƏRBƏSTLƏŞMƏK** *Sabit* birləşmələr dilin tarixi və inkişafı prosesində yaranır və sabitləşir (Y.Seyidov); Tərkibdən kənarda sözlər *sərbəstləşir*.

**SABİTLİK – DƏYİŞKƏNLİK** Komponentlərin mənaca qovuşuq və ayrılmaz olması frazeologizmlərin *sabitliyini* göstərir (H.Həsənov); Birdən-birə əmələ gələn bu *dəyişiklik* Əzizə də təsir etdi (Ə.Vəliyev).

**SABİTLİK – SƏRBƏSTLİK** Onlar hazır şəkildə təkrar olunduğuna görə yox, frazeoloji səviyyədə *sabitliyə* malik olduğuna görə sabitdir (H.Həsənov); Hissiyyat, *sərbəstlik* və alicənablıq xeyirxahın yaxşı cəhətlərini, nəcabətini yaymaqda kimsəni mübaliğəyə sövq edir (M.Talıbov).

**SAÇLI – KEÇƏL** *Keçəl* qızı qoy evdə; *saçlı* qızı götür qaç (A.Şaiq).

**SADƏ – ÇƏTİN** Mən insanam; *sadə* insan əlinin; Yaratdığı nemətlərə öyünməsəm ölərəm (R.Rza); Əzizim, bu çox *çətin* addır (C.Əmirov).

**SADƏ – MÜRƏKKƏB** Mənim rəfiqəm *sadə* bir qızdır (C.Əmirov); Mən o zəif və *mürəkkəb* insanların vücudunu, xüsusiyyətini öyrənmişdim (Mir Cəlal).

**SADƏDİL – İNADCIL** Sən ki bir *sadədil* uşaq idin? (Ə.Haqverdiyev); *İnadcıl* bir uşaq kimi özünü aparırdı ("Ulduz").

**SADƏDİLLİK – İNADCILLIQ** – Çar babadan imdad gözləmək, zülm yuvasına müraciət etmək nə qədər *sadədillik* (S.S.Axundov); Onda hələ *inadcıllıq* qalıb ("Azərbaycan").

**SADƏLİK – ÇƏTİNLİK** Jandarm rəisi özünü *sadəliyə* vurub ehtiramla ayağa qalxdı (M.Hüseyn); Cavab verməyə də *çətinlik* çəkirdi (Ə.Vəliyev).

**SADƏLİK – LOVĞALIQ** Onların bəziləri *sadəlik* və təvazökarlıq kimi sifətləri itirmişlər (Ə.Vəliyev); Ancaq Polad hərdən cızığından çıxır, Əzizdə isə bir balaca *lovğalıq* əmələ gəlibdir (Ə.Vəliyev).

**SADƏLÖVH – İNADKAR** Soyuq-soyuq ağıldan *sadəlövh* yaxşıdır (C.Novruz); *İnadkar* uşaq kimi gücü çatdıqca cır-cır çığırırdı (Mir Cəlal).

**SADƏLÖVHLÜK – İNADKARLIQ** Bir də fikirləşirdim; bəlkə bu ananın *sadəlövhlüyündəndir* (Mir Cəlal); Əvvəldən başladığı *inadkarlıq*, qürur hissi onu sözündən dönməyə qoymur (S.Qədirzadə).

**SADİQ – XƏYANƏTKAR** *Sadiq* adamdır, ona bel bağlamaq olar. Onun təbiəti elədir, *xəyanətkardır* (H.Nadir).

**SADİQ – NAMƏRD** Bir *sadiq* ömür dostum; Şeir dilli yarım var (R.Rza); *Namərdəm* tutmasam mən özüm! (S.Rüstəm).

**SADİQ – SATQIN** Fazil, *sadiq* dostumuz! Sizi böyüdən atalar və analar müqəddəs dostluq önündə diz çökürlər (C.Məmmədov); *Satqına* rast gəlsə, satar Nəbini (S.Rüstəm).

**SADİQLİK – SATQINLIQ** Ana öz övladına *sadiqlik*, mehribanlıq kimi hissləri

aşılayırdı. Qoca bu *satqınlığı* bağışlayan deyil (M.İbrahimov).

**SAF – ÇİRKLİ** Səhərin *saf* və gözəl havası, kolların və meyvələrin ətri, quşların nəğmələri insana zövq-səfa verirdi (S.S.Axundov); Şəhərin havası *çirklidir*.

**SAF – ÇÜRÜK** Qəlbinizdə varsa kin, qəzəb; çıxarın atın, *çürük* diş kimi (R.Rza); Onun inci kimi *saf* dişləri var ("Azərbaycan").

**SAF – QARIŞIQ** *Saf* gümüşə çürük saman zərər verər (Ata. sözü); Bu, *qarışıq* qızıldır.

**SAFLAŞMAQ – ÇÜRÜMƏK** Neçə vaxtdı ki, orada canım çürüyürdü (S.Vəliyev); Erkən durmaq yaxşı şeydir, bədəni *saflaşdırır* (S.S.Axundov).

**SAĞ – XƏSTƏ** Bəli, *sağları* sağaldıram (S.S.Axundov); *Xəstə* gözlərini açdı (S.Qədirzadə).

**SAĞ – SOL** Allah *sağ* əli *sol* ələ möhtac eləməsin (Ata. sözü).

**SAĞA – SOLA** Platformanın hər tərəfi *sağa* doğru tərpənərək sürüşür, o biri tərəfi də *sola* doğru (Çəmənzəminli).

**SAĞALMAQ – NAXOŞLAMAQ** *Sağalarsa* həkiməm, sağalmazsa, mən kiməm? (Ata. sözü); Qanadlarını sallayıb *naxoşlamısan* (M.İbrahimov).

**SAĞDAKI – SOLDAKI** Milis nəfərinə *sağdakı* və *soldakı* qonşu qapıların zənglərini çalmağı tapşırdı (H.Nadir).

**SAĞDIŞ – SOLDIŞ** Sevincim üzünü tutanda dağa; *Sağdışım*, *soldışım* ələmim olsun? (H.Hüseynzadə).

**SAĞLAM – AZARLI** Sənin kimi *sağlam*, vidli-fasonlu oğlan da pul haqqında danışarmı? (C.Əmirov); *Azarlının* yanında turşu yeməzlər (Ata. sözü).

**SAĞLAM – ƏLİL** *Sağlamlar* cəbhəyə göndərilir, müharibə *əlilləri* onları əvəz edirdi (Ə.Vəliyev).

**SAĞLAMLIQ – ƏLİLLİK** İnsanın yaşaması üçün *sağlamlıq* əsas şərtdir. *Əlillik* pensiyası alan Səfər kənddə bir müddət tüfeyli həyat keçirmiş, sonra el-obanın təkidi ilə gözətçi vəzifəsinə düzəlmişdi (H.Nadir).

**SAĞLIQ – XƏSTƏLİK** *Sağlıq* böyük dövlətdir, qədrini bilmək gərək (Ata. sözü); Bu və ya başqa *xəstəlik* qana öz təsirini göstərə bilər (C.Əmirov).

**SAXTA – ƏSİL** Onu mən bilmərrə boynumdan ataram, deyərəm kəbin *saxtadır* (Ə.Haqverdiyev); Döyüşçü, *əsil* döyüşçü olmaq lazımdır (S.Vəliyev).

**SAXTAKAR – SƏMİMİ** Bir sözlə, çox *saxtakar* adam idi (M.İbrahimov); *Səmimi* dostlar kimi bir-birindən ayrıldılar ("Ulduz").

**SAXTAKARLIQ – ƏSİLLİK** – Kişilik *saxtakarlıq* deyil, Əliqəmbərli (İ.Fərzəliyev); *Əsillik*, nəcabətlilik ailə ilə, köklə bağlıdır ("Azərbaycan").

**SAXTAKARLIQ – SƏMİMİLİK** Onun bu sözlərində bir *saxtakarlıq* duyulmaqda idi (M.S.Ordubadi); Hər şeydən əvvəl bizə yoldaşlıq *səmimiliyi* lazımdır ("Azərbaycan").

**SAKİT – QORXULU** *Sakit*, ağıllı adama oxşayır (S.Qədirzadə); O bizim üçün çox *qorxulu* adamdır (S.Vəliyev).

**SAKİT – LAL** İzdiham da Neva kimi qüvvətli və *sakit* axırdı (M.Hüseyn); Çay *lal* axırdı (S.Qədirzadə).

**SAKİT – SƏSLİ-KÜYLÜ** Göy meşələr, *sakit* kəndlər, *səsli-küylü* limanlar tamaşalı yerlərdir (S.Qədirzadə).

**SAKİTLƏŞMƏK – ACIQLANMAQ** Onun belə arxayın danışması Əşrəfi həm *sakitləşdirdi*, həm də təşvişə saldı (İ.Şıxlı); Kərbəlayı Eyvaz daha da *acıqlandı* (Çəmənzəminli).

**SAKİTLİK – ÇAXNAŞIQLIQ** İstirahət günü olduğundan şəhər milis idarəsində adi günlərə nisbətən *sakitlikdir* (C.Əmirov); Aralığa *çaxnaşıqlıq* düşdü (İ.Şıxlı).

**SAKİTLİK – ƏSƏBİLİK** Baba, gör nə *sakitlikdir*?! (G.Hüseynoğlu); Həkimliklə *əsəbilik* tutmur (Ə.Vəliyev).

**SAKİTLİK – HƏRC-MƏRCLİK** Abbas bəy, bu böyüklükdə şəhərdə necə *sakitlikdir* (Ə.Haqverdiyev); Şəhərdə böyük *hərc-mərclik* var (S.Vəliyev).

**SALMAQ – ÇIXARMAQ** Gecə yuxuda gah məni qayadan atırlar, gah quyu dibinə

*salırlar* (Ə.Haqverdiyev); Quyudan xeyli daş *çıxartdılar* (“Azərbaycan”).

**SAMİT – SAİT** Ağız boşluğunda maneəyə rast gələrək tələffüz edilən səslər *samit*, əksinə, maneəsiz tələffüz olunan səslər isə *sait* adlanır.

**SARALMAQ – AĞARMAQ** Rəngi günü-gündən *saralır* (Ə.Haqverdiyev); Məhtabanın rəngi *ağarmışdı* (S.Rəhimov).

**SARALMAQ – QIZARMAQ** Dodaqları gah *qızarır*, gah *saralır*, gah da kətan kimi ağarırdı (C.Cabbarlı).

**SARIQLI – AÇIQ** Üçüncü həftə idi ki, o, gözləri *sarıqlı* gəzirdi (S.Qədirzadə); Qolları *açıq* gəzir (A.Məmmədrza).

**SARIMAQ – AÇMAQ** Bu saat gətirim, tənziflə *sarıyım* (M.İbrahimov); İndicə *açacağam*, sən ağlama, yaxşımı? (M.Süleymanlı).

**SARIŞIN – QARAŞIN** Bir də qapı açıldı və içəriyə ortaboylu, *sarışın*, dedikcə zərif bir xanım girdi (Çəmənzəminli); Saqqallı kişi *qaraşın* oğlandan beş min frank alıb cibinə qoydu (S.Qədirzadə).

**SARSAQ – AĞILLI** Bu *sarsaq* fikirlərin; Cəlal bir əsiridir (S.Vurğun); Hər şeydən əvvəl kəndimizə müxtəlif peşə sahibi olan *ağıllı* adamlar lazımdır (Ə.Vəliyev).

**SARSAQLAMAQ – AĞILLANMAQ** Sənsə *sarsaqladın* (Mir Cəlal); Əgər *ağıllanmısansa*, mənə yenə yoldaş Mərdanov deyə bilərsən (S.Qədirzadə).

**SARSILMAQ – MÖHKƏMLƏNMƏK** *Sarsılır* cümlə əqrəbası onun; Daima yaslı, daima məhzun (H.Cavid); O, çəkişmələrdə, vuruşmalarda *möhkəmlənmişdi* (“Ulduz”).

**SARSIMAQ – MÖHKƏMLƏNMƏK** Gözlərin mənliyimi *sarsıdır* (C.Cabbarlı); Sənin sözlərin ona təsəllidir, onu *möhkəmlədir*.

**SATİRA – KOMEDİYA** *Satira* nöqsanlara və zəif cəhətlərə istehza deyil, nəcib bir şimşək və ildırım allahıdır (V.Belinski.); *Komediyanın* əsasını acı gülüş təşkil edir ki, bu da tənqid üsullarından ən qüvvətlisidir (F.Qasımzadə).

**SATİRİK – KOMİK** *Satirik* və *komik* əsərlərdən isə mütləq müsbət qəhrəman istəmək məncə, doğru olmaz (M.İbrahimov).

**SAVADLI – BİLİKSİZ** Sənə bir *savadlı* adam lazımdır (Ə.Haqverdiyev); *Biliksiz* ömrün nə mənası var? (S.Rüstəm).

**SAVADSIZ – BİLİKLİ** Mən isə *savadsız* bir adamam (C.Əmirov); Şəxsən mən Əzizi təşəbbüskar, *bilikli* bir işçi kimi, yaxşı bir mütəxəssis kimi müdafiə edirəm (Ə.Vəliyev).

**SAVAŞ – BARIŞIQ** Qurd qardaş, *savaş* nə gərək, ətin yerini tapmışam (A.Şaiq); *Barışıq* məsələləri ilə o məşğuldur.

**SAVAŞQAN – SAKİT** Təbiətən *savaşqan* və kinli olan Kəlbiyev bu görüşlər zamanı Mina xanımla əylənməkdən çox, onun əri ilə maraqlanır... (M.İbrahimov); O, zahirən çox *sakit* idi (M.İbrahimov).

**SAVAŞMAQ – BARIŞMAQ** Axı onsuz da bədbəxt olan bu adamlar niyə də *savaşsınlar*? (S.Vəliyev); Onu verim, tülkü lələ ilə məni *barışdır* (A.Şaiq).

**SAZ – NAXOŞ** O *saz* adamdır (İ.Fərzəliyev); Məni *naxoş* və ya xudbin hesab edir (M.İbrahimov).

**SAZ – SINIQ** Demək ki, işiniz *sazdır*? (M.S.Ordubadi); İyirmi il keçir o vaxtdan bəri; Yazıq taleyimin *sınıq* şahpəri (S.Vurğun).

**SAZAQ – İSTİ** Alışdı *istiyə*, dözdü *sazağa*; Bağladı meylini suya, torpağa (H.Hüseynzadə).

**SAZAQLI – İSTİ** *Sazaqlı* bir külək əsir canımda (M.Ələkbərli); *İsti* gün idi (“Ulduz”).

**SEHRLİ – ADİ** Xan, Eloğlunun bir *sehrli* tütəyi var (A.Şaiq); Əsərdə *adi* hadisələr təsvir olunmuşdur.

**SEVGİ – ƏDAVƏT** *Sevgi* küçəsi ilə gəzdiyin yerdir (S.Vəliyev); Tökün dənizlərə, tökün çaylara; Axı insan hara, *ədavət* hara?! (C.Novruz).

**SEVGİ – QƏZƏB** *Sevgi* evi isə bax, buradadır (S.Vəliyev); Ay oğul, nə deyirsən, nə üçün belə *qəzəbə* gəlmisən (S.S.Axundov).

**SEVİNC – HEYRƏT** *Sevinc* inciləri axsın gözündən (S.Rüstəm); Gözlərini qırpmadan təəccüb, *heyrət* və dəhşətlə ata baxdı (İ.Şıxlı).

**SEVİNMƏK – QƏMLƏNMƏK** *Sevinir*, gülürsünüz, bəzən *qəmlənirsiniz* (R.Rza).

**SEYRƏK – BASIRIQ** *Seyrək* yerlərə əlavə toxum səpirlər (Ə.Vəliyev); Mədənin qapısı da çox *basırıq* idi (M.S.Ordubadi).

**SEYRƏK – QATI** Göy üzündə *seyrək* bulud var idi (Ə.Vəliyev); Andıra qalmış duman da elə *qatıdır* ki, gözə barmaq təpsən görünməz (H.Nadir).

**SEYRƏK – SIX** Bəzi sahələrdə pambıq çox *seyrəkdir* (M.İbrahimov); Bu çəməndə bitən otlar o qədər *sıx* və uca idi ki, kəndlilər məni görmürdülər (M.Talıbov).

**SEYRƏKLƏŞMƏK – SIXLAŞMAQ** Arabir *sıxlaşır* səyyar buludlar (Ə.Kürçaylı); Getdikcə soldatlar *seyrəkləşir*, dəhliz tez-tez lap boş qalırdı (C.Məmmədov).

**SEYRƏKLİK – SIXLIQ** *Seyrəklikdir*, amma sakitlik yox ("Ulduz"); *...Sıxlıqda* yaşadıqları üçün yaş, hörmət nəzərə alınırdı (M.Talıbov).

**SEYRƏKLİK – TÜNLÜK** Deyəsən, vaqonda *seyrəklik* idi; səs-küy zad eşidilmirdi (İ.Məlikzadə); İş gününün sonu olduğundan tramvay *tünlükdü* (C.Əmirov).

**SEYRƏLMƏK – SIXLAŞMAQ** Tüstü azacıq *seyrəldi* (İ.Şıxlı); Buludlar *sıxlaşdı*, yağış yağmağa başladı.

**SƏADƏT – BƏDBƏXTLİK** *Səadətlə bədbəxtlik* arasında bir addımdan artıq məsafə yoxdur (M.Talıbov).

**SƏBATLI – DƏYİŞKƏN** Oğulla qıza bax polad *səbatlı* (S.Rüstəm); *Dəyişkəndir*, ona etibar etmək çətindir.

**SƏBİRLİ – CIRTQOZ** Bu, *səbirli*, dəyanətli, çalışqan uşaqdır (A.Şaiq); *Cırtqoz* kişidir, bir söz deyən kimi alışır ("Ulduz").

**SƏBİRSİZ – TƏMKİNLİ** A kişi, nə *səbirsiz* adamsan (S.S.Axundov); Bizim yeganə çıxış yolumuz budur: hissiyyata qapılmamaq, səbirli, *təmkinli* olub iş görmək (S.Vəliyev).

**SƏFALƏT – SEVİNC** Arvadlar qaldılar cəhalət və *səfalət* pəncəsində (C.Cabbarlı); *Sevinc* içərisində qaldılar (Ə.Əbülhəsən).

**SƏFEH – ANLAQLI** Sən niyə belə *səfeh* sözlər danışırsan? (Ə.Haqverdiyev); Əsgər bəy, mən səni bir *anlaqlı* adam bilirdim (Ə.Haqverdiyev).

**SƏFEHLİK – AĞILLILIQ** Gələn görüşlərə ümid bəsləmək *səfehlikdir* (S.Qədirzadə); Kim bunu *ağıllılığın* nəticəsi kimi qəbul edir (İ.Məlikzadə).

**SƏHƏR – AXŞAM** Əzəldən həmdəmi təklik, çən, çisək; Bir də *səhər* yeli, *axşam* küləyi... (H.Hüseynzadə).

**SƏHƏR – GECƏ** *Gecə* dost tək *səhərin* əlini sıxıb gedir (S.Rüstəm).

**SƏHƏRKİ – AXŞAMKI** Bütün qadınlar bu *səhərki* polis qadını kimi mərhəmətli olmayacaq ki (S.Vəliyev); *Axşamkı* hadisə yaddan çıxmaz ("Azərbaycan").

**SƏHƏRLİ – AXŞAMLI** Belə deyib qarı *səhərli*, günortalı, *axşamlı* – bütöv bir gün təki Alayın yuxusundan çıxdı (M.Süleymanlı).

**SƏHHƏT – MƏRƏZ** *Səhhətim* də qismən düzəlmişdir (M.S.Ordubadi); *Mərəzi* şiddətlənmişdi (S.Qədirzadə).

**SƏHİH – YALAN** Bu xəbər *səhihmidir*? (S.S.Axundov); Qızın verdiyi məlumat *yalandır*.

**SƏHİHLİK – YALANÇILIQ** İş *səhihlik* tələb edir ("Ulduz"); Canavarlar yedi bütün qoyunu; İştə, oğlum, *yalançılıq* oyunu (M.Ə.Sabir).

**SƏHLƏNKAR – MƏSULİYYƏTLİ** Mənim *səhlənkar* başımı kəs! (Mir Cəlal); *Məsuliyyətli* adamdır (M.İbrahimov).

**SƏHV – DOĞRU** Xanım, fikriniz *səhv* deyil (S.S.Axundov); *Doğru* xəbərdir, anın üçün darə düşmüşəm (Nəsimi).

**SƏXAVƏT – XƏSİSLİK** Bu gözlənilməz *səxavət* zabiti son dərəcə sevindirdi (S.Vəliyev); Gözəllik *xəsisliyi* sevməməlidir (M.S.Ordubadi).

**SƏXAVƏTLİ – SİMİC** Bu *səxavətli* qonaqların hamısından artıq, nədənsə, Təbrizin sovqatlarına fikir verilirdi (Mir Cəlal);

Ay *simiclər* padşahı, nə üçün indiyədək bunları satıb balaların üçün xərcləməmisən, goruna aparacaqsan? (C.Əmirov).

**SƏKSƏKƏLİ – RAHAT** Gecələr çox *səksəkəli* yatırdı (S.Qədirzadə); Qoyun xalq *rahat* yaşasın (M.İbrahimov).

**SƏLİQƏLİ – NATƏMİZ** Otaq *səliqəli*, otaq tərtəmiz; Düzülmüş nizamla təzə stullar (H.Hüseynzadə); Otaq *natəmizdir*. (Ə.Qasımov).

**SƏLİQƏSİZ – SAHMANLI** Bütün binalar *səliqəsiz* halda bir-birinin yanına düzülmüşdü (C.Əmirov); Balaca, isti və *sahmanlı* bir mənzil idi (Mir Cəlal).

**SƏLİQƏSİZLİK – SAHMANLILIQ** İçəri girən kimi *səliqəsizlik* gözə çarpır ("Ulduz"); Evdə bir *sahmanlılıq*, səliqəlilik vardır ki, gəl görəsən (M.Süleymanlı).

**SƏMƏRƏLİ – FAYDASIZ** Kolxozçuların bir sıra ağıllı və *səmərəli* təklifləri oldu (M.İbrahimov); Baş qoşmaq da *faydasızdır* (Mir Cəlal).

**SƏMƏRƏSİZ – FAYDALI** Heç yerdə heç kəs tərəfindən artıq və *səmərəsiz* əməyə yol verilməməlidir (M.İbrahimov); Söhbətiniz çox şirin, çox *faydalıdır* (M.İbrahimov).

**SƏMİMİ – RİYAKAR** Deyirlər ki, *səmimi* eşqin ürəyi geniş olur (C.Cabbarlı); *Riyakar*, ar olsun sənə! (C.Əmirov).

**SƏMİMİ – SOYUQ** Dostlar *səmimi* görüşüb öpüşdülər (C.Əmirov); Qaraş ikibaşlı söz soruşduqda Maya da ondan incidi, bir-birindən *soyuq* ayrıldılar (M.İbrahimov).

**SƏMİMİLİK – RİYAKARLIQ** Onun baxışlarından bir *səmimilik* duyulurdu (H.Nadir); Mayaya elə gəldi ki, bu etiraf yalan və *riyakarlıqla* doludur (M.İbrahimov).

**SƏMİMİLİK – SAXTALIQ** O, Əzizin sözlərini eşitdikcə ürəyi dağ boyda olur, sevgililərinin saf və *səmimiliyinə* inamı qat-qat artırdı (Ə.Vəliyev); *Saxtalıq* hökm edir daima; Bu necə dövrandır, həyatdır? (M.Rahim).

**SƏMİMİLİK – SOYUQLUQ** Onun mənə münasibətində *səmimilik* yoxdur ("Azərbaycan"); İndi mənə qarşı bu *soyuqluq* nədir? (C.Cabbarlı).

**SƏMİMİYYƏT – CİDDİYYƏT** *Səmimiyyət* olmayan yerdə sənət yoxdur (M.İbrahimov); Birdən-birə qızın üzündə yaranmış *ciddiyyət* bu suallardan xoşlanmadığını göstərdi (M.İbrahimov).

**SƏPMƏK – YIĞMAQ** Vaxtında *səpək*, vaxtında *yığaq*, vaxtında təhvil verək (Ə.Vəliyev).

**SƏRBƏST – ASILI** Artıq mən *sərbəst* adamam, sən məni üzüqara edirsən (M.İbrahimov); Ana, unutmayınız ki, bu işdən mənim də ömrüm *asılıdır* (S.S.Axundov).

**SƏRBƏST – ÇƏTİN** Atamın balaca çərəkələrini də *sərbəst* oxuyurdum (M.İbrahimov); Əsər *çətin* oxunur, dili ağırdır.

**SƏRBƏST – TABE** O burada özünü son dərəcə *sərbəst* hiss edirdi (S.Vəliyev); Hacı İmanqulu, siz də Muxtar bəyin əmrinə *tabesiniz* (S.S.Axundov).

**SƏRFƏLİ – ZƏRƏRLİ** Bizə *sərfəli* deyil, *zərərlidir*.

**SƏRXOŞ – AYIQ** Mən *ayığam*, mən *sərxoş* deyiləm, gedirəm! – dedi (M.İbrahimov).

**SƏRXOŞLUQ – AYIQLIQ** Keçir xatırından hətta *sərxoşluq*; Lakin ümidini kəsməyir Cəlal (S.Vurğun); *Ayıqlıqdan* lap başım çatlayır (S.S.Axundov).

**SƏRİN – İSTİ** Sahil *istidir*, Qafur, sularsa çox *sərindir* (S.Rüstəm).

**SƏRİN – MÜLAYİM** Yayı həmişə *sərin*, qışı *mülayim* keçir.

**SƏRİNLİK – İSTİLİK** *Sərinlik* yayılır bu gözəl bağa (A.Şaiq); Hər yeri *istilik* bürüyüb (S.Hüseyn).

**SƏRMƏK – QALDIRMAQ** Nişan aldı uşağı; *Sərdi* qara torpağa (M.Rahim); Hamını ayağa *qaldırdı* (S.Qədirzadə).

**SƏRMƏK – YIĞMAQ** Məni yayda dərərlər; Kölgəsində *sərərlər* (M.Rahim); Paltarı *yığmaq* lazımdır, yağış yağacaq (A.Məmmədov).

**SƏRRAST – NATARAZ** O *sərrast* deyil, *nataraz* adamdır ("Azərbaycan").

**SƏRRAST – YALAN** O çox *sərrast* danışırdı (Ə.Vəliyev); Bütün rayon onu da bilir ki, bu bir ildə mən hələ *yalan* danışmamışam (İ.Hüseynzadə).

**SƏRSƏM – AĞILLI** Xeyr, mən nə qədər də olsam *sərsəm*; Kimsəyə əyləncə olmaq istəməm (H.Cavid); Amma vəzifən oldumu hamının gözündə *ağıllısan*, vəssalam (İ.Fərzəliyev).

**SƏRSƏMLİK – AĞILLILIQ** Ürfü şər olmuyor, bu fikrə şərik; çəkilir teyindar bu *sərsəmilik* (H.Cavid); Onun *ağıllılığı* sayəsində biz arzumuza çatdıq ("Azərbaycan").

**SƏRTLƏŞMƏK – YUMŞALMAQ** Çoban Kərəm yenidən *sərtləşdi* (M.İbrahimov); Lakin buraya hansı məqsədlə gəldiyini yadına salıb *yumşaldı* (C.Əmirov).

**SƏRTLİK – YUMŞAQLIQ** Artıq sifətindən yorğunluq oxunurdu, gözlərindən *sərtlik* yağırdı ("Azərbaycan"); Rüstəm kişi zorla nifrətini boğaraq *yumşaqlıq* göstərdi (M.İbrahimov).

**SƏS-KÜY – SAKİTLİK** Həyətlərdə *səs-küy* çoxalmışdı (Mir Cəlal); Hər tərəf *sakitlikdir* (C.Əmirov).

**SƏS-KÜY – SÜKUT** Camaat arasında yenə *səs-küy* qopdu. Vəli ağzını açan kimi aralığa gözlənilməz maraqdan doğan ağır bir *sükut* çökdü (M.İbrahimov).

**SƏSSİZ – SƏSLİ-KÜYLÜ** *Səssiz* idi (M.Süleymanlı); Məclis *səsli-küylü* idi.

**SƏTHİ – DƏRİN** Arx *səthidir*. Qabaqda enli və dərin bir arx vardı (Ə.Vəliyev).

**SƏTHİLİK – DƏRİNLİK** Əsərdə *səthilik* hiss olunur. Əsərlərini vərəqlədikcə zahirən adi görünən bu insandakı zəkaya, *dərinliyə*, təfəkkürə heyran qaldı (S.Qədirzadə).

**SİFTƏ – SON** *Siftə* kimsə buradan getmiş, kəsə yol salmışdır (G.Hüseynoğlu); Hamıdan *son* o gəldi.

**SIĞALLI – PIRTLAŞIQ** Tinləri sürtülür daşların: olurlar haphamar, *sığallı* (R.Rza); Kələflər *pırtlaşıq* qaldı (R.Rza).

**SİĞƏ – TALAQ** Şəriətdə *siğə* halaldır (Ə.Haqverdiyev); Övrətə *talaq* vermək mənim ixtiyarımdadır (Ə.Haqverdiyev).

**SIX – ARALI** Onlar başlarını əyərək gedir, *sıx* ağaclar arasında dikəlib irəliləyirdilər (S.Vəliyev); Kollar çox *aralıdır* (İ.Şıxlı).

**SIXILMAQ – AÇILMAQ** Adamın ürəyi *sıxılır* (F.Kərimzadə); Səni görəndə ürəyim *açılır* ("Ulduz").

**SIXILMAQ – SIRTILMAQ** Uşaq utanırdı, *sıxılırdı* (C.Məmmədov); Qız, *sırtılıb*, özünü abırdan salma (İ.Hüseynov).

**SIXINTI – SƏRBƏST** Əksinə, *sərbəst* tərpənməsinə, adam içində *sıxıntı* çəkməməsinə çalışırdı (M.İbrahimov).

**SİNXRON – DİAXRON** Dil hadisələrinə *sinxron* (müasirlik) və *diaxron* (tarixilik) planlarda baxmaq lazımdır (H.Həsənov).

**SINIQ – TƏZƏ** *Sınıq* qabda su durmaz (Ata. sözü); *Təzə* süpürgə təmiz süpürər (Ata. sözü).

**SINMAQ – DÜZƏLMƏK** A kişi ağacın budağı *sınar* da, *düzələr* də, vay sənin halına (H.Nadir).

**SİRLİ – AŞKAR** Bu da *sirli* ağacdır (A.Şaiq); Gələn vardı, *aşkar* bəlli idi (Mir Cəlal).

**SIRTIQ – HƏYALI** Məmiş həyasız və *sırtıq* uşaq olduğu üçün dilləndi (M.Talıbov); Özünü *həyalı* qız kimi aparır (İ.Məlikzadə).

**SISQA – GUR** At da başını əyib *sısqa* bulağın gölməçəsini qurutdu (F.Kərimzadə); Bu bulağın suyu *gurdur* (A.Məmmədov).

**SISQA – YEKƏPƏR** Ucaboy, enlikürək Hansın qarşısında bu *sısqa* qoca necə zəif və aciz görünürdü (C.Məmmədov); Faşist geyimli, sərxoş, *yekəpər* bir italyan soldatını gördü (S.Vəliyev).

**SİSTEMATİK – ARABİR** İşi *arabir* yox, *sistematik* yoxlamaq tələb olunur.

**SİTALLIQ – ÜZÜYOLALIQ** Amma *sitallığına* salıb aşna olubsan (Ə.Haqverdiyev); Elə onu kollektivə sevdirən onun *üzüyolalığıdır* ("Azərbaycan").

**SİVRİ – KÜT** – Sənə baş lazımdır, al! – deyə əlindəki *sivri* xəncərlə onun başını üzür (S.Vəliyev); Bu ki lap *kütdür*, heç yer də qazmaz (N.Vəzirov).

**SOXMAQ – ÇIXARTMAQ** Əlini küpəyə *soxub çıxartdı* ("Ulduz").

**SOXULMAQ – ÇIXMAQ** Sənə kim dedi ki, *soxul* oraya? (S.Rüstəm); Ürəyim darıxdı, *çıxdım* ki, özümü bir az havaya verim (S.S.Axundov).

**SOLMAQ – AÇMAQ** Vaxtsız yarpaq *açdı*, vaxtsız da *soldu* (C.Novruz).

**SOLUXMAQ – AÇILMAQ** Fətullahın ailəsi külək vuran zəif bağ bitkisi kimi *soluxmuşdu* (Mir Cəlal); *Açılın* iyli güllərim, *açılın*; Allı-əlvanlı güllərim, *açılın* (A.Səhhət).

**SON – BAŞLANĞIC** Quzum, artıq bütün fəlakətlərin ya *sonudur*, ya *başlanğıcı* (H.Cavid).

**SON – İLK** *İlk* baharın *son* gecəsi idi (S.S.Axundov).

**SONBEŞİK – İLK** Ayrı oğul idi mənim Əmrahım; *İlkim*, *sonbeşiyim*, tək çinarımdı (Ə.Cəmil).

**SONRA – DƏRHAL** *Sonra* əlləri qanlı çəkildi onlar geri (S.Rüstəm); *Dərhal* əlavə etdi (C.Əmirov).

**SONRA – ƏVVƏL** Adam gəlib *əvvəl* qonağın halını bilər, *sonra* da ona görə çay gətirər (S.S.Axundov).

**SONRAKI – ƏVVƏLKİ** Hələ ki biz onun qaçaq düşmədən *əvvəlki*, *sonrakı* işlərini öyrənirik ("Ulduz").

**SONUNCUSU – BİRİNCİSİ** Yoxsa bu həm *birincisi*, həm də *sonuncusu* oldu? (S.Qədirzadə).

**SOSİALİZM – KAPİTALİZM** Şərqdə *sosializm* bayrağını birinci qaldıran sizin fəhlə və kəndlilər olub (M.İbrahimov); *Kapitalizm* hakim sinfin mənafeyini qoruyur.

**SOYUDUCU – QIZDIRICI** Belə ki, aldığımız vaxtdan bir az sonra *soyuducu* işləmədi. İndi *qızdırıcı* alətlər buraxılır.

**SOYUQ – QAYNAR** – Xala, bu ki hələ lap *qaynardır* (G.Hüseynoğlu); Su hələ *soyuqdur*.

**SOYUQLU – İSTİLİ** Dünya insan evidir: *istili* ya *soyuqlu* (R.Rza).

**SOYUQLUQ – İSTİLİK** ...Qarşıdakı hücuma *soyuqluq* göstərdi. Hər doğma baxışda bir *istilik* var (H.Hüseynzadə).

**SOYUTMAQ – İSİTMƏK** *Soyutmuşdu* onu işdən məhəbbət (S.Vurğun); Xörəyi *isidib* gətirdi (Ə.Vəliyev).

**SOZALMAQ – YAXŞILAŞMAQ** İraq olsun, uşaq *sozalır*, qorxuram, başına bir iş gələr ("Azərbaycan"); Xəstənin vəziyyəti *yaxşılaşır* (Mir Cəlal).

**SÖKMƏK – TİKMƏK** Bircə aya *tikdilər* doğma övladlarıyçün; Köhnə paltarını *sökür* maşınla (S.Rüstəm).

**SÖKMƏK – TOXUMAQ** Deyirəm, olsaydı ixtiyarları; Dağını-daşını *sökərdi* onlar (C.Novruz); Qoy *toxuyum* köynəyi; Yat, gözümün işığı (S.Rüstəm).

**SÖKÜK – TİKİK** – Bir parça şifir tapıb, *sökük* yeri örtmək çətindirmi? (M.İbrahimov); Köynəyinin *tikik* yerlərinə baxırdı ("Azərbaycan").

**SÖNMƏK – PARLAMAQ** Son günləri yaşar dinc; Qəlbində *sönmüş* sevinc (A.Şaiq); Şəkli görcək qızın gözləri sevincdən *parladı* (S.Vəliyev).

**SÖNÜK – QAYNAR** Şəhərdəki *sönük* həyatından uzaqlaşmağa səy etdi. *Qaynar* şəhər bir dərya, qız isə üzük qaşı olub orada batmışdı (S.Qədirzadə).

**SÖNÜK – PARLAQ** Küncdə yerə qoyulmuş çırağın piltəsi aşağı düşdüyündən, *sönük*, sarı işığı alaçığı işıqlandıra bilmirdi (M.İbrahimov); *Parlaq* gündüzümüz gecəyə döndü (S.Rüstəm).

**SÖYMƏK – TƏRİFLƏMƏK** – Mirzə Mahmud, sən qəzetdə məni *söyəcəksən* də, *tərifləyəcəksən* də, sənin işindir (Ə.Haqverdiyev).

**SÖYMƏK – YALVARMAQ** ...Ədəbsiz bir söyüş də *söydü* (M.Hüseyn); Yədulla *yalvarmağa* başladı (C.Əmirov).

**SÖZÇÜLÜK – YIĞCAMLIQ** Əsərdə *yığcamlıqdan* çox *sözçülüyə* daha çox meyil edilmişdir.

**SÖZLƏŞMƏK – BARIŞMAQ** Bəzən *sözləşərdik*, bəzən küsərdik; Yenə də bir yerdə çörək kəsərdik (S.Rüstəm); Axırda *barışdılar*, dostlaşdılar (S.Qədirzadə).

**SÖZÜBÜTÖV – AĞZIBOŞ** Deyəsən, sən *sözübütöv* adama oxşayırsan (F.Kərimzadə); Ona söz demə, *ağzıboşdur* ("Azərbaycan").

**SRAĞAGÜN – BU GÜN** Axı *srağagün* gecə bərk yağış yağmışdı (C.Əmirov); *Bu gün* ilə, ərsə dönə; Hamı belə günlərlə öyünə (R.Rza).

**START – FİNAL** *Start* idman yarışlarının başlandığı yer, *final* isə idman yarışlarının yekunlaşdırıcı son hissəsidir.

**SUÇLU – GÜNAHSIZ** Sən ağacı götür, *suçlu* özünü bildirəcək (Ata. sözü); Nə qədər *günahsız* adamları bada veriblər ("Ulduz").

**SUÇSUZ – GÜNAHKAR** Bəli, yox yer üzündə *suçsuz* adam (H.Cavid); Lakin könül bir sözdən; dərin yara alırsa; əcəb kimdir *günahkar*? (R.Rza).

**SULAMAQ – QURULAMAQ** Zibil qutularını gündə bir dəfə boşaldıram, səkini gündə üç dəfə *sulayıb* süpürürəm (M.Hüseyn); Üç-dörd qız-gəlin enib qarını *quruladılar*, geyindirdilər... (M.Süleymanlı).

**SULANMAQ – QURUMAQ** Dodaqları azca qalınlaşıb *sulanmışdı* (İ.Şıxlı); Dənizlər, çaylar *quruyub*, dağlar çöküb (R.Rza).

**SULU – DƏMYƏ** Bu fikirlə çapdı atı; Endi *sulu* dərəyə (A.Şaiq); Göytəpə kəndinin üst tərəfi *dəmyədir* (İ.Şıxlı).

**SUSQUN – DEYİNGƏN** Bilmirəm, nə üçün o *susqundur* ("Ulduz"); Zövcəsi *deyingən* kişinin saqqalı tez ağarar (S.Qədirzadə).

**SUSQUNLUQ – DEYİNGƏNLİK** Demə gözə görünən sakitlik, *susqunluq* və mütilik aldadıcı bir tərzdə imiş (M.İbrahimov); Onun *deyingənliyi* adamı vərəmlədir ("Azərbaycan").

**SUSMAQ – DİLLƏNMƏK** Susma, sən *sussan*, mənim həyatım susar (A.Şaiq); *Dillənir* dindirməmiş gərəksiz bir saz kimi (S.Rüstəm).

**SUYUŞİRİN – ƏTİACI** Bu təmkinli, *suyuşirin* adama baxa-baxa nədənsə dənizi xatırlayıram (S.Sərxanlı); *Ətiacı* arvaddır ("Azərbaycan").

**SÜBH – GECƏ** *Gecələr sübhə* kimi, sakit edə bilmərəm, bu nigaran qəlbimi (R.Rza).

**SÜDƏMƏR – YAŞLI** Eh!.. Atalar neylədi ki, sənin kimi *südəmər* oğullar neyləsin (A.Şaiq); İmirin üzündə özündən çox-çox *yaşlı* bir gülüş vardı (M.Süleymanlı).

**SÜKUT – HAY-KÜY** *Sükut* gərmiş qanadını evlərə, eşiklərə (H.Hüseynzadə); Bu *hay-küy* ona çox mənasız görünürdü (Mir Cəlal).

**SÜKUT – TUFAN** Üstümüzü alıb ilğım; Nə *sükut* var, nə *tufan* var! (M.Dilbazi).

**SÜLH – MÜHARİBƏ** Biz Vətən məcnunu, el aşiqi, *sülh* əsgəriyik; Biz Vətən naminə ölsək, dirilərdən diriyik (B.Vahabzadə); Dövlət başçıları danışanadək; Mənim *müharibəm* davam edəcək! (S.Vurğun).

**SÜRƏTLƏ – YAVAŞ** İndi Rəna *sürətlə* işləyirdi (C.Məmmədov); Stəkanı nəlbəkiyə *yavaş* qoy (Mir Cəlal).

**SÜRƏTLƏNMƏK – LƏNGİMƏK** Onda işimiz birə-on *sürətlənər* (M.İbrahimov); Pul ala bilməyəcəyəm, işimiz *ləngiyəcək* (M.İbrahimov).

**SÜRƏTLƏNMƏK – YAVAŞIMAQ** Əməliyyatı *sürətləndirmək* lazımdır (H.Nadir); Telli *yavaşıdı* (Ə.Vəliyev).

**SÜRƏTLİ – YAVAŞCA** Hər üçü evi tərk edib *sürətli* addımlarla irəlilədi (S.Vəliyev); Otaqdan *yavaşca* çıxdı (M.İbrahimov).

**SÜST – GÜMRAH** Təngimiş səsimdən, *süst* gülüşümdən; Elə bil yanğımı hiss edib duydu (Ə.Cəmil); *Gümrah* oğlandır, işləməkdən yorulmur ("Azərbaycan").

**SÜSTLÜK – GÜMRAHLIQ** Bağır çox fikirləşdi, ərköyün Nazlının, haylı-haraylı Nazlının indiki *süstlüyünü*, sakitliyini bircə yerə yozdu (İ.Məlikzadə); Onun *gümrahlığını* işlə, zəhmətlə bağladı.

**SÜVARİ – PİYADA** Cavanşirin Muğan qalasına hamıdan əvvəl sərkərdə Poladın *süvariləri* yol açdılar (M.Hüseyn); Topların ara vermədən atdığı yaylım atəşindən sonra tanklar, sonra da *piyada* hərəkətə gəldi (Ə.Vəliyev).

# Şş

**ŞAD – QƏMGİN** Mən həmişə *şad* və *qəmgin* xəbərləri onun çöhrəsindən oxuyardım (M.S.Ordubadi).

**ŞAD – MƏYUS** İzzət vağzala nə qədər *şad* getmişdisə, o qədər *məyus* qayıtdı (Mir Cəlal).

**ŞADLANMAQ – HEYİFSİLƏNMƏK** Sevinsin, *şadlansın* çöl də, çəmən də (C.Novruz); Mən başqa şeyə *heyifsilənirəm* (C.Əmirov).

**ŞADLANMAQ – KƏDƏRLƏNMƏK** *Şadlanmağın* da, *kədərlənməyin* də yerini başa düşürük (İ.Fərzəliyev).

**ŞADLANMAQ – QƏHƏRLƏNMƏK** Gənc qız bundan çox *şadlanır* və mənim sevgimə inanırdı (M.S.Ordubadi); Fəridə özünü saxlaya bilməyib yaman *qəhərləndi* (M.İbrahimov).

**ŞADLANMAQ – QƏRİBSƏMƏK** O, uşaqların hərəsinə bir şey verməklə sevindirər, özü isə hamıdan artıq *şadlanardı* (Mir Cəlal); Beşiklər körpə üçün *qəribsəyir*.

**ŞADLIQ – BƏDBƏXTLİK** Bir kəlmə bu halım ya *şadlıqdır* və ya *bədbəxtlik* (C.Cabbarlı).

**ŞAX – ƏYRİ** Camaatın üzünə *şax* baxım (M.İbrahimov); Həmişə çalışırdı ki, başqasına *əyri* baxsın.

**ŞAX – ƏZİK** Qalın və *şax* yarpaqları başında boşqab kimi tutan uzun zoğlar deyil, qonaqcıl gəlin biləkləri idi (Mir Cəlal); [Salatın] *əzik* donunun ətəyini aşağı çəkdi. Saçını gözünün üstündən geri elədi (İ.Şıxlı).

**ŞAXLI – KÖHNƏ** Köynəyi *köhnə*, amma kostyumu *şaxlı* idi ("Ulduz").

**ŞAXLI – QIRIŞIQ** *Şaxlı* köynəyinin üstündən *qırışıq* qalstukunu bağlamaq istədi.

**ŞAXTA – İSTİ** Sizin başınızı *şaxta* vurmuşdur (C.Cabbarlı); Adam bilmirdi ki, *istidən* başını hara soxsun ("Azərbaycan").

**ŞAXTALI – BÜRKÜLÜ** Sanki onu *şaxtalı*, boranlı qış günündə buzlu suya saldılar (İ.Şıxlı); O günün sabahı *bürkülü* yay axşamında Gülşən kolxoz idarəsinə getdi (Ə.Vəliyev).

**ŞAQRAQ – KƏDƏRLİ** Ömrümüzdən bir gün belə incə, *şaqraq* keçirdik (A.İldırım); *Kədərlidir*, imkandan artıqdırsa (R.Rza).

**ŞƏFFAF – BULANLIQ** Bu gecələrin birində; ayrılan yolumuz kimi; *şəffaf* buz kimi (R.Rza); Üfüqlər boz; elə bil ki, bir *bulanlıq* gölə düşüb günəş (R.Rza).

**ŞƏXSİ – ÜMUMİ** *Şəxsi* məsələlərin vaxtını uzada bilərik (M.S.Ordubadi); Kolxozun *ümumi* iclası onları bəzi əlavələrlə təsdiq etmişdi (M.İbrahimov).

**ŞƏKLƏMƏK – SALLAMAQ** Gah qulaqlarını *sallayır*, gah da yad bir səs eşitmiş kimi *şəkləyirdi* (Mir Cəlal).

**ŞƏLƏ – BALACA** *Şələ* quyruğunu o yan-bu yana sürüyür (M.İbrahimov); Elə bil *balaca* daxma tamamilə boş idi (A.Məmmədrza).

**ŞƏN – CANSIXICI Şən** və gülər, həmişə şad olsun (C.Məmmədov); Şəhərin *cansıxıcı* həyatı, bekarçılıq Hüseynqulunu təngə gətirmişdi (A.Məmmədrza).

**ŞƏNLƏNMƏK – KƏDƏRLƏNMƏK** Günəşdən *şənlənir*; Geniş çöllər, ulu Tanrım (C.Cabbarlı); Baxıb dörd tərəfə *kədərləndilər* (C.Novruz).

**ŞƏNLİK – QƏMGİNLİK** Küçədə *şənlik* artmışdı (Çəmənzəminli); Evimizdə bir matəm *qəmginliyi* vardı (M.İbrahimov).

**ŞƏR – XEYİR** *Şər xeyirə*, *xeyir şərə* bağlıdır (H.Hüseynzadə).

**ŞƏRƏFLİ – BƏDNAM** Bu gün ən *şərəfli* bir gündür bizə (A.Şaiq); Çaqqal var ki, gödən çıxardar, qurdun adı *bədnamdır* (Ata. sözü).

**ŞƏRƏFLİ – NAMUSSUZ** Döşlərində bu günün *şərəfli* ulduzu var (S.Rüstəm); Qoy o bilməsin ki, dünyada hələ; Vicdansız, *namussuz* atalar da var (C.Novruz).

**ŞƏRƏFLİ – SOLĞUN** Göyərçin üzü bədirlənmiş ay kimi *şəfəqli* idi (Ə.Vəliyev); Varaqlar *solğun*, sarı (R.Rza).

**ŞƏRƏFSİZ – QEYRƏTLİ** Heç vaxt pis əmələ qoşulmamış, *şərəfsiz* iş görməmişdi (S.Vəliyev); *Qeyrətli* cavanlarımızdan biridir (M.S.Ordubadi).

**ŞƏRƏFSİZLİK – QEYRƏTLİLİK** Anlaya bilmir ki, *şərəfsizliyi*; Altun dünyasında şərəf sayırlar (B.Vahabzadə); *Qeyrətliyinə* görə boğulub qalıb ("Ulduz").

**ŞƏRQ – QƏRB** *Şərqin* qızıl qəndili sallanır, onu yandırın (S.Rüstəm); Düşmən çəkilir *qərbə* pərişan; Sən cəbhəni sükunətlə yaranda (S.Rüstəm).

**ŞƏRQLİ – QƏRBLİ** Sizinlə birinci dəfə görüşdükdə orijinal bir *şərqli* görmüş oldum (M.S.Ordubadi); Gənc qadın tam mənası ilə bir *qərbli* qadın qiyafəsini daşıyırdı (M.S.Ordubadi).

**ŞƏVƏ – AĞ** Üzündə *şəvə* saqqalının xətti pozulmuş, çənəsindəki *ağ* tüklər çoxalmışdı (S.Qədirzadə).

**ŞIDIRĞI – ARABİR** Göz dolu nəvaziş daha yaxşıdır; Tərifin *şıdırğı* yağışlarından (S.Tahir); Mən *arabir*: qayğıların qayğısından bişirəm (M.Araz).

**ŞILTAQ – SAKİT** Xəyalat qucaqladı hər *şıltaq* dalğasını (S.Rüstəm); Kislovodskda səhər açılanda hava *sakit* və aydın idi (M.İbrahimov).

**ŞILTAQLIQ – SAKİTLİK** Bu naz, bu *şıltaqlıq*, əbəsdir, əbəs (S.Rüstəm); Dəniz də bu *sakitlik* içində; Nəhəng mavi bir damla (R.Rza).

**ŞİDDƏTLƏNMƏK – ZƏİFLƏMƏK** Külək *şiddətləndi* (İ.Şıxlı); Qan dövranı *zəifləyir* (M.Hüseyn).

**ŞİDDƏTLİ – ZƏİF** *Şiddətli* vuruşma gedirdi (M.Hüseyn); *Zəif* gözlərinə düşdükcə işıq; Qamaşır... Kim bilir qəlbində nə var? (S.Vurğun).

**ŞİMAL – CƏNUB** Eyni gündə, eyni saatda *şimaldan cənuba* gedən qatar Mir Əlini gətirdi (Mir Cəlal).

**ŞİMALİ – CƏNUBİ** Siz də bu barədə *Cənubi* və *Şimali* Azərbaycan xalqını xəbərdar etməli və əlahəzrətə olan itaətlərini təmin etməyə çalışmalısınız (M.S.Ordubadi).

**ŞİMALLI – CƏNUBLU** *Şimallı* qardaşım, dinlə sözümü; Bölündü ikiyə ürəyim mənim (S.Rüstəm); Təbiətdən nə zövq alsın *cənublu* qardaş (S.Rüstəm).

**ŞİRİN – ACI** Qızım, gəl, qəndi doğra, yeməkdən qabaq bizə bir yaxşı *şirin* çay verərsən, gəlinin şirnisini içərik (M.İbrahimov); Qarnını doydurdu, sonra *acı* çay istədi (Mir Cəlal).

**ŞİRİN – ACI** Sinəm qalın bir kitab kimi *acı*, *şirin* xatirələrlə doludur (S.Qədirzadə).

**ŞİRİNLƏŞMƏK – ACILAŞMAQ** Getdikcə söhbət *şirinləşdi* və ortalıqda məktəb qızı unuduldu (Çəmənzəminli); Elə bil ki, sonradan soğan daha da *acılaşdı* ("Ulduz").

**ŞİRİNLİK – ACILIQ** *Acılıqdan* yemək olmur, *şirinlikdən* tullamaq (Ata. sözü).

**ŞİŞ – ALÇAQ** Tək bir göz qırpımında *şiş* dağlar dümdüz olur (S.Rüstəm); *Alçaq* dağa qar yağmaz (Ata. sözü).

**ŞİŞ – YASTI** O *şiş* papaqlarını da qoyub qaçmışlar (S.S.Axundov); Bir-birinə söykənib *yastı*, çılpaq təpələr (B.Vahabzadə).

**ŞİT – CİDDİ** Kələntərin üzündə daha *şit* bir təbəssüm oynadı (M.İbrahimov); Yox. Boş söhbət deyil, çox *ciddi* söhbətdir (M.İbrahimov).

**ŞİTLƏŞMƏK – CİDDİLƏŞMƏK** Üzündəki təbəssüm bir az da *şitləşdi*, iri dodaqları qulağının dibinə qədər açıldı (M.Hüseyn); Sədrin üzü *ciddiləşdi* (İ.Əfəndiyev).

**ŞİTLİK – CİDDİLİK** Qızın birdən *şitliyi* tutdu (M.İbrahimov); *Ciddilik* onun təbiəti ilə bağlıdır ("Azərbaycan").

**ŞOR – ŞİRİN** Bu torpağın altında *şor* sular axır (M.İbrahimov); *Şirin* aşına zəhər qatma (Ata. sözü).

**ŞORAN – ŞİRİN** Axı, sən briqadirsən, bilirsən ki, Muğan torpağı *şoran* torpaqdır (M.İbrahimov); Üç ay qabaq qazılmış quyu bol, *şirin* su verirdi (Ə.Vəliyev).

**ŞORGÖZ – NAMUSLU** Sonra da İdrisə dedim ki, bir də bu *şorgözü* evə buraxma (M.İbrahimov); O vaxt heç kim sənə *namuslu* qardaş deməzdi (M.Hüseyn).

**ŞUX – KƏDƏRLİ** Sən də vaxtilə cavan idin, bizim kimi *şux* idin və şənlik edərdin (M.Talıbov); Dinləyirəm məyus, *kədərli* (R.Rza).

**ŞUXLUQ – QƏMGİNLİK** İki il sonra o da *şuxluqdan* düşmüş və attraksiondan qovulmuşdu (S.Qədirzadə); *Qəmginliyin* şərbətin dadan adamların damağında şəkərin şəhdi belə ilanın zəhərindən də acıdır (M.S.Ordubadi).

**ŞULUQ – DİNC** Nə vaxt dəliləşib *şuluq* salardım; Xəmir yoğurardı qulaqlarımdan... (S.Tahir); Əhməd *dinc* uşaqdır. Heç kəsə korluğu olmaz (S.S.Axundov).

**ŞULUQLUQ – DİNCLİK** Yoxdur daha *şuluqluq* əsla, baxız, İranda… (A.Səhhət); Xalq mənimdir, bilirəm, *dinclik* sevən xalq deyil (S.Vəliyev).

**ŞULUQLUQ – SAKİTLİK** Bir də eşitdim: bir ağsaqqal kişi qışqırır: “Atana lənət, ay imam təziyəsinə şuluqluq salan!” (Ə.Haqverdiyev); Hələ həyətdə *sakitlikdir* (M.İbrahimov).

**ŞUMAL – KƏLƏ-KÖTÜR** Bu *şumal* pöhrəni; bir vurğa qələm elədi; və qürurla dedi (R.Rza); Bu taxta *kələ-kötürdür*.

**ŞÜBHƏ – İNAM** Əlbəttə, *şübhəyə* düşmək olardı (S.S.Axundov); Yaşamaq olarmı *inam* olmasa (R.Rza).

**ŞÜBHƏLƏNMƏK – İNANMAQ** Yəqin uşaqlardan *şübhələnəcək* (İ.Şıxlı); Axı mən ona *inanmıram* (C.Əmirov).

**ŞÜBHƏLİ – İNAMLI** Niyaz doğru deyir, çox *şübhəli* adama oxşayır (S.S.Axundov); Mən də onların içindəyəm; siz də; bu gün *inamlı*, sabah ümidli qəlbimiz (R.Rza).

**ŞÜCAƏT – QORXAQLIQ** Əbədi şöhrətə yetirdi səni; Cəsarət, *şücaət*, kamal, ay Maral! (B.Vahabzadə); Vuruşda ehmallıq yaramaz, balaca *qorxaqlıq* və ya süstlük oldumu, min canın olsun, birini də salamat apara bilməzsən (“Qabusnamə”).

**ŞÜCAƏTLİ – QORXAQ** Fırlanardım daim könlüm sıxılmayan yerlərdə; Adım Almas, qorxu bilməz, *şücaətli* bir övlad (A.İldırım); Üzü uçruma durmuşdum; *Qorxaq*, xəbərin olmadı (M.Araz).

**ŞÜURLU – AXMAQ** Mən uşaqlıqda *şüurlu* idim (M.Talıbov); *Axmaq* kimi sən nə danışırsan (A.Məmmədrza).

**ŞÜURSUZ – AĞILLI** Bunun kimi olmaz *şüursuz* adam (A.Şaiq); Albert *ağıllı*, ürəkli və mətanətli bir çocuq idi (A.Şaiq).

# Tt

**TABE – MÜSTƏQİL** Saysız ulduzlar; nəhayətsiz fəza; insan iradəsinə *tabe* deyil (R.Rza); Uç, Səhər, *müstəqil* həyatın gözəl! Qırılmaq bilməyən qanadın gözəl! (M.Müşfiq).

**TABELİ – MÜSTƏQİL** Tabeli mürəkkəb cümlədə baş cümlə *müstəqil*, budaq cümlə isə *tabelidir*.

**TABELİ – MÜSTƏQİLLİK** Bu sözü müstəsna *tabelik* ifadəsilə deyib, ikiqat oldu (Mir Cəlal); Kəbin zəncirini boynuna salıb, ixtiyarını əbədi olaraq ona vermək həm öz *müstəqilliyini* itirəcəkdi, həm onun məhəbbətini soyudacaqdı... (M.İbrahimov).

**TAXMAQ – ÇIXARMAQ** Geyin xara, geyin ipək; Boynuna *tax* daş-qaşları (S.Vurğun); Cibindəki kağızları *çıxartdı* (H.Nadir).

**TALAQ – NİKAH** Bu saat *talağını* verib səni boşayacağam (S.S.Axundov); Usta Qafar, bu sözdən sonra bu arvadın *nikahı* pozuldu (S.S.Axundov).

**TAM – YARIMÇIQ** Məsələ *tam* həll olundu. Hə, kapitan, sözüm *yarımçıq* qaldı (C.Əmirov).

**TAMAHKAR – GÖZÜTOX** O bilirdi ki, anası *tamahkardır* (İ.Fərzəliyev); *Gözütox* adamın müdrik göz yaşı; Qorxunun tikili binası – insaf (S.Tahir).

**TAMAHKARLIQ – GÖZÜTOXLUQ** Ancaq bir neçə vaxtdan sonra *tamahkarlıq* Baloğlana güc gəldi (C.Əmirov); İnsandakı yaxşı cəhətlər elə *gözütoxluqla* da bağlıdır ("Azərbaycan").

**TANIMAQ – DANMAQ** At minicisini *tanıyar* (Ata. sözü) Ay İnci, guya mən evli olduğumu *danıram*? (S.Rəhman).

**TANIŞ – YAD** Qaçqın köhnə bir *tanış* kimi salam verdi (S.Vəliyev); *Yad* adam gülümsəməyə çalışdı (A.Şaiq).

**TANIŞLIQ – YADLIQ** Hər təzə *tanışlıq* ömrə açılan pəncərədir (S.Sərxanlı); Bilirdilər ki, bu çəpərlər ən dərin ayrılığın, *yadlığın* başlanğıcıymış (M.Süleymanlı).

**TAPINTI – İTKİ** Bu *itki* anayçün ağır olsa da; Bu məğrur ananın əyilməz başı... (S.Rüstəm); Bu mənim üçün təzə *tapıntı* idi (H.Nadir).

**TAPMAQ – İTİRMƏK** Uşaqlıqda məni *itirsəydilər*, dağda *tapardılar* (S.Vəliyev).

**TAVAN – DÖŞƏMƏ** *Döşəmədən tavana* qədər, sükut var otağında (R.Rza).

**TAY – CÜT** Qatırımın axsaq ayağı girsin sənin kor gözünə, hələ o *tay* gözüvü də çıxartsın, töksün ovcuna (C.Cabbarlı); Sənin o *cüt* gözünü bir deşikdən çıxardaram (Ə.Qasımov).

**TEZ – GEC** *Gec* gəldi, *tez* öyrəndi (Ata. sözü).

**TEZDƏN – GEC** Arabaçıların biri ilə danışıb səhər *tezdən* yola çıxdı (Mir Cəlal); *Gec* tərpəndi (A.Şaiq).

**TEZLƏŞMƏK – LƏNGİMƏK** Onun məzuniyyətə çıxması, nədənsə *tezləşdi*. Onun gecikməsi işi də *ləngidirdi* (M.İbrahimov).

**TEZLƏŞMƏK – YAVAŞIMAQ** Bir də ki, bu ancaq faciəni *tezləşdirər*... (M.İbrahimov); O gah *yavaşıyır*, gah bərkiyir, gah da dayanaraq ora-bura boylanırdı (S.Rəhimov).

**TEZLİK – LƏNGLİK** Hərgah üz görsəydin, bu *tezlikdə* getməzdin (Ə.Vəliyev); İşin *ləngliyi* rəhbərliyi narahat edir ("Ulduz").

**TƏBİİ – SÜNİ** Bizim pambıq sifarişi qədərinin azalması da *təbiidir* (Ə.Haqverdiyev); Biz içəri girən kimi Sərdar Rəşid saxta təbəssüm və *süni* bir məhəbbətlə bizi qarşıladı (M.S.Ordubadi).

**TƏBİİLİK – SÜNİLİK** Bu *təbiilik* onlara daha gözəl bir görkəm verirdi (İ.Şıxlı);

Onun bu hərəkətlərindən bir *sünilik*, naşı bir hiyləgərlik duyulurdu (Mir Cəlal).

**TƏCİLİ – YAVAŞ** Bədirzadə ilə Anarbayevi *təcili* qərargaha çağırtdırdı (S.Qədirzadə); Çox *yavaş* yeriyirdi.

**TƏCRÜBƏ – NƏZƏRİYYƏ** Mən bu xüsusiyyəti bircə dəfə sizdə *təcrübədən* keçirtdim (M.S.Ordubadi); *Nəzəriyyə* təcrübəsiz kordur ("Fəlsəfənin əsasları").

**TƏCRÜBİ – NƏZƏRİ** Əziz əsərinin həm *nəzəri* cəhətinə, həm *təcrübi* tərəfinə tamamilə inansa da, yenə də ürəyi sakit deyildi (Ə.Vəliyev).

**TƏDRİCƏN – BİRDƏN** Ürəyinin döyüntüsü *tədricən* artdı ("Ulduz"); *Birdən* həkim başını qaldırdı (C.Məmmədov).

**TƏDRİCƏN – QƏFİLDƏN** Sifətindəki pərtlik *tədricən* yoxaldı (S.Qədirzadə); Nə dağlılar səni, nə kazak məni; *Qəfildən* atəşə, gülləyə tutmaz (M.Rahim).

**TƏHLÜKƏLİ – RAHAT** Məgər mən *təhlükəli* bir iş görürəm? (İ.Şıxlı); *Rahat* işdir, ondan adama zərər gəlməz.

**TƏHLÜKƏSİZ – QORXULU** Hadisə *qorxulu* deyil, *təhlükəsizdir*, ötüb keçər ("Ulduz").

**TƏK – BİRGƏ** Badam xala *tək* qalmışdı (M.Hüseyn); Onlar *birgə* ayağa qalxdılar (C.Əmirov).

**TƏK – CƏM** Xüsusi və mücərrəd mənalı isimlərdən başqa bütün isimlər kəmiyyət etibarilə *tək* və *cəm* olur ("Müasir Azərbaycan dili").

**TƏK – CÜT** Ancaq *tək* yox, *cüt* gələcəyəm, ana! (S.Qədirzadə).

**TƏKBAŞINA – BİRGƏ** Burada *təkbaşına* gəzim, dolanım; Sabahı düşünüm, dünəni anım (H.Hüseynzadə); *Birgə* işin səmərəsi yaxşı olur.

**TƏKBƏTƏK – BİRGƏ** Uşaqlarla *təkbətək*; Salamlaşıb görüşdü (C.Cəmil); Hamısı *birgə* oturub durardı ("Azərbaycan").

**TƏKƏBBÜRLÜ – TƏVAZÖKAR** – Ah, siz yenə də *təkəbbürlü* və məğrursunuz (M.İbrahimov); O, *təvazökar* və mədəni bir şəxs idi (Ə.Əbülhəsən).

**TƏKƏBBÜRLÜK – TƏVAZÖKARLIQ** Bu təğyirdən Nurəddin bir o qədər qəm çəkmirdi. Çünki təbiətində *təkəbbürlük*, təşəxxüslük yox idi (S.S.Axundov); Ay pir olmuş, mən başa düşürəm ki, siz *təvazökarlıq* edirsiniz (İ.Fərzəliyev).

**TƏKLƏMƏK – BİRLƏŞDİRMƏK** Mirzə Məlik elə düşünürdü ki, Yədulla hiylə işlədib onu *təkləmək* istəyir (C.Əmirov); Sonra *birləşdirməyə* can atdılar ("Azərbaycan").

**TƏKLƏMƏK – CÜTLƏMƏK** Son dövrlərdə büro üzvləri səhlənkar kolxoz sədrini *təkləmişdilər* (V.Babanlı); Ayaqlarını *cütləyib* balaca Lidanın önündə dayandı (İ.Şıxlı).

**TƏKLİK – CÜTLÜK** *Təklik* də mənə əl verməz (Ə.Haqverdiyev); Məsələni *cütlükdə* həll etmək olar.

**TƏQSİR – BƏRAƏT** Ancaq inanın ki, mənim heç bir *təqsirim* yoxdur (C.Əmirov); Artıq *bəraət* qazanacağına əmin olan Rantik sevindi (C.Əmirov).

**TƏLAŞ – SEVİNC** Belə bir *təlaş* içərisində sahibimin qızını xatırladım (M.Talıbov); Hər natiqin parlaq sözü bir *sevincin* dəryasıdır (S.Vurğun).

**TƏLAŞLA – SAKİTCƏ** Həlimə *təlaşla* soruşdu (C.Əmirov); *Sakitcə* sualların danışığına qulaq asar (İ.Şıxlı).

**TƏLAŞLI – RAHAT** Aciz, *təlaşlı*; Qızcığaz titrədi, gözləri yaşlı (M.Rahim); Ona görə ki, mən səndən arığam, darısqal keçiddən *rahat* aşaram (S.Qədirzadə).

**TƏLƏB – XAHİŞ** – Şübhəsiz haqlısan *tələbində* sən; Söylə nə etmək ki, dağılır Vətən (S.Vurğun); *Xahiş* edirəm, dərmansəpənlər səhər gəlsinlər, özünlə işləyəcəklər (Ə.Vəliyev).

**TƏLƏBKAR – SƏHLƏNKAR** Professorlar hər bir tələbəyə çox *tələbkar* yanaşırlar (M.Hüseyn); *Səhlənkar* adamdır, onu nəzarətsiz qoymaq olmaz ("Ulduz").

**TƏLƏBKARLIQ – SƏHLƏNKARLIQ** *Tələbkarlığını* ürəkdən sevdim (G.Hüseynoğlu); Elə onun *səhlənkarlığı* nəticəsində işimizi istənilən şəkildə qura bilmirik.

**TƏMİZ – ÇİRKİN** Sərtib *təmiz* adamdır, Sərhəng *çirkin* (M.İbrahimov).

**TƏMİZ – ƏLİƏYRİ** Bu heyvanları Qaraçaya ram edən onun sadə və *təmiz* qəlbidir (A.Şaiq); *Əliəyri* adamı bir gün fermada saxlamayacağam (M.İbrahimov).

**TƏMİZLİK – ÇİRKLİLİK** Ağla gəlməyən bir *təmizlik* gözə çarpırdı (Çəmənzəminli); *Çirkliliyi* üst-başından bəllidir (“Azərbaycan”).

**TƏMKİNLİ – KƏMHÖVSƏLƏ** Vera çox *təmkinli* qadın idi (İ.Şıxlı); Nə *kəmhövsələ* qızsan (C.Əmirov).

**TƏNBƏL – QEYRƏTLİ** Tez gəl, *tənbəl* oğlu *tənbəl* (S.S.Axundov); *Qeyrətli* kişi arvada əl qaldırmaz (İ.Şıxlı).

**TƏNBƏLLƏŞMƏK – İŞLƏMƏK** ...Elə *tənbəlləşib* ki, siçan görəndə də gözünü açmır (M.İbrahimov); *İşləmək* vərdişdən asılıdır (Ə.Vəliyev).

**TƏNBƏLLİK – QOÇAQLIQ** O gülərək: “*Tənbəlliyi* atsan, yaxşı olar, öyrənsən, gələrəm” – dedi (A.Şaiq); Sifətindən baxanda *qoçaqlıq* yağır (Ə.Haqverdiyev).

**TƏNƏZZÜL – TƏRƏQQİ** Hacı Nəsirin ticarət işləri *tənəzzül* etməyə, yavaş-yavaş var-yoxu əlindən çıxmağa başladı (S.S.Axundov); Şəhərdə hər bir şey *tərəqqi* tapmışdı, dəyişmişdi, abad olmuşdu (Çəmənzəminli).

**TƏNHA – QOŞA** Sənsizləyib yamacda *tənha* dayanmış qovaq (R.Rza); Onlar *qoşa* dayanıb kəndə tamaşa edərdilər (“Ulduz”).

**TƏNHALIQ – BİRLİK** *Tənhalıq* və ümidsizlik qorxusundan xilas elədi (İ.İbrahimov); *Birlik* yaxşı şeydir (M.İbrahimov).

**TƏNQİD – TƏRİF** – Dünən oynanılan operettanın *tənqididir* (Ə.Haqverdiyev); *Tərif* həm də içkilərin ən tündüdür (F.Kərimzadə).

**TƏNTİK – SAKİT** Müdirin meşəyə *təntik* gəlməyinin səbəbi Bağıra indi çatdı (İ.Məlikzadə); Yuxarı *sakit* qalxdı (S.Qədirzadə).

**TƏPƏ – DÜZ** *Düzlər* naxırlı, *təpələr*, yamaclar sürülüydü (M.Süleymanlı).

**TƏPƏ – DÜZƏNLİK** Xülasə, səhərin açılması ilə *təpələr* və *düzənliklər*, otlaqlar və çəmənliklər, bir-birindən seçilməyə başladı (M.Talıbov).

**TƏPƏRLİ – TƏNBƏL** Rüstəm kişi *təpərli* adam idi (M.İbrahimov); *Tənbəl* qızdır, işləməklə, oxumaqla arası yoxdur (“Azərbaycan”).

**TƏPİMƏK – YAŞLAMAQ** Onun dodaqları *təpimişdi* (İ.Şıxlı); Dərviş handan-hana özünə gəldi, bir udum çay aldı, boğazını *yaşladı*, yenə danışmağa başladı (A.Divanbəyoğlu).

**TƏR – KÖHNƏ** Üfüqdə qızaran *tər* çiçəklər; Sənəmi çox gördü tale, mənəmi? (H.Hüseynzadə); *Köhnə*, bozarmış şalvar geymişdi (S.Qədirzadə).

**TƏRBİYƏLİ – ƏXLAQSIZ** Bilqeyis olduqca mehriban və *tərbiyəli* bir qız idi (A.Şaiq); Yalan danışma, *əxlaqsız* (S.Qədirzadə).

**TƏRBİYƏLİ – SIRTIQ** Balaları özündən də *tərbiyəlidir* (Ə.İsayev); Əvvəldən də bu *sırtıq* muzdurdan gözüm su içmirdi (M.İbrahimov).

**TƏRBİYƏSİZ – ƏDƏBLİ** Borcumuzdur, Vətən hər sahədə əmr etsə bizə; Qoymayın *tərbiyəsiz* kimsəni, hədyan oxusun! (Ə.Vahid); Qadının qarşısında iyirmi beş yaşlı və kişiliyə məxsus xüsusiyyətlərin hamısını mənimsəmiş gözəl, yaraşıqlı, *ədəbli*, məlumatlı və mədəni bir gənc oturmuşdu (M.S.Ordubadi).

**TƏRBİYƏSİZ – NAMUSLU** Yaxşı, qızım, ancaq bunu bil ki, quldurlar elmsiz, *tərbiyəsiz* tayfadan çıxırlar (S.S.Axundov); *Namuslu* və çalışqanları isə camaat çox sevir (Ə.Vəliyev).

**TƏRBİYƏSİZLİK – MƏDƏNİLİK** Uşaqlarımızın *tərbiyəsizliyinə* ağlamaq

lazımdır (Ə.Haqverdiyev); Həddindən artıq *mədənilik* göstərirdi.

**TƏRƏFDAR – ƏLEYHDAR** Namizədin *tərəfdar* və *əleyhdarını* müəyyən etmək üçün komissiya ayrıldı ("Jurnalist").

**TƏRƏFDARLIQ – ƏLEYHDARLIQ** Dünən xəlifə *tərəfdarlığı* ilə xoşbəxt hesab edilənlər, bu gündən dünyanın ən bədbəxt adamlarıdır (M.S.Ordubadi); Onun *əleyhdarlığı* hər kəsə bəlli idi ("Ulduz").

**TƏRGİTMƏK – ALIŞMAQ** Müxtəlif vasitələrə əl atdım, birtəhər idarənin yolunu ona *tərgitdirdim* (İ.Fərzəliyev); Xeyr, Həlimə xanım, mən həmişə gördüyümü deməyə *alışmışam* (C.Əmirov).

**TƏRİF – SÖYÜŞ** Həmişə də *tərifinizi* eşidib sevinirəm (S.Qədirzadə); *Söyüşdür* hər zaman bizim payımız (S.Rüstəm).

**TƏRİFLƏMƏK – ACIQLANMAQ** Qoçəli bir neçə dəfə də Qulu ilə görüşüb onu *təriflədi* (İ.Fərzəliyev); Sənə kimsə *acıqlanmaz*, Sevil (C.Cabbarlı).

**TƏRİFLİ – DANLAQLI** İndi gördünmü *tərifli* atan nə iş tutub? (İ.Şıxlı); *Danlaqlı* üzünü görmə, ondan hər dəqiqə söyüş eşitmək olar ("Azərbaycan").

**TƏRPƏNİŞ – SÜSTLÜK** Onun üz-gözündən *tərpəniş* yox, *süstlük* görünürdü.

**TƏRPƏŞMƏK – SÜSTLƏŞMƏK** Başı açıq idi, uzun, qara hörükləri ayrıca bir canlı kimi gərdənində yumşaq-yumşaq *tərpəşirdi* (M.Süleymanov); Yaman *süstləşmişdir*, bu, yorğunluğunun əlaməti idi ("Azərbaycan").

**TƏRS – AVAND** Çalış ki, *tərs* yerindən yox, *avand* yerindən tutasan (M.İbrahimov).

**TƏRS – DÜZ** *Tərs* adamdır, amma *düz* adamdır (M.İbrahimov).

**TƏRSİNƏ – DÜZÜNƏ** Ancaq indi işlər *tərsinə* dönmüşdür (İ.Şıxlı); *Düzünə* baxsan, anam toyuq-cücə sevmir (M.İbrahimov).

**TƏRSLİK – DÜZLÜK** İşin *tərsliyindən* yolun yarısında maral büdrəyib qıçını sındırdı (S.Sərxanlı); *Düzlükdə* mahalda ona tay tapılmaz (M.İbrahimov).

**TƏRTƏMİZ – ÇİRKLİ** Həyəti elə süpürərəm ki, ayna kimi *tərtəmiz* (M.Hüseyn); Məktub çox *çirkli* idi (Ə.Vəliyev).

**TƏSADÜF – ZƏRURƏT** Gör nə xoş *təsadüfdür* (S.Vəliyev); *Zərurəti* dərk etməyincə; Gedirik, gedəcəyik; darısqallıqdan keçə-keçə (R.Rza).

**TƏSDİQ – İNKAR** Şəhadət haqdan başqa hər şeyi *inkar* etməyin dəlilidir, namaz bəndəliyi iqrar etmək üçün sidqlə deyilən söz, oruc isə Allah-taalaya verilən vədi *təsdiq* üçündür ("Qabusnamə").

**TƏŞVİŞ – RAHATLIQ** Sifətində dərhal *təşviş* ifadəsi göründü... (S.Vəliyev); Vəziyyət yaxşıdır, *rahatlıqdır* (S.Qədirzadə).

**TƏVAZÖKAR – LOVĞA** O çox az danışan və *təvazökar* adamdı (S.Vəliyev); Elə buna görə də bəzən *lovğa*, özündən razı, qeyri-səmimi şəxslər böyük vəzifə tutur (İ.Fərzəliyev).

**TƏVAZÖKARLIQ – LOVĞALIQ** *Təvazökarlığına* söz ola bilməz (Anar); Bu *lovğalıq* pambıq yığımı və tədarükü vaxtı özünü daha aydın göstərdi (Ə.Vəliyev).

**TƏZADLI – AYDIN** Beləcə *təzadlı* fikirlər və xoş xəyallarla irəlilədikcə üfüqlər qovuşurdu (M.İbrahimov); Hava *aydın*, göyün üzü açıq idi (M.İbrahimov).

**TƏZƏ – NİMDAŞ** *Təzə* paltar bir ay da; Dönməz idi əynində (İ.Tapdıq); Kimi içi yun isti çəkmələrdə, kimi *nimdaş* keçə ayaqqabılarda idi (M.İbrahimov).

**TİKİLİ – SÖKÜK** Köynəyin *tikili* qoluna, *sökük* çiyninə bax, nəticə çıxart ("Ulduz").

**TİKİLMƏK – SÖKÜLMƏK** O hisli daxmacıq *söküldü* bu gün (S.Vurğun); İclas üçün kənddə klub *tikilir* (Ə.Vəliyev).

**TİKİLMƏK – YIXILMAQ** – Kəndə nə üzlə çıxım, ay evin *tikilsin* (Ə.Vəliyev); Ev yıxanın evi *yıxılar* (Ata. sözü).

**TİTRƏK – SAKİT** Qızlarına söyləyirdi, *titrək*, boğuq bir səslə (R.Rüstəm); *Sakit* bir avazla oxumağa başladı.

**TİTRƏMƏ – QIZIŞMA** Həkimin bədəninə *titrəmə* düşdü (Ə.Haqverdiyev); Canına *qızışma* gəldi (M.Hüseyn).

**TİTRƏMƏK – İSİNMƏK** Əziz söhbət zamanı gördü ki, Gülsabah *titrəyir* (Ə.Vəliyev); İçəri keçdi, peçin yanında oturdu, *isindi* (“Ulduz”).

**TOX – AC** Biri *acdır*, biz *toxuq* (M.Talıbov).

**TOXLUQ – ACLIQ** *Aclıq* insanı hər şeyə məcbur edir (Çəmənzəminli); *Toxluq* mənim təxəyyülümü hərəkətə gətirdi (M.Talıbov).

**TOXTAQ – TƏNTİK** Özünü *toxtaq* saxla, budur, camaat qayıdır (Ə.Haqverdiyev); O *təntik* vəziyyətdə içəri keçdi (H.Nadir).

**TOXTAMAQ – KARIXMAQ** Amma ürəyim yenə də *toxtamır* (Ə.Haqverdiyev); Səriyyə əvvəl *karıxdı*, sonra özünü ələ aldı (Ə.Babayev).

**TOPA – DAĞINIQ** O yanda dağlar; bulud *topası* kimi; ağappaq (R.Rza); Yumşaq gecələr, *dağınıq* saçlar; geridə qaldı (R.Rza).

**TOPA – SEYRƏK** Generallar kimi uzun, *topa* bığları... var idi (Mir Cəlal); Oradakı *seyrək* ulduzlar soyuq bir parıltı ilə göz qırpırlar (M.İbrahimov).

**TOPLAMAQ – DAĞITMAQ** Qarışqalar özlərinə yem *toplayırlar*, dəcəl uşaqlar gəlib *dağıtdılar*.

**TOPLAŞMAQ – DAĞILIŞMAQ** Di gəl *toplaşaq* o çəmənzara; Ozanlar səs salsın uzaq dağlara (S.Vurğun); Gecədən bir xeyli keçmiş onlar *dağılışdılar* (“Azərbaycan”).

**TOPLU – DAĞINIQ** Sabirin əsərləri əsrə yaxın bir müddət ərzində *toplu* şəkildə ana dilimizdə dəfələrlə çap olunmuş, rus, fars və digər xalqların dillərinə tərcümə edilmişdir (M.Məmmədov); Qüdrət də, məhəbbət də, mətanət də özünsən; Yığdın *dağınıq* gülləri, bir cəm kimi, gəldin (X.Rza).

**TORAN – DAN** *Toran* qovuşurdu... (M.Süleymanov); Qəlbində hər çinlinin gün doğar, *dan* sökülər (S.Rüstəm).

**TORAN – SÜBH** Bildik, əlimizdədir bizim *sübhün* açarı (S.Rüstəm); *Toran* qarışırdı.

**TOTUŞ – ARIQ** İlanboğan vaxtındır; O *totuş* əllərinlə; Boğ dəmir lülələri; Bu əfi “gülləri”; Ehtiyatlı ol; Qurbanın olum!.. (N.Kəsəmənli); *Arıq* üzünü seyrək tük basmışdı (S.Qədirzadə).

**TOY – XEYRAT** *Toy* mənim, *xeyrat* babamın (Ata. sözü).

**TOY – VAY** *Toy* gününü qoyub, *vay* gününü oynayır (Ata. sözü).

**TOY – YAS** Bilmək olmurdu *toydur*, yoxsa *yas* (M.İbrahimov).

**TOYLUQ – YASLIQ** *Toyluq* qoçlar xınalandı, qulplu qazanlar asıldı (M.Süleymanov); *Yaslı* paltarını artıq atmışdır (“Azərbaycan”).

**TOYSUZ – VAYSIZ** *Toysuz* ev tapılar, *vaysız* ev tapılmaz (Ata. sözü).

**TOZANAQLI – TƏMİZ** Xəzrini xoşlamıram; yaman hay-küylü, *tozanaqlıdır* (R.Rza); Həyət-baca *təmiz* və səliqəli idi.

**TOZLAMAQ – TƏMİZLƏMƏK** *Tozlama* həyəti, su səp, süpür (“Ulduz”); Külək elektrik silgəci kimi, bir anda *təmizlədi* dünyanın tavanını (R.Rza).

**TOZLU – AYDIN** Küləkli və *tozlu* bir payız axşamında Qumru ağlayır (Mir Cəlal); *Aydın* bir yaz səhərində durub yola baxırdı.

**TOZLU – TƏMİZ** Bu gələn kişilərin *tozlu*, çirkli ayaqları çox adamın ürəyindən *təmizdir* (Ə.Haqverdiyev).

**TÖHMƏT – MÜKAFAT** Ulduzun səsində mənə qarşı *töhmət* və şikayət vardı (M.İbrahimov); Sən onların yerini mənə de, çox böyük *mükafat* alarsan (M.İbrahimov).

**TÖKMƏK – DOLDURMAQ** Gəlin, *tökün*, bu daşı ətəyinizdən yerə (S.Rüstəm); Şirəli, mollanın piyaləsini *doldur* (S.S.Axundov).

**TÖKÜLMƏK – DOLMAQ** Sel kimi *töküldü* göydən yağışlar (S.Vurğun); Həmin bu otağımız qonaq ilə *doludu* (S.S.Axundov).

**TÖRƏMƏ – İLKİN** Bağır Dədə palıdı bu meşənin ulu əcdadı hesab eləyirdi, fikirləşirdi ki, bu meşənin bütün ağacları Dədə palıdın *törəmələridi*... (İ.Məlikzadə); Xəcalət! Utanmaq! Namusun, arın; *İlkin* meyvəsidir... Umma sən ondan! (B.Vahabzadə).

**TURŞ – ŞİRİN** Bir az cılxa şor, bir eymə də *turş* qatıq göndərmişdi (Ə.Vəliyev); Bu suyun rənginə, dadına baxın. Nə qədər duru, nə qədər *şirindir* (Ə.Vəliyev).

**TURŞMƏZƏ – ŞİRİN** Maya *turşməzə* və meyxoş almanı dişinə çəkəndə Zeynəb gəlib oturdu (M.İbrahimov); A bala, ye, *şirin* almadır (Ə.İsayev).

**TURŞULU – ŞİRİN** Hələ bunun *turşulu* dolması var (S.S.Axundov); Nə *şirindir* xoş nəfəsin; Pərdə-pərdə axan səsin (R.Rza).

**TURŞULUQ – ŞİRİNLİK** Meyvənin *turşuluğu* və ya *şirinliyi* yeyilən zaman bilinər ("Ulduz").

**TURŞUMAQ – ŞİRİNLƏŞMƏK** Dünənki xörəklər günün qabağında qalıb *turşumuşdu* (M.Süleymanov); Buradan sərin meh gəlir, içəridə yatanların yuxusunu daha da *şirinləşdirirdi* (Ə.Vəliyev).

**TUŞ – YALAN** Falı *tuş* çıxdı (M.Hüseyn); Ölmək *yalan* deməkdən yaxşıdır (M.İbrahimov).

**TUTQUN – GÜNƏŞLİ** Hava bu gün səhərdən *tutqun* idi (S.Vəliyev); Hava o qədər xoş, o qədər mülayim və *günəşli* idi ki, dərhal bir yüngüllük hiss etdi (M.İbrahimov).

**TUTQUNLUQ – AÇIQLIQ** Bir tərəfdən Nazlının *tutqunluğu*, bir tərəfdən də eyvandakı istilik Bağırı təntitmişdi (İ.Məlikzadə); – Dədə, göyün sağ üzü buludlu, sol üzü *açıqlıq* (M.Süleymanlı).

**TUTMAQ – BURAXMAQ** Quzğun cumdu, ovunu elə göydəcə *tutdu* (S.Qədirzadə); Quşu əlindən *buraxdı* (S.S.Axundov).

**TUTULMAQ – AÇILMAQ** Hava gah *açıldı*, gah da *tutuldu*. Lakin bir damcı da göydən düşmədi (H.Hüseynzadə).

**TÜFEYLİ – ZƏHMƏTKEŞ** *Tüfeyli* həyatdan əl çək, adam ol (C.Əmirov); *Zəhmətkeşdir*, işsiz dura bilmir ("Azərbaycan").

**TÜKLÜ – QIRXIQ** Üzü *tüklü* idi (S.Qədirzadə); Yaş əlini *qırxıq* başına çəkdi (İ.Şıxlı).

**TÜND – MÜLAYİM** Xasiyyətim *tünddür* (C.Əmirov); Gözəl xasiyyəti var, *mülayim* arvaddır (S.Qədirzadə).

**TÜNDMƏCAZ – MÜLAYİM** Mənim ərim bir qədər *tündməcazdır* (Ə.Haqverdiyev); Mənim dostum *mülayim* adamdır.

**TÜNLÜK – SEYRƏKLİK** – Evdədirlər, yaman *tünlükdür* (M.İbrahimov); Qatarda *seyrəklikdir*.

**TÜPÜRMƏK – YALAMAQ** Vəkil hirs içində *tüpürdü* (M.Süleymanov); Kişi tüpürdüyünü *yalamaz* (Ata. sözü).

# Uu

**UC – ORTA** Hələ bu nə *ucudur*, nə *ortası*, çox şey görəcəksən (Ə.Haqverdiyev).

**UC – SON** Bağının *ucunu* ağzına alıb çeynəyirdi (İ.Şıxlı); Gözlərimin qanadı; Söndürdün *son* ulduzu... (R.Rza).

**UCA – ALÇAQ** *Alçaq* uçan *ucaya* qonar (Ata. sözü).

**UCA – GÖDƏK** Biri boyda *gödəkdi*, biri xeyli *ucaydı* (M.Rahim).

**UCABOYLU – BALACABOYLU** Anam deyər ki, onların məktəbində *balacaboylu* uşaqları qabaqda, *ucaboyluları* dalda otur-durlar, müəllimin yazdığını gərək hamı görsün (M.İbrahimov).

**UCADAN – ASTADAN** Bu sözlərdən qaşı çatılan zabit öz batıq səsi ilə bir az da *ucadan* xəbər aldı (M.Hüseyn); Məyus halda bir neçə dəfə kirpik çalaraq, ona baxıb susdu, sonra *astadan* soruşdu (S.Qədirzadə).

**UCALIQ – BALACALIQ** Dostunun boyca *ucalığına* həsəd apardı ("Azərbay-can"); Səməd öz boyunun *balacalığından* birinci dəfə heyifsiləndi (M.İbrahimov).

**UCALMAQ – ENMƏK** Arzu göylə-rində qoşa *ucalmaq*; Durubsan ulduzlar sıra-sında sən (S.Tahir); Ağılların uçurumuna ütü çəkməli; Ürəklərin zülmətinə *enmək* istədi (M.Araz).

**UCQAR – YAXIN** Gələrəm dalınca bir *ucqar* bağa; O səkir arxayın yaşıl otlağa (M.Rahim); *Yaxın* bir yerdə görüş təyin etdilər ("Ulduz").

**UCUZ – BAHA** Lap *ucuz* verirəm, al, *baha* qiymətə sat (S.Vəliyev).

**UCUZ – BAHALI** Artezian quyusu həm *ucuz* başa gələr, həm də həmişəlikdir (Ə.Vəliyev); Düzü, ən *bahalı* paltar geyəndə; Mən belə ürəkdən sevinməmiş-dim (C.Novruz).

**UCUZLAŞMAQ – BAHALAŞMAQ** Şirindir sənətin, şerin neməti; Lakin *ucuz-laşmış* onun qiyməti (S.Vurğun); Xarici ölkələrdə qiymətlər günü-gündən *bahalaşır*.

**UCUZLUQ – BAHALIQ** *Ucuzluqda* alıcının, *bahalıqda* satıcının üzünü görmə (Ata. sözü).

**UÇMAQ – ENMƏK** Ona elə gəldi ki, *uçur*; günəşdir, kürəyini yandıran (R.Rza); Qalxdıqca qatar; buludlar *endi* yavaş-yavaş (R.Rza).

**UÇMAQ – QONMAQ** Öyünməyin, sizdən daha uzaqlara *uçuruq*; Sevinclər könlümə *qondu* quş kimi (S.Rüstəm).

**UÇUQ – ABAD** Xülasə hər iki oğru yaxınlıqdakı *uçuq* hasardan aşdılar (M.Talı-bov); Buranı *abad* edə bilməzdilərmi? (S.Qədirzadə).

**UÇUQ – TİKİLİ** İndi mənə qalan ancaq bu *uçuq* daxmadır (S.S.Axundov); Neçə *tikili* evlər yarımçıq qalıb.

**UÇULMAQ – TİKİLMƏK** *Uçulacaq* o bir gün zərbəmizlə kökündən (S.Rüstəm); Birmərtəbəli, dördkünc məktəb binası hər tərəfi açıq bir meydançada *tikilmişdi* (M.İbrahimov).

**UÇUNMA – QIZIŞMA** Nəhayət, *uçunma* tez dəf oldu (Ə.Haqverdiyev); Birdən bədənində *qızışma* hiss etdi, tərlədi ("Ulduz").

**UÇURMAQ – QURMAQ** Belədir insan, bir yandan *uçurur*, bir yandan *qurur* (S.Vurğun).

**UÇURMAQ – TİKMƏK** Özün yaxşı bilirsən ki, mən istədiyimi *tikərəm* və tik-diyimi də bir göz yumub açınca *uçuraram* (Ə.Haqverdiyev).

**UÇURUM – DÜZ** Yolun aşağısı *uçurum* idi, dibindən çay axırdı (Çəmənzəminli); *Düz* yerdə gəzə bilmir, şumda şıllaq atır (Ata. sözü).

**UÇUŞ – ENİŞ** Toyuğun *uçuşu* zibilliyə qədər olar (Ata. sözü); Təyyarənin *eniş* vaxtı yaxınlaşır.

**UĞURLU – AĞIR** – Oğlum, ayağın *uğurludur* (A.Şaiq); Qonşunun ayağı *ağırdır* (M.Hüseyn).

**UĞURLU – MÜVƏFFƏQİYYƏTSİZ** Polkovnik onlara *uğurlu* yol diləyib getdi (S.Qədirzadə); *Müvəffəqiyyətsiz* tamaşa idi.

**UĞURSUZ – MÜVƏFFƏQİYYƏTLİ** Çox *uğursuz* adamdır (M.Hüseyn); Səfəriniz *müvəffəqiyyətli* idi ("Ulduz").

**ULU – MÜASİR** Qəbul et həyatın *ulu* səsini (S.Sərxanlı); *Müasir* Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri S.Vurğundur.

**ULULUQ – MÜASİRLİK** Bu saat əcdadının *ululuğunu* aparıb Nuha çıxaracaqdır (S.S.Axundov); B.Vahabzadənin başqa kamil cəhətlərindən biri də odur ki, şair öz əsərlərində tarixi *müasirlik* qədər yaşada bilir (Ç.Aytmatov).

**UNUTMAQ – XATIRLAMAQ** Yenə hər şeyi *unutdu* (Mir Cəlal); Pəri xala bir az da cəsarətləndi, müəllimlərin xahişini *xatırladı* (M.İbrahimov).

**USTA – ŞAGİRD** Mən iyirmi ilin *ustası*, sən iki ilin *şagirdisən* (Mir Cəlal).

**UŞAQ – BÖYÜK** *Uşaq*, *böyük* hamı bir-birinə qarışmışdı (Mir Cəlal).

**UŞAQLAŞMAQ – QOCALMAQ** Elə qocaldıqca *uşaqlaşır*; Mənim qoca anam *qocalır* hər gün (C.Novruz).

**UŞAQLIQ – BÖYÜKLÜK** Bir dəfə o, *uşaqlıq* xatirələri ilə bağlı olan bir kənddə işləmişdi (S.Vəliyev); Yaşca *böyüklüyü* mənim qarşımı kəsdi ("Ulduz").

**UŞAQLIQDA – QOCALIQDA** *Uşaqlıqda* məni itirsəydilər, dağda tapardılar (S.Vəliyev); Elə indi, *qocalıqda* da şüurun vardır (M.Talıbov).

**UŞAQLIQDAN – QOCALIQDAN** Çimnaz, *uşaqlıqdan* gülmədi baxtım (S.Rüstəm); Lap *qocalıqdan* da uzaqlaşır o (C.Novruz).

**UTANCAQ – SIRTIQ** Adilə bir qədər *utancaqdır* (C.Əmirov); *Sırtıq* uşaqdır, üz vermə ("Ulduz").

**UTANCAQLIQ – SIRTIQLIQ** At bu *utancaqlığı*, qoy gəlsin eşqin dilə (S.Rüstəm); Böyük oğlan olsa da, *sırtıqlığından* əl çəkməyib.

**UTANMAQ – SIRTIQLAŞMAQ** Xan məndən *utanır*, çəkinir bir az; Mən getsəm, qırğının hesabı olmaz (S.Vurğun); *Sırtıqlaşıb*, özünüzü biabır etməyin.

**UYDURMA – DOĞRU** Bunlar hamısı *uydurmadır* (M.İbrahimov); *Doğru* sözün boyu qıldan nazikdir (Ata. sözü).

**UZAQ – GÖDƏK** Qoca dedi: – Vaxt var ikən gedək; Mənzil *uzaq*, ömür *gödək* (R.Rza).

**UZAQ – YAXIN** Bura *yaxın*, *uzaq* ellər axışıb gəlmişdir (S.Qədirzadə).

**UZANMAQ – QALXMAQ** Bir xəstə *uzanmışdı* yerdə üst-başı açıq (S.Rüstəm); Gülşən söz alıb ayağa *qalxdı* (Ə.Vəliyev).

**UZUN – QISA** Gah *uzun* olur bu yol; gah *qısa* (R.Rza).

**UZUNBOYLU – QISABOYLU** *Uzunboylu*, arıq bir adam ona doğru gəlirdi (A.Şaiq); ...Cibgirin *qısaboylu*, arıq bir oğlan olduğunu, bu gəncə qətiyyən oxşamadığını bilirdi (C.Əmirov).

**UZUNDRAZ – GÖDƏRƏK** Yaşıl önlüklü, sarışın gursaçlı, *uzundraz* bir oğlan qapıda göründü ("Azərbaycan"); O boyca *gödərəkdir* ("Azərbaycan").

**UZUNLUQ – QISALIQ** Sanki səngərin *uzunluq* və dərinliyini ölçürdü (M.İbrahimov); Yolun *qısalığı* söhbətimizi yarımçıq qoydu.

**UZUNSOV – GÖDƏRƏK** Yağış mənimlə gedir; yumru, *uzunsov* damcılarla; hopub qatar pəncərəsinə (R.Rza); *Gödərək* oğlan yerindən icazəsiz söz atdı (İ.Əfəndiyev).

# Üü

**ÜFUNƏTLİ – ƏTİRLİ** Bu *üfunətli* mühitdən qurtarmağınız qeyri-mümkündür (M.Talıbov); Məgər insanın yaxşı bir musiqi parçasını dinləmək, *ətirli* bir gülüstan becərmək arzuları dəruni bir ehtiyacdan doğmur? (M.İbrahimov).

**ÜMMAN – DAMLA** O, kiçik *damlada* bir *ümman* görür (B.Vahabzadə).

**ÜMUMİLİK – XÜSUSİLİK** Adın *ümumiliyi* və ya *xüsusiliyi* əşyanın ümumi və ya xüsusi olması ilə bağlıdır.

**ÜRƏFA – AVAM** Şərabın nəyi biz *ürəfa* üçün deyil, *avam* üçündür (S.S.Axundov).

**ÜRƏKLƏNMƏK – QƏHƏRLƏNMƏK** Sərvinazın sözü Poladı həm *ürəkləndirdi*, həm də *qəhərləndirdi* (Ə.Vəliyev).

**ÜRƏYİAÇIQ – QƏLBİQARA** Səriyyə çox *ürəyiaçıq* qız idi (İ.Əfəndiyev); Hər *qəlbiqara* nakəs ilə eyləmə ülfət (S.Ə.Şirvani).

**ÜRKƏK – CƏSARƏTLİ** O, ortaboylu, *ürkək* baxışlı, mütənasib bədənli, yaraşıqlı qadın idi (M.İbrahimov); Bunun üçün adamda ürək lazımdır; *Cəsarətli* və təmiz ürək (M.İbrahimov).

**ÜRKMƏK – CƏSARƏTLƏNMƏK** O elə əvvəldən qadından *ürkərdi*. Mirzə bir az da *cəsarətləndi* (Mir Cəlal).

**ÜST – ALT** *Altın* həsir, *üstün* həsir, yat ki, yetim, tərləyəsən (Ata. sözü).

**ÜSYANKAR – SAKİT** Onların hər ikisi *üsyankardır* (M.Hüseyn); ...Anketovdan başqa beş-altı nəfər üzüyola, *sakit* bağça uşağı var idi (Mir Cəlal).

**ÜZ – ARXA** Sən qaranlığa *arxa* çevirib, işığa *üz* tutursan (S.Qədirzadə).

**ÜZBƏÜZ – DALDALA** Stulu çəkib *üzbəüz* oturdu (M.İbrahimov); Onlar küsülü idi, *daldala* durmuşdular ("Azərbaycan").

**ÜZDƏKİ – DİBDƏKİ** Mən otağın *dibdəki* hər iki küncünü qazdım, heç nə yoxdur (C.Əmirov); *Üzdəki* otları kökündən çıxartmaq lazımdır.

**ÜZDƏN – DƏRİNDƏN** *Üzdən* özünü elə aparırdı ki, guya onları ürəkdən istəyəndir ("Azərbaycan"); Gülsabah Əbilin gözlərinə baxıb *dərindən* köksünü ötürdü (Ə.Vəliyev).

**ÜZDƏN – DİBDƏN** *Üzdən* duru, *dibdən* bulanlıq bir göl (M.İbrahimov).

**ÜZGÜN – SAZ** Gülarə göz yaşından islanmış tülü dərhal buraxdı, *üzgün*, boğuq bir səslə dedi (C.Məmmədov); Canı *sazdır*, hələ xəstəlik bilmir ("Ulduz").

**ÜZGÜNLÜK – SAZLIQ** Bayaqkı *üzgünlük* yox oldu (İ.Şıxlı); Onun *sazlığını* üzündən, hərəkətindən də oxumaq olur.

**ÜZLÜ – ASTARLI** İki gün sonra Səadət xanımdan məktub aldım. Zərif kağız, göy *astarlı* paket, bənövşəyi mürəkkəb (Mir Cəlal); Kərim aynabənddəki taxtın üstündə oturub qırmızı məxmər *üzlü* mütəkkəyə dirsəklənmişdi (M.İbrahimov).

**ÜZLÜ – HƏYALI** Sən bilmirsən bu necə *üzlü* yetimdir (A.Şaiq); *Həyalı* olmağına həyalıdır, mən buna əminəm.

**ÜZÜAŞAĞI – ÜZÜYUXARI** Girdə-girdə yaş damlaları saralmış, solğun yanaqlarından *üzüaşağı* süzüldü (M.İbrahimov); Yuxulu kəndin orta küçəsi ilə *üzüyuxarı* qalxdılar (Ə.Məmmədxanlı).

**ÜZÜGÜLƏR – QARAQABAQ** Hər ikisi qarabuğdayı, *üzügülər* və qəşəngdir (S.Vəliyev); *Qaraqabaq* adamdır (M.Hüseyn).

**ÜZÜQARA – ALNIAÇIQ** Sən məni *üzüqara* edirsən (M.İbrahimov); Min zəfərlə qarşılayır *alnıaçıq* ordumuz (S.Vurğun).

**ÜZÜYOLA – TƏRS** Baxın, göyçəyini alın, *üzüyola*, fəqir və işlək olsun (Çəmənzəminli); Sən bilirsən o necə *tərsdir* (A.Şaiq).

**ÜZÜYOLALIQ – TƏRSLİK** Onun bu *üzüyolalığı* tezliklə qadınlara və yaşlı kişilərə çatdı ("Azərbaycan"); Unut bu *tərsliyi*, gəl Allaha bax (S.Vurğun).

# Vv

**VAHİD – MÜXTƏLİF** Bir *vahid* millətə, iki hakimin; Dili doğmalaşdı… Bu lap ağ oldu; Doğma anamızın şəkərdən şirin; Bizə öyrətdiyi dil yasaq oldu (B.Vahabzadə); Təzadlı dünyanın *müxtəlif* qütblü; Mənfili, müsbətli fəlsəfəsi var (N.Kəsəmənli).

**VAHİMƏ – CƏSARƏT** Tellini yenidən *vahimə* bürüdü. O qorxurdu (S.Hüseyn); Aləm bilir ki, səndə olan *cəsarət*, kişilik bizim heç birimizdə yoxdur (M.İbrahimov).

**VAHİMƏLƏNMƏK – CƏSARƏTLƏNMƏK** Telli yatmaq zamanı çatdıqca *vahimələnməyə* başladı (H.Hüseyn); Mina xanımın ürəyindən olduğunu yəqin etdikdə isə daha da *cəsarətləndi* (M.İbrahimov).

**VAHİMƏLİ – ÜRƏKAÇAN** Birdən qabaqdan *vahiməli* bir səs eşidildi (Mir Cəlal); Bayır yumşaq, *ürəkaçan* bir bəyazlığa bürünmüşdü (B.Bayramov).

**VAXTAŞIRI – HƏRDƏNBİR** Qazılan quyunun əyilə bilməsinin qarşısını almaq üçün əyriliyini *vaxtaşırı* ölçmək lazımdır (Ə.Quliyev); *Hərdənbir* ərinə də yazığı gəlirdi (M.İbrahimov).

**VAR – YOX** *Vardan* xeyir gələr, *yoxdan* ziyan (Ata. sözü).

**VARLI – FƏQİR** İndi məndən nə istəyirsən? Sən bir *varlı*, mən bir *fəqir* (C.Cabbarlı).

**VARLI – LÜT** *Varlıların* çoxu özlərini və mədənlərini qorumaq məqsədi ilə yanlarında qoçu saxlayırdılar (A.Şaiq); Heç nəyini, bəy, *lütün* biridir (C.Məmmədov).

**VARLI – YOXSUL** Yalnız kollektiv təsərrüfat quruluşu bizim kəndimizi indiki mədəni, *varlı* səviyyəyə gətirib çatdırmışdır (İ.Əfəndiyev); Ay nənə, vallah, mənim özüm də sənin kimi *yoxsulam* (Ə.Haqverdiyev).

**VARLI-HALLI – YOXSUL** Bu kişi *varlı-hallı* bir adam idi (Ə.Haqverdiyev); Tutqun işıq bu *yoxsul* daxmanın görkəmini daha da miskinləşdirirdi (A.Məmmədrza).

**VARLI-KARLI – YOXSUL** *Varlı-karlı* kişidir, niyə verməyək? (Mir Cəlal); Sizi bu *yoxsul* otağa gətirən mənəm! (M.S.Ordubadi).

**VARLIQ – YOXLUQ** Ey *varlığı* yox, *yoxluğu* vardan daha dilbər; Ruhim səni izlər (H.Cavid).

**VARLIQ – YOXSULLUQ** *Varlığa* nə darlıq (Ata. sözü); Dünyada heç igid, yoxsul olmasın; *Yoxsulluq* igidə yaman ad olur ("Koroğlu").

**VARLILIQ – KASIBÇILIQ** O hələ *varlılığı* sayəsində başını birtəhər girləyir (T.Hüseynov); *Kasıbçılıq*, arvadının ölümü və uşaqlarının çoxluğu onu əldən salmışdır (A.Məmmədrza).

**VARMAQ – GƏLMƏK** Səba, əhvalımı bir-bir; *Varıb* ol yarə ərz eylə (M.V.Vidadi); Sabahı fasilə zamanı Gülər bizim sinfə *gəldi* (M.İbrahimov).

**VASİTƏSİZ – DOLAYI** *Vasitəsiz* nitq başqasının fikrini eyni ilə verməkdir. Qız həyadanmı, yaxud nədən *dolayı* isə cavab verməz (R.Əfəndiyev).

**VAVEYLA – SEVİNC** Çatmayır göylərə *vaveylam* (S.Rüstəm); *Sevincimin* həddi yox idi (M.İbrahimov).

**VAYLI – SEVİNCLİ** Çoxlu xəbər gətirdi; Şivənli, *vaylı* axşam (Ə.Cavad); *Sevincli* günlərim barmaqla sayılar; Kədər - istədiyin qədər! (N.Kəsəmənli).

**VEYL – İŞLƏK** Sən elə *veylin* üstündə öz əmini niyə belə ağrıdırsan? (S.Rəhimov); Bizim yerimiz Cəfərabadın yerindən yaxşı, torpağımız məhsuldar, camaatımız isə *işləkdir* (Ə.Vəliyev).

**VEYLLƏNMƏK – İŞLƏMƏK** Küçə-bacada *veyllənməkdənsə*, uşaqlar qoy şəhərin tarixi yerlərini gəzsinlər, öyrənsinlər (Ə.Əbülhəsən); İşçilər istiyə baxmadan od kimi *işləyirdilər* (Mir Cəlal).

**VƏCD – QORXU** Sevincimin, *vəcdimin* çoxluğundan durub oynamaq istəyirdim (M.F.Axundzadə); Onların məsum gözlərindən *qorxu* süzülüb tökülürdü (M.S.Ordubadi).

**VƏFALI – ETİBARSIZ** Lalə yalnız *vəfalı* bir arvad deyil, yaxın dost və köməkçi idi (M.Hüseyn); Etibarlı kəsib, *etibarsız* yar; Əl qaldırıb, özgə yara yalvarır ("Lətif şah").

**VƏHDƏT – AYRILIQ** Bilirdi ki, qüvvət *vəhdətdədir* (S.Rəhimov); Mən ki doymamışdım heç vüsalından; Mənə zülm elədi yaman *ayrılıq* (N.Rəfibəyli).

**VƏHŞƏT – SEVİNC** Hamının üzündə *vəhşət*, iztirab və qorxu əlaməti görünür (A.Makulu); Heç olmasa öz atasına bu qoca vaxtında *sevinc* və təsəlli gətirirdi (M.İbrahimov).

**VƏHŞƏTLİ – MƏLAHƏTLİ** Eşitdikcə bu *vəhşətli* sözləri; Əsdi bədəni, qızardı gözləri (A.Səhhət); Qapı tərəfdən *məlahətli* və nazlı bir qadın səsi eşidilir (M.İbrahimov).

**VƏHŞİ – MƏDƏNİ** O nə *vəhşi* adamdır (S.Vəliyev); Qoşatxan *mədəni* və tərbiyəli adam idi, lakin heç kəsə borclu qalmağı sevməzdi (M.İbrahimov).

**VƏHŞİLİK – İNSANLIQ** Belədə o mən burada olduğuma görə, özünü ələ alacaq və məni kədərləndirməmək üçün *vəhşilik* etməyəcəkdir (M.S.Ordubadi); Ağ günlərə səsləyir *insanlığı* yurdumuz (Ə.Cəmil).

**VƏHŞİLİK – MƏDƏNİLİK** Atam məni başa saldı ki, nefti elə beləcə yandırmaq *vəhşilikdir* (M.İbrahimov); Mehriban öz *mədəniliyi* ilə onları susdurmuşdur (Ə.Vəliyev).

**VƏLVƏLƏ – SAKİTLİK** Dəhşət dolu bir *vəlvələ* qopdu (H.Cavid); Get-gedə gecə qaranlıqlaşır, Araz qıraqlarına məxsus qəribə *sakitlik* başlayırdı (Ə.Vəliyev).

**VƏRƏQLƏNMƏK – ÖRTÜLMƏK** Ömrünün keçmiş günləri bir kitab kimi açılaraq gözləri önündə *vərəqlənirdi* (M.İbrahimov); Göylər boz buludlarla *örtülmüşdü* (M.İbrahimov).

**VƏRƏMLİ – SAĞLAM** *Vərəmli* adamlara həkimlər xüsusi qayğı ilə yanaşırlar. İyirmi dörd yaşlı, can-başı *sağlam*, istiqanlı bir oğlan özünü nə qədər saxlayacaqdı (M.İbrahimov).

**VƏTƏN – QÜRBƏT** Əziz isə *qürbətdən vətənə* qayıdardı (C.Əmirov).

**VİCDANLI – İNSAFSIZ** Həyat *vicdanlı* və namuslu adamı mübarizlər cərgəsinə çıxarmışdır (S.Rəhimov); Amma mən onu deyirəm ki, sən sədr ol, mən çoban, bir gün gələr görərsən ki, necə *insafsız* iş tutmusan (M.İbrahimov).

**VİCDANSIZ – İNSAFLI** Əbdül adi bir nökər isə də, sizin kimi *vicdansız* deyil (C.Cabbarlı); Qoy Mehribanın Zeynal ilə Ninaya verdiyi bu sualı hər bir *insaflı* kişi özünə versin (S.Hüseyn).

**VİCDANSIZLIQ – İNSAFLILIQ** Zənnimcə, xilqətdən daha əvvəl ədavətsizlik və *vicdansızlıq* yaranmışdır (C.Cabbarlı); İndi bu məsələ qaldı sənin *insaflılığına*.

**VİCVİCƏ – QIZDIRMA** Heydər içəri girən kimi müsahibinin canına *vicvicə* düşdü (T.Kazımov); *Qızdırma* onu əldən salmışdı ("Ulduz").

**VİRAN – ABAD** Açdı mənə dərdli ağac; *Viran* bağın məlalını (M.Rahim); Dağıldı qüssədən *abad* gördüyün könlüm (Heyran xanım).

**VİRANƏ – ABAD** Mən onda bildim ki, yaranmaq nədir? Bəşərsiz kainat bir *viranədir* (S.Vurğun); Biz bu dünyaya xarabalıqları *abad* etməyə gəlmişik (Ə.Məmmədxanlı).

**VULQAR – ƏDƏBİ** Ədəbi dil normalarına zidd olan qaba sözlər *vulqar* sözlər

adlanır. Yeni yetişən *ədəbi* gənclik həmişə Cabbarlının diqqət mərkəzində idi (M.Arif).

**VURAĞAN – DİNC** *Vurağan* öküzə Allah buynuz verməz (Ata. sözü); Məhəmmədhəsən əmi *dinc* adamdır (C.Məmmədquluzadə).

**VURAN – BÖLƏN** Vurma hasilini almaq üçün ədədin digər ədədə neçə dəfə vurulduğunu göstərən ədəd *vuran*, bölünən kəmiyyətin bölündüyü ədəd *bölən* adlanır ("Riyaziyyat").

**VURĞUN – BİGANƏ** Mən də sənin kimi gülə *vurğunam* (M.Rahim); Nə baxırsan oğrun-oğrun; Mənə *biganələr* kimi (Xəstə Qasım).

**VURHAVUR – SAKİTLİK** Ay Allahqulu, yaxşı ki, yaxamızı bu *vurhavurdan* qurtardıq (Çəmənzəminli); Hər yan *sakitlik* idi (M.İbrahimov).

**VURMA – BÖLMƏ** Hasil almaq üçün bir ədədin başqa bir ədədə, yaxud öz-özünə vurulması *vurma*, bir sayda neçə dəfə başqa say (ədəd) olduğunu bilmə əməli *bölmə* adlanır ("Riyaziyyat").

**VURMAQ – BÖLMƏK** Beşi ikiyə *vurmaq*, alınan hasili beşə *bölmək* lazımdır.

**VURMAQ – DAYANMAQ** Bir soruş gör, heç ürəyim bir gün onsuz *vurdumu*? (Ə.Cəmil); Birdən elə bil ürəyi *dayandı* ("Azərbaycan").

**VURUŞ – BARIŞ** *Vuruşun* kor *vuruşuna* oxşamır (Ata. sözü); *Barış* dəqiqələri yaxınlaşdı.

**VÜQARLI – BAŞIAŞAĞI** Baş-başa çatılmış bu qoca dağlar; *Vüqarlı* qəlbim tək bu uca dağlar (S.Vurğun); ...Yaxşı əxlaqın birinci şərti elə budur ki, *başıaşağı*, üzüyola olasan (M.İbrahimov).

# Yy

**YABANÇI – DOĞMA** Oxuya bilməzsən, çünki bu həriflər artıq sənə *yabançıdır* (C.Cabbarlı); Heç kəs inanmaq istəmirdi ki, Fariz mənim *doğma* qardaşımdır (Y.Əzimzadə).

**YABANI – MƏDƏNİ** Hüseyn Məhbusi kimi xain və alçaqlar *yabanı* bir ot kimi böyüyür... (M.İbrahimov); Mən bədii əsərləri müəyyən dərəcədə sevməyən *mədəni* bir adam təsəvvür edə bilmirəm (M.Hüseyn).

**YABI – KÖHLƏN** *Köhlən* at ilə *yabının* təfavütünü hamı bilir (Ə.Haqverdiyev).

**YAD – YAXIN** Necə söyləyəsən *yaxına*, *yada*; Belə oyunlardan kar aşarmı heç?! (H.Hüseynzadə).

**YAD – YERLİ** *Yad* üzü görməsin sürfəmiz gərək (S.Rüstəm); Onu *yerli* əhalidən seçmək mümkün deyildi (S.Vəliyev).

**YADELLİ – DOĞMA** *Yadelli* bir şah *doğma* yurda çapğına keçdi (İ.Əfəndiyev).

**YADIRĞAMAQ – ALIŞMAQ** [Məcid kişi:] Quyu qazmağı *yadırğamışam*, bala... (İ.Məlikzadə); Əlini alnına dayadı və bir neçə saniyə dayanıb qaranlığa *alışmaq* istədi (M.Hüseyn).

**YAĞI – DOST** Tanısın hər yerdə həm *dost*, həm *yağı*; Zəkalı, sınaqlı qoca Tapdığı (A.Şaiq).

**YAĞINLIQ – QURAQLIQ** Bu il həm *yağınlıq* idi, həm də havalar isti keçirdi (Ə.Vəliyev); Yolun hər iki tərəfi də *quraqlıq* və bomboş idi (Mir Cəlal).

**YAĞIŞ – QURAQLIQ** Əkinçi *yağış* istər, yolçu *quraqlıq* (Ata. sözü).

**YAĞIŞLI – QURU** *Yağışlı* bir bahar axşamı idi (M.Hüseyn); Havalar *quru* idi, yağış yağmırdı.

**YAĞLI – KASIB** Yəqin *yağlıdır* ki, belə dolanır (Ə.Haqverdiyev); – Əmi, *kasıb* arvaddır, nə verəcək (M.Hüseyn).

**YAĞMURLU – QURU** *Yağmurlu* bir gündü... (S.Hüseyn); *Quru* bir yay günü idi.

**YAXIN – UZAQ** *Yaxın* adam, *uzaq* adam nə deməkdi, Sofi? (Elçin).

**YAXINDA – UZAQDA** Bu arada, *yaxında* dörd-beş əl şiddətli tapança atılır (H.Cavid); Harada isə *uzaqda*, lap uzaqda tək-tək işıqlar yanırdı (Y.Əzimzadə).

**YAXINDAKI – UZAQDAKI** Qaçqınlar hamısı *yaxındakı* şah tutluğa tərəf yüyürdülər (Ə.Vəliyev); Hərbi adamın nəzərlərini *uzaqdakı* dağlar cəlb etdi (S.Vurğun).

**YAXINLIQ – UZAQLIQ** Sofi, *yaxınlıq* da, *uzaqlıq* da insanın öz içindədi (Elçin).

**YAXŞI – PİS** Qumru bunları toplayıb gətirər, *pisini* evdə yandırar, *yaxşılarını* qom-qom bağlayıb qonşulara satar, təndir çörəyinə dəyişərdi (Mir Cəlal).

**YAXŞI – YAMAN** *Yaxşı* da, *yaman* da olsa, hökmdar, öz mətbəxinizdir (A.Şaiq).

**YAXŞILAŞMAQ – XARABLAŞMAQ** Tapdıq vücudca *yaxşılaşmışdır* (Ə.Vəliyev); İşlərin qızışan zamanında aramız daha da *xarablaşır* (M.İbrahimov).

**YAXŞILIQ – YAMANLIQ** Dünyada nə *yaxşılıq* itər, nə də *yamanlıq* (M.İbrahimov).

**YAL – DƏRƏ** *Dərəni* keçib düşmənin müdafiədə durduğu *yala* qalxmağa başlarkən birinci güllə atıldı (Ə.Əbülhəsən).

**YALAN – DOĞRU** Mən *yalan* danışmağa adət eləməmişəm (C.Əmirov); Oğlanın dedikləri *doğru* çıxdı (C.Əmirov).

**YALAN – DÜRÜST** *Yalan* cəzanızı artıra bilər (Mir Cəlal); Bizə *dürüst* məlumat lazımdır (C.Əmirov).

**YALAN – DÜZGÜN** Yenə də *yalan* danışırsınız, yoldaş Razumov (C.Əmirov); Bu suala lap *düzgün* cavab verə bilmərəm, qadan alım (C.Əmirov).

**YALAVAC – TOX** Həftələrlə qalıb ac; Dolanırdı *yalavac* (A.Şaiq); Müdam ələ baxır... lakin ac deyil; Onun qarnı *toxdur*, gözləri acdır… (O.Sarıvəlli).

**YALIN – GEYİMLİ** *Yalın* ayaqları dizlərinədək palçığa batmışdı (Çəmənzəminli); Tirmə şal *geyimli*, qara saçlılar; Hər tərəfə zər nişanlar dolanır (Aşıq Ələsgər).

**YALQIZ – CÜT** Bu dünyada şir də *yalqız* qalmasın; Qardaş gərək *cüt* dayana yan-yana (Aşıq Ələsgər).

**YAMAQLI – SÖKÜK** Arvad Cumanın... *yamaqlı* çəkməsini geydi (Ə.Əbülhəsən); *Sökük* köynəyindən qolu görünürdü ("Ulduz").

**YAMAQLI – YIRTIQ** *Yamaqlı* ayaqqabılarda gəzərək pul yığırdı (C.Əmirov); Ayaqqabıları *yırtıq* idi.

**YAMAMAQ – SÖKMƏK** *Yamayardım* babamın çul-çuxasın (M.Ə.Sabir); Təzə köynəyi *sökdü*.

**YAMAN – RƏHMLİ** Kərəm kimi mən oduna yanaram; Dostuna dost, düşməninə *yamanam* (Aşıq Əziz); *Rəhmlidir*, ürəyi yumşaqdır.

**YAMANCA – YAXŞICA** Onlar Səmədin *yamanca* tələsdiyini duymamış deyildilər (M.Hüseyn); Onu *yaxşıca* əzişdirdilər.

**YANAR – SÖNÜK** Bir parça atəşəm, bir parça yanğın; Qəlbim örpəyidir *yanar* bir dağın (M.Müşfiq); *Sönük* vulkana tamaşa edirdilər.

**YANAŞI – AYRI** Çarpayıları *yanaşı* idi (T.Kazımov); Onların yeməkləri bir, yataqları *ayrı* idi.

**YANAŞMAQ – UZAQLAŞMAQ** Fəxrəddin qapıya *yanaşmaq* üçün heç bir bəhanə əldə edə bilmirdi (M.S.Ordubadi); ...Kazım dik atılır və qaçmaq bu qanlı dəstədən birdəfəlik ayrılıb *uzaqlaşmaq*... arzusu ilə çırpınırdı (M.İbrahimov).

**YANIQLI – NƏŞƏLİ** Rəhim bəy *yanıqlı* bir ah çəkdi (M.Hüseyn); O bu gün *nəşəli* idi.

**YANLIŞ – DÜZGÜN** Yanılırsan, o *yanlış* tərbiyədir (A.Şaiq); İndi Məcid müəllimin suallarına cəsarətlə və *düzgün* cavab verirdi (Mir Cəlal).

**YANMAQ – SÖNMƏK** Gülər ulduz kimi tez *yandı*, *söndü* (M.Rahim).

**YAPIXMAQ – QALXMAQ** Qoca dəyirman daşının üzərində yırğalanıb *yapıxdı* (S.Rəhimov); Harın at *qalxdı* dik ayaq üstə; Ox dəyən ahu kimi tullandı (A.Səhhət).

**YARALANMAQ – SAĞALMAQ** Mirsaqulu *yaralanmış* və yerə yıxılmışdı (S.Hüseyn); Qonağım qız, məni *sağalt*, amandır (Mir Cəlal).

**YARALI – SAĞLAM** Maya *yaralı* bir eşqlə Qaraşı müdafiə etdi (M.İbrahimov); Rayon səhiyyə məntəqəsi *sağlam* uşaqların yarışını düzəltmişdi (Mir Cəlal).

**YARAMAZ – XEYİRLİ** Pis və *yaramaz* cəhətlər isə nəzərindən qaçırdı (M.İbrahimov); Çox zaman *xeyirli* məsləhət alırdılar (Mir Cəlal).

**YARAMAZLIQ – YAXŞILIQ** Rəhimlidən hər cür *yaramazlıq*, laqeydlik, arxayınçılıq gözləyirdi (İ.Hüseynov); Biz isə belə şərtləşək; yazının pisliyini də, *yaxşılığını* da hamıdan əvvəl yazanın özünə deyək (Mir Cəlal).

**YARANIŞ – ÖLÜM** Sən ki, *yaranışdan* gözəlsən belə; Bir dastan olmusan ağıza, dilə (S.Vurğun); Nədənsə həyətdə bir *ölüm* sükutu hökm sürürdü (Mir Cəlal).

**YARANMAQ – DAĞILMAQ** Tikintidə kiçik bir özfəaliyyət dərnəyi *yarandı* (İ.Əfəndiyev); Şirinlik içilən axşam qonaqlar mübarəkbadlıq edib *dağıldı* (Mir Cəlal).

**YARANMAQ – ÖLMƏK** Mən əzilən bir sinfin hayqıran; Haqq bağıran sədasından *yarandım* (M.Müşfiq); Özümüzünkünü niyə *öldürürlər*, ay dəli, nə olubdur deyir! (Mir Cəlal).

**YARARLI – XEYİRSİZ** Əsil bəla orasındadır ki, usta zeynallar özlərini dünyada ən ağıllı, işgüzar və *yararlı* adam hesab edirlər (M.İbrahimov); *Xeyirsiz* adamları xeyirli işlərə cəlb etmək lazımdır.

**YARAŞIQLI – KİFİR** Çox arıq olmasına baxmayaraq, *yaraşıqlı* bir oğlan idi (İ.Əfəndiyev); *Kifirdir*, amma nə olsun ki, kişinin bəxti vurub (M.Hüseyn).

**YARAŞIQSIZ – SƏLİQƏLİ** O, nəhayət, balaca, *yaraşıqsız* ev seçib qapını döydü

(S.Vəliyev); *Səliqəli* dirrikçi kimi başının alağını tərtəmiz vurmaq... istəyirdi (Mir Cəlal).

**YARĞAN – DÜZ** *Yarğan* yarar sinəsini dağların; Sular ovur sinəsini dağların (R.Rza); Yaradan insanlar, quran insanlar; Tutmuş başdan-başa geniş *düzləri* (O.Sarıvəlli).

**YARI – BÜTÖV** Bağımızdakı dəfinəni çıxardıq. *Yarısı* sənin, *yarısı* mənim (C.Əmirov); Bunları *bütöv* mənə verin.

**YARIAC – YARITOX** Onun özü də *yarıac*, *yarıtox* dolanır (M.Hüseyn).

**YARIMÇIQ – BÜTÖV** Sadə cümlələr cümlə üzvlərinin iştirakına görə *bütöv* və ya *yarımçıq* olur.

**YARIMÇIQ – DOLU** Koroğlu baxdı ki, arpa çuvalları *yarımçıqdı* ("Koroğlu"); İri ocaqların üstündə *dolu* qazanlar buğlanır (M.Rzaquluzadə).

**YARIMÇIQ – TAM** Söhbət *yarımçıq* qaldı. Hidayət hadisəni *tamam* danışdı (Mir Cəlal).

**YARIZARAFAT – YARICİDDİ** Mustafa bu sözləri *yarızarafat*, *yarıciddi* dedi (G.Hüseynoğlu).

**YASSAR – FƏRLİ** Sonra dedi: – A *yassar*; Səni bir öyrədən var (A.Şaiq); *Fərli* deyil, qoy getsin.

**YASSAR – GÖZƏL** Qorxma *yassar*, mərdana ol, oturaq, Əhməd, gir qoluna, ha... belə (N.Vəzirov); Qivami çox *gözəl* insandır (M.Hüseyn).

**YASTI – DÜZ** Bəziləri özünü suya atıb çimir, bəziləri də *yastı* daşları suyun üzündə sürüşdürürdülər (İ.Şıxlı); Sümük *düzdü*, amma aşağısının əti xoruz pipiyi kimi düşüb sol yana (C.Məmmədquluzadə).

**YAŞ – QUPQURU Yaş** paltarı o əlindən bu əlinə alırdı (M.Eynullayeva); Zənn eyləməsin könlümün eşq atəşi söndü; Yaxud ürəyim *qupquru* bir yarpağa döndü (S.Rüstəm).

**YAŞ – QURU** *Qurunu* yoxlayın, *yaşı* yoxlayın; Gahdan dolu döyür, gahdan qar yağır (H.Hüseynzadə).

**YAŞARMAQ – QURUMAQ** Gözləriniz *yaşardı*, həmcinslərinizi öldürmək üçün barıtınızı qurudursunuz (M.Talıbov); Ağlamaqdan gözünün yaşı *qurudu* ("Ulduz").

**YAŞAYIŞ – ÖLÜM** Ona elə gəlirdi ki, kənddəki qaynar həyat, gümrahlıq, fərəhli *yaşayış* da qonaqların ayağı ilə gəlmişdir (Ə.Vəliyev); Hər ikisinin *ölüm* xəbəri gəlib (Mir Cəlal).

**YAŞLAMAQ – QURULAMAQ** Müdir birdən içəri girdi. Natiq əlini stəkana atdı ki, bir az boğazını *yaşlasın* ("Kirpi"); Çuxasının ətəyi ilə belini *quruladı* (İ.Şıxlı).

**YAŞLAŞMAQ – CAVANLAŞMAQ** Hiss olunurdu ki, Vera *yaşlaşmışdır* (İ.Şıxlı); "Ay ellər!" deyirəm ürəyimdə mən; Ömür *cavanlaşır* ellər deməkdən (S.Vurğun).

**YAŞLI – ÇOCUQ** *Yaşlı* kişilərdən biri yaxın dəyədən çıxıb onlara "xoş gəlmişsiniz" dedi (M.Eynullayeva); Südəmər *çocuqlar* kimi iki sözdən fəzlə bir şey bilməz (H.Cavid).

**YAŞLI – QURU** *Yaşlı* gözlərindən öpdü (S.Vəliyev); Məmmədhüseynin dirsəyinə çırpılan ağac, *quru* oduna vurulmuş balta kimi səsləndi (Mir Cəlal).

**YAŞLI – SÜDƏMƏR** *Yaşlı* kişiyə təşəkkürünü bildirdi (M.Eynullayeva); Ac qalmış *südəmər* balaların mələməsindən yer, göy titrəyirdi (Ə.Haqverdiyev).

**YATMAQ – AYILMAQ** Qədir sanki *yatmışdı*, yuxudan *ayıldı* (Mir Cəlal).

**YATMAQ – DURMAQ** Günəşdən tez *durar*, aydan sonra *yatardı*, gününü tövlədə və samanlıqda keçirərdi (Mir Cəlal).

**YATMAQ – QALXMAQ** Bəli, saatlarla, günlərlə Vəfadarın beynində bu fikirlərin biri *yatır*, o biri *qalxır* (M.İbrahimov).

**YATMAQ – OYANMAQ** Larisa ayla bir *yatar*, günəşlə bir *oyanardı* (M.Hüseyn).

**YAVA – ƏDƏBLİ** Nə *yava* söyləyirsən, ay gədə! (N.Vəzirov); Vaqiən Qasım əmi çox *ədəbli* və söz eşidən idi (C.Məmmədquluzadə).

**YAVA – ƏXLAQLI** Deyirəm, Kamil, bu arvadının ipini çək, səhərdən axşama

kimi bulvarda *yava* qızlar kimi açıq gəzib onunla-bununla mırt vurub gülür (S.S.Axundov); *Əxlaqlı* uşaqdır ("Azərbaycan qadını").

**YAVAN – YAĞLI** Kasıbın dürməyi *yavan* olsa da, dili *yağlı* olar (Ata. sözü).

**YAVAŞ – BƏRK** Əvvəl *yavaş*, sonradan *bərk* öskürdüm (Mir Cəlal).

**YAVAŞ – CƏLD** Qız *yavaş* addımlarla onu izləyir (M.Hüseyn); O *cəld* xəstələrin yanına qaçdı (C.Məmmədov).

**YAVAŞ – SÜRƏTLİ** Bu məktub gecəyarısı Hacı Həsənin içəri otağında *yavaş* səslə oxundu (Mir Cəlal); Şairin iti gözü, həssas ağlı, həm də *sürətli* yerişi var...

**YAVAŞ – TEZ** Stəkanı nəlbəkiyə *yavaş* qoy (Mir Cəlal); *Tez* əncir ağacının altına çəkildim və fikirləşdim (Y.Əzimzadə).

**YAVAŞ – TƏLƏSİK** – Ay lələ, *yavaş* sürün! (Mir Cəlal); Sürmə xala Əzizi hamamxanaya salıb mətbəxə qayıtdı və *tələsik* yemək hazırlamağa başladı (S.Rəhimov).

**YAVAŞCA – BƏRK** Bir dəfə axşam kim isə qapını *yavaşca* döydü (C.Məmmədov); Əkbərin baldırı *bərk* göynədi (Mir Cəlal).

**YAVAŞDAN – BƏRKDƏN** Elə belə çağırıb oyada bilməyəcəyini görəndə cəld onlara yanaşdı, hərəsinə bir dürtmə ilişdirdi, əlbəttə, *bərkdən* yox, *yavaşcadan* (M.Hüseyn).

**YAVAŞIMAQ – GÜCLƏNMƏK** Yağış yağırdı, gah *güclənir*, gah da *yavaşıyırdı* ("Ulduz").

**YAVAŞIMAQ – TƏLƏSMƏK** At səhərə yaxın lap *yavaşıdı* (İ.Şıxlı); Gavur malını yeməyə *tələsmək* gərəkdir, *tələsmək* (Mir Cəlal).

**YAVAŞITMAQ – ARTIRMAQ** Bəbir bəy səsini *yavaşıtdı*, nökərinə xəlvəti danışdı (Mir Cəlal); Xasayın iştahı daha da *artdı* (M.Hüseyn).

**YAVAŞITMAQ – YEYİNLƏTMƏK** ...Zeynal təqib etdiyi düşmənin yuvarlandığını görüncə atını *yavaşıtdı* (Ə.Əbülhəsən); Salatın addımlarını *yeyinlətdi* (İ.Şıxlı).

**YAYĞIN – YIĞCAM** Otağın döşəməsi *yayğın* yox, *yığcam* döşəməlidir.

**YAYILMAQ – YIĞILMAQ** Su kimi ürəyimə *yayılır*, sözün düzü (S.Rüstəm); Şah yedi doydu, süfrə *yığıldı* (M.F.Axundzadə).

**YAYLAQ – ARAN** Köçər *arandan* el, gedər; Yavaş-yavaş *yaylağa* (A.Səhhət).

**YAYMAQ – BÜKMƏK** Qadınlardan birisi yuxa *yayır*, o birisi də çevirirdi (Ə.Vəliyev); Hədiyyə bir parça çörək götürüb qəzetə *bükdü* (Mir Cəlal).

**YAZ – QIŞ** *Yazda* çalan, *qışda* oynar (Ata. sözü).

**YAZ – POZ** Ey, da dığ olduq, gah deyir *yaz*, gah deyir *poz* (Anar).

**YAZI – POZU** *Yazıya pozu* yoxdur (Ata. sözü).

**YAZIQ – DƏLƏDUZ** Bu *yazıq* qız heç də satqın adama oxşamır (C.Əmirov); Yaxşı, ay *dələduz*! Bir danış görək; Neçəyə satmısan yox vicdanını? (S.Vurğun).

**YAZIQLIQ – DƏLƏDUZLUQ** O bütün *yazıqlığı*, kimsəsizliyi ilə göz önündə canlanır (Mir Cəlal); Mən Mirzənin də *dələduzluğunu* görmüşəm (S.Rəhimov).

**YAZILI – ŞİFAHİ** Bu dediklərinizi *yazılı* surətdə təsdiq edirsinizmi? (T.Kazımov); Bu nəticə hələlik həkimin *şifahi* rəyi idi (T.Kazımov).

**YAZILIŞI – POZULUŞU** Məqalənin nə *yazılışı*, nə də *pozuluşu* məni açdı. "Azərbaycan gəncləri"

**YAZLAMAQ – QIŞLAMAQ** Çox tez *yazlamısan* ("İzahlı lüğət"); Bizimlə *qışlayır* fəqət dolaşa, sərçə, sağsağan (A.Səhhət).

**YAZLIQ – QIŞLIQ** Yoxsa biz bostan üçün, *yazlıq* əkin üçün ayırdığımız sahəyə su çatdıra bilməyəcəyik (Ə.Əbülhəsən); Pəri nənə öz *qışlıq* azuqəsini yığmışdı.

**YAZMAQ – POZMAQ** Önümdəki dəftərə bir çox şey *yazdım*, *pozdum* (S.Rüstəm).

**YAZMAQ – SİLMƏK** Qaz lələyi qanun *yazar* (Ata. sözü); Zaman *silər* ürəklərdən naləni (S.Rüstəm).

**YEKDİL – MÜXTƏLİF** Şura hökumətinin təkliflərini ürəkdən, *yekdil*, yekcəhət alqışlamalıyıq (Ə.Haqverdiyev); Bu məsələ barədə fikirlər *müxtəlifdir*.

**YEKƏ – BALACA** Birisinin qulaqları *yekədir* (C.Əmirov); Tayqılça Kazım indi də izdihamı yarır, *balaca* adamların başından axsaq qarğa kimi addayıb oturdu (Mir Cəlal).

**YEKƏBAŞ – MƏRİFƏTLİ** Çoxları üzünə durdular; Könlünü qırdılar; Nə deyim o *yekəbaşlara*?! (M.Müşfiq); Əşrəf hər oğulun tayı deyildi. Hələ bu mahalda onun kimi gözəl-göyçək, qanacaqlı, *mərifətli* bir oğul yox idi (İ.Şıxlı).

**YEKƏXANALIQ – SADƏLİK** Bilmirəm heç sizə bu iddia, bu *yekəxanalıq* haradan belə gəlibdir (S.Rəhimov); Əzizbəyov qapıdan içəri girincə jandarm rəisi özünü *sadəliyə* vurub, ehtiramla ayağa qalxdı... (M.Hüseyn).

**YEKƏLİK – BALACALIQ** Başın *yekəliyi* dövlətdir, ayağın *yekəliyi* neybət (Ata. sözü); Ayağın *balacalığı* da simmetriyanı pozur.

**YEKNƏSƏQ – FƏRQLİ** Qocaman tayqa məndən inciməsin, o bir az *yeknəsəqdir* (S.Sərxanlı); Onların fikirləri *fərqlidir*.

**YEKRƏNG – MÜXTƏLİF** Mən yenə də, həmişə olduğu kimi ona sadə və *yekrəng* cavablar verdim (M.S.Ordubadi); Maarif şöbəsinə *müxtəlif* iş üçün dəstə-dəstə müəllim, tələbə girib, çıxırdı (Mir Cəlal).

**YELBEYİN – AĞILLI** Özü də bunun kimi *yelbeyin* arvad? (M.İbrahimov); Yum, yoldaş Anketov, *ağıllı* söz danışmadın (Mir Cəlal).

**YELLİ – YAVAŞ** Birdən Bağıra elə gəldi ki, Tünzalə başını *yelli* tərpətsə, boğazı meyvə saplağı kimi üzülə bilər (İ.Məlikzadə); Yerindən *yavaş* tərpənib əl-üzünü yumağa başladı ("Azərbaycan").

**YENİ – KÖHNƏ** *Yeni* kənd *köhnə* kəndi kitablardan pozmaqda (S.Rüstəm).

**YENİCƏ – ÇOXDAN** Stansiya *yenicə* yaradılmışdı və rayonda ən cavan MTS hesab olunurdu (M.İbrahimov); Axı, *çoxdan* görüşmürük (T.Kazımov).

**YENİLİK – KÖHNƏLİK** Səni sevindirəcək bir *yenilik* yoxdur (M.S.Ordubadi); Hörməti belə başa düşmək *köhnəlikdir* (M.İbrahimov).

**YENİYETMƏ – YAŞLI** Nə çoxdur kəndimizdə *yeniyetmə* cavanlar (Ə.Haqverdiyev); *Yaşlı* və təcrübəli minicilərlə at qoşaşdırmağı belə bacarırdı (M.Hüseyn).

**YER – GÖY** *Göydən* bir damcı da düşmədi yerə; *Yerdən* sular coşdu, sellər oyandı (H.Hüseynzadə).

**YERİMƏK – DAYANMAQ** Bir qoşa köhnə paltar əynində; *Yeriyir* yolda torba çiynində (A.Səhhət); Külək yatır, qar *dayanır*, açılır səhər (S.Vurğun).

**YERİŞ – DURUŞ** *Yeriş* də, *duruş* da başqalaşıbdır; Yanaşıb əl verir görsə hər kimi (H.Hüseynzadə).

**YERİŞLİ – DURUŞLU** Ceyran *yerişli* yarın; Ağ buxaqda xalı var (Bayatı); Başıaçıq, sakit *duruşlu*, bahar geyimli rus, sanki onun özünə gülürdü (Mir Cəlal).

**YERSİZ – MÜNASİB** Ramizin *yersiz* sözü müəllimi lap haldan çıxardı (M.İbrahimov); Neyləyim, *münasib* bildiyim budur; Yazmasam da özün hiss edəcəksən... (O.Sarıvəlli).

**YETİM – ATA-ANALI** Xeyir, mən bədbəxt təkcə, *yetim* böyümüşəm (C.Əmirov); Uşaq *ata-analı* böyüyür.

**YETKİN – XAM** Çıxma ərik ağacına, bihudə, dilbərim; Yen gəl aşağı, nə *yetkini* var, nə *xamı* var (M.Möcüz).

**YEYİN – YAVAŞ** Durun bir nəfəsimi dərim. *Yeyin* gəlmişəm (C.Cabbarlı); *Yavaş* get, yıxılıb əlindəkini sındırarsan.

**YEYİNLƏMƏK – YAVAŞIMAQ** Səlim gələn tərəfdən dalbadal üç güllə atıldı. Kəşfiyyatçılar *yeyinlədilər* (Mir Cəlal); Budur zurna *yavaşıdı* (Çəmənzəminli).

**YEYİNLİK – YAVAŞLIQ** Təkər yuxarıya ağır-ağır çıxır, enişə fırlananda *yeyinliyində* qabağında durmaq olmur (S.Rəhimov); Belə *yavaşlıq* bizi hər şeydən məhrum edər.

**YEZİD – RƏHMLİ** Bunun yanında *yezid* adam nə qələt eləyir (S.Vəliyev); *Rəhmli* adamsan, yolunda can qurban.

**YƏQİN – ŞÜBHƏ** Bəllidir yerimiz *yəqin* divana (H.K.Sanılı); Sənin davranışın məndə *şübhə* yaradır ("Azərbaycan").

**YƏQİNLİK – ŞÜBHƏLİLİK** Bəs elə isə, bir balaca üzünü göstər ki, *yəqinlik* hasil olsun (Ü.Hacıbəyov); *Şübhəliliyim* daha da artdı.

**YIĞINTI – DAĞINTI** Əjdər bir az da uzaqlaşmalı, kənardan, daş və qum *yığıntıla-rının* arası ilə getməli oldu (S.Rəhman); Tağın o tərəfindəki *dağıntını* görmürsən?

**YIĞMAQ – BİÇMƏK** *Biçin* də, *yığın* da əldən çıxdı (Mir Cəlal).

**YIĞMAQ – DAĞITMAQ** Allah onu *yığmağa* yox, *dağıtmağa* yaratmışdı (M.İbra-himov).

**YIĞMAQ – SÖKMƏK** Tüfəngin hissə-lərini yağlayıb, bir-bir yerini *yığdı* ("Azər-baycan"); Tüfəngi *söküb* çula bürüdülər, qatırların qarnı altında gizlətdilər (Mir Cəlal).

**YIĞMAQ – TÖKMƏK** Böyük nə *töksə*, uşaq onu *yığar* (Ata. sözü).

**YIĞNAQ – DAĞINIQ** Gündə bir qapıya salırlar *yığnaq* (Q.Zakir); Qədir atın üstündə *dağınıq* saçlı Qumrunu qucaqladı (Mir Cəlal).

**YIXMAQ – QALDIRMAQ** Uşağı vurub yerə *yıxdılar* ("Ulduz"); Gərək siz qolundan tutub *qaldırasınız* (Mir Cəlal).

**YIXMAQ – QURMAQ** Böyük bir dün-yanı *yıxmaq*, uçurmaq; Yerində başqa bir dünya da *qurmaq*? (S.Vurğun).

**YIXMAQ – TİKMƏK** Arvad var, ev *tikər*, arvad var, ev *yıxar* (Ata. sözü).

**YIRTICI – MƏDƏNİ** Rəzil düşmən yaralanmış; *Yırtıcı* bir canavardır (S.Vurğun); Onlar istəyir ki, biz də qabağa gedək, *mədəni* xalqlar cərgəsinə çıxaq (M.İbrahimov).

**YIRTIQ – TƏZƏ** Aslanın köhnə, *yırtıq* çəkməsi təzə paltarına yaraşmırdı (S.Vəliyev); *Təzə* ayaqqabısını geyinib getdi ("Ulduz").

**YOĞUN – ARIQ** Arabaçı *yoğun* bir kişi idi (Ə.Əbülhəsən); Onun o mehriban kənd qızının *arıq*, düz, millər kimi cəlb edən bar-maqlarını aşkar görürdü (Mir Cəlal).

**YOĞUN – NAZİK** Baldır, deyərmiş, nə çox *yoğun*, nə də *nazik* ola, ayaqları elə tən gərək ki, sağ ilə sol seçilməsin (Mir Cəlal).

**YOĞUNLAŞMAQ – NAZİKLƏŞMƏK** Səsi bir az *yoğunlaşmışdı* (S.Vəliyev); Səsi nəsə *nazikləşib*.

**YOX – BƏLİ** Almaz mənim deyilsə, səninmi olmalıdır? *Yox* (C.Cabbarlı); Qüd-rət İsmayılzadəni tanıyırsanmı? – *Bəli* (M.Hüseyn).

**YOXSUL – KALAN** Çox *yoxsulu* qoparmış; Zalımın pəncəsindən (A.Şaiq); – Həri, özü də *kalandır* (C.Əmirov).

**YOXSULLAŞMAQ – VARLANMAQ** Şamaxı bazarı zəngin bazardır; Əfsus, *yox-sullaşır* get-gedə bir az (M.Rahim); Baloğlan müvəqqəti olaraq *varlanmaq* fikrindən əl çəkdi (C.Əmirov).

**YOXSULLUQ – VARLILIQ** *Varlılığa* tələsən, *yoxsulluğa* tez düşər (Ata. sözü).

**YOXUŞ – ENİŞ** *Enişi*, *yoxuşu*, düzü bir olub; Məramı, məqsədi, üzü bir olub (H.Hüseynzadə).

**YOXUŞLU – ENİŞLİ** *Enişli*, *yoxuşlu* bu yollarda bax! Varmı topuq salıb büdrə-məyən kəs (H.Hüseynzadə).

**YOXUŞLUQ – ENİŞLİK** Yolun *enişliyi* və ya *yoxuşluğu* yox, sənin hərəkətin məni cana gətirdi ("Ulduz").

**YOXUŞSUZ – ENİŞSİZ** Yeri uşaqlarla gəz, dolan bir az; Bu dünya *enişsiz*, *yoxuş-suz* olmaz (Z.Xəlil).

**YORULMAQ – DİNCƏLMƏK** Zəhmət çəkibsən, *yorulubsan*, get rahat ol (Ə.Haq-verdiyev); Bir az yatıb *dincəlmək* istəyirəm (C.Əmirov).

**YÖN – ARXA** Gah *yönümü* çevirirəm Şirvana; Gah üz tutub Gürcüstana ağlaram (Molla Cümə); *Arxa* cərgədən başıaçıq bir adam qışqırırdı (Mir Cəlal).

**YÖNDƏMSİZ – BİÇİMLİ** Kobud sifəti, *yöndəmsiz* bədəni vardı (S.Rəhman); Gözəl *biçimli* paltarlar vardı.

**YÖNDƏMSİZ – MÜTƏNASİB** Nə *yöndəmsiz* adamdır (A.Şaiq); Dəyirmi, *mütənasib* üzü vardı... (Mir Cəlal).

**YÖNDƏMSİZ – YARAŞIQLI** "Sil" dedi əndamından; *Yöndəmsiz* ləkələri! (Ə.Cavad); Həbibə qara, dolu, mütənasib boylu, *yaraşıqlı* bir qızdır (Mir Cəlal).

**YUBANMAQ – TƏLƏSMƏK** – Oğlum niyə belə *yubanmısan*? (S.Vəliyev); ...Məclisimizin bitməsinə *tələsirdim* (Mir Cəlal).

**YUXA – QALIN** Hava da bərk dolub, yağacaq. Əynin də *yuxadır* (S.Rəhimov); Əynim *qalındır*, üşümürəm ("Ulduz").

**YUXULAMAQ – AYILMAQ** Uşaqları araba beşik kimi silkələyib yorduğundan tez *yuxuladılar* (İ.Şıxlı); *Ayılın*, dostunuzu, düşməninizi tanıyın! (M.Hüseyn).

**YUXULU – AÇIQ** Bir gün hər ikisi *yuxulu* gözlərini açdı (A.Şaiq); O, saçı-başı *açıq*, enlisifət bir qadın idi (Mir Cəlal).

**YUXULULUQ – AYIQLIQ** Axırda özünü *yuxuluğa* vurdu (T.Kazımov); Yarı huş və yarı *ayıqlıq* aləmində ona [Azadiyə] elə gəlirdi ki, qurtarmaq bilməyən bir çaydan keçməkdədir (M.İbrahimov).

**YUMRU – YASTI** Balaca, *yumru* və sürüşkən daşlar ayağı qıdıqlayırdı (İ.Şıxlı); Çayın *yastı* daşlarını seçib bir tərəfə yığdı ("Ulduz").

**YUMŞAQ – BƏRK** Arabanın içi geniş və *yumşaq* idi (İ.Şıxlı); İnsan daşdan *bərk*, güldən nazikdir (Ata. sözü).

**YUMŞAQ – COD** *Yumşaq* dağotu; Gör nə rahatdır (İ.Tapdıq); Başının tükü *coddur*, zil qaradır, arxaya darayır (G.Hüseynoğlu).

**YUMŞAQ – SƏRT** Piri kişi yetmiş yaşında *yumşaq*təbiətli bir qoca idi (S.S.Axundov); Dadaş çox *sərt* adamdır (İ.Məlikzadə).

**YUMŞAQLIQ – BƏRKLİK** Mən Toğanbəyin bu kişiliyindən və qəlbi *yumşaqlığından* nəhayət dərəcədə şadlandım (M.Talıbov); Mənim barmaqlarım kobudluqda, *bərklikdə* oymaqdan qalmaz (Ə.Əbülhəsən).

**YUMŞAQLIQ – CODLUQ** İndiyə qədər etdiyi kimi *yumşaqlıq* və itaət göstərsə, qol-qanadı qırılacaqdır (Mir Cəlal); Hələ əlinin *codluğu* getməmişdir ("Ulduz").

**YUMUQ – AÇIQ** *Yumuq* gözlərini aç da, bir oyan; İndi zaman başqa zamandır, ana! (S.Vurğun); Yoxsa üzü *açıq* görmüsən? (Mir Cəlal).

**YÜKLÜ – BOŞ** Kişi əlində çomaq; Sürür *yüklü* öküzü (A.Səhhət); Starşina *boş* patron yeşiyinin üstündə oturub (Y.Əzimzadə).

**YÜKSƏK – ALÇAQ** Yolun üst tərəfində, *yüksək* qayaların döşündə... şam ağacları görünürdü (S.Şamilov); Qədirin vay xəbəri çoxdan *alçaq* daxmanı titrətmişdi (Mir Cəlal).

**YÜKSƏK – AŞAĞI** Yalnız bir nöqsanı vardır ki, səviyyəcə *yüksək* deyil (M.Hüseyn); Onun səviyyəsi çox *aşağıdır* ("Ulduz").

**YÜKSƏK – AZ** Müəllim intiqam hissinin *yüksək* və müqəddəsliyindən hərarətlə bəhs edirdi (Ə.Sadıq); Bu il bizim bağımız *az* məhsul verəcək.

**YÜKSƏLİŞ – ENİŞ** İndi bizimlə söhbət zamanı o, *yüksəlişlər* və gözlənilməz *enişlərdən* ibarət olan az qala bir əsrlik həyat tarixçəsinin bu səhifəsinə də ötəri şəkildə toxundu ("Azərbaycan").

**YÜKSƏLMƏK – ENMƏK** Günəş bu yerlərdə qalxıb atına; *Yüksəlir* göylərin yeddi qatına (S.Vurğun); Təpənin dibindən bulağın üstünə *endim*, əl və üzümü yuyub qaynağın qırağında oturdum (A.Divanbəyoğlu).

**YÜNGÜL – AĞIR** Yükün *yüngülü* mənzilə tez yetişər (Ata. sözü); Yük *ağır* – qüvvət az (Ata. sözü).

**YÜNGÜL – CİDDİ** Onu söyləməyə gəlmişəm sizə; *Yüngül* görünməyim gözlərinizə (S.Vurğun); Qədir bəy bu *ciddi*, rəsmi müqəddimədən sonra qıçını qaldırıb dizinin üstünə qoydu (Mir Cəlal).

**YÜYÜRMƏK – DAYANMAQ** Küçədən bir çocuq *yüyürdü* evə (M.Ə.Sabir); Qapının ağzında *dayandı*, marş verib yerlərinə qayıtdı (Mir Cəlal).

# Zz

**ZABİTƏLİ – YUMŞAQ** Qız da nə isə başqa milis işçilərindən bir az seçilən bu *zabitəli* oğlana baxıb gülümsündü (H.Seyidbəyli); Bəndalı necə dili *yumşaq*, sözünü bilən qanacaqlı olmuşdu (Mir Cəlal).

**ZAHİD – RİND** İstəyir cənnəti *zahid* bu qədər hiylə ilə; Əbləhin fikrini gör, dildə təmənnasına bax (S.Ə.Şirvani); *Rind* hər şeyi danan, qeydsiz və laübalı adamdır.

**ZAHİDLİK – RİNDLİK** Heç birimiz müqəddəslik və *zahidlik* iddiası etmirik (M.F.Axundzadə); Gəl sən *rindlikdən* əl çək.

**ZALIM – ADİL** Bu, Cahan xanım kimi *zalım* və qorxulu deyildi (M.İbrahimov); Mötəbər hədisə görə, üç nəfər *adil* şahid şəhadət versə, ...övrətin nikahı fəsx hesab olunur (Mir Cəlal).

**ZARAFATCIL – QARADİNMƏZ** Biz onları kəndimizin Şahmar kimi *zarafatcıl* gəncləri ilə qarşılayaq (İ.Əfəndiyev); Xəlil əslində *qaradinməz* adam idi... (Mir Cəlal).

**ZAVAL – SEVİNC** Hünərdir keçirən bizi hər oddan; Olarmı hünərə *zaval*, ay Maral (B.Vahabzadə); Yollarda yubanmış əsgər məktubları yenidən evimizə ümid, *sevinc* və inam gətirdi (Y.Əzimzadə).

**ZAVALLI – XOŞBƏXT** Mən səndən nə istəyə bilərəm *zavallı* qadın (C.Məmmədov); Sən nə qədər *xoşbəxtsən*, Reyhan... (M.Hüseyn).

**ZAY – YAXŞI** Öküzün taydı, işin *zaydı* (Ata. sözü); Şəhərin ən *yaxşı* saraylarını o yaratmışdı (M.Hüseyn).

**ZEHİNLİ – KÜT** Səlim çox *zehinli* uşaqdır (İ.Şıxlı); – Ay *küt*, niyə başa düşmürsən, "liçni delası" odur ey, göz qabağında (Mir Cəlal).

**ZƏDƏLİ – SAĞLAM** Qayçılayanlar isə şüşə kimi ağ, qara salxımları *zədəli* gilədən təmizləyirdilər (Mir Cəlal); Gənc *sağlam* salxımları bir tərəfə qoydu ("Jurnalist").

**ZƏFƏR – MƏĞLUBİYYƏT** Yazır tarixlərə uğurlu *zəfər*; Bizim qəhrəmanlar, bizim igidlər (S.Rüstəm); Bütün başqa yollar *məğlubiyyətə*, ölümə aparır (M.Hüseyn).

**ZƏHƏR – ŞİRİN** Daima *zəhərlər şirinlərin* dalında gizlənir (M.S.Ordubadi).

**ZƏHƏRLƏNMƏK – SAĞALMAQ** Havada mığmığa sancır insanı; Dönüb *zəhərlənir* insanın qanı (S.Vurğun); – Çarpayı... Ana, ay ana mən *sağalacağam*, elə deyilmi? (M.Hüseyn).

**ZƏHƏRLİ – ŞİRİN** Həftələr, aylar keçir axşamlı-səhərli; Bəzən *şirin*, bəzən *zəhərli* (R.Rza).

**ZƏHMƏTKEŞ – TƏNBƏL** Ancaq indi ona aydın oldu ki, buradakı *zəhmətkeş* adamlar çox sadədirlər (S.Vəliyev); Yoxsa, bu *tənbəldən* sənə nə arvad olacaqdır (S.S.Axundov).

**ZƏHMƏTSEVƏR – MÜFTƏXOR** Ata-anası kimi *zəhmətsevərdi* (M.İbrahimov); Özgənin zəhməti ilə çörək yeyənlərə *müftəxor* deyərlər (Ə.Haqverdiyev).

**ZƏHMLİ – MÜLAYİM** Aslan müəllim *zəhmli* bir adam idi (İ.Əfəndiyev); Sizi inandırıram ki, bütün Bakıda mənim kimi *mülayim* xasiyyətli, dostluqda sədaqətli kişi tək-tək tapılar (C.Əmirov).

**ZƏİF – GUR** Qızcığazın *zəif* səsini eşitdim (M.Talıbov); Xeyli keçdikdən sonra içəridən bir qadının *gur* səsi eşidildi (C.Əmirov).

**ZƏİF – TUTARLI** Yetər məni eylədin təbliğ və sandın *zəif* (S.Rüstəm); Ancaq buna dair əlində hələ *tutarlı* sübut yox idi (C.Əmirov).

**ZƏİFLƏMƏK – GÜCLƏNMƏK** Mal azalmış, alver *zəifləmişdi* (Ə.Vəliyev); Sonanın hıçqırığı *gücləndi* (Ə.Cəfərzadə).

**ZƏİFLƏR – GÜCLÜLƏR** Axırda *zəiflər* yavaşca başlayırlar əkilməyə və *güclülər*, yəni dəstə sahibləri qalırlar məclisdə (C.Məmmədquluzadə).

**ZƏKALI – FƏRASƏTSİZ** *Zəkalı* adamdı. Bir dəfə eşitdiyi söz həmişəlik hafi-

zəsində qalırdı (S.Rəhman); [Kamran:] Xudayar xan həmişə tək gəlib-gedər. Bu dəfə o, *fərasətsiz* oğlu Firidun xanı da özü ilə gətirir (Ə.Haqverdiyev).

**ZƏQQUM – ŞİRİN** Heyif oldu yarın *şirin* söhbəti; Zəhərə, *zəqquma*, ağıya döndü (Molla Cümə).

**ZƏLİL – XOŞBƏXT** Bəs nə üçün başı salamat və varlı sahibkarlar yoxsul və *zəlil* adamlara rəhm edirlər? (M.Talıbov); Sən *xoşbəxtsən*, mən də üstəlik (Mir Cəlal).

**ZƏLİLLİK – XOŞBƏXTLİK** Şadlıq ilə saxladığın aşığı; *Zəlilliklə* imtahana çəkirsən (Aşıq Ələsgər); Mən əslən kəndimizin, bütün xalqımızın *xoşbəxtliyi* ilə fəxr edirəm (Mir Cəlal).

**ZƏNGİN – KASIB** Mən Girdmanın *zəngin* adamlarını köməyə çağırmışam (M.Hüseyn); Aləmə dediklərindən mənə də, bu *kasıb* toxucuya da danış (Mir Cəlal).

**ZƏNGİN – KÖLƏ** Neçin o *zəngindir*, mən bir *köləyəm*? (C.Cabbarlı).

**ZƏNGİN – SADƏ** Onun *sadə* evindəki ən *zəngin* sərvət, böyük bir otağı doldurmuş kitablardır (M.Hüseyn).

**ZƏNGİNLƏŞMƏK – YOXSULLAŞMAQ** – Bəli, insan təbiəti dərk etməklə, onu dəyişdirməklə özü də *zənginləşir* (S.Rəhimov); Qəlbimiz cırlaşır, *yoxsullaşırsa*; O qəlbi boğmağı bacarmağımız (X.Rza).

**ZƏNGİNLİK – YOXSULLUQ** Onda böyük *zənginlik* arzusu var idi (Çəmənzəminli); Mən onun üçün ağlayıram ki, sənə korluq, *yoxsulluq* peşəsi öyrətdim (Mir Cəlal).

**ZƏRƏR – XEYİR** Bunun *xeyri* var ki, *zərəri* yoxdur; Gülməli insanlar həyatda çoxdur (S.Vurğun).

**ZƏRƏRLİ – XEYİRLİ** *Zərərli* həşəratın məhv olması üçün şərait hazırlanır (Ə.Vəliyev); Lakin bunun başqa *xeyirli* bir cəhətini də görürdük (Mir Cəlal).

**ZƏRƏRSİZ – XEYİRSİZ** Şeyx, o bir möhtərəm, *zərərsiz* adam; hər müsafir, qəribü aciz adam (H.Cavid); Cəmiyyətdən uzaq, həyatdan uzaq; Uydurma fəlsəfə *xeyirsiz* olur (O.Sarıvəlli).

**ZƏRİF – KOBUD** Ağca xanım *zərif* əlini Qaraca qıza uzatdı, o da *kobud* barmaqları ilə onun əlini sıxdı (S.S.Axundov).

**ZƏRİFLƏŞMƏK – KOBUDLAŞMAQ** Ancaq, deyəsən, Əşrəf qız kimi *zərifləşmişdi* (İ.Şıxlı); Günün istisində qarsıyıb bürünc rənginə düşmüş sifəti qartımış və *kobudlaşmışdı* (S.Qədirzadə).

**ZƏRİFLİK – SƏRTLİK** *Zəriflikdə* güləm, *sərtlikdə* qaya; Yoluna qar düşüb, şəfəq çilənib (H.Hüseynzadə).

**ZİBİLLƏMƏK – TƏMİZLƏMƏK** Nə üçün tum çırtlayıb bazarı *zibilləyirsən*? (C.Əmirov); Bir əliylə maşının qapısını açdı, o biri əliylə oturacağı silib, *təmizlədi* (M.İbrahimov).

**ZİBİLLİ – TƏMİZ** İki arvadlının evi *zibilli* olar (Ata. sözü); Yazın *təmiz* havasından nəfəs almaq üçün əlləşirdilər (M.Hüseyn).

**ZİBİLLİK – TƏMİZLİK** Vəziri qarğa olanın ağzı *zibillikdə* gərək (Ata. sözü); Gələn dəfə küçədən keçəndə *təmizliyə* fikir verərsən (C.Əmirov).

**ZIQQI – ƏLİAÇIQ** Xalıqverdiyevə görə Mirzə Cəmil çox xəsis, göy, *zıqqı* adamdır (Ə.Vəliyev); Ürəyi təmiz, *əliaçıq* qadındır (“Azərbaycan”).

**ZİL – BƏM** Başdan kövrək olan kəsi; *Zil* yandırar, *bəm* ağladar (H.Hüseynzadə).

**ZİLLƏT – XOŞBƏXTLİK** Nə *zillətdir*, nə möhnətdir; Buna bais, bəli, sənsən (Ü.Hacıbəyov); Təbiət qoysa yaşarsan, görərsən ki, *xoşbəxtlik* nə imiş (Mir Cəlal).

**ZİLLƏT – SƏADƏT** Bu *səadət* deyil də, *zillətdir* (H.Cavid).

**ZİRƏK – MAYMAQ** Bir qədər diribaş və *zirək* uşaqlar mollanın xəlfəsi olardılar (H.Sarabski); Görmürsən, *maymağın* biridir (M.İbrahimov).

**ZİRƏKLİK – MAYMAQLIQ** Öz *zirəkliyi* və qoçaqlığı ilə Şuşa qalasında məşhurlaşır (“Qaçaq Nəbi”); Sənin *maymaqlığın* ucundan biz ələ keçdik (“Ulduz”).

**ZIRPI – BALACA** Lakin bədlikdən iki *zırpı* it də onlarla gəlirdi (M.Talıbov); Evin *balaca*, kirli qapısı böyük alma, armud bağına baxır (Mir Cəlal).

**ZIRPILIQ – BALACALIQ** – Əfəndim, yapdığın qəbahətin *zırpılığını* qanırsanmı? (Mir Cəlal); Onu boyunun *balacalığı* narahat edirdi ("Ulduz").

**ZIRRAMA – AĞILLI** O dəli *zırramaya* bu büsat nə gərək idi? (M.İbrahimov); *Ağıllı* adam buna dözməzdi (Mir Cəlal).

**ZİYA – QARANLIQ** Dağların, bağların libası sarı; Günəşin də sönük *ziyası* sarı (A.Səhhət); Yalnız indi-indi *qaranlıq* evə alışan doktor qəmgin-qəmgin Badam xalaya baxdı (M.Hüseyn).

**ZİYAN – XEYİR** *Ziyana* tələsdim, *xeyrə* gecikdim; Bir də bu dünyaya gələcəyəmmi? (H.Hüseynzadə).

**ZİYANÇILIQ – XEYİRXAHLIQ** Bu, *ziyançılıqdan* başqa bir şey deyildir (S.Rəhimov); Onun *xeyirxahlığı*, dünəndən bəri ürəklərində düyün bağlamış qəmi, kədəri büsbütün unutdurmuşdu (M.Hüseyn).

**ZİYANKAR – XEYİRXAH** Rəzil və *ziyankar* o adamdır ki, öz bəxtinə qürrələnir (M.Talıbov); Müəllimin *xeyirxah* adam olduğunu çoxdan bilirdi (M.Hüseyn).

**ZİYANKARLIQ – XEYİRXAHLIQ** Vəhşilik başqa şeydir, *ziyankarlıq* başqa (M.Talıbov); Belə *xeyirxahlıq* mərhəmət deyildir (M.Talıbov).

**ZİYANLI – XEYİRLİ** Onlar *ziyanlı* qurdları və kəpənəkləri tutub yeyirlər (A.Şaiq); Onun hər bir doğru, *xeyirli* sözü və işi həmişə alqışla qarşılanacaqdır (Mir Cəlal).

**ZİYANLIQ – XEYİRLİLİK** Zəf eylədi aciz məni, qaldım əməlindən; Çəkdim nə *ziyanlıq* (M.Ə.Sabir); *Xeyirliliyin* yolunu göstərdim.

**ZİYANSIZ – XEYİRSİZ** Əcəb xoşxasiyyət, *ziyansız* heyvandır (M.Talıbov); O həmişə *xeyirsiz* işdən yapışır ("Azərbaycan").

**ZOR – ASAN** Müqim bəy sabahkı işin çox *zor* iş olduğunu kəsdirdi (S.Rəhimov); Silvionun dueli indiki vuruşmadan çox *asandır* (M.Hüseyn).

**ZORAKI – KÖNÜLLÜ** İstəyən *könüllü*, istəməyən *zorakı* – deyib muzdur Vəli düz Hacı Qulunun gözünün içinə baxdı (M.İbrahimov).

**ZORAKILIQ – KÖNÜLLÜLÜK** İş *zorakılıq* məsələsinə gəlirsə, bizimkilər oradadırlar, qorxmayın (M.S.Ordubadi); Vəzifəni *könüllülük* prinsipi əsasında bölüşdürmək lazımdır ("Azərbaycan").

**ZORBA – BALACA** Xeyli axtarışdan sonra qarşılarına *zorba* bir dovşan çıxdı (A.Şaiq); *Balaca*, isti və səliqəli bir mənzil idi (Mir Cəlal).

**ZORBALAŞMAQ – BALACALAŞMAQ** Günlər keçdi, aylar keçdi, balaca Cəbi yavaş-yavaş boy atırdı, fəqət həmişə zəif, üzü kiçik, başı isə *zorbalaşırdı* (N.Nərimanov); Mənim gözümdə qonşum *balacalaşırdı*.

**ZORBALIQ – BALACALIQ** Bu *zorbalıqda* ayı mənim qamçımın qorxusundan hər cür oyun çıxarır, amma bu *balacalıqda* qızın əlində aciz qalmışam (S.S.Axundov).

**ZORLA – XOŞLA** Sizin onu *zorla* pozdurmağa haqqınız yoxdur (C.Cabbarlı); Bu gün *xoşla* qoymasan, sabah qaçar gələr (C.Cabbarlı).

**ZORLU – ZƏİF** Qüvvətli olsan da, yoxsulu döymə; Demə ki, *zorluyam*, qolum yaxşıdır (Xəstə Qasım); – Bəzi kəndlərdə yoxsullar qrupu *zəif* idi (Mir Cəlal).

**ZORLUQ – ZƏİFLİK** Hacı Vəlinin müəyyən prinsipləri var idi, şeyləri *zorluqla* qəbul edirdi (Çəmənzəminli); O öz *zəifliyini* bilirdi (M.Hüseyn).

**ZÖVQ – CÖVR** Həm *zövqüdür*, həm *cövrüdür* ömrün o, həyatın; İnsanı ucaldan da, qocaldan da məhəbbət (B.Vahabzadə).

**ZÜLMƏT – İŞIQLIQ** *Zülmət* çökdü, gecə gəldi; Zalım gecə necə gəldi (M.Dilbazi); Aşağıda Cəbir ağzında başlanan açıqlıq, *işıqlıq*, düzlükdə isə azad təbiət dincəlirdi (Mir Cəlal).

**ZÜLMƏT – NURLU** Yüz *zülmət* gecənin fırtınasından; Bir *nurlu* səhərin yeli gözəldir (H.Hüseynzadə).

**ZÜLMƏTLİ – İŞIQLI** *Zülmətli* və sakit bir gecə idi (C.Məmmədov); Xəstənin *işıqlı*, havalı, təmiz bir otaqda saxlanmasını məsləhət gördüm... (Mir Cəlal).

**ZÜLMKAR – ƏDALƏTLİ** Bəy çox xəsis və *zülmkar* idi (Ə.Sadıq); *Ədalətli* hökmdar ol! (A.Şaiq).

# MÜNDƏRİCAT

*Antonim sözlər* . . . . . . . . . . 5
*Lüğətin və lüğət məqalələrinin quruluşu* . . . . . . . . . . 5

Aa . . . . . . . . . . 7
Bb . . . . . . . . . . 18
Cc . . . . . . . . . . 27
Çç . . . . . . . . . . 30
Dd . . . . . . . . . . 33
Ee . . . . . . . . . . 47
Əə . . . . . . . . . . 49
Ff . . . . . . . . . . 54
Gg . . . . . . . . . . 56
Hh . . . . . . . . . . 60
Xx . . . . . . . . . . 64
İi . . . . . . . . . . 67
Kk . . . . . . . . . . 72
Qq . . . . . . . . . . 77
Ll . . . . . . . . . . 94
Mm . . . . . . . . . . 95
Nn . . . . . . . . . . 103
Oo . . . . . . . . . . 106
Öö . . . . . . . . . . 107
Pp . . . . . . . . . . 108
Rr . . . . . . . . . . 109
Ss . . . . . . . . . . 110
Şş . . . . . . . . . . 118
Tt . . . . . . . . . . 121
Uu . . . . . . . . . . 127
Üü . . . . . . . . . . 129
Vv . . . . . . . . . . 130
Yy . . . . . . . . . . 133
Zz . . . . . . . . . . 140

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Aslan Almasov*

Korrektorlar: *Fərida Səmədova*
*Pərinaz Musaqızı*

Yığılmağa verilmişdir 13.03.2007. Çapa imzalanmışdır 15.05.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 9. Ofset çap üsulu.
Tirajı 10000. Sifariş 61.

DÜST 5773-90, DÜST 4.482-87

Kitab “CBS-PP” MMC mətbəəsində çap olunmuşdur.
Bakı, Şərifzadə küçəsi, 3.